**ELŞAD ABDULLAYEV**
*hüquq elmləri doktoru, professor*

# DAĞLIQ QARABAĞ PROBLEMİ BEYNƏLXALQ HÜQUQ MÜSTƏVİSİNDƏ

**"TƏHSİL" NƏŞRİYYATI**
**BAKI – 2004**

**84.2 Az A14**

Redaktorlar: **Lətif HÜSEYNOV,**
*hüquq elmləri doktoru, professor*

**Alış QASIMOV,**
*hüquq elmləri doktoru*

**Abdullayev Elşad**
**A 14** Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı, "Təhsil", 2004, 216 səh.

Bu kitab xalqımızın ümummilli probleminə çevrilmiş Ennənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixini, məsələnin həlli ilə bağlı danışıqlar prosesinin gedişini, beynəlxalq birliyin bu məsələdə tutduğu mövqeyin nə dərəcədə ədalətli olduğunu araşdırır. Müəllifin əsas məqsədi bu gün bütün Cənubi Qafqazda təhlükəsizliyə və sabitliyə mane olan çox mürəkkəb bir məsələnin həqiqi mahiyyətini oxuculara çatdırmaq və dünya birliyinin problemə münasibətdə ədalət meyarlarına əsaslanmasının zəruriliyini sübut etməkdən ibarətdir. Kitab nəinki Azərbaycan, eləcə də bütün region xalqlarının həyatına mənfı təsir göstərən Dağlıq Qarabağ münaqişəsinin səbəblərini öyrənmək istəyənlər üçün qiymətli vəsaitdir.

**84.2 Az**
**© "Təhsil", 2004**

# MÜNDƏRİCAT

**Müəllifdən** ........ **4**
**Ön söz** ........ **5**

## I BÖLMƏ
## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi

l.Tarix faktların izi ilə ........ **9**
2.Dağlıq Qarabağ probleminə dair 23 fevral 2001-ci ildə Milli Məclisdə keçirilən müzakirələrdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi ........ **19**
Milli Məclisin 24 fevral tarixli iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yekun nitqi ........ **28**

## II BÖLMƏ
## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilatlarda

1. Qarabağ problemi beynəlxalq təşkilatların diqqət mərkəzində ........ **32**
BMT ........ **32**
ATƏT ........ **36**
İslam Konfransı Təşkilatı ........ **39**
Avropa Birliyi ........ **41**
2. Münaqişənin həllinə dair danışıqlar prosesi və ATƏT-in vasitəçilik missiyası ........ **43**
3. Avropa Şurası Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktını tanıyır ........ **51**

## III BÖLMƏ
## Beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər

Birləşmiş Millətlər Təşkilatı ........ **58**
Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ........ **70**
Avropa Birliyi ........ **72**
Avropa Şurası ........ **74**
İslam Konfransı Təşkilatı ........ **83**

## IV BÖLMƏ
## ATƏT-in təklifləri

Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş ........ **87**
Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş ........ **91**
Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında ........ **94**

İstifadə olunmuş ədəbiyyat və mənbələr ........ **98**

## MÜƏLLİFDƏN

Hörmətli oxucu!

Diqqətinizə təqdim olunan bu kitab Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixini, problemin mahiyyətini və indiyə qədər həll edilməməsinin səbəblərini araşdırır. Kitabın əsas məqsədi münaqişə ilə bağlı beynəlxalq səviyyədə aparılan müzakirələr və ümumiyyətlə, dünya ictimaiyyətinin problemə münasibəti barədə real təsəvvür yaratmaqdan ibarətdir.

Hamımıza məlumdur ki, Dağlıq Qarabağ məsələsi Azərbaycan üçün həyati əhəmiyyət kəsb edir və bu gün onun həlli bütün regionun ictimai-siyasi inkişafında yeni mərhələnin əsasını qoya bilər. Amma bunlara baxmayaraq, münaqişənin mövcud olduğu 16 il ərzində hələ də beynəlxalq birlik bu məsələyə lazımi diqqət yetirməmişdir. İndiyədək danışıqlar prosesi heç bir nəticə verməmiş, bu isə cəmiyyətdə, xüsusilə də Azərbaycanda böyük narahatlıq doğurmuşdur.

Ötən dövrdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında münaqişə ilə bağlı dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması üçün çox iş görülmüşdür və bu yönümdə kifayət qədər ciddi nailiyyətlər də var. Eyni zamanda Azərbaycan üçün münaqişənin ədalətli həllinin vacib şərtlərindən biri – güclü dövlət quruculuğu həyata keçirilmişdir. İndi həm iqtisadi, həm də siyasi sahədə Azərbaycan Ermənistanı nəzərəçarpacaq dərəcədə qabaqlamışdır. Bu, problemin beynəlxalq hüquq normaları çərçivəsində, ərazi bütövlüyümüzün təmin olunması şərtilə həll ediləcəyinə böyük inam yaratmışdır. Təqdirəlayiq haldır ki, prezident İlham Əliyev də ümummilli liderimiz tərəfindən əsası qoyulmuş siyasəti müvəffəqiyyətlə davam etdirməkdədir.

Hamımız gözəl bilirik ki, Dağhq Qarabağ problemi Azərbaycan xalqı üçün ümummilli məsələyə çevrilmişdir. Torpaqlanmızın işğaldan azad olunması üçün hər bir azərbaycanlının üzərinə böyük məsuliyyət diişür. Buna görə də münaqişənin mahiyyətini, onun ağır və faciəli nəticələrini [5-6] bilmək hər bir Azərbaycan vətəndaşı üçün mühüm əhəmiyyət kəsb edir. İnanıram ki, "Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində" kitabı sizə bu sahədə əsl yardımçı olacaqdır. Hörmətli oxucu!

Kitabda əksini tapmış faktlar real tarixi həqiqətləri özündə əks etdirir. Gələcəyi görmək üçün isə tarixi keçmişi öyrənmək çox vacibdir.

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istənilən halda və istənilən variantda Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir, buna heç kim şübhə etmir. Sizə təqdim olunan kitabda göstərilən faktlar və məlumatlar gələcək haqqında nikbin düşünmək üçün ciddi əsaslar olduğunu sübuta yetirir. Amma bu, hələ arxayınlaşmağa əsas vermir. Mübarizə davam edir və burada hamı – ictimai statusundan, vəzifəsindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı öndə olmalıdır. Bu kitab məhz belə insanlar üçündür! [6]

# ÖN SOZ

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizin dünyaya inteqrasiyasının və ümumi inkişafının şərtlərini müəyyənləşdirəcək əsas faktor kimi çıxış edir. Respublikada həyata keçirilmiş islahatların uğurlu nəticələri dövlətçiliyin möhkəmləndirilməsinə, sabitliyin davamlı xarakter almasma, iqtisadi sahədə ciddi nailiyyətlərə gətirib çıxarmışdır. İndi Azərbaycanm beynəlxalq aləmdə böyük nüfuzu var, o, Cənubi Qafqazın ən mühüm ölkəsi kimi tanınmaqdadır.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ictimai həyatın bütün sferalarında tərəqqiyə stimul yaradan dəyişikliklərin baş verməsi Azərbaycanın beynəlxalq nüfuzuna da əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bununla belə, əldə olunmuş uğurlarla yanaşı, hələ həllini gözləyən problemlər də mövcuddur. İctimai rəydə belə qənaət formalaşmışdır ki, bu problemlərin həllinə imkan yaradan iqtisadi və intellektual potensial var və Heydər Əliycv siyasi kursunun davam etməsi ölkənin gələcək rifahının ən etibarlı təminatçısıdır. Bu qənaət yalnız sosial-iqtisadi problemlərə münasibətdə özünü göstərmir, həm də Azərbaycanın hər bir vətəndaşını eyni dərəcədə narahat edən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair cəmiyyətin ümumi gözləntilərində də açıq-aydın nəzərə çarpır.

Bu münaqişənin tarixi, müxtəlif inkişaf mərhələləri və həlli prosesində ortaya çıxan çətinliklər onun nə qədər mürəkkəb və ziddiyyətli bir xarakter daşıdığmı açıq-aydın nümayiş etdirir. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli indi regionun ən mühüm və prioritet məsələlərindən birinə çevrilib. Azərbaycan düz 16 ildir ki, bu problemin psixoloji və siyasi təsiri altmda yaşayır. Bir milyondan çox insan qaçqın düşüb, məcburi köçkünə çevrilib. Amma Qarabağ məsələsinin ağrılı nəticələri təkcə statistikada öz əksini tapmır. Bu, yalnız prosesin ümumi və görünən tərəfləridir.

Məsələnin bir qədər dərinliyinə vardıqda, əslində, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gerçək nəticələri daha ağır və [7-8] faciəlidir. Bu münaqişə Azərbaycan xalqı üçün Xocalı faciəsi deməkdir. Bu münaqişə hamının yaddaşında Şuşanın işğalı kimi ağrılı bir məğlubiyyətin acınacaqlı simptomlarını daşıyır. Bu münaqişənin mahiyyəti torpaqların itirilməsi faktından daha böyük bir anlayışı özündə ehtiva edir. Azərbaycan xalqının tarixin sınaqlarından çıxmış sarsılmaz iradəsi və əzmkarlığı, müvəqqəti də olsa, məhz bu münaqişə zamanı sındırıldı və onu bərpa etmək üçün çox böyük əzab və əziyyətlər çəkildi.

Problemin ziddiyyətli və mürəkkəb xarakteri həm də ondan irəli gəlir ki, zaman keçdikcə onun aradan qaldırılmasını müəyyənləşdirən şərtlərin də mahiyyəti dəyişir. Yeni dövrün ədalət anlayışma heç bir dəxli olmayan reallıqları bizi daha çətin və çıxılmaz vəziyyətlərə sürükləyir. Bütün bunlara baxmayaraq, Azərbaycanda Dağlıq Qarabağın hökmən azad olunacağına inananlar əksəriyyət təşkil edir.

İndi münaqişənin həllı elə bir mərhələyə gəlib çatıb ki, burada beynəlxalq ictimaiyyətin mövqeyi kifayət qədər mühüm rol oynamaq imkanındadır. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildən sonra bu istiqamətdə apardığı siyasət məhz dünya ictimaiyyətini beynəlxalq hüquq normalarının tələb etdiyi ədalət müstəvisində birləşdirməyə yönəlmişdir. Ötən dövrdə sozügedən istiqamətdə bir çox mühüm addımlar atılıb – həm iqtisadi, həm də siyasi mənada. Azərbaycanın iqtisadi cəhətdən möhkəmlənməsi, dünyanın qüdrətli dövlətləri ilə etibarlı tərəfdaşlıq münasibətlərinin qurulması, ayrı-ayrı beynəlxalq təşkilatlarla aparılan uğurlu diplomatik iş nəticəsində bu gün Ermənistanın təcavüzkar olması faktı rəsmi və ya qeyri-rəsmi şəkildə etiraf edilməkdədir.

Amma bütün bu nailiyyətlər "ikili standartlar" amilinin aradan qaldırılmasına, hələ ki, gətirib çıxara bilməyib. Azərbaycan sülhsevər siyasəti ilə Ermənistanın konstruktiv mövqe nümayiş etdirməyə heç vəchlə hazır olmadığını dəfələrlə sübuta yetirib. Bu siyasət davam edir və davam edəcəkdir. Çünki Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin şərtlərindən biri də məhz beynəlxalq ictimaiyyəti münaqişənin mahiyyəti ilə bağlı obyektiv şəkildə məlumatlandırmaqdan ibarətdir. Hətta bu gün çox aktual olan müharibə variantının reallaşacağı təqdirdə belə bu, Azərbaycana lazımdır. Çünki hərbi əməliyyatlara başlamazdan əvvəl [8-9] atılacaq istənilən addımın ədalətli olduğuna dünyanı inandırmaq vacibdir. Planetimizin real güc mərkəzlərinin mövqeyini nəzərə almadan heç bir qəti tədbirə əl atmaq mümkün deyildir. Nə qədər ağrılı olsa da, bu, tarixi reallıqdır və onun diktə etdiyi şərtlərdən kənara çıxmaq olmaz.

Hüquq elmləri doktoru, professor Elşad Abdullayevin "Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində" kitabı bu baxımdan münaqişənin mahiyyətini öyrənmək istəyənlər üçün çox qiymətli vəsait olacaqdır. Kitab ilk növbədə problemin tarixi barədə obyektiv məlumat və faktlarla zənginləşdirilmişdir. Burada ermənilərin Azərbaycan ərazilərinə köçürülməsindən tutmuş torpaqlarımızın müxtəlif dövrlərdə Ermənistana birləşdirilməsinə qədər bütün faktlar öz əksini tapmışdır. Müəllif münaqişənin sadəcə ərazi iddiasına əsaslanan regional mübahisələrə deyil, bütöv bir xalqa – Azərbaycan xalqına qarşı aparılan çoxəsrlik soyqırımı və deportasiya siyasətinin məntiqi nəticəsi olduğunu tarixi materiallarla göstərmişdir.

Ayrı-ayrı dövrlərdə ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinə dair tarixi faktlara toxunan E.Abdullayev bunun ölkəmizi parçalamaq üçün hazırlanmış mənfur bir planın tərkib hissəsi olduğunu təkzibolunmaz dəlillər vasitəsilə sübuta yetirir. Kitabın birinci bölməsinin münaqişənin tarixi barədə materiallarla zənginliyi problemin həqiqi mahiyyəti barədə dolğun təsəvvür yaradır. Bu ona görə vacibdir ki,

son iki yüz il ərzində ermənilər ən müxtəlif səviyyələrdə Dağlıq Qarabağ və ümumiyyətlə, Azərbaycan haqqında beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür formalaşdırmağa çalışıblar və etiraf etmək lazımdır ki, buna müəyyən qədər nail də olublar.

"Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində" kitabının "Tarix faktların izi ilə" bölməsində XIX əsrin əvvəllərindən tutmuş XX əsrin sonlarına qədər olan dövrdə ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklər, kütləvi soyqırımı aktları barədə məlumatlar əksini tapmışdır. Müəllif ermənilərin bu mənfur siyasətini müxtəlif mərhələlərə bölərək təhlil edir və belə qənaətə gəlir ki, bu, bir xalqın digər xalqa qarşı sonsuz nifrət hissinin təzahürü deyil, bəzi qüvvələrin ortaya atdığı çirkin bir oyunun ssenarisidir. Burada azərbaycanlılara qarşı [9-10] törədilmiş soyqırımı aktları, onların nəticələri barədə də ətraflı məlumat verilmişdir.

E.Abdullayev hələ Sovet İttifaqının mövcud olduğu dönəmlərdə də "böyük Ermənistan" illüziyasının həyata keçirilməsi istiqamətində müxtəlif cəhdlər edildiyini, Azərbaycan torpaqlarının hissə-hissə Ermənistana birləşdirildiyini ürək ağrısı ilə qeyd edərək yazır: "Göründüyü kimi, hətta Sovet İttifaqının tərkibində yaşadıqları dövrdə belə Azərbaycan və Ermənistana münasibətdə ayrıseçkilik açıq şəkildə müşahidə olunurdu. Sovet imperiyasının rəhbərliyi sələflərinin vəsiyyətinə sadiq qalaraq erməniləri məzlum və fağır bir xalq kimi təqdim edir, onların dirçəlməsinə, Ermənistanın iqtisadi və siyasi inkişafına ciddi dəstək verir, Azərbaycan ərazilərinin bu respublikaya birləşdirilməsi istiqamətində səy göstərirdi. Bu, həm Leninin, həm də Stalinin hakimiyyəti illərində sovetlərin Cənubi Qafqaz siyasətində əsas yerlərdən birini tutmuşdur. Təsadüfı deyil ki, o dövrdə Azərbaycandan olan kadrların yüksək vəzifələrə təyin olunması çox az hallarda baş verir və xalqımızın görkəmli ziyalılarına qarşı terror aktları, repressiyalar həyata keçirilirdi".

Ötən əsrin 70-ci illərində ermənilərin Dağlıq Qarabağa dair iddialarını həyata keçirmək üçün müxtəlif hiyləgərliklərə əl atdıqlarma diqqəti çəkən müəllif həmin dövrdə Azərbaycan rəhbərliyinin qətiyyətli, ardıcıl və ağıllı siyasətinin buna ciddi şəkildə mane olduğunu sübut edən xeyli fakt göstərir. Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra Dağlıq Qarabağ məsələsinin ermənilərin xeyrinə həllinin qarşısının alındığını vurğulayan müəllif qeyd edir ki, "1977-ci ildə Sovetlər İttifaqının yeni Konstitusiyasını işləyib hazırlayan komissiya Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ennənistan SSR-ə birləşdirilməsini təklif etdi. Respublikanı komissiyada təmsil edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin sərt reaksiyası və bu təklifı qəti şəkildə rədd etməsi onun həyata keçirilməsinin qarşısını aldı".

Şübhəsiz ki, sovetlər birliyinin mövcud olduğu bir dönəmdə erməniləri açıq şəkildə ifşa etmək mümkün deyildi. Belə bir cəhd "sovet xalqlarının birliyinə" qarşı təxribat kimi qiymətləndirilə bilərdi. Ona görə də [10-11] ümummilli lider Heydər Əliyev haqlı olaraq praqmatik siyasət yürütməyə və ortaya çıxan problemlərin həllində emosionallığa deyil, məhz reallığa əsaslanmağa üstünlük verdi. "Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində" kitabının birinci bölməsində bu məsələlər də öz əksini tapmışdır. Müəllif yazır: "Heydər Əliyev heç nədən, heç kimdən çəkinmədən ən riskli qərarlara belə imza atmaqda tərəddüd etmirdi. Bakıdan Xankəndinə dəmir yolu xəttinin çəkilməsi məhz onun rəhbərliyi dövründə həyata keçirilmişdi və burada əsas məqsəd Qarabağı Azərbaycana bağlayan strateji kommunikasiyaların sayının artırılmasından ibarət idi. Bununla da Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi kimi mərkəzlə daha yaxşı əlaqələrə malik olması, vilayətin iqtisadi baxımdan Ermənistana deyil, məhz Azərbaycana daha çox bağlı olması təmin edilmiş oldu".

Ümummilli liderimizin ermənilərin ərazi iddialarının reallaşmasına imkan vermədiyini və Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsinin qarşısını aldığını tarixi faktların dili ilə oxucuya çatdıran müəllif Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasını Dağlıq Qarabağın ilhaqı prosesində əsas faktorlardan biri kimi qiymətləndirir. Məlum olduğu kimi, məhz bu hadisədən sonra Dağlıq Qarabağda vəziyyət gərginləşməyə başladı. Heydər Əliyevin hakimiyyətdən getməsi ilə ermənilərin fəaliyyətinin intensivləşməsi üçün əlavə imkanlar açıldı. "1987-ci ildə Heydər Əliyevin Siyasi Bürodan və Nazirlər Soveti sədrinin birinci müavini postundan uzaqlaşdırılması məhz bu cəhdlərin məntiqi sonluğu kimi qiymətləndirilə bilər. Ennənilərin Qarabağ iştahasının qarşısında dayanan əsas maneə aradan götürülmüşdü, planın qalan hissəsinin həyata keçirilməsi texniki xarakter daşıyırdı", - deyə müəllif yazır.

Birinci bölmədə 1988-ci ildən sonra Dağlıq Qarabağda və Azərbaycanın digər bölgələrində cərəyan edən hadisələr xronoloji ardıcıllıqla təhlil olunur, müharibənin ilk illərindəki uğursuzluqların səbəbi haqqında ətraflı məlumat verilir. Azərbaycanda 90-cı illərin əvvəllərində mövcud olan hərc-mərcliyin, milli mənafelərə cavab verən dövlət aparatının olmamasının Dağlıq Qarabağın itirilməsində həlledici rol oynadığı göstərilir. [11-12] Yalnız Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün digər sahələrdə olduğu kimi, Ennənistanın işğalçılıq siyasətinin qarşısının alınması istiqamətində də effektli tədbirlər görüldüyünü vurğulayan müəllif 1993-cü ildən etibarən həm cəbhə xəttində, həm də diplomatik sahədə Azərbaycanın ciddi nailiyyətlərə imza atmasını ümummilli liderin siyasi təcrübəsinin və dövlət rəhbəri kimi uğurlu fəaliyyətinin məntiqi nəticəsi kimi xarakterizə edir: "Heydər Əliyev müasir dünyanın ziddiyyətli və ədalətsiz reallıqlarına dərindən bələd olan bir siyasi xadim kimi, ilk növbədə, beynəlxalq müstəvidə təbliğatın düzgün qurulmasına və beləliklə də dünya dövlətlərinin diqqətini bu işğal faktının əsl səbəblərinə yönəltməyə nail ola bildi".

Kitabın birinci bölməsi ümummilli lider Heydər Əliyevin 2001-ci ildə Milli Məclisdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələrdə etdiyi çıxışla tamamlanır. Bu, kifayət qədər optimal bir variantdır. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini Heydər Əliyev qədər dərindən bilən ikinci bir şəxsiyyət olmamışdır. Milli Məclisdəki müzakirələrdəki nitqində ümummilli liderimiz problemin mahiyyəti barədə dolğun təsəvvür yaradan və onun həllində ortaya çıxan çətinliklərin səbəbini anlamağa imkan verən tutarlı fıkirlər söyləmişdir. Ona görə də bu nitqin kitaba daxil edilməsi nəşrin sanbalını artırır.

Kitabın ikinci bölməsinin birinci hissəsində münaqişə ilə bağlı beynəlxalq təşkilatlarda aparılmış müzakirələr və bu müzakirələrin nəticəsi kimi qəbul olunmuş qərarlar barədə danışılır. Burada BMT-dən tutmuş İslam Konfransı Təşkilatına qədər ən müxtəlif qurumların problemə münasibəti öz əksini tapmışdır. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ikili standartlar prinsipi ilə yanaşdığını vurğulayan müəllif bu münasibətin problemin həllinə əlavə maneələr yaratdığını qeyd edir. BMT Təhlükəsizlik Şurasının indiyə qədər qəbul olunmuş 4 qətnaməsinin yerinə yetirilməməsinin səbəblərinə toxunan müəllif bunu dünya birliyinin məsələyə kifayət qədər ciddi yanaşmamasının təzahürü kimi qiymətləndirir.

Azərbaycan dövlətinin üzvü olduğu beynəlxalq qurumlarda Dağlıq Qarabağ probleminin həllinə dair dəfələrlə məsələ qaldırmasına, müxtəlif [12-13] dəlillər təqdim etməsinə, Ermənistanın təcavüzkar olduğunu sübuta yetirən faktlar göstərməsinə baxmayaraq, hələ də beynəlxalq birlik işğalçını cəzalandırmaq üçün konkret addımlar atmır. Bu amil ikili standartların mövcud olduğuna ən tutarlı sübutdur. "Bütün bunlar bir daha göstərir ki, ayrı-ayrı dövrlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə dair beynəlxalq təşkilatlar müxtəlif sənədlər, qətnamələr, bəyanatlar qəbul etsələr də, hələ də işğalçı dövlət öz mövqelərindən geri çəkilmir. Bu, beynəlxalq birliyin təcavüzkarı layiq olduğu formada cəzalandırmaq istəməməsinin nəticəsi kimi qiymətləndirilə bilər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün yalnız bir yol var ki, bu da beynəlxalq hüququn hamı tərəfindən qəbul olunmuş prinsiplərinə bu ölkənin riayət etməsinə nail olmaqdan ibarətdir", – deyə kitabda qeyd edilir.

Bununla belə, etiraf etmək lazımdır ki, Azərbaycanın son ll il ərzində beynəlxalq səviyyədə yürütdüyü ardıcıl siyasət nəticəsində artıq Ermənistanın təcavüzkar olduğu bütün dünyaya məlumdur. Müxtəlif səviyyəli görüşlərdə, zirvə toplantılarında, konfranslarda bu məsələ diqqət mərkəzində saxlanılmış və Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı dəfələrlə beynəlxalq sənədlərdə öz təsdiqini tapmışdır. Bu sənədlərin, demək olar ki, hamısında Azərbaycan torpaqlarının işğal edildiyi göstərilir, bir milyondan çox insanın qaçqın və məcburi köçkün kimi yaşadığı bildirilir. Onların bəzisində təcavüzkar adı ilə göstərilsə də, təəssüf ki, bu münasibət hələ beynəlxalq birliyin rəsmi ortaq mövqeyi deyildir. Hər halda uğurlar var və bu uğurlar münaqişənin həllində beynəlxalq hüquq normalarına əməl olunmasının vacibliyini ön plana çəkmək üçün yaxşı zəmin yaratmışdır.

Kitabın ikinci bölməsinin ikinci hissəsində danışıqlar prosesinin tarixi və ATƏT-in vasitəçilik missiyasının fəaliyyəti barədə geniş məlumat verilir. Burada danışıqların indiyə qədər hansı mərhələlərdən keçdiyi, prezidentlərin birbaşa dialoqunun nəticələri, ATƏT-in Minsk qrupunun yaradılması və onun tərəflərə təqdim etdiyi təkliflərin mahiyyəti açıqlanır.

Heç kimə sirr deyil ki, danışıqların indiyə qədər real nəticə verməməsi Ermənistanm qeyri-konstruktiv mövqeyinin nəticəsidir. Rəsmi [13-14] Yerevan münaqişənin ədalətli həllinə nail olmaq üçün heç bir konkret addım atmır və bu da danışıqların səmərəsiz bir nöqtəyə dirənməsinə gətirib çıxarır. Müxtəlif vaxtlarda tərəflər arasında ciddi kompromisin əldə olunması üçün imkanlar yaransa da, Ermənistanın təcavüzkar niyyətindən əl çəkmək istəməməsi sülh sazişinin imzalanmasına mane olmuşdur. Bütün bunlar kitabın ikinci bölməsinin ikinci hissəsində ətraflı şərh olunur.

Burada atəşkəsdən sonrakı müddətdə Azərbaycanın və Ermənistanın iqtisadi və siyasi inkişafında nəzərəçarpacaq fərqlərin müşahidə edildiyi və ölkəmizin kifayət qədər böyük uğurlar qazandığı göstərilir. Güclü iqtisadi potensial, möhkəm dövlətçilik, sürətli demokratikləşmə münaqişənin həllinə mühüm təsir göstərən faktorlar kimi çıxış etdiyindən danışıqlar prosesində Azərbaycanın daha üstün mövqelərə sahib olması təmin edilmişdir. Transregional layihələrin gözlənilən nəticələri və Ermənistanın bu layihələrdən kənarda qalması münaqişənin ədalətli həlli üçün yeni imkanlar açmışdır. Professor E.Abdullayev bu imkanların tezliklə real sülh sazişinə gətirib çıxaracağını proqnozlaşdıraraq yazır ki, "Azərbaycanın xeyrinə olan bu proses o qədər də ləng getmir, əksinə, vəziyyət, demək olar, hər gün daha böyük sürətlə dəyişməkdədir".

İkinci bölmənin üçüncü hissəsində Avropa Şurası çərçivəsində Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılmış müzakirələr və bu təşkilatın problemə münasibətində son illər ərzində müşahidə olunan dəyişikliklər öz əksini tapmışdır. Müəllif Azərbaycanla AŞ arasında münasibətlərin qurulduğu ilk illərdə münaqişə haqqında sözügedən beynəlxalq təşkilatın o qədər də obyektiv məlumata malik olmadığını, qəbul edilmiş qərarlarda subyektivizmə daha çox yer verildiyini xatırladaraq 2001-ci ildən sonra vəziyyətin əhəmiyyətli dərəcədə dəyişdiyini vurğulayır. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin AŞ PA-da olduqca fəal diplomatik iş aparması nəticəsində təşkilatın Azərbaycan torpaqlarının işğal olunması faktını tanıdığına diqqəti çəkən professor E.Abdullayev bunu Azərbaycan diplomatiyasının mühüm qələbəsi kimi qiymətləndirir.

Kitabda qeyd olunur ki, AŞ-nin Dağlıq Qarabağ probleminə münasibətdə digər təşkilatlarla müqayisədə daha obyektiv olması ilk növbədə[1415] Parlament Assambleyasının sessiyalarında nümayəndə heyətimizin məsələnin mahiyyəti barədə dəqiq məlumatları özündə ehtiva edən rəsmi sənədlərin yayılmasına nail olması sayəsində mümkün olmuşdur. Bu sənədlərdə Ermənistanın təcavüzkar siyasəti, azərbaycanlılara qarşı törədilmiş soyqırımı aktlarına dair tarixi faktlar var idi. Digər tərəfdən, nümayəndə heyəti deputatların əksəriyyəti ilə işgüzar və qarşılıqlı etimada əsaslanan münasibətlər qura bilmişdir. Bütün bunlar isə nəticə etibarilə AŞ-nin Dağlıq Qarabağ məsələsinə daha ədalətli yanaşmasını təmin etmişdir.

"Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində" kitabının üstün cəhətlərindən biri də bundan ibarətdir ki, münaqişə ilə bağlı beynəlxalq təşkilatların qəbul etdiyi müxtəlif qətnamələr, bəyanatlar, rəsmi məlumatlar, eyni zamanda ATƏT-in Minsk qrupunun üç təklifi burada toplanmışdır. Bu sənədlər beynəlxalq birliyin problemə münasibəti və münaqişənin özünün xarakteri barədə dolğun məlumat almaq imkanı yaradır. Şübhəsiz ki, qeyd etdiyimiz məziyyətlər kitabın Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini öyrənmək və bu konfliktin Azərbaycanın, regionun, eləcə də dünyanın ictimai-siyasi düzənində hansı yer tutduğunu bilmək istəyənlər üçün qiymətli vəsait olduğunu deməyə əsas verir. [15]

**Lətif HÜSEYNOV**
***hüqıııq elmləri doktoru, professor***
**Alış QASIMOV**
***hüquq elmləri doktoru***

# I BOLMƏ

## ERMƏNISTAN – AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSININ TARIXI

### 1. TARIXI FAKTLARIN İZİ İLƏ

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında danışarkən ilk növbədə ermənilərin Azərbaycanda məskunlaşdırılması məsələsinə diqqət yetirmək zərurəti meydana çıxır. Məsələ burasındadır ki, ermənilər Azərbaycana xeyli sonralar köçürülüb. Tarixi faktlar göstərir ki, XIX əsrə kimi Azərbaycanda bir nəfər də olsun erməni yaşamamışdır. Onların bu ərazidə məskunlaşdırılması Rusiya imperiyasının həmişə özəl siyasi maraqlarına xidmət etmişdi. XIX əsrdə bütün Şərqi Avropada, o cümlədən Rusiyada cərəyan edən hadisələr (Rusiya-Türkiyə, Rusiya-İran müharibələri) Azərbaycanın şimal qonşusunun regionda mövqelərinin getdikcə zəifləməsinə gətirib çıxarırdı. Rusiya cənub sərhədində müsəlman və türk ölkəsinin mövcudluğundan da ciddi narahatlıq keçirirdi və elə buna görə də Şimali Azərbaycanda ermənilərin məskunlaşdırılması ideyasını reallığa çevirmək barədə düşünməyə başladı.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanmasından sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi kütləvi hal aldı. Bu dövrdə Türkiyədən 86 min, İrandan isə 40 min erməni indiki Ermənistanın ərazisi olan Qərbi Azərbaycan torpaqlarına köçürüldü. Ermənilər əsasən Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirildi. Bundan sonra da Azərbaycanın parçalanması cəhdləri davam etdi və burada erməni vilayəti yaradıldı. Doğrudur, sonralar, 1846-cı ildə bu vilayət ləğv edildi, bununla belə, ermənilərin Azərbaycan ərazilərində məskunlaşdırılması prosesi tarixdə öz mənfi izini qoydu. [16-17]

Ermənilərin Qafqazda məskunlaşdırılması müxtəlif dövrlərdə mərhələli şəkildə həyata keçirilmişdir. Təxminən 200 il əvvəl Rusiya çarı bir qisim erməni əhalisinin Dərbənd və Qubaya köçürülməsi barədə fərman imzalamışdır. "Dərbənd və Müşkir ermənilərinin imtiyazları və sərbəst hərəkət etmək hüququ haqqında" adlanan bu fərmanda ermənilərə kifayət qədər geniş hüquqlar verilmiş və onların həyat şəraitinin yaxşılaşdırılması üçün münbit torpaqlara köçürülmələrinin vacibliyi qeyd olunmuşdu.

1723-cü ildə isə Rusiya çarı I Pyotr 12 sentyabr tarixli müqavilə əsasında Bakı, Dərbənd və Quba ərazilərinə ermənilərin köçürülməsi üçün xüsusi yerlər ayrılması barədə fərman imzalamışdır.

1726-cı ildə II Yekaterina ermənilərə xüsusi mərhəmət göstərməyin və onları himayə etməyin zəruriliyini ifadə edən fərman vermişdir.

1729-cu ildə Rusiya çarının fərmanı ilə bir qrup erməni məliyi Rusiya təbəəliyinə qəbul olunmuşdur.

1799-cu ildə çar I Pavel ermənilərin Qazax ərazisində məskunlaşdırılmasına kömək üçün Kartli-Kaxetiya çarlığına xüsusi göstəriş vermişdir.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nəinki ayrı-ayrı fərmanlarda və göstərişlərdə, hətta dövlətlərarası sazişlərdə belə öz əksini tapırdı. 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış Türkmənçay sülh müqaviləsində belə bir maddə də öz əksini tapmışdı ki, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiya ərazisinə keçmək hüququ verilir. Bununla da əslində ermənilərin Azərbaycan ərazilərinə köçməsi üçün zəmin yaradılırdı. Çünki Rusiya əraziləri dedikdə məhz İrana daha yaxın olan Azərbaycan nəzərdə tutulurdu.

1828- 1829-cu illərdə baş vermiş Türkiyə-Rusiya müharibəsindən sonra Türkiyədəki ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi barədə razılıq əldə olunmuşdu. Bunun reallaşdırılmasını sürətləndirmək məqsədilə Rusiyada xüsusi komitə yaradılmış və 12 maddəni əhatə edən ümumi qaydalar müəyyənləşdirilmişdi. Pyotrun vəsiyyətlərinə istinad edən bu siyasətin əsas məqsədi Azərbaycan ərazisini etnik baxımdan parçalamaq və burada xristian xalqlarının yerləşdirilməsini həyata keçirməklə cənubdan gələ biləcək təhlükələrə qarşı sipər yaratmaqdan [17-18]ibarət olmuşdur. Beləliklə də ermənilər tədricən Azərbaycan ərazilərində yerləşdirilir, onlar üçün burada yaxşı şərait yaradılır və münbit torpaqlar ayrılırdı.

Məşhur rus statistiki İ. Şopenin hesablamalarına görə, XIX əsrin əvvəllərində təkcə İrəvan şəhərində 2400 azərbaycanlı ailəsi, 12 min nəfər azərbaycanlı yaşayırdı. Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil edirdi. Belə ki, 1829-cu ilin məlumatına görə, təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və yaxud 80 faizini azərbaycanlılar təşkil edirdi. Rusiya imperiyasında birinci dəfə keçirilən əhalinin siyahıyaalınmasına görə, 1897-ci ildə Qərbi Azərbaycanda - İrəvan quberniyasında 313.178 nəfər azərbaycanlı yaşamışdır. Lakin bir neçə il sonra bu rəqəmlər tamamilə dəyişmişdi.

Ermənilər ərazilərimizdə məskunlaşdıqdan sonra öz dövlətlərini yaratmaq haqqında düşünməyə başladılar. Elə bunun nəticəsi idi ki, 1905-1906-cı illərdə Azərbaycanda ermənilər tərəfindən kütləvi soyqırımı aktları həyata keçirilmişdir. Bu illər ərzində onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlıları məhv etmiş, dəhşətli cinayətlər törətmişdilər. Tarixi qaynaqlarda

təsdiqlənir ki, ermənilər həmin hadisələr zamanı Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl ərazilərində 75 Azərbaycan kəndini tamamilə yerlə yeksan etmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsini dağıtmışdılar.

"Paytaxtsız" respublika yarandığı gündən erməni şovinistləri əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Loru-Pəmbək və Şörəyel qəzalarında, Zəngəzurda, Göyçədə və digər yerlərdə kütləvi qırğınlar törətdilər. Faktlar göstərir ki, Ermənistan Respublikasında qatı millətçilərin hökmranlıq etdiyi 1918-1920-ci illərdə onlar "türksüz Ermənistan" şüarını həyata keçirməyə xeyli dərəcədə nail ola bilmişdilər. Həmin dövrdə azərbaycanlılara qarşı törədilmiş vəhşiliklər nəticəsində indiki Ermənistan ərazisində yaşayan 575 min azərbaycanlının 565 mini öldürülmüş və ya zorla öz yurdlarından qovulub çıxarılmışdı. Ermənistanda sovet [18-19] hakimiyyəti qurulduqdan sonra onlardan yalnız 60 min nəfəri öz doğma yurduna qayıda bilmişdi.

1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Muğanda, Qubada, Lənkəranda ermənilər tərəfindən minlərlə azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan öz vətənindən didərgin salınmışdır. Bu dövrdə Bakıda və Şamaxıda ermənilərin həyata keçirdiyi kütləvi soyqırımı aktları daha dəhşətli olmuşdur. Bakıda 30 minə yaxın insan xüsusi qəddarlıq və amansızlıqla məhv edilmişdir. Şamaxının 58 kəndi xarabazara çevrilmiş, 7 min nəfər insan öldürülmüş (onlardan 1653 nəfəri qadın, 965 nəfəri isə uşaq olmuşdur), Quba qəzasında müsəlmanların yaşadığı 122 kənd yandırılmış və dağıdılmışdır. Qarabağın dağlıq ərazilərində yerləşən 150-dən çox kənd yerlə yeksan edilmişdir. Bu kəndlərdə ermənilərin keçirdikləri əməliyyatlar faciəvi miqyasına görə dünya tarixinin ən amansız hadisələrindən olmuşdur. Zəngəzur qəzasında da eyni üsullarla 115 kəndi vəhşicəsinə darmadağın edən ermənilər İrəvan quberniyasında 211, Qarsda 92 kəndi talan edərək yandırmışlar.

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycanda ermənilərin məskunlaşdırılması xalqımızın tarixi ərazisinin parçalanmasına, azərbaycanlıların bir millət olaraq məhvinə və müstəqil dövlətimizin mövcudluğunun qarşısının alınmasına xidmət etmişdir. Ermənilər bu mənfur prosesdə ən qəddar rolu ifa edən vasitə olmuşlar. Kütləvi deportasiyaların və soyqırımı aktlarının yeganə məqsədi Cənubi Qafqazda qüdrətli müsəlman və türk dövlətinin formalaşmasına mane olmaqdan ibarət idi. Həm Gülüstan, həm də Türkmənçay müqavilələri bunu bir daha təsdiqləyirdi. Azərbaycan ərazilərini etnik baxımdan bölmək cəhdləri nəticə etibarilə ölkənin siyasi və coğrafi anlamda parçalanmasına gətirib çıxarmalı idi. Nə qədər ağrılı olsa da, baş verən hadisələrin təhlili və tarixi xronologiya bu planların müəyyən hissəsinin yerinə yetirildiyini təsdiqləyir.

XX əsrin əvvəllərində Cənubi Qafqazda cərəyan edən proseslərin məntiqi nəticəsi ona gətirib çıxardı ki, artıq sovet hökumətinin qurulduğu ərəfədə Azərbaycan ərazilərinin böyük bir hissəsi ermənilərin tabeliyinə keçmişdi. Ən qəribəsi isə bu idi ki, həmin ərazilərdə məhz azərbaycanlılar çoxluq təşkil edirdilər. Amma nədənsə bu vacib faktor [19-20] torpaqlarımızın ermənilərə hədiyyə edilməsində heç bir rola malik olmadı.

Tarixi qaynaqlarda Ermənistan dövlətinin olmadığı tam açıq şəkildə göstərilmişdir. Bəzi nəhəng ölkələrin maraqları Cənubi Qafqazda erməni dövlətinin yaradılmasını tələb edirdi. Bunun isə ən ağır nəticələrini Azərbaycan xalqı öz taleyində yaşamalı oldu.

1920-ci ilin axırlarında Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra ermənilər əsrlərlə arzu etdikləri erməni dövlətini yaratmaq və qonşulara qarşı ərazi iddiasını irəli sürmək siyasətinə keçdilər. 70 illik sovet hakimiyyəti dövründə Azərbaycan torpaqları hesabına ərazilərini genişləndirən ermənilərin bu istiqamətdə iddiaları get-gedə daha da artdı. Moskvada dövlət idarə aparatında yuva salmış erməni lobbisinin bu yolda həyata keçirməyə nail olduğu mənfur niyyətlərindən biri də müharibədən sonra xaricdən gələn ermənilərin yerləşdirilməsini bəhanə edərək İ. Stalinin xeyir-duası ilə dövlət səviyyəsində azərbaycanlılara qarşı həyata keçirilən deportasiya siyasəti olmuşdur.

1920-ci ildə Azərbaycanın Zəngəzur bölgəsinə sahib olan ermənilər 1921-ci ildə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istədilər. Böyük şəxsiyyət, görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun prinsipial mövqe tutması onların planını pozdu. Lakin 1922-ci ilin sonunda N. Nərimanov Moskvaya getdikdən sonra onlar 1923-cü ilin iyulunda Dağlıq Qarabağa muxtariyyət verilməsinə nail ola bildilər. Bununla belə, onlar Dağlıq Qarabağa yiyələnə bilmək iddiasından əl çəkmir, dəfələrlə bu barədə məsələ qaldırırdılar.

Göründüyü kimi, hətta Sovet İttifaqının tərkibində yaşadıqları dövrdə belə Azərbaycan və Ermənistana münasibətdə ayrıseçkilik açıq şəkildə müşahidə olunurdu. Sovet imperiyasının rəhbərliyi sələflərinin vəsiyyətlərinə sadiq qalaraq erməniləri məzlum və fağır bir xalq kimi təqdim edir, onların dirçəlməsinə, Ermənistanın iqtisadi və siyasi inkişafına ciddi dəstək verir, Azərbaycan ərazilərinin bu respublikaya birləşdirilməsi istiqamətində səy göstərirdilər. Bu, həm Leninin, həm də Stalinin hakimiyyəti illərində Sovetlərin Cənubi Qafqaz siyasətində əsas yerlərdən birini tutmuşdur. Təsadüfi deyil ki, o dövrdə Azərbaycandan olan kadrların [20-21] yüksək vəzifələrə təyin olunması çox az hallarda baş verir və xalqımızın görkəmli ziyalılarına qarşı terror aktları, repressiyalar həyata keçirilirdi.

1930-cu illərdə "vətən xaini" damğası ilə xalqımızın ən öndə gedən ziyalılarının, elm xadimlərinin, dövlət və siyasət adamlarının məruz qaldığı haqsızlıqlar bu siyasətin nə qədər iyrənc məqsədlərə xidmət etdiyini bir daha ortaya qoyur. Bu dövr tariximizin ən faciəli səhifələrindən biri kimi xalqımızın yaddaşında dərin iz buraxmışdır. Xalqlara hürriyyət və azadlıq vəd edən SSRİ elan etdiyi prinsiplərə xilaf çıxaraq azərbaycanlılara qarşı ayrıseçkilik siyasəti yürütmüş və zaman-zaman bu xalqın genofondunun məhv edilməsinə çalışmışdır.

Ötən əsrin 70-ci illərinə qədər azərbaycanlıların İttifaqın nüfuzlu ali təhsil ocaqlarında təhsil alması çox nadir hallarda baş verir, xalqımızın hərbi sahədə peşəkar kadrlarının yetişdirilməsinə maneələr törədilir, hətta orduya xidmətə getmiş əsgərlərə münasibətdə də bu, açıq şəkildə özünü göstərirdi. Sovet imperiyasının "parçala, hökmranlıq et" siyasəti ilk növbədə bizim xalq üçün daha faciəli və daha ağır nəticələrə gətirib çıxarmışdı.

Maraqlıdır ki, həm o dövrdə, həm də sonralar Azərbaycan Qafqazda SSRİ-nin iqtisadi inkişafına mühüm təsir göstərən və onun dayaqlarının möhkəmləndirilməsinə daha çox töhfələr verən respublika olmuşdur. Ölkəmizin təbii sərvətlərinin zənginliyi, əmək potensialının genişliyi burada əsas faktorlardan biri kimi çıxış edirdi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, İkinci Dünya müharibəsində Sovet ordusunun faşizm üzərində qələbəsində əsas pay Bakı neftinin üzərinə düşürdü. Çünki o dövrdə istehsal olunan yanacağın 70 faizindən çoxu məhz Azərbaycanda hasil edilirdi.

Müharibə qurtardıqdan sonra, 1945-ci ilin noyabrında Ermənistan KP MSK-nın birinci katibi Q. Arutyunov İ. Stalinə məktubla müraciət edərək Dağlıq Qarabağın Ermənistan SSR-lə həmsərhəd olduğunu, iqtisadiyyatı ilə guya sıx bağlılığını nəzərə alaraq onun Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırır. Həmin məktubu İ. Stalin K. Malenkova ünvanlayır. O isə, öz növbəsində, cavab üçün sənədi Azərbaycan SSR rəhbərliyinə göndərir. Dağlıq Qarabağın tarixi və əzəli Azərbaycan torpağı olduğu haqqında geniş məlumat verən M. C. Bağırov məktubunun [21-22] sonunda bildirir ki, Şuşa rayonunu çıxmaq şərti ilə Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də Azərbaycana qaytarılsın.

Belə olduqda ermənilər Ermənistanda yaşayan və əsasən Azərbaycanla həmsərhəd rayonlardakı azərbaycanlıları köçürmək üçün başqa hiyləyə əl atırlar. Azərbaycanın Muğan-Mil düzlərində pambıq əkilən rayonları işçi qüvvəsi ilə təmin etmək bəhanəsiylə Ermənistan ərazisində olan azərbaycanlıları köçürmək və onların yerində xaricdən gələn erməniləri yerləşdirmək təklifini irəli atır və buna müvəffəq olurlar.

Siyasi Partiyalar arxivində bu məsələ ilə əlaqədar 1947-ci ilin dekabrında M. C. Bağırovun və Q. Arutyunovun birlikdə imzaladığı və Stalinə göndərilmiş məktubun surəti qorunub saxlanılır. Məktubda məhz yuxanda deyilən məsələlərlə bağlı konkret təkliflər irəli sürülmüşdür.

Nəticədə SSRİ Nazirlər Soveti 1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən kolxozçuların və digər Azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar qəbul edir. Şəxsən İ. Stalinin imzaladığı və heç bir girişi olmadan bilavasitə onun qərar hissəsindən başlanan bu sənəd, məzmunundan da göründüyü kimi, çox tələsik hazırlanmışdı. Təsadüfi deyildir ki, 1948-ci il martın 10-da SSRİ Nazirlər Soveti həmin qərara əlavə olaraq ikinci bir qərar da qəbul etməli olur. Özü də 1947-ci il 23 dekabr tarixli qərara əlavə qeydi olan və İ. Stalinin imzaladığı bu ikinci qərarda azərbaycanlıların köçürülməsi ilə əlaqədar tədbirlər planı özünün geniş əksini tapmışdı.

1947-ci il 23 dekabr tarixli qərarın birinci bəndində göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipi əsasında" Ermənistan SSR-də yaşayan yüz min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür- Araz ovalığına köçürülsün.

Bununla da Ermənistan Respublikası və onların timsalında keçmiş SSRİ rəhbərliyi 1948-ci il 10 dekabrda qəbul edilmiş İnsan hüquqları haqqında Ümumi Bəyannamənin, 1966-cı il 16 dekabrda qəbul edilmiş "Mülki siyasi hüquqlar haqqında Beynəlxalq Akt"ın, [22-23] 1984-cü il 10 dekabrda qəbul edilmiş "İnsan ləyaqətini hədəli və digər qəddar, qeyri-bəşəri və ya alçaldıcı müraciət və cəza növləri əleyhinə" Konvensiyanın və digər mühüm beynəlxalq hüquqi sənədlərin əsas prinsiplərini pozmuşdur.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından sürgün olunmuşdu. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və keçmiş SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdı.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanının ilk cümlələri belə başlayır: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və

qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".[23-24]

Tarixi faktlar belə şəksiz həqiqəti tamamilə təsdiq edir ki, indiki Ermənistan adlanan ərazi XIX əsrə qədər xalis türk yurdu - azərbaycanlıların yaşadıqları ərazi olmuşdur. Yalnız çar Rusiyası müstəmləkəçilərinin ayağı bu yerlərə dəydiyi gündən torpaqlarımıza erməni toxumunun səpilməsinə başlanılmış, tezliklə ilk zəhərli cücərtilər görünmüşdür. Lakin çar Rusiyasının hakim dairələrinin səyi ilə İran və Türkiyədən ermənilərin bu əraziyə kütləvi surətdə köçürülməsinə baxmayaraq, onlar burada heç vaxt əhalinin əksəriyyətini təşkil edə bilməmişlər. Məlum olduğu kimi, 1918-ci il mayın 27-də "Ermənistan Respublikası" elan edildiyi zaman bu qondarma dövlətin paytaxtı belə yox idi və Azərbaycan Milli Şurası 1918-ci il 29 may tarixli iclasında səs çoxluğu ilə tarixi şəraitin təzyiqi altında İrəvan şəhərini Ermənistan Respublikasının paytaxtı kimi tanımaq məcburiyyətində qalmışdır.

Onu da deyək ki, azərbaycanlıların bir hissəsinin Ermənistana qayıtmasına razılıq verməyə məcbur olmuş Ermənistan SSR rəhbərləri də heç vaxt onların təqib və deportasiyasına son qoymaq niyyətində olmamış və totalitar rejim şəraitində fürsət düşdükcə belə amansız tədbirlərə həvəslə əl atmışdılar. Hələ İkinci Dünya müharibəsindən əvvəl kütləvi kolxoz hərəkatı və repressiya illərində belə tədbirlərə əl atmaq imkanları kifayət qədər yaranmışdı. Qəribə də olsa, həmin illərdə Ermənistan SSRİ-də kolxoz hərəkatına müqavimət göstərənlərin də, repressiyaya məruz qalanların da əksəriyyətini azərbaycanlılar təşkil etmişdi. Elə bunun nəticəsi idi ki, 1930-cu illərdə Vedibasarın, Zəngibasarın, Qəmərlinin, Dərələyəzin, Ağbabanın və digər bölgələrin 50 min nəfərdən artıq azərbaycanlı əhalisi ailəliklə Qazaxıstan çöllərinə sürgün edilmiş, sərt iqlim şəraitinə uyğunlaşa bilməyən əhalinin xeyli hissəsi həlak olmuşdu. Məsələ onda idi ki, sürgün müddəti qurtardıqdan sonra öz evlərinə qayıtmaq istəyən ailələrin əksəriyyətini Ermənistana buraxmırdılar. Bəhanə edirdilər ki, bu üzdəniraq respublika Türkiyə ilə həmsərhəddir. Lakin böyük məhrumiyyətlər bahasına geri qayıdanların da yenidən deportasiyaya məruz qalanları az olmamışdır.

Azərbaycan Respublikası Prezidentinin fərmanında haqlı olaraq "Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı" kimi qiymətləndirilmiş [24-25] SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixlİ 4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları Ermənistan SSR ərazisində dədə-baba yurdlarında yaşayan azərbaycanlıların bu dəfə dövlət siyasəti səviyyəsində deportasiyasını "əsaslandırmışdır".

Vaxtilə əhalisi başlıca olaraq azərbaycanlılardan ibarət olan Qərbi Azərbaycan əyalətlərində - Zəngibasar, Vedibasar, Zəngəzur, Göyçə, Ağbaba, Dərəçiçək, Sisyan, Qafan, Qəmərli, Qaraqoyunlu, Qırxbulaq, Şərur, Sürməli, Seyidli, Sərdarabad, Abaran, Gərnibasar və başqa yurdlarımızda bir nəfər belə azərbaycanlı qalmasa da, tarixin yaddaşına həmin vilayətlər qədim azəri yurdları kimi həkk olunmuşdur.

Ötən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərində Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə birləşdirilməsi məsələsi hətta Kremlin özündə və Siyasi Büroda müzakirə edilən məsələlərdən birinə çevrilmişdi. Öz himayədarlarının köməyilə ermənilər Azərbaycan ərazilərini Ermənistana birləşdirmək səylərini davam etdirirdilər. 1969-cu ilin mayında Qazax və bir neçə başqa rayonun ərazisində yerləşən bəzi kəndlərin Ermənistana birləşdirilməsi barəsində bu ölkənin Ali Soveti qərar qəbul etdi. Bu qərar SSRİ Ali Soveti tərəfindən də təsdiq olundu. Lakin Heydər Əliyevin Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi bu qərarın həyata keçməsinə imkan vermədi. SSRİ kimi nəhəng bir dövlətdə qanunverici orqanın qərarının yerinə yetirilməməsinin nə demək olduğunu başa düşmək çətin deyil. Lakin Heydər Əliyev öz xalqının milli maraqları naminə böyük riskə gedərək Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsinin qarşısını aldı. Buna baxmayaraq, 1986-cı ildə Azərbaycan rəhbərliyinin etinasız münasibəti ucbatından həmin qərarda nəzərdə tutulan bəzi ərazilər Ermənistana birləşdirildi.

1977-ci ildə Sovetlər İttifaqının yeni Konstitusiyasını işləyib hazırlayan komissiya Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-ə birləşdirilməsini təklif etdi. Respublikanı komissiyada təmsil edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin sərt reaksiyası [25-26] və bu təklifi qəti şəkildə rədd etməsi onun həyata keçirilməsinin qarşısını aldı.

Ümummilli liderimiz 2001-ci ildə Azərbaycan parlamentində aparılan müzakirələrdə bu məsələyə toxunaraq deyirdi: "1977-ci ildə SSRİ-nin Konstitusiyası qəbul olunarkən konstitusiyanı hazırlamaq üçün komissiya təşkil edilmişdi. Komissiyaya o vaxtkı Kommunist Partiyasının Baş katibi Brejnev rəhbərlik edirdi və respublikaların nümayəndələri də, o cümlədən mən də bu komissiyanın üzvü idim. Komissiya layihə hazırladığı dövrdə, təxminən bir il müddətində həddindən artıq təkliflər gəlmişdi ki, Dağlıq Qarabağ ayrılıb Ermənistana verilməlidir. Hətta bir-iki dəfə bu məsələnin komissiyada baxılmasına cəhd olmuşdu. Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt bunların qarşısını aldım. Amma qarşısını almaq da çətin idi. Amma aldım. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım".

Buna baxmayaraq, Ermənistanın tanınmış ziyalıları, siyasətçiləri, elm adamları əhalini psixoloji baxımdan "türklərlə savaşa" hazırlamaqda idilər. "Böyük Ermənistan"a gedən yol Qarabağ torpaqlarının işğalından keçirdi və elə buna görə də ermənilər müxtəlif vasitələrlə bu ərazini Azərbaycandan qoparmağa çalışırdılar. Lakin qarşıda kifayət qədər ciddi bir maneə var idi - Heydər Əliyev. Azərbaycan Kommunist Partiyası Mərkəzi

Komitəsinin birinci katibi yalnız siyasi və hüquqi baxımdan deyil, həm də iqtisadi və psixoloji anlamda Dağlıq Qarabağın Ermənistana ilhaqı arzusunun gerçəkləşdirilməsinə ciddi şəkildə maneələr yaratmağa başladı. Onun həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində ermənilərin məskunlaşdığı ərazilərin Ermənistana birləşdirilməsi planları reallaşa bilmədi.

Bu dövr ərzində respublika rəhbərliyi bölgənin iqtisadi inkişafını təmin edəcək bütün işləri görmüşdü. Vilayətin digər regionlarla kommunikasiya əlaqələri xeyli yaxşılaşdırılmışdı. Eyni zamanda Qarabağda azərbaycanlıların məskunlaşması istiqamətində tədbirlər planı həyata keçirilirdi. [26-27] Bütün bu görülən işlərin başlıca məqsədi Dağlıq Qarabağ ermənilərinin Ermənistana meyillilik əmsalını mümkün qədər aşağı salmaq, onların Bakıdan asılılığını təmin etməkdən ibarət idi. Heydər Əliyev buna nail olmuşdu və bunun nəticəsi idi ki, ermənilər DQMV-nin Ermənistana birləşdirilməsi "zərurətini" əsaslandırmaq üçün heç bir arqument tapa bilmirdilər. Heydər Əliyev özü həmin dövrü belə xatırlayırdı: "Mən Azərbaycana rəhbərlik etdiyim zaman - bunu açıq demək lazımdır – biz Dağlıq Qarabağa daha çox iqtisadi cəhətdən şərait yaradırdıq, onların iqtisadiyyatının inkişaf etməsinə üstünlük verirdik. Çünki daim məsələ qalxırdı ki, guya Dağlıq Qarabağı Azərbaycanda sıxışdırırlar və ermənilər Dağlıq Qarabağda inkişaf edə bilmir. Azərbaycanın bütövlüyünü saxlamaq, bütün ərazisini qorumaq üçün biz o vaxtlar, yenə də deyirəm, Dağlıq Qarabağa daha da çox diqqət yetirirdik. Doğrudur, sonra bəzi diletant adamlar məni günahlandırırdılar ki, bunu nə üçün edirdim. Mən bu gün də deyirəm, edirdim. Edirdim, ona görə ki, birincisi, Dağlıq Qarabağı azərbaycanlılarla da məskunlaşdırmaq lazım idi, ikincisi, ermənilərə imkan verməyək ki, bu məsələni qaldırmasınlar.

Sonra məsələ tərsinə oldu. Bu münaqişə başlanandan sonra mətbuatda, SSRİ mətbuatında məni yenə də günahlandırırdılar ki, Azərbaycana rəhbərlik etdiyim zaman guya erməniləri sıxışdırmışam, oradakı demoqrafik vəziyyəti dəyişdirmişəm, ermənilərin oradan çıxması üçün müəyyən tədbirlər görmüşəm və ermənilər Dağlıq Qarabağda da azalıblar. Bunu ermənilər deyirdilər və hətta o vaxtlar bu məsələlər SSRİ Ali Sovetinin sessiyasında müzakirə olunanda onların nümayəndələri, hətta Ermənistan Elmlər Akademiyasının prezidenti Ambarsumyan - biz vaxtilə onu Azərbaycan Elmlər Akademiyasının fəxri üzvü seçmişdik, o cümlədən dostluğu möhkəmləndirmək üçün Gürcüstan Elmlər Akademiyasının üzvü seçilmişdi - mənim adımı çəkirdi. O söz indiyə qədər yadımdadır ki, Heydər Əliyev Dağlıq Qarabağı, Azərbaycanı ardıcıl surətdə ermənilərdən təmizləmişdir. Mən buna təəccüb etmirdim, amma ona təəccüb edirdim ki, o vaxt Azərbaycanda çoxları yenə də Əliyevi günahlandırır və həmin o sözlərlə razılaşırdılar: bəli, Heydər Əliyev [27-28] Dağlıq Qarabağa pis münasibət göstərir. Ona görə də indi ermənilər Dağlıq Qarabağı Ermənistana bağlamaq istəyirlər".

Nəhayət, "böyük Ermənistan" xəyalpərəstləri taktikanı və hədəfləri dəyişmək qərarına gəldilər. Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçyan sonralar bu barədə danışarkən deyirdi: "XX əsrdə türklərin yetişdirdiyi iki qüdrətli adam olmuşdur. Atatürk və Heydər Əliyev. Onlardan biri sağdır. Bilin, nə qədər ki, o sağdır, biz nə Qarabağı ala biləcəyik, nə də başqa əraziləri".

Beləliklə, ermənilər arsenallarında olan bütün mübarizə vasitələrini Heydər Əliyevi aradan götürməyə yönəltdilər. Moskvadakı havadarlarının himayəsi altında öz mənfur məqsədlərinə nail olmaqdan ötrü ermənilər müxtəlif vasitələrə əl atır, SSRİ-nin ən nüfuzlu rəhbərlərini ələ almağa çalışır, bunun üçün hətta kimlərəsə maliyyə dəstəyi verməkdən belə çəkinmirdilər. Bütün təzyiqlərə və müqavimətlərə baxmayaraq, Heydər Əliyev Qarabağ məsələsinin Ermənistanın xeyrinə həll edilməsinin qarşısını almağa müvəffəq oldu. Vilayət iqtisadi və siyasi baxımdan olduqca ciddi şəkildə Bakıdan asılı vəziyyətə salınmışdı. Sonralar, 1988-ci ildə DQMV-nin Ermənistana birləşdirilməsi məsələsi yenidən ictimai gündəmə çıxarılarkən məhz bu addımlarına görə Heydər Əliyev erməni təbliğat şəbəkəsinin və onun Moskvadakı himayədarlarının ittihamlarına məruz qaldı. Onu Qarabağ ərazisini ermənilərdən təmizləməkdə, vilayətdə ayrıseçkilik siyasəti yürütməkdə ittiham etdilər. Ən ağrılısı odur ki, bu çoxşaxəli prosesin iştirakçıları sırasında bəzi azərbaycanlıların da adları var idi.

Heydər Əliyev heç nədən, heç kimdən çəkinmədən ən riskli qərarlara belə imza atmaqda tərəddüd etmirdi. Bakıdan Xankəndinə dəmir yolu xəttinin çəkilməsi məhz onun rəhbərliyi dövründə həyata keçirilmişdi və burada əsas məqsəd Qarabağı Azərbaycana bağlayan strateji kommunikasiyaların sayının artırılmasından ibarət idi. Bununla da Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi kimi mərkəzlə daha yaxşı əlaqələrə [28-29] malik olması, vilayətin iqtisadi baxımdan Ermənistana deyil, məhz Azərbaycana daha çox bağlı olması təmin edilmiş oldu. Heydər Əliyevin səyləri nəticəsində DQMV-də azərbaycanlılar yüksək vəzifələrə təyin edilir vilayət iqtisadiyyatının inkişafına xidmət edən müəssisələrlə Azərbaycanın digər bölgələrində fəaliyyət göstərən zavodlar, fabriklər arasında əlaqələr möhkəmləndirilir, yerli əhalinin içərisində ermənilərin üstünlük təşkil etməməsi üçün gizli, lakin olduqca ağıllı siyasət yürüdülürdü.

Heydər Əliyevə qarşı müqavimət göstərə bilməyən və onun həyata keçirdiyi tədbirlərin qarşısını almaqda aciz görünən ermənilər isə öz niyyətlərindən əl çəkmək fikrində deyildilər. 1982-ci ildə Heydər Əliyevin SSRİ rəhbərliyinə gətirilməsi erməniləri daha mütəşəkkil fəaliyyətə təhrik etdi. Siyasətdə Heydər Əliyev faktorunun mövcudluğu Qarabağın Ermənistana birləşdirilməsi ideyasının iflası demək idi və elə buna görə də ermənilər çox geniş spektrli "antiəliyevçilik" təbliğatına başladılar.

1985-ci ildə Sov. İKP MK-nın Baş katibi vəzifəsinə seçilən Mixail Qorbaçov bu mənfur niyyətin gerçəkləşdirilməsi üçün əlindən gələni etdi. M. Qorbaçovun hakimiyyətə gəlməsi ilə ermənilər ölkənin birinci

şəxsinin timsalında siyasi himayədar qazanmışdılar və bu fürsətdən maksimum istifadə etməyə çalışırdılar. 1987-ci ildə Heydər Əliyevin Siyasi Bürodan və Nazirlər Soveti sədrinin birinci müavini postundan uzaqlaşdırılması məhz bu cəhdlərin məntiqi sonluğu kimi qiymətləndirilə bilər. Ermənilərin Qarabağ iştahasının qarşısında dayanan əsas maneə aradan götürülmüşdü, planın qalan hissəsinin həyata keçirilməsi texniki xarakter daşıyırdı.

1988-ci ildə ermənilər artıq Azərbaycana qarşı düşmənçilik siyasətini açıq müstəvidə həyata keçirməyə başladılar. Qarabağda iki azərbaycanlının qətlə yetirilməsi, Topxana meşəsinin məhv edilməsi ilə daha da qızışan və sonradan hərbi əməliyyatlar müstəvisində davam etdirilən münaqişə problemin nə qədər ciddi olduğunu bir daha ortaya qoydu. Proseslər o dərəcədə sürətlə cərəyan edirdi ki, azərbaycanlılar nə ermənilərin brilyant sovqatı müqabilində Qorbaçovun hadisələrə biganəliyinin, böyük bir ərazinin respublikanın nəzarətindən faktiki olaraq çıxarılmasının, nə də hakimiyyətin etinasız və səriştəsiz siyasətinin məntiqini başa [29-30] düşməyə imkan tapa bildilər. Konfliktin coğrafiyası isə günü-gündən genişlənirdi. 1989-cu ildə Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın bu ölkəyə birləşdirilməsi haqqında heç bir hüquqi əsası olmayan qərar qəbul etdi. Bu, faktiki, Azərbaycan ərazilərinin ilhaqı anlamına gəlirdi. Ermənilər artıq mübarizə taktikasını hərbi təcavüz müstəvisinə keçirmişdilər və bu baxımdan Azərbaycandakı kütləvi etiraz aksiyaları proseslərin inkişaf istiqamətini dəyişmək qüdrətində deyildi.

Şübhəsiz ki, ermənilərin təcavüzkar siyasətinin həyata keçməsində məhz kənar qüvvələrin dəstəyi daha böyük rol oynamışdır. Bu mənada o vaxtkı SSRİ rəhbərliyinin səyləri xüsusilə qabarıq şəkildə nəzərə çarpırdı. 1990-cı ildə Sovet ordusunun Bakıda keçirdiyi əməliyyatlar bunu bir daha təsdiqlədi. Dağlıq Qarabağın Ermənistana ilhaqına etiraz əlaməti olaraq keçirilən mitinqlər sovet əsgərlərinin güllələri ilə yatırıldı. Bu hərbi akt zamanı yüzlərlə azərbaycanlı qətlə yetirildi, minə yaxın insan itkin düşdü. Şəhərdə bir neçə ay davam edən fövqəladə vəziyyət rejimi elan olundu. Bütün bunlar Azərbaycan xalqının mübarizlik əzmini qırmaq, onun azadlıq ideyalarına inancını sarsıtmaq və Qarabağın Ermənistana ilhaqı prosesinə yardım göstərmək məqsədi daşıyırdı.

Bu qanlı hadisələr zamanı xalq yenidən respublika rəhbərlərinin biganəliyinin şahidi oldu. Yenə də məhz Heydər Əliyev bu terror aktına açıq etirazını bildirdi. 1990-cı il yanvarın 21-də onun Azərbaycanın Moskvadakı nümayəndəliyinin binasında qəzəbli və qətiyyətli bəyanatının doğurduğu əks-sədanı bütün dünya dinlədi. Heydər Əliyev bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, mənsub olduğu xalqın faciəsinə məsuliyyət daşıyanları Kremlin bir addımlığında, həm də bütün dünyanın gözü qarşısında ittiham etdi. 20 Yanvar faciəsindən sonra erməni hərbi birləşmələrinin cəbhə xəttində fəallığı bir qədər də artdı. Bir-birinin ardınca işğal olunan kəndlər, rayonlar Qarabağın qarış-qarış itirildiyinə dəlalət edirdi.

1991-ci ilin fevral ayında Azərbaycan Ali Sovetinin sessiyasında Heydər Əliyev hamını bu adi gerçəkliyi etiraf etməyə çağırırdı: "Hesab edirəm ki, "Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması" - məsələnin dar çərçivədə qoyulması deməkdir. "Azərbaycanın ərazi bütövlüyünün [30-31] bərpa olunması" - məsələ belə qoyulmalıdır. Biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq". Bu, təkcə parlamentdə aparılan müzakirələrin istiqamətinə etiraz əlaməti deyildi.

Heydər Əliyev cəmiyyəti mövcud reallıqlardan xəbərdar etməyə çalışırdı. Həmin reallıq isə bundan ibarət idi ki, Azərbaycan hakimiyyətinin siyasi laqeydliyi ucbatından Qarabağ itirilib və bu reallığı anlamaq, bütün perspektiv fəaliyyəti onun dəyişdirilməsinə hesablamaq lazımdır. Heydər Əliyev həmin sessiyada deyirdi: "Biz gərək təhlil edək: nə cür oldu ki, Dağlıq Qarabağı əldən verdik!" Kifayət qədər maraqlı və haqlı sual idi. Amma şübhəsiz ki, A. Mütəllibovun rəhbərlik etdiyi siyasi komanda bu sualın cavabının araşdırılmasında maraqlı ola bilməzdi.

Cəbhə bölgəsində hərbi əməliyyatların geniş miqyas almağa başladığı bu dövrdə ermənilər Naxçıvanı ələ keçirmək üçün müxtəlif planlar hazırlamağa başladılar. Lakin bu planların həyata keçirilməsi mümkün olmadı. 1990-cı ilin yayında Heydər Əliyev Naxçıvana gəldi. Muxtar respublikada vəziyyət həddindən artıq gərgin idi. İqtisadi blokadanın ağır şərtləri altında yaşamağa məhkum edilmiş naxçıvanlılar bu qayıdışın talelərində böyük dönüş nöqtəsi olduğuna inanırdılar. Çox qısa vaxt ərzində və məhdud imkanlar çərçivəsində Heydər Əliyev Naxçıvanda ciddi dəyişikliklər etməyə müvəffəq oldu. Naxçıvan MSSR Ali Sovetinə deputat seçildikdən dərhal sonra məhz onun təşəbbüsü ilə muxtar respublikanın adındakı SSR sözü götürüldü. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı dövlət rəmzi kimi qəbul edildi. 1991-ci il sentyabr ayının 3-də isə Naxçıvan Ali Məclisi Heydər Əlirza oğlu Əliyevin Ali Məclisin sədri seçilməsi haqqında qərar qəbul etdi. Muxtar respublikanın yeni rəhbəri iqtisadi problemlərin həllinə diqqət yetirməklə yanaşı, həm də Ermənistanla sərhəddə gedən qanlı döyüşləri səngitmək missiyasını yerinə yetirdi. Heydər Əliyevin gəlişi ermənilərin Naxçıvan istiqamətində hərbi əməliyyatlara başlamaq planını təxirə salmağa vadar etdi.

1992-ci ildən etibarən erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərində keçirdiyi hərbi əməliyyatların coğrafiyası daha da genişləndi və respublikanın rayonları bir-birinin ardınca işğal edilməyə başlandı. 1992-ci ildə Xocalıda həyata keçirilən dəhşətli soyqırımı aktı erməni [31-32] vəhşiliyinin miqyasını aydın təsəvvür etməyə imkan verir. Rusiyanın 366-cı motoatıcı alayının dəstəyi ilə reallaşdırılan bu terror əməliyyatında 613 nəfər azərbaycanlı qətlə yetirildi. Xocalı faciəsi zamanı öldürülənlərdən 63 nəfəri azyaşlı

uşaq, 106 nəfəri qadın olmuşdur. 487 nəfər şikəst edilmiş, 1275 nəfər əsir götürülmüşdür ki, onların da böyük bir hissəsi qocalar, qadınlar və uşaqlar olmuşdur, 8 ailə bütövlükdə məhv edilmişdi. Xocalı ermənilərin azərbaycanlılara qarşı apardığı çoxəsrlik düşmənçilik münasibətinin ən bariz nümunələrindən biri kimi tarixə həkk olundu. Lakin etiraf etmək lazımdır ki, bu faciənin baş verməsində o vaxtkı hakimiyyətin də üzərinə böyük mənəvi və siyasi məsuliyyət düşür.

1992-ci ilin mayında Şuşa erməni qəsbkarları tərəfindən işğal edildi. Şuşanın işğalı ilə faktiki olaraq bütün Yuxarı Qarabağ ermənilərin nəzarəti altına keçdi. Şəhərin geostrateji əhəmiyyətini nəzərə alsaq, bu hadisə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlayandan Azərbaycanın ən böyük məğlubiyyəti idi. Şuşa elə bir mövqedə yerləşirdi ki, onu hətta az qüvvə ilə belə müdafiə etmək mümkün idi. Lakin Azərbaycanda mövcud olan hərc-mərclik və anarxiya, silahlı qüvvələrin vahid mərkəzdən idarə olunmaması, nizami ordunun yoxluğu bu məğlubiyyəti stimullaşdıran əsas faktorlardan biri idi. Şuşa Azərbaycanın həm də qədim mədəniyyət mərkəzlərindən biri kimi tanınırdı. Onun itirilməsi xalqın mənəvi-psixoloji mübarizə ruhunu da sarsıtmış oldu.

Erməni işğalçılarının keçirdiyi hərbi əməliyyatların miqyası bu şəhərin işğalından sonra daha da genişləndi və cəmi bir neçə gün sonra, may ayının 17-18-də Ermənistanla Azərbaycanın Dağlıq Qarabağ bölgəsi arasında yerləşən Laçın düşmən əlinə keçdi.

Laçının işğalı bir neçə mühüm məqama görə Azərbaycan üçün ciddi zərbə idi. Birinci məqam bundan ibarətdir ki, sözügedən rayonun işğalı müharibənin Dağlıq Qarabağın sərhədlərindən kənara çıxdığını göstərdi. Bu, faktiki olaraq Ermənistanın işğalçılıq siyasətinin "Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə hüququnun təmin olunması"na [32-33] deyil, məhz "böyük Ermənistan" mifologiyasına xidmət etdiyini təsdiqləyirdi. Qeyd edək ki, ermənilər hərbi əməliyyatların ilkin mərhələsində məqsədlərinin yalnız Dağlıq Qarabağı azad etmək olduğunu iddia edirdilər. Laçının ələ keçirilməsi bu iddiaların heç bir məntiqə əsaslanmadığını və Ermənistanın işğalçılıq niyyətinin daha geniş sərhədləri əhatə etdiyini ortaya qoyurdu.

İkinci mühüm məqam isə artıq sırf hərbi-strateji məsələlərə aid idi. Məsələ burasında idi ki, Laçın ələ keçiriləndən sonra ermənilər Dağlıq Qarabağa birbaşa yardım göstərmək imkanı əldə etdilər. Laçın Azərbaycanın ermənilər tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsi ilə Ermənistan arasında kommunikasiya dəhlizi rolunu oynamağa başladı. Bu dəhliz vasitəsilə ərazidəki erməni silahlı birləşmələrinə silah-sursat yardımı göstərilir, ərzaq göndərilirdi. Beləliklə də sözügedən rayon ermənilərin müharibədə daha üstün mövqelərə çıxmasını şərtləndirən çox mühüm vasitəyə çevrildi. Lakin müharibənin Dağlıq Qarabağın sərhədlərindən kənara çıxması da beynəlxalq birliyin proseslərə fəal müdaxiləsinə gətirib çıxarmadı. Əksinə, Azərbaycan yenə də dünya ictimaiyyətinin laqeyd münasibətini müşahidə etməli oldu.

1992-ci ilin yayında Azərbaycan cəbhə bölgəsində, xüsusilə də Gülüstan və Ağdərə istiqamətlərində uğurlu hərbi əməliyyatlar keçirməyə müvəffəq olsa da, bu proses sona qədər davam etmədi. Ölkə daxilində hakimiyyət çəkişmələri və iqtidarın səriştəsizliyi yeni məğlubiyyətlər üçün stimul yaratmış oldu. 1993-cü ilin aprelində Dağlıq Qarabağın ərazisindən kənarda yerləşən Kəlbəcər işğal edildi. Kəlbəcərin işğalından sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ilk qətnaməsini qəbul etdi. Lakin bu qətnamədə nəzərdə tutulan tədbirlər bu günə qədər yerinə yetirilməmiş qalmaqdadır.

1993-cü ilin yayında Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldı. Bütün bunlara son qoymaq və ölkədə ictimai-siyasi sabitlik yaratmaq, cəmiyyətin ümumi təhlükəsizliyini təmin etmək üçün xalqın [33-34] böyük əksəriyyətinin təkidli tələblərindən sonra Heydər Əlirza oğlu Əliyev Bakıya dəvət olundu. Ölkəni gözləyən real vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılmasına nail olan Heydər Əliyev ictimai-siyasi sabitlik yaradılmasını da təmin etdi. Məhz onun müdrik fəaliyyəti nəticəsində Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Elə buna görə də 1993-cü ilin 15 iyunu müstəqil Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş günü kimi daxil oldu.

1993-cü ilin oktyabrında ermənilər Azərbaycanın Zəngilan rayonunu işğal etdilər və bu, Ermənistan ordusunun cəbhə bölgəsində sonuncu işğalçılıq əməliyyatı oldu. Çünki Heydər Əliyevin hakimiyyətə gəlişi vəziyyəti kökündən dəyişmişdi və cəmi bir neçə aydan sonra ölkədə güclü hakimiyyətin mövcudluğu nəzərə çarpmağa başladı. Heydər Əliyevin Zəngilanın işğalından sonra ölkə vətəndaşlarına məşhur müraciəti isə Azərbaycanın ordu quruculuğu tarixinin başlanğıcı oldu. Bu müraciət on minlərlə insanın cəbhəyə könüllü hərbi xidmətə yollanması ilə nəticələndi. Çox qısa vaxt ərzində ordu vahid komandanlığa tabe etdirildi, hərbi sahədə mühüm islahatlar aparıldı və bütün bunlar ictimai-siyasi sabitliyin yaradılması prosesi ilə paralel şəkildə həyata keçirilirdi.

Heydər Əliyev ictimai-siyasi sabitliyə nail olmaq üçün sonrakı dövrlərdə də bir çox təxribatların qarşısını almalı oldu. Bu, həm 1993-cü ilin avqustunda Ə. Hümbətovun qondarma respublika yaratmaq cəhdlərində, həm 1994-cü ilin 4 oktyabr hadisələrində, həm də 1995-ci ilin martında özünü göstərdi. Bu hadisələrin hər birində insanların Heydər Əliyevə dəstək verməsi, onun mövqeyini müdafiə etməsi Azərbaycan xalqının milli dövlətçilik ideyasına sədaqətini nümayiş etdirən tarixi faktlar kimi yadda qaldı. Bütün dünya azərbaycanlıların vahid bir xalq olaraq öz milli maraqlarını qətiyyətlə müdafiə etmək əzmində olduğunu gördü. Elə buna görə də

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişi tariximizə həm də milli dövlətçilik şüurunun formalaşmasının mühüm bir mərhələsi kimi düşdü.

Bu dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin alovlanması da bütün regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına ciddi maneələr yaradırdı. SSRİ-nin süqutu ilə daha gərgin xarakter [34-35] alan bu problemin beynəlxalq müzakirə mövzusuna çevrilməsi onun həll edilməsi imkanlarını bir qədər də çətinləşdirdi.

Lakin vəziyyəti ilk vaxtlarda müsbət məcraya yönəltməklə həll etmək mümkün idi. Müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edən hakimiyyət komandalarını isə "hakimiyyəti necə əldə saxlamalı" sualı düşündürürdü. Çox halda Dağlıq Qarabağ münaqişəsindən siyasi maraqlar üçün istifadə edirdilər. Elə buna görə də Ermənistan münaqişənin gerçək mahiyyəti barədə dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa və informasiya müharibəsini udmağa müvəffəq olmuşdu. Azərbaycanda bu uğursuzluğun qarşısını almağa istiqamətlənmiş siyasətin həyata keçirilməsinə isə məhz 1993-cü ildə başlanıldı. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra cəbhə xəttində qazanılmış uğurlar diplomatik müstəvidə də yeni nailiyyətlərlə müşayiət edildi.

Heydər Əliyev müasir dünyanın ziddiyyətli və ədalətsiz reallıqlarına dərindən bələd olan bir siyasi xadim kimi ilk növbədə beynəlxalq müstəvidə təbliğatın düzgün qurulmasına və beləliklə də dünya dövlətlərinin diqqətini bu işğal faktının əsl səbəblərinə yönəltməyə nail ola bildi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi münasibətlər sisteminin kifayət qədər uğurlu bir modelinin yaradılmasına və cəmiyyətin vahid ideologiya ətrafında topalanmasına rəvac vermiş oldu. Kimin necə qiymətləndirməsindən asılı olmayaraq, bu hadisə Azərbaycan tarixində müstəsna əhəmiyyətə malik bir mərhələnin əsasını təşkil edir və prezident Heydər Əliyevin yaratdığı idarəetmə sistemi ölkənin iqtisadi və siyasi inkişafının ən uğurlu parametrlərini müəyyənləşdirir.

Hakimiyyətə qayıdarkən Heydər Əliyev səriştəsiz rəhbərlərin Azərbaycana miras qoyub getdikləri bir çox ciddi problemləri həll etməli oldu. Ölkədə davamlı ictimai-siyasi sabitliyin yaradılması istiqamətində mühüm addımlar atıldı. İqtisadiyyatda tənəzzülə son qoyuldu və bütün bunlarla paralel olaraq Heydər Əliyevin 1993-cü ilin noyabrında ordunun vəziyyəti haqqında məşhur müraciəti hərb sisteminin formalaşdırılması prosesinin start nöqtəsi kimi tarixə düşdü. Çox keçmədi ki, Azərbaycan [35-36] Silahlı Qüvvələri Horadiz istiqamətində erməni ordusunun mövqelərinə əhəmiyyətli zərbə endirdi. Nəticədə işğal olunmuş 20-dən çox kənd azad edildi. Horadiz əməliyyatı Azərbaycan ordusunun Qarabağ müharibəsi dövründə qazandığı ən böyük qələbə idi və bu, artıq Ermənistanda ciddi təşviş doğurmuşdu. Azərbaycanda hərbi quruculuğun çox sürətlə getməsi qarşı tərəfin işğalçılıq planlarını davam etdirmək arzusundan çəkindirdi və 1994-cü ilin may ayında Ermənistanın dövlət başçısı atəşkəs haqqında sazişin imzalanmasına razılıq verməli oldu. Qeyd edək ki, bundan əvvəl də atəşin dayandırılması haqqında təkliflər gündəliyə çıxmışdı, amma ermənilər heç vəchlə buna getmək istəmirdilər. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra qüvvələr nisbətində baş vermiş dəyişikliklər tamamilə fərqli situasiya yaratdı və bu dəfə atəşkəsi Ermənistan özü istəməli oldu. May ayının Azərbaycan və Ermənistan silahlı qüvvələrinin təmas xəttində atəş dayandırıldı.

Lakin atəşin dayandırılması hələ müharibənin başa çatması demək deyildi. Atəşkəs əldə olunması Azərbaycana, sadəcə olaraq, öz qüvvələrini toplayıb formalaşdırmaq imkanı qazandırdı və çox qısa vaxt ərzində ölkədə ictimai-siyasi sabitlik yaratmaq, iqtisadi titrəyişləri aradan qaldırmaq mümkün oldu. "1994-cü ildə biz atəşi dayandırmışıq. Bəziləri bu barədə də müxtəlif fikirlər söyləyirlər. Mən bu gün bir də bəyan edirəm ki, 1994-cü ilin may ayında atəşin dayandırılması çox vacib tədbir idi və biz buna tam şüurlu olaraq getdik. Ötən dövr də bunu göstərir ki, - baxmayaraq, məsələ həll olunmayıbdır - bu tədbir həyata keçirilməli idi. İndi, təəssüflər olsun ki, çoxları müharibəni yaddan çıxarıblar, rahat yaşayırlar, sakitdirlər. Təəssüflər olsun ki, müharibə vaxtı necə idi, bunu unudublar. İnsanlar sakit yaşayırlar, iqtisadiyyatımız inkişaf edir, xarici investisiyalar gəlir, dövlət quruculuğu prosesi gedir, müstəqilliyimiz möhkəmlənir, Azərbaycan cəsarətli xarici siyasət aparır. Bunların hamısının müharibə şəraitində həyata keçirilməsi mümkün deyildi". Ümummilli liderimizin bu fikirləri atəşkəsin əhəmiyyətini bir daha dəqiq qiymətləndirməyə imkan verir. [36-37]

Razılaşmanın əhəmiyyəti yalnız bunlardan ibarət deyildi. Məhz atəşkəsdən sonra Azərbaycan münaqişənin ədalətli və obyektiv həlli üçün siyasi-psixoloji zəmin yaratmaq istiqamətində uğurlu diplomatik manevrlər etdi. Münaqişənin niyə, necə və nə vaxt başlaması haqqında beynəlxalq ictimaiyyətdə dolğun təsəvvür formalaşdırılması, nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin problemə münasibətində ikili standartları aradan qaldırmaq lazım idi və indi, atəşkəsin 10-cu ildönümü tamam olandan sonra biz bu mürəkkəb vəzifələrin uğurla həyata keçirildiyini tam əminliklə söyləyə bilərik.

Ümumiyyətlə isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmiz bir çox böyük itkilərə məruz qaldı. Respublikamızın ərazisinin 20 faizindən çoxu işğal edilmiş, bir milyona qədər insan qaçqın və məcburi köçkün kimi yaşamağa məcbur olmuş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 50 min nəfərdən çox insan əlil olmuş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi, 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, yandırılmış və dağıdılmışdır.

2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə geniş müzakirələr aparılmışdır. Həmin müzakirələr zamanı böyük öndərimiz geniş və məzmunlu nitq söyləyərək münaqişənin mahiyyəti barədə ətraflı təsəvvürlərin formalaşmasına xidmət edən məqamlara aydınlıq gətirdi: "Nə üçün belə oldu? Ona görə yox ki, Azərbaycan xalqı ermənilərdən gücsüzdür. Yox. Bizim çoxəsrlik tariximiz Azərbaycan xalqının nəyə qadir olduğunu nümayiş etdirir. Birincisi, ona görə ki, ermənilər, Ermənistan bu məsələyə uzun müddət hazırlıq görmüşdür. Amma Azərbaycanda bu məsələ unudulmuşdu. Həmin o illər unudulmuşdu. İkincisi, bu münaqişə başlayan zaman, yəni Ermənistanın torpaq iddiası meydana çıxandan sonra ermənilər hamısı - həm Ermənistanda, həm də dünyanın hər yerində yaşayan ermənilər bütün daxili ziddiyyətləri, münasibətləri unutdular, hamısı birləşdi. Hamısı “miatsum” ideyası ətrafında birləşdi və gücünü bir yerə yığıb bizi bugünkü günə gətirdi. Onlardan fərqli olaraq, Azərbaycanda bu hadisə [37-38] başlayan zaman xalqımız birləşə bilmədi, xalqa rəhbərlik edən adamlar səbatsızlıq etdi və bir-iki ildən sonra artıq Dağlıq Qarabağ məsələsi unuduldu. Azərbaycanda daxili çəkişmələr, vuruşmalar, hakimiyyət mübarizəsi başladı. Ona görə də belə bir vəziyyətdə ermənilər asanlıqla Azərbaycan torpaqlarını işğal etdilər".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazın həyatında mühüm problem kimi hələ də öz aktuallığını saxlamaqdadır. Əslində bu, tamamilə təbiidir. Regionda baş verən mühüm dəyişikliklər fonunda münaqişə ocaqlarının söndürülməmiş qalması ümumi situasiyaya mənfi təsir göstərməklə yanaşı, həm də burada maraqları olan dövlətlərin münasibətlərində həlledici faktor rolunu oynayır.

Məsələ artıq bir neçə ildir regional müstəvidən çıxaraq beynəlxalq əhəmiyyət kəsb etməyə başlayıb. Amma hələ də prosesə real təsir imkanlarına malik qüvvələr (söhbət həm nüfuzlu beynəlxalq təşkilatlardan, həm də ayrı-ayrı dövlətlərdən gedir) problemin birdəfəlik həllinə nail olmaq üçün konkret təzyiq mexanizmlərindən istifadə etmək istəmirlər. Əlbəttə, burada müxtəlif faktorların təsirini nəzərə almaq vacibdir, amma istənilən halda münaqişə həll edilməlidir və bunun yalnız bir yolu var: beynəlxalq hüquq normaları.

Yuxarıda sadaladığımız faktlar münaqişənin Azərbaycanın milli mənafelərini təmin edən prinsiplər əsasında həllinə istiqamətlənmiş konseptual fəaliyyət prosesinin ayrı-ayrı detallarıdır. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda çox şey dəyişib, o cümlədən Ermənistanın təcavüzkarlıq aktının aradan qaldırılması sahəsində də. AXC-Müsavat iqtidarı dövründə yerləşdiyi coğrafi regionda belə öz iradəsini nümayiş etdirmək imkanına malik olmayan Azərbaycan Heydər Əliyevin hakimiyyəti dövründə dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilib.

Ötən illər ərzində ölkəmiz Avropa Şurası kimi mötəbər bir təşkilatda tamhüquqlu üzv statusu ilə təmsil olunmaq imkanı qazandı və Qarabağ probleminin səbəb və nəticələri haqqında dünya ictimai rəyində obyektiv [38-39] təsəvvür toplusu formalaşdırmaq üçün bu tribunadan maksimum səmərəli istifadə edə bildi. Bu da bir cəbhədir və indi tərəddüdsüz söyləməyə əsasımız var ki, bu cəbhədəki döyüşlərdə Ermənistan Azərbaycana məğlub olub.

1994-cü ildə regionun iqtisadi perspektivini müəyyənləşdirən "Əsrin müqaviləsi" imzalandı və 2002-ci ildə bir çoxlarının əfsanə adlandırdığı Bakı-Tbilisi-Ceyhanın təməl daşı qoyuldu. Ermənistan dünyanın ən qüdrətli dövlətlərinin iştirak etdiyi bu layihədən kənarda qalıb və deməli, daha bir döyüşü uduzub.

Azərbaycan Türkiyə və Gürcüstanla üçtərəfli qarşılıqlı təhlükəsizlik paktı imzalayıb və Ermənistanı faktiki olaraq üç strateji müttəfiqin əhatəsində yaşamaq gerçəkliyi ilə üz-üzə qoyub. Ermənistan bu cəbhədə də tək qalıb.

ABŞ Azərbaycana tətbiq etdiyi 907-ci düzəlişin qüvvəsinin dayandırılması müddətini uzadır. Əvəzində Ermənistanı terrorizmi dəstəkləyən, insan alveri ilə məşğul olan ölkələr sırasında göstərir. ABŞ Dövlət Departamentinin hesabatında Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi göstərilir və Ermənistan tərəfindən işğal olunduğu qeyd edilir. Ermənistana ayrılan maliyyə yardımlarının həcmi ilbəil azaldılır. Prezident Corc Buş çıxışlarında Azərbaycan torpaqlarının işğal edilməsi faktından narahatlığını bildirir. Bu da Azərbaycanın qələbəsidir.

Azərbaycan iqtisadi göstəricilərinə görə postsovet məkanında ən qüdrətli ölkələrdən birinə çevrilməkdədir. Ermənistan isə xarici borcların müqabilində dövlət əhəmiyyətli müəssisələrini girov qoymaq məcburiyyətində qalıb. Azərbaycan ictimai-siyasi sabitlik, demokratiyanın inkişafı və daxili təhlükəsizlik baxımından Cənubi Qafqazın ən etibarlı ölkəsinə çevrilib. Ermənistanda isə terror siyasi həyatın adi atributudur.

Elə buna görə də tam əminliklə söyləmək olar ki, sülh danışıqlarının davam etdirilməsi və uğurla nəticələnməsi bəlkə də Azərbaycandan çox Ermənistana lazımdır. Bu, həm ölkənin daxili ictimai-siyasi vəziyyəti, həm də regionun mühüm dəyişikliklər astanasında olması faktı ilə əlaqədardır. Azərbaycanın Bakı-Tbilisi-Ceyhanla öz neftini dünya bazarlarına çıxarmağa başlaması [39-40] yeni iqtisadi yüksəliş və yeni siyasi situasiya deməkdir. Bu proses, şübhəsiz ki, Ermənistanın xeyrinə deyil - nə iqtisadi, nə də siyasi baxımdan. Azərbaycanın iqtisadi potensialını günü-gündən artırması təcavüzkar tərəfi danışıqlar prosesində daha uğursuz vəziyyətə salır. Üstəlik, ölkənin özünün daxilində mövcud olan problemləri də nəzərə alsaq, Yerevanın durumunu təsəvvür etmək çətin deyil.

Bütün bu amillər Azərbaycanın danışıqlarda öz şərtlərini diktə etmək imkanlarını artırır. Münaqişənin ədalətli həllinə nail olmaq üçün hər gün əvvəlkindən daha əlverişli şərait yaranır və görünür elə buna görə də prezident İlham Əliyev öz çıxışlarında Azərbaycanın tələsmədiyini dəfələrlə vurğulayıb. Andiçmə mərasimindəki nitqində cənab prezident demişdir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsip, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdaşı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Son dövrün müşahidələri də göstərir ki, Azərbaycan münaqişənin həlli ilə bağlı müəyyənləşdirdiyi prinsiplərə sadiq qalmaq əzmindədir və bunun tamamilə ciddi səbəbləri var. Birincisi, Azərbaycanın mövqeyi ədalətli mövqedir və beynəlxalq hüququn fundamental prinsiplərinə [40-41] əsaslanır. İkincisi, münaqişənin nəticələri Ermənistana heç də Azərbaycandan az təsir göstərməyib. Torpaqlarımızı işğal altında saxlaması bu ölkəni bütün transregional layihələrdən kənarda qoyub və indi Ermənistan iqtisadi fəlakətin bir addımlığındadır. Üçüncüsü, Dağlıq Qarabağ regionda maraqları olan dövlətlərin də mənafelərinə kifayət qədər ağır zərbələr vurub və deməli, münaqişəyə son qoyulması onlara da az lazım deyil. Dördüncüsü, bu konflikt həm Cənubi Qafqazda, həm də daha geniş miqyasda beynəlxalq münasibətlərin xarakterinə mənfi ştrixlər gətirir və bunu da nəzərdən qaçırmaq olmaz. Nəhayət, Böyük Sülh Sazişinin əldə olunmaması böyük müharibə təhlükəsini artırır. [41]

## DAĞLIQ QARABAĞ PROBLEMİNƏ DAİR 23 FEVRAL 2001-CI ILDƏ MİLLİ MƏCLİSDƏ KEÇİRİLƏN MÜZAKİRƏLƏRDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli Milli Məclis!

Hörmətli deputatlar, xanımlar və cənablar!

Mən sizi, Azərbaycanın Milli Məclisini, yeni seçilmiş Milli Məclisini səmimi qəlbdən salamlayıram və qarşıdakı beş il müddətdə görəcəyiniz işlərdə sizə uğurlar arzulayıram.

Bu Milli Məclis Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ikinci dəfə seçilmiş Milli Məclisdir. 1995-ci ildə seçilmiş Milli Məclis Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesinin inkişafı üçün, sosial-iqtisadi, hüquqi-siyasi islahatların keçirilməsi üçün çox iş görmüşdür və görülən işlərin əsas mənası da qəbul olunmuş qanunlardır. Tam cəsarətlə deyə bilərəm ki, ötən beş il ərzində Azərbaycanın Milli Məclisi çox məhsuldar işləmiş, çox böyük əhəmiyyətə malik olan və mürəkkəb xarakter daşıyan qanunlar qəbul etmişdir. Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur. Eyni zamanda, Milli Məclis Azərbaycan dövlətinin xarici siyasətinin həyata keçirilməsində də parlamentlərarası əlaqələr vasitəsilə, başqa vasitələrlə bizim ümumi işimizə öz payını vermişdir. Ona görə biz dövlət müstəqilliyi əldə ediləndən sonra Azərbaycanın ilk Konstitusiyası əsasında seçilmiş Milli Məclisin, keçmişdə olan Milli Məclisin fəaliyyətini bu gün məmnuniyyət hissi ilə layiqincə qiymətləndirməliyik.

İkinci dəfə seçilən Milli Məclis, hesab edirəm ki, öz tərkibinə görə, səviyyəsinə görə daha da keyfiyyətlidir. Tam əminəm ki, işinə yeni başlamış Milli Məclis keçən dövrdən də məhsuldar işləyəcək və əldə olunmuş təcrübədən səmərəli istifadə edəcəkdir. Beləliklə, Azərbaycanda [42-43] dövlət müstəqilliyinin daha da möhkəmlənməsi üçün və müstəqil dövlətin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün ali qanunvericilik orqanı kimi öz üzərinə düşən vəzifələri yerinə yetirəcəkdir. Mən sizinlə ilk dəfə görüşərək Milli Məclisə deputat seçildiyinizə görə sizi təbrik edirəm və yeni Milli Məclisə bir daha, bir daha uğurlar arzulayıram.

Bugünkü müzakirəyə çıxarılan məsələ tam müzakirə xarakteri daşımır. Bu məsələ mənim təşəbbüsümlə Milli Məclisin müzakirəsinə çıxarılır. Sual olunur, nə üçün bu məsələ indiyə qədər Milli Məclisin müzakirəsinə çıxarılmırdı və indi çıxarılır? İzah edirəm.

Birincisi, ona görə ki, son illərdə Milli Məclisdə, xüsusən müxalifət düşərgəsində dəfələrlə təkliflər irəliyə sürülüb, tələblər qoyulubdur ki, Azərbaycanın həyatının, müstəqil dövlətimizin ən ağır, ən çətin və bizim inkişafımıza mane olan ən böyük problemin – Ermənistan – Azərbaycan münaqişəsinin həlli, Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması və yerindən-yurdundan didərgin düşmüş insanların öz torpaqlarına qaytarılması məsələsi Milli Məclisdə müzakirə olunsun. Hətta bəziləri belə təkliflər irəli sürüblər ki, Milli Məclisdə bunun üçün komissiya yaransın və komissiya məşğul olsun. Ancaq Azərbaycanın prezidenti kimi mən bu təklifləri məqsədəuyğun hesab etməmişəm. Ona görə də öz üzərimə düşən vəzifəni ötən illər, təbiidir ki, tək yox, bütün hakimiyyət orqanları ilə birlikdə, müvafiq icra orqanları ilə və Milli Məclisin rəhbərliyi ilə birlikdə həll etməyə çalışmışam.

Xarici işlər naziri Vilayət Quliyev bu dövrdə olan əsas məsələlər haqqında məlumat verdi. Sizin bu məsələnin müzakirəsində iştirak etməyiniz üçün, yaxud daha dəqiq desək, bugünkü vəziyyəti düzgün qiymətləndirməyiniz üçün və sizin, təkcə sizin yox, bütün Azərbaycan ictimaiyyətinin, Azərbaycanın bütün siyasi qüvvələrinin, o cümlədən müxalifət qüvvələrinin hamısının səylərinin birləşdirilməsi üçün bu gün bu məsələ Milli Məclisə çıxarılmışdır. Təkcə Milli Məclisə yox, biz belə qərar qəbul etmişik ki, iclasın gedişi indi tamamilə yazılır və televiziya vasitəsilə veriləcəkdir ki, Azərbaycanın ictimaiyyəti, vətəndaşları bu məsələni dərindən bilsinlər. [43-44]

Məqsədim ondan ibarətdir ki, siz də bilin və Azərbaycan ictimaiyyəti də bilsin – indiyə qədər məsələnin həll olunması üçün nə işlər görülübdür, nə əldə etmək mümkün olubdur və ən əsas nə etmək lazımdır. Bu münaqişənin tarixi böyükdür. 1988-ci ildə ermənilər ilk dəfə, yəni Ermənistan və Dağlıq Qarabağda olan ermənilər Dağlıq Qarabağın Azərbaycandan ayrılması və Ermənistana birləşməsi haqqında çox ciddi, sərt hərəkətə başlamışdılar və demək olar ki, bu hərəkəti uğurla həyata keçirmişlər.

"Miatsum" sözü indi yaddan çıxıbdır. Erməni sözüdür. Ancaq o vaxt hər bir ermənistanlı erməninin, Dağlıq Qarabağda yaşayan hər bir erməninin, yaxud dünyada yaşayan erməninin dilində gündə bir neçə dəfə təkrar olunan sözdür.

Mən xeyli müddət bu məsələlərlə tanış olduğuma görə və bilavasitə Azərbaycanda rəhbər olduğum dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin problemləri ilə yaxından məşğul olduğuma görə, ümumiyyətlə, bu problemin tarixini də yaxşı bilirəm və çətinliyini də bilirəm. Ermənilərin bu torpaq iddiası yeni bir şey deyildir.

Bilirsiniz ki, keçmişdə Azərbaycan da, Ermənistan da, ümumiyyətlə, Qafqaz da Rusiyanın tərkibində olanda heç bir respublika yox idi və respublikalar arasında heç bir sərhədlər yox idi.

Çar Rusiyası 1804-1813-cü illər və 1826-1828-ci illər müharibələrindən sonra Şimali Azərbaycana hakim olduğu zamandan tədricən, ilbəil burada öz hakimiyyətini möhkəmləndirib və nəhayət, öz üsul-idarəsini tətbiq edibdir. Yəni uzun illər Romanovlar nəsli tərəfindən tətbiq olunan üsul-idarəni tətbiq edibdir və artıq o vaxt Rusiyanın bu hissəsi də quberniyalara, qəzalara bölünübdür. Quberniyaları, qəzaları bütün hakimiyyət orqanlarını da çar hökumətinin nümayəndələri idarə ediblər. Yəni sərhəd olmayıbdır. Kim harada yaşayırdısa, orada da yaşayıbdır.

Ancaq eyni zamanda, bizim tariximiz vardır. Bilirik ki, Azərbaycan hansı ərazidə olubdur. Bunu yaxşı bilirik. Hamımız bilirik və bunu, tariximizi yada salaraq ürək ağrısı ilə deyirik ki, Azərbaycanın ərazisi indikindən xeyli böyük, geniş olubdur. Ancaq tarixin müəyyən mərhələlərində bu ərazinin bir hissəsi ermənilərə keçibdir – bir dəfə, iki dəfə, üç dəfə. [44-45]

1918-ci ildə Azərbaycanda ilk dəfə xalq cümhuriyyəti yaranıbdır. Elə xalq cümhuriyyəti yarananda da Dağlıq Qarabağ vilayətində müharibə gedirdi. Sonra isə xalq cümhuriyyəti tezliklə süqut etdi və Azərbaycan Sovet Sosialist Respublikası yarandı. 1922-ci ildə isə SSRİ yarandı. Azərbaycan da SSRİ-nin təşkilatçılarından biri idi. O vaxt sərhədlər müəyyən olunurdu. Bu gün keçmişi xatırlayaraq biz tam həqiqətlə deyə bilərik ki, Azərbaycana o illərdə də qəsd olunubdur. Azərbaycan torpaqlarının bir hissəsi Ermənistana verilibdir, sərhədlər düz bölünməyibdir. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaranıbdır. Onun da tarixi məlumdur. Ermənilər hesab edirlər ki, burada o vaxt ermənilərə qarşı ədalətsizlik olubdur. Amma biz isə hesab etmişik və bu gün də hesab edirik ki, Azərbaycana qarşı qəsd olunubdur. Çünki əhalisinin bir hissəsi erməni millətinə mənsub olduğuna görə Dağlıq Qarabağda muxtar vilayət yaranması – demək, Azərbaycanın daxilində hansı bir əraziyə muxtariyyət vermək və muxtariyyət prinsipləri əsasında ona hüquqlar verməkdən ibarətdir.

Ondan sonra Ermənistan və deyə bilərəm ki, daha çox Ermənistanın millətçi dairələri, ziyalıları, hamısı yox, amma qatı millətçi ziyalıları, daşnak partiyası, – hansı ki, bilirsiniz, keçən əsrin sonunda meydana çıxıbdır, müxtəlif ölkələrdə fəaliyyət göstərib və bu gün də göstərir, – bütün bu qüvvələr vaxtaşırı, SSRİ dövlətinin mövcud olduğu bir halda, Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana verilməsi məsələsini qaldırıblar.

Mən dedim ki, bu işləri fəaliyyətimə görə yaxşı bilirəm. Bu məsələni 50-ci, 60-cı illərdə qaldırıblar. Mənim o vaxt işlədiyim sahə elə idi ki, bunları yaxşı bilirəm. Nəhayət, 1969-cu ildən Azərbaycana rəhbərlik etmişəm. O zaman da bu məsələlər qaldırılıbdır. 1977-ci ildə SSRİ-nin Konstitusiyası qəbul olunarkən Konstitusiyanı hazırlamaq üçün komissiya təşkil edilmişdi. Komissiyaya o vaxtkı Kommunist Partiyasının baş katibi Brejnev rəhbərlik edirdi və respublikaların nümayəndələri də, o cümlədən mən də bu komissiyanın üzvü idim. Komissiya layihə hazırladığı dövrdə, təxminən bir il müddətində həddindən artıq təkliflər gəlmişdi ki, Dağlıq Qarabağ ayrılıb Ermənistana verilməlidir. Hətta bir-iki dəfə bu məsələnin komissiyada baxılmasına cəhd olmuşdu. [45-46]

Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt bunların qarşısını aldım. Amma qarşısını almaq da çətin idi. Amma aldım. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım. Amma eyni zamanda, Dağlıq Qarabağda vəziyyəti həmişə qızışdırırdılar. Ona görə də mən Azərbaycana rəhbərlik etdiyim zaman, – bunu açıq demək lazımdır, – biz Dağlıq Qarabağa daha çox iqtisadi cəhətdən şərait yaradırdıq, onların iqtisadiyyatının inkişaf etməsinə üstünlük verirdik. Çünki daim məsələ qalxırdı ki, guya Dağlıq Qarabağı Azərbaycanda sıxışdırırlar və ermənilər Dağlıq Qarabağda inkişaf edə bilmir. Azərbaycanın bütövlüyünü saxlamaq, bütün ərazisini qorumaq üçün biz o vaxtlar, yenə də deyirəm. Dağlıq Qarabağa daha da çox diqqət yetirirdik. Doğrudur, sonra bəzi diletant adamlar məni günahlandırırdılar ki, bunu nə üçün edirdim. Mən bu gün də deyirəm, edirdim. Edirdim ona görə ki, birincisi, Dağlıq Qarabağı azərbaycanlılarla da məskunlaşdırmaq lazım idi, ikincisi, Dağlıq Qarabağa, ermənilərə imkan verməyək ki, bu məsələni qaldırsınlar.

Sonra məsələ tərsinə oldu. Bu münaqişə başlanandan sonra mətbuatda, SSRİ mətbuatında məni yenə də günahlandırdılar ki, Azərbaycana rəhbərlik etdiyim zaman guya erməniləri sıxışdırmışam, oradakı demoqrafik vəziyyəti dəyişdirmişəm, ermənilərin oradan çıxması üçün müəyyən tədbirlər görmüşəm və ermənilər Dağlıq Qarabağda azalıblar. Azərbaycanın başqa yerlərində azaldıqları kimi, Dağlıq Qarabağda da azalıblar. Bunu ermənilər deyirdilər və hətta o vaxtlar bu məsələlər SSRİ Ali Sovetinin sessiyasında müzakirə olunanda onların nümayəndələri, hətta Ermənistan Elmlər Akademiyasının prezidenti Ambarsumyan, – biz vaxtilə onu Azərbaycan Elmlər Akademiyasının fəxri üzvü seçmişdik, o cümlədən dostluğu möhkəmləndirmək üçün Gürcüstan Elmlər Akademiyasının üzvü seçilmişdi, – mənim adımı çəkirdi. O söz indiyə qədər yadımdadır ki, Heydər Əliyev Dağlıq Qarabağı, Azərbaycanı ardıcıl surətdə ermənilərdən təmizləmişdir. Mən buna təəccüb etmirdim, amma ona təəccüb edirdim ki, o vaxt Azərbaycanda çoxları yenə də Əliyevi günahlandırır və həmin o sözlərlə razılaşırdılar: bəli, Heydər Əliyev Dağlıq Qarabağa pis münasibət göstərir. Ona görə də indi ermənilər Dağlıq Qarabağı Ermənistana bağlamaq istəyirlər. [46-47]

Mənim bunları sizə çatdırmaqda məqsədim ondan ibarətdir ki, bilin, yəni bu, yeni problem deyildir.

Ermənistan tərəfi bunun üzərində işləyirdi. O fakt da nəzərdən qaçmamalıdır ki, mən Moskvada bütün işlərdən kənarlaşdırılandan 25 gün sonra bu proses sürətlə başladı. Ondan bir ay sonra Dağlıq Qarabağda olan ermənilərin hamısı ayağa qalxdılar və qərar qəbul etdilər ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilsin. Ondan sonra bu faciələr başladı, bunun nəticəsi də göz qabağındadır.

Mən bu gün hesab edirəm ki, günahkar axtarmaq üçün, kim günahkardı, kim günahkar deyil, torpaqlar nəyə görə işğal olunubdur – biz buraya ondan ötrü toplaşmamışıq. Mən rica edərdim ki, bu məsələlər kənarda qalsın. Ancaq bir məsələyə fikrimi demək istəyirəm.

Nə üçün belə oldu? Ona görə yox ki, Azərbaycan xalqı ermənilərdən gücsüzdür. Yox. Bizim çoxəsrlik tariximiz Azərbaycan xalqının nəyə qadir olduğunu nümayiş etdirir. Birincisi, ona görə ki, ermənilər, Ermənistan bu məsələyə uzun müddət hazırlıq görmüşdür. Amma Azərbaycanda bu məsələ unudulmuşdu. Həmin o illər unudulmuşdu. İkincisi, bu münaqişə başlayan zaman, yəni Ermənistanın torpaq iddiası meydana çıxandan sonra ermənilər hamısı – həm Ermənistanda, həm də dünyanın hər yerində yaşayan ermənilər bütün daxili ziddiyyətləri, münasibətləri unutdular, hamısı birləşdilər. Hamısı "miatsum" ideyası ətrafında birləşdi. Və gücünü bir yerə yığıb bizi bugünkü günə gətirdilər. Onlardan fərqli olaraq, Azərbaycanda bu hadisə başlayan zaman xalqımız birləşə bilmədi, xalqa rəhbərlik edən adamlar səbatsızlıq etdi və bir-iki ildən sonra artıq Dağlıq Qarabağ məsələsi unuduldu, Azərbaycanda daxili çəkişmələr, vuruşmalar, hakimiyyət mübarizəsi başladı. Ona görə də belə bir vəziyyətdə ermənilər asanlıqla Azərbaycan torpaqlarını işğal etdilər.

Yenə də deyirəm və xahiş edirəm ki, bu gün müzakirə zamanı biz bu məsələlərə toxunmayaq. Bu, sonranın işidir – əgər lazımdırsa. Mənim bu gün buraya gəlməyimin məqsədi və Milli Məclisə müraciətimin, təşəbbüsümün məqsədi ondan ibarətdir ki, yaranmış vəziyyəti Milli Məclis də, ictimaiyyət də, xalq da bilsin. Amma təkcə ona görə yox ki, bilsin. Gəlin, hamımız bir yerdə belə bir ağır vəziyyətdə düşünək. Nəinki düşünək, bir yerdə əməkdaşlıq edək ki, biz bu vəziyyətdən necə çıxa bilərik. Rica edirəm ki, burada çıxış edən adamlar nə tarixə toxunsunlar, [47-48] nə kimisə günahlandırsınlar, günahlı-günahsız olub-olmamasını desinlər. Bunların hamısı bu gün lazım deyil. Bunların heç biri lazım deyildir. Bu gün bizə o lazımdır ki, qarşımızda duran vəzifəni neçə yerinə yetirək.

Biz indiyə qədər nə etmişik? Bunu xarici işlər naziri dedi. Mən də bir neçə kəlmə deyəcəyəm. Ancaq indiki vəziyyətdə nə etməliyik? Çünki Azərbaycanın torpaqlarının 20 faizi işğal olunubdur – əvvəlcə Dağlıq Qarabağ, ondan sonra Dağlıq Qarabağın ətrafında yeddi rayon. İşğal olunmuş torpaqlardan, – Ermənistandan çıxarılanları da hesab etsək, – bizim bir milyon qaçqınımız vardır. Xüsusən, işğal olunmuş torpaqlardan çıxarılan insanlar bir-iki il yox, yeddi-səkkiz ildir çadırlarda ağır vəziyyətdə yaşayırlar.

1994-cü ildə biz atəşi dayandırmışıq. Bəziləri bu barədə də müxtəlif fikirlər söyləyirlər. Mən bu gün bir də bəyan edirəm ki, 1994-cü ilin may ayında atəşin dayandırılması çox vacib tədbir idi və biz buna tam şüurlu olaraq getdik. Ötən dövr də bunu göstərir ki, – baxmayaraq, məsələ həll olunmayıbdır, – bu tədbir həyata keçirilməli idi. İndi, təəssüflər olsun ki, çoxları müharibəni yaddan çıxarıblar, rahat yaşayırlar, sakitdirlər. Təəssüflər olsun ki, müharibə vaxtı necə idi, bunu unudublar. İnsanlar sakit yaşayırlar, iqtisadiyyatımız inkişaf edir, xarici investisiyalar gəlir, dövlət quruculuğu prosesi gedir, müstəqilliyimiz möhkəmlənir, Azərbaycan cəsarətli xarici siyasət aparır. Bunların hamısının müharibə şəraitində həyata keçirilməsi mümkün deyildi.

Biz atəşi dayandıranda ona ümid bəsləyirdik ki, atəşkəs dövründə məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq. Ancaq bəlkə çoxları bilmir. Biz həmin o günlər bir xətadan qurtardıq. Onda bu məsələdə əsasən Rusiya vasitəçilik edirdi. Baxmayaraq ki. Minsk qrupu da var idi. Amma Rusiya təşəbbüsü öz əlinə keçirmişdi. Atəşkəsin dayandırılması haqqında saziş imzalandı və dərhal Rusiyanın müdafiə naziri xahiş etdi ki, qoy, Ermənistanın və Azərbaycanın müdafiə nazirləri Moskvaya gəlsinlər, oturaq, məsləhətləşək ki, torpaqları bundan sonra necə azad edək. Buna inandıq. Müdafiə nazirimizi oraya göndərdik. O vaxt Məmmədov familiyalı bir müdafiə nazirimiz var idi. Təəssüf ki, o vaxtlar müdafiə nazirlərinin [48-49] bir neçəsi layiqli insanlar olmayıblar. Ancaq sabahı gün nə baş verdi? Onda Minsk qrupunun həmsədri yox idi, sədr idi. İsveçdən Yan Eliasson sədr idi. O, Ermənistanda olmuşdu, sonra buraya gəlmişdi. O da atəşkəsin yaranmasında iştirak edirdi. Mən onunla danışıq aparırdım. Birdən mənə xəbər verdilər ki, Moskvadan televiziya göstərir ki, Qraçov böyük iclas keçirir və orada tədbirlər görür ki, Azərbaycanda nə etmək lazımdır. Mən dərhal narahat oldum. Moskvada müdafiə nazirimizi axtardım. Nə meydana çıxdı? Meydana çıxdı ki, buradan Rəsul Quliyevin razılığı ilə, Moskvada da bizim səfirin iştirakı ilə orada belə bir danışıq gedir ki, atəşkəsi təmin etmək üçün Rusiya öz ayrıcı qoşunlarını bölgəyə göndərsin. Həsən Həsənov buradadırmı?

**Həsən Həsənov *(keçmiş xarici işlər naziri):*** Bəli, cənab prezident.

**Heydər Əliyev:** Yadındadırmı?

**Həsən Həsənov:** Bəli, çox yaxşı yadımdadır.

**Heydər Əliyev:** Gecə səhərə qədər neçə saat axtardıq.

**Həsən Həsənov:** Onu səhər saat 7-də tapdıq.

**Heydər Əliyev:** Mən onu saat 7-də məcbur etdim ki, təcili təyyarəyə min, buraya gəl. Yadındadır?

**Həsən Həsənov:** O, bir müddət gizləndi. Hətta iki saat onu tapa bilmədik, gec gəldi.

**Heydər Əliyev:** Bəli. Gizləndi, bizə xəyanət etdi. Bununla qurtarmadı.

Ondan üç gün sonra Rusiyanın Müdafiə Nazirliyinin böyük tərkibdə generalları Azərbaycana planlarla gəldilər ki, harada nəyi yerləşdirəcəyik və sizə kömək edəcəyik ki, Ermənistan qoşun hissələri buradan çıxsınlar. Mən onları dinlədim, dedim, təşəbbüsünüzə görə sağ olun. Amma bizim buna ehtiyacımız yoxdur. Çox cəhd etdilər, bəlkə biz gedək, yenə baxın. Dedim yox. Xahiş edirəm ki, siz buradan dönüb öz yerinizə gedəsiniz. Biz o vaxt belə bir təhlükədən çıxdıq.

Amma müsbət cəhəti qeyd etmək lazımdır ki, biz heç bir ayırıcı qüvvə olmadan Ermənistanla Azərbaycan arasında 6 ildən çoxdur ki, atəşkəsi saxlaya bilmişik. Bu da təkcə bizim xidmətimiz deyil, yəqin ki, Ermənistan tərəfinin də bu barədə, atəşkəsin saxlanmasına olan müsbət [49-50] münasibətini etiraf etməliyik. Yenə də deyirəm, ondan sonrakı danışıqlar bizə istənilən nəticəni verməyibdir. Ancaq mən daha geniş məlumatınız olması üçün bir neçə kəlmə sülh danışıqları prosesi haqqında demək istəyirəm.

1992-ci ildə ATƏT-in Minsk qrupu yaranıbdır və Birləşmiş Millətlər Təşkilatı bu məsələni ATƏT-in himayəsinə veribdir. ATƏT də Minsk qrupu və Minsk konfransı yaradıbdır. Minsk qrupuna 12 dövlət daxildir. Ancaq Minsk qrupunun sədrləri olubdur. Məsələn, mən 1993-cü ildə burada işə başlayanda İtaliya, İtaliyanın xarici işlər nazirinin müavini Rafaelli sədrlik edirdi. Ondan sonra – 1994-cü ildə İsveç, İsveçi xarici işlər naziri Yan Eliasson sədrlik edirdi. 1994-cü ildən sonra biz vəziyyəti dəyişdirdik. Ancaq bu zaman, paralel olaraq, elə müharibə gedən zaman bu məsələnin həll olunması üçün Rusiya xarici işlər nazirinin nümayəndəsi, məlum şəxs Kazimirov bu işlə məşğul oldu. Ayda bir dəfə bölgəyə gəlirdi. Bizim nümayəndələrimizi Moskvaya dəvət edirdi. O vaxt Tofiq Zülfüqarov xarici işlər nazirinin müavini idi və bu məsələlər üzrə ekspert idi. O, gedib orada danışıqlarda iştirak edirdi. Dağlıq Qarabağdan da oranın "xarici işlər naziri" Qukasyanı gətirirdilər. Biz də buradan Dağlıq Qarabağın Azərbaycan icmasının başçısı Bəhmənovu göndərirdik. İş belə paralel gedirdi. Amma mən gördüyüm dövrdə Minsk qrupuna sədrlik edən İtaliya, sonra İsveç idi. Nəhayət, 1994-cü ildə ATƏT-in Budapeşt sammitində biz vəziyyəti dəyişdirdik. Yəni bir az qanuna saldıq.

Mən açıq deyim, orada da Amerika Birləşmiş Ştatları ilə Rusiya arasında müəyyən bir başqa məsələ barədə danışıq oldu. Həsənov onu da bilir. Ola bilər, bunu Əzimov da bilir. O da orada idi. Tofiq Zülfüqarov da bilir. Orada Kristofer Rusiyanın xarici işlər naziri ilə görüşdü və öz məsələlərini həll etmək üçün razılıq verdilər ki, Minsk qrupunun həmsədri Rusiya və Finlandiya olsun. Sonra biz 1996-cı ilin dekabr ayına qədər bu dövrü yaşadıq.

1996-cı ilin dekabrında Lissabon sammitində müəyyən irəliləyiş əmələ gəldi. O vaxta qədər heç bir şey etmək mümkün deyildi. Amma 1994-cü ilin dekabrında Budapeştdə biz birincisi, Minsk qrupunun sədrlik məsələsini müəyyənləşdirdik, ikincisi də, orada ilk dəfə qərar qəbul [50-51] olundu ki, ATƏT-in sülhməramlı qüvvələri yaransın və saziş əldə olunarsa, buraya, bizim bölgəyə hansısa bir ölkənin yox, ATƏT-in sülhməramlı qüvvələri daxil olsun. Biz nəzərdə tuturduq ki, sülhməramlı qüvvələr bu bölgədə marağı olmayan ayrı-ayrı ölkələrin nümayəndələrindən ibarət olacaqdır. Bu da çox əhəmiyyətli bir qərar idi. Biz buna nail ola bildik.

Lissabon sammitində biz, demək olar ki, ciddi irəliləyişə nail olduq. Yəni nəyə – məlumdur. İlk dəfə yazıldı ki, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü tanınsın. Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilsin və Dağlıq Qarabağın əhalisinin – həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyi təmin edilsin.

Artıq burada məruzədə də deyildi. Mən sizə hər şeyi açıq deməliyəm. Bu, bizim üçün o qədər də məqbul bir şey deyil, amma biz bir az irəliləmək istəyirdik. Ona görə də biz bunu irəliyə doğru böyük bir addım hesab etdik. Bu layihə Finlandiyada hazırlanmışdı, sonra da Vyanada hazırlanmışdı və Lissabona gətirilmişdi. Lissabonda Ermənistan bu layihənin tamamilə əleyhinə çıxdı. Biz orada nə qədər çalışdıq – dəfələrlə demişik. Ermənistan əleyhinə çıxdı. Orada da qayda belədir ki, konsensus olmalıdır. Konsensus alınmadı.

Mən bunu demişəm, bilirsiniz. Məcbur oldum, ola bilər, diplomatiya tarixində nadir bir haldır ki, mən belə bir addım atdım. Mən bütün Lissabon sammitinin qərarına razılıq vermədim. Beləliklə, əgər bir ölkə qərara razılıq vermirsə, Lissabon sammiti qərar qəbul edə bilməzdi. Bunu nə üçün etdim? Çünki heç olmasa zirvə görüşünün iştirakçı dövlətlərini məcbur edim ki, Azərbaycana qarşı bir münasibət göstərsinlər. Ondan sonra məlum bəyanat qəbul olundu. Ermənistan ona yenə də səs vermədi, 53 dövlət səs verdi.

Sonrakı dövr nədən ibarətdir? Lissabon sammitindən sonra biz hesab etdik ki, Minsk qrupunun həmsədrləri daha da güclənsinlər. Finlandiya həmsədrlikdən çıxdı, Rusiya qaldı, Amerika Birləşmiş Ştatları öz xidmətini təklif etdi və biz də bunu istədik. Biz Amerika Birləşmiş Ştatlarını təklif etdik. Ermənistan da, Rusiya da bununla razı olmadı. Onlar Fransanı qəbul etdilər. Biz onunla razı olmadıq. Nəhayət, dövlətlər bir-biri ilə [51] razılığa gələ bilmədiklərinə görə, həmsədrlər iki yox, üç oldu. Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Siz bilməlisiniz, buna qədər bizə Minsk qrupu tərəfindən hansısa yazılı bir konkret təklif verilməmişdir.

Yenə də deyirəm, bir tərəfdən Rusiyanın nümayəndəsi Kazimirov çox fəal işləyirdi. İki-üç aydan bir bizim nümayəndələr Ermənistan nümayəndələri ilə, hətta Dağlıq Qarabağın nümayəndələri ilə Moskvada, yaxud başqa yerdə görüşürdülər. Heç bir nəticə çıxmırdı. Minsk qrupuna artıq üç böyük dövlət həmsədrlik edirdi və biz tələb etdik ki, siz konkret təkliflərinizi verin.

Vilayət Quliyev bu təkliflər haqqında burada dedi. Birinci təklif, "paket həll" təklifi 1997-ci ilin iyun ayında verildi. İndi deyərsiniz, kimsə deyər ki, siz onu niyə qəbul etdiniz? Biz onu qəbul etdik ki, görək, irəliyə

gedə bilirik, yoxsa yox. Hətta xatirimdədir, mən avqustun 1-də Vaşinqtonda, Ağ evdə Klintonla görüşərkən o, bunu çox yüksək qiymətləndirdi. Hətta məndən xahiş etdi, siz də öz çıxışınızda deyin ki, – çünki o da çıxış etdi, nitq söylədi, mən də, – bunu qəbul edirsiniz. Dedim. Ermənistan bunu qəbul etmədi.

Ondan sonra ikinci təklif, "mərhələli həll" təklifi verildi. Biz onu yenə qəbul etdik. Ona görə yox ki, o, bizim üçün əlverişli idi. Düzdür, o, əvvəlkindən bir az əlverişli idi. Bu barədə Vilayət Quliyev dedi. Amma biz istəyirdik ki, bir balaca hərəkət olsun. Ermənistan bunu da qəbul etmədi. Sonrakı proseslər haqqında Vilayət Quliyev danışdı.

Nəhayət, Ermənistanda Ter-Petrosyan ikinci təklifi qəbul etdi. Biz Strasburqda birgə bəyanat verdik ki, bunun əsasında işləyək. Ermənistanda Ter-Petrosyana müxalifət meydana çıxdı. Beləliklə, 1998-ci ilin fevral ayında Ter-Petrosyan istefa verdi və ondan bir az sonra Koçaryan prezident seçildi. 1998-ci ildə heç bir şey yox idi. Minsk qrupu heç bir şey vermirdi. Bəs niyə vermirsiniz? Deyirlər ki, biz gözləyirik, Ermənistanda yeni prezident seçilir, hökumət yaranır, filan olur, feşməkan olur. Gözlədik-gözlədik, axırda, 1998-ci ilin sonunda bizə gətirib "ümumi dövlət" təklifini verdilər. Azərbaycanda belə bir söz var ki, bu, qaradan da qaradır. Əvvəlki təkliflərlə müqayisədə, bu, Azərbaycanın qat-qat zərərinə idi. [52-53]

Həmin danışıqlarda iştirak edənlər xatırlaya bilərlər. Mən eşidən kimi, dedim ki, biz bunu müzakirə etmək istəmirik. Çox çalışdılar ki, mənə izah etsinlər. Dedim, mən bunu müzakirə etmək istəmirəm. Siz bizi gətirib elə vəziyyətə qoyursunuz ki, Azərbaycanın ərazisində iki dövlət olur – Azərbaycan, bir də Dağlıq Qarabağ və Azərbaycanın Dağlıq Qarabağa heç bir hüququ yoxdur. Bunun da üstünə örtük örtürsünüz ki, beləliklə, Azərbaycanın ərazi bütövlüyü saxlanılır. Dedim, siz nə düşünürsünüz, biz o qədər dəli olmuşuq ki, bunun nə demək olduğunu anlamırıq? Biz bundan imtina etdik. Ancaq Ermənistan bunu qəbul etdi və indiyə qədər də Ermənistan hər yerdə çıxış edərkən bəyan edir ki, əgər Azərbaycan 1998-ci ilin sonunda "ümumi dövlət" formulasını qəbul etsəydi, indi sülh yaranmışdı, münaqişə qurtarmışdı. Əlbəttə, onların xeyrinə. Vəziyyət belədir.

Siz bilməlisiniz, bu gün müzakirəni apararaq mən sizə bildirirəm ki, bu üç təklifin üçü də tarixdə qalıbdır. Onlar artıq geriyə qayıda bilməzlər. Hesab edirəm ki, son təklif Azərbaycana qarşı edilən böyük təxribat idi və biz onu tamamilə rədd etdik. Ondan sonra Minsk qrupu heç bir təklif verməyibdir.

Mən dünən də, bu gün də eşitdim ki, bu məsələləri, təklifləri mətbuata verəndə cürbəcür danışıqlar olubdur. Hətta bizim ölkədə olan müxalifət partiyaları, nə bilim, təşkilatlar və s. Yığışıb hay-küy salıblar ki, Heydər Əliyev "ümumi dövlət" formulasını qəbul etmək istəyir, nə bilim, parlamentdə bunu qəbul etdirmək istəyir, filan etmək istəyir. Bilirsiniz, dəhşət bundadır, bizim xalqımızın, millətimizin dərdi bundadır.

Ay bizim vətəndaşlarımız, əsassız siyasi ambisiya ilə yaşayan insanlar, buraya dəvət olunmusunuz. Gəlin, dinləyin. Əgər Heydər Əliyev bu məsələdə Azərbaycanın mənafeyini müdafiə etməyibsə, durun, onun başını yarın.

Ancaq uydururlar, hay-küy qaldırırlar. Dünən axşam ANS televiziyası xəbər verir ki, 50 siyasi partiya aksiyalar keçirmək üçün qərar qəbul edibdir. Bilirsiniz, mən ANS televiziyasına məsləhət görərdim ki, daha çox ədalət prinsipləri əsasında yaşasınlar, sensasiya əsasında yox. Əslində, Azərbaycanda heç 40 partiya yoxdur. Özlərini partiya adlandıranlar partiya deyillər, elə onları da götürsək, yenə də 50 partiya yoxdur. [53-54] Qeydiyyatdan keçmiş partiyaların hamısı məlumdur və onlar buraya dəvət olunublar. Amma Murtuz müəllim dedi ki, bəziləri gəlməyiblər. Bəs niyə gəlmirsiniz? Bir tərəfdən müzakirə istəyirsiniz, istəyirsiniz ki, biz fikirlərimizi açaq, hər şeyi biləsiniz. Digər tərəfdən isə heç bir şey bilmədən, özünüz yalandan uydurasaq, hay-küy salırsınız. Biri deyir, aksiya keçirmək lazımdır, biri deyir, xalqı qaldırmaq lazımdır. Bilsinlər, heç kəs bunu edə bilməz. Azərbaycanın Konstitusiyası var, qanunları var. O zamanlar keçdi. Azərbaycan dövləti qüdrətli dövlətdir. Konstitusiya çərçivəsində, danışıqlar, demokratiya, siyasi plüralizm, qanunun aliliyi çərçivəsində hər adam fəaliyyət göstərə bilər. Amma kim bunlardan kənar fəaliyyət göstərmək istəyirsə, o, cavabını alacaqdır.

Azərbaycanın prezidenti kimi, mən bəyan edirəm ki, keçmiş dövrlərdə olan hallar daha təkrar oluna bilməz. 1993-cü ildə burada vətəndaş müharibəsini yaradan adamlar, Azərbaycanı parçalayanlar, həmin adamları dəstəkləyənlər, – mən indi bunu genişləndirmək istəmirəm, – indi guya Azərbaycan haqqında düşünürlər və bizdən çox düşünürlər? Ona görə bir də bəyan edirəm ki, dərc olunan təkliflərdən heç biri qəbul olunmayıbdır və qəbul edilməyəcəkdir.

Bu gün səhər mənə dedilər, Ermənistanda çox narazılıq bildiriblər ki, Azərbaycan məxfiliyi pozubdur və təklifləri dərc edibdir. Bu məlumatı dünən də vermişdilər. Onlar hətta Minsk qrupuna da müraciət ediblər. Mənə səhər dedilər ki, guya onlar da bu son – "ümumi dövlət" formulası olan təklifi dərc ediblər.

Birincisi, heç kəsə söz verməmişdik ki, biz bunları gizli saxlayacağıq. Bəli, mən hesab edirdim və bu gün də hesab edirəm ki, danışıq prosesi gizli saxlanılmalıdır. Nəticə əldə olunandan sonra məlumat verilməlidir. Mən bunu sizə bu gün də deyirəm. Bütün ictimaiyyətə, xalqa deyirəm. Əgər biz bir nəticə əldə etsək, bir qərara, bir fikrə gəlsək, bunu heç kəs, o cümlədən prezident Heydər Əliyev gizlədə bilməz.

Şübhəsiz ki, bunu birinci növbədə Milli Məclis müzakirə etməlidir. Ondan sonra xalqın müzakirəsinə verilməlidir. Əgər xalq, Milli Məclis bunu qəbul etməsə, Azərbaycanın prezidenti Heydər Əliyev [54-55] təkbaşına məsələmi həll edə bilər? Birincisi, onu bilin, bu gün də, sabah da Heydər Əliyev Azərbaycan xalqının

mənafeyinə zidd olan heç bir şeyi qəbul etməz. İkincisi, əgər hansısa kompromislər nəticəsində bir fikir meydana gəlsə ki, bəli, bax, bunu etmək olar, bu, heç vaxt gizli olmayacaqdır. Danışıqlar prosesi gizli gedir, gizli də gedəcəkdir. Çünki bu danışıqlar prosesinin gedişini biz bazara çıxarsaq, ictimaiyyət arasına çıxarsaq, heç bir şey olmayacaqdır.

Ancaq bu gün mənim məqsədim nədən ibarətdir? Bu gün məqsədim ondan ibarətdir ki, hər şeyi biləsiniz. İctimaiyyət, xalq bilsin və desin, nə etmək lazımdır. Mən bunu nə üçün deyirəm? Çünki Minsk qrupu "ümumi dövlət" formulası təklifindən sonra heç bir təklif verməyibdir.

1999-cu ilin aprel ayında Vaşinqtonda, NATO-nun 50 illiyində Amerika Birləşmiş Ştatlarının rəhbərliyi, prezident Klinton, dövlət katibi xanım Olbrayt xahiş etdilər ki, biz Koçaryanla görüşək, danışaq. Görüşdük, danışdıq. Orada belə çıxdı ki, biz müəyyən məsələlər üzrə razılığa gələ bilərik. Ona görə də bu danışıq prosesi davam etdi. Biz 1999-cu ildə bir neçə dəfə görüşdük. Mən bundan ötrü iki dəfə Cenevrəyə getdim, sonra sərhəddə görüşdük. Demək olar ki, 1999-cu ilin oktyabr ayında mövqelərin xeyli yaxınlaşması mümkün oldu. Amma 1999-cu ildə Ermənistan parlamentindəki terror hadisəsindən sonra Ermənistan, kiçik də olsa, əldə edilmiş müəyyən razılaşmalardan imtina etdi.

İndi bu görüşlər başlayandan sonra Minsk qrupu da deyir, Minsk qrupunun həmsədrləri də deyir, ATƏT-də deyir, Avropa Şurası da deyir, iki gün bundan əvvəl Avropa Birliyinin başçıları burada idi, onlar da deyir ki, məsələni hər iki prezident həll etsin və nə cür həll etsələr, biz onunla razıyıq. İki prezidentin həll etməsi də çox çətindir. Çünki bir prezidentin ölkəsinin torpaqları işğal olunubdur, bir milyon qaçqını vardır. O birisi prezidentin ölkəsinin böyük iqtisadi çətinlikləri var, amma ordusu Azərbaycanın torpaqlarını işğal altında saxlayıbdır.

Vilayət Quliyev burada məlumat verdi. Ancaq mən də bir neçə rəqəm demək istəyirəm. Bilirsiniz, 1993-cü ildən indiyə qədər mən 68 ölkənin prezidenti, dövlət başçısı ilə 485 görüş keçirmişəm. Mən ya rəsmi səfərdə olmuşam, ya onlar Azərbaycanda olublar. Görüşlərin bir çoxu beynəlxalq təşkilatlarda olduğumuz zaman keçirilibdir. Bilin, bütün bu [55-56] görüşlərin hamısında, hətta Bruneyin sultanı ilə də görüşəndə mən bu məsələni ortaya atmışam, bu məsələni müzakirə etmişəm. Xahiş etmişəm ki, Azərbaycana kömək edilsin, Azərbaycana tərəf olsunlar.

Bu görüşlərin sayı məndə var. Məsələn, Amerika Birləşmiş Ştatlarının prezidenti xarici işlər naziri ilə 18 dəfə bu məsələni müzakirə etmişəm. Fransanınkı ilə 16 dəfə, Rusiyanınkı ilə 28 dəfə, Türkiyənin rəhbərlərinin hamısı ilə dəfələrlə, 78 dəfə. Bunlarla vaxtınızı almaq istəmirəm.

Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi ilə, keçmiş baş katib Butros Qali ilə, indiki Koffi Annan ilə mən bu barədə on dəfə görüşlər keçirmişəm. Yadınızdadır, Butros Qali gəlib burada çıxış etmişdir. Mən Birləşmiş Millətlər Təşkilatında üç dəfə zirvə görüşündə çıxış etmişəm. Mənim çıxışlarım dərc olunubdur. Hamısında Birləşmiş Millətlər Təşkilatını tənqid etmişəm ki, siz qəbul etdiyiniz qətnamələri yerinə yetirmisiniz. Onlar nə deyirlər? Onlar deyirlər ki, biz qətnamələri qəbul edirik, amma yerinə yetirmək mexanizmimiz yoxdur. Mən onlara nə edim?

Mən NATO-da üç zirvə görüşündə – Vaşinqtonda, Madriddə, başqa yerdə çıxışlarımda bunu demişəm. NATO-nun baş katibləri ilə dörd dəfə görüşmüşəm. Bunu hamısına demişəm. ATƏT-in zirvə görüşlərində, – artıq bunu dedim, – Budapeştdə, Lissabonda və son dəfə İstanbulda.

Mətbuatda görürəm, yazırlar ki, guya İstanbul zirvə görüşündə məsələ həll olunmuşdur, filan olmuşdur. Yalan şeylərdir. Axı bilmədiyiniz şeyi niyə yazırsınız? Bilmədiyiniz şeyi niyə uydurursunuz? Orada heç bir məsələ həll olunmamışdı. Orada Amerikanın xarici işlər naziri Olbrayt, Fransanın, Rusiyanın, Türkiyənin xarici işlər nazirləri, ATƏT-in sədri, gərək ki, Norveçin baş naziri idi və iki prezident məsələni müzakirə etdik və heç bir fikrə gələ bilmədik.

Biz Müstəqil Dövlətlər Birliyinin üzvüyük. Dövlət başçılarının o iclası olmayıb ki, mən bu məsələni qaldırmayım. Bizim dostlarımız, qardaşlarımız, başqa ölkələr Ermənistanın təcavüzkar olmasını dillərinə gətirmirlər. Müstəqil Dövlətlər Birliyinin bəzi sənədlərində "separatizmlə mübarizə" sözü ortaya çıxır, Ermənistan buna etiraz edir. Amma mən təkid edirəm ki, "separatizmlə mübarizə" sözü yazılmalıdır. Bütün dövlət [56-57] başçıları məndən xahiş edirlər ki, sən öz təklifini geri götür. O cümlədən bizim qardaşlarımız, Mərkəzi Asiya ölkələri.

İslam Konfransı Təşkilatının iki dəfə zirvə görüşü olubdur. Çıxış etmişəm, danışmışam. İqtisadi Əməkdaşlıq Təşkilatının – EKO-nun dörd dəfə zirvə görüşü olubdur. Türkdilli ölkələrin dövlət başçılarının beş zirvə görüşü olubdur. Nə qədər görüşlər keçirmişəm.

Onu da demək istəyirəm ki, Türkiyə – bizim dost, qardaş ölkəmiz – Ermənistanı təcavüzkar hesab edir və hər yerdə də bunu bəyan edir. İslam Konfransı Təşkilatı yeganə təşkilatdır ki, biz Ermənistanın Azərbaycana təcavüz etməsi formulasını qətnamələrdə yaza bilirik və bu təcavüzə etiraz edə bilirik. İran bəyan edir ki, bəli, Ermənistan Azərbaycana təcavüz edibdir.

Amma bunlardan savayı dünyanın bir ölkəsi dilinə də gətirmir ki, Ermənistan Azərbaycana təcavüz edibdir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında dörd qətnamə qəbul edilibdir. Mən Vilayət Quliyevdən xahiş etdim ki, o qətnamələrə baxsın. Bu gün səhər mən də baxdım. O qətnamələrin dördündə də

yazılıbdır ki, işğalçı ordu işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalıdır. Amma "Ermənistan" sözü yoxdur, yəni "Ermənistan silahlı qüvvələri" sözü yoxdur. Ancaq qətnamənin birində yazılıbdır ki, Ermənistandan tələb edilsin ki, Dağlıq Qarabağa təsir göstərsin. Reallıqda Ermənistan-Azərbaycan müharibəsidir. Reallıqda Ermənistan Azərbaycana təcavüz edibdir. Amma heç bir beynəlxalq təşkilatın sənədində, dediklərimdən savayı, hansısa bir dövlətin bəyanatında Ermənistanı heç kəs təcavüzkar saymır.

Biz deyirik, – bu formulanı insanların beyninə mən yeritmişəm, – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Amma qalanları nə deyir – Dağlıq Qarabağ münaqişəsi. Çünki hamısı hesab edir ki, bu münaqişə iki ölkənin arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasındadır. Mən dəfələrlə demişəm, əgər belə olsa, qoy, Ermənistan kənara çəkilsin. Biz onda Dağlıq Qarabağla nə danışıqlar apararıq, nə edə bilərik, bu, öz işimizdir. Biz bunu çox tez müddətdə həll edə bilərik. Ancaq indi Dağlıq Qarabağ, Ermənistan bir ölkədir. Artıq 11 ildir bunlar bir ölkədir. Amma bu həqiqəti heç kəs tanımaq istəmir. [57-58]

İndi hamı mənim Koçaryanla görüşüm barədə mənə müraciət edir. Siz nə bilim, güclü lidersiniz, iradəlisiniz, nə bilim filan, filan, filan. Siz məsələni həll edin. Deyirəm, nə cür həll edim? Siz Ermənistana da deyin, qoy, Ermənistan da bu məsələdə konstruktiv mövqe göstərsin, biz də göstərək. Onda həll edərik. Deyirlər ki, Ermənistan yazıqdır, Ermənistan kasıbdır, nə bilim, Ermənistanın iqtisadiyyatı ağırdır, belədir, elədir.

Böyük ölkələrdə, Amerikanın Konqresində, yaxud da başqa ölkələrin parlamentlərində Ermənistana doğma münasibət vardır. Amma Azərbaycana yox. Baxmayaraq ki, biz təcavüzə məruz qalmış ölkəyik, onlar təcavüzkardır. Bunu elə Avropa Şurasına daxil olan zaman da gördük. Düzdür, müxalifət burada çalışdı ki, Azərbaycan rəhbərliyini, nə təhər deyərlər, yenə günahlandırsın ki, bizdə demokratiya yoxdur, filan yoxdur. Ona görə bizi Avropa Şurasına qəbul etməyin.

Mən bunu açıqca demişəm və Strasburqda çıxış edəndə də dedim. Bütün Avropa Şurasının qarşısında dedim ki, dünyada ikili standartlardan əl çəkmək lazımdır. Bu gün də deyirəm ki, dünyada ikili standartlar mövcuddur.

Mən bir dəfə bir adamdan soruşdum: Ermənistanda, Azərbaycanda, Gürcüstanda seçkilər keçirilibdir. Bunların bir-birindən fərqi nədir? Düzünü deyin. Dedi, elə bir fərqi yoxdur. Dedim, siz nə üçün bizi günahlandırmırsınız ki, bizdə seçkilər pozulub, filan olub amma onları günahlandırmısınız? Cavab vermirlər, bunların hamısının üstündən keçirlər. Mən hesab etmirəm ki, bizim ölkədə seçkilər pozulubdur. Eyni zamanda, hesab etmirəm ki, bizim ölkədə hər şey tamamilə idealdır. Hesab etmirəm. Dəfələrlə demişəm, hər şeyin bir mərhələsi var. Əgər o mərhələni götürsək, Ermənistan, Azərbaycan, Gürcüstan – biz hamımız eyni pillədəyik. Amma iqtisadi inkişafa görə biz həm Gürcüstandan, həm də Ermənistandan xeyli üstünük. Daxili sabitliyə görə biz xeyli üstünük. Ölkəyə nə lazımdır? Ölkəyə daxili siyasi sabitlik lazımdır. Ölkəyə iqtisadi inkişaf lazımdır. Amma bu məsələlər kənarda qalıb, bəziləri tutublar ki, demokratiya, demokratiya, demokratiya. Demokratiya deyən adamların özləri də, sadəcə, bundan sui-istifadə edirlər. [58-59]

Mən demişəm və deyirəm, Azərbaycanda demokratiya var, demokratiya inkişaf edir və inkişaf edəcəkdir. Heç kəs bu məsələdən sui-istifadə etməsin. Heç kəs də Azərbaycana bu barədə öz müxtəlif imkanları ilə təsir edə bilməz. Bizim Azərbaycanın öz yolu var. Xalqımızın öz mentaliteti var. Heç kəs güman etməsin ki, burada, Azərbaycanda bu gün Fransadakı kimi demokratiya olacaqdır. Onun üçün çox illər yaşamaq lazımdır.

Mən bunu ona görə deyirəm ki, bu ikili standartları nəzərinizə çatdırım. Bu ikili standart da indi Ermənistan – Azərbaycan münaqişəsində tətbiq olunur: onlar yazıqdırlar, onları xilas etmək lazımdır. Sizin ölkənin təbii sərvətləri var, filanı var, həll edin. Nə cür həll edim? İndi siz də soruşursunuz. Nə cür həll edim?

Aparılan bütün bu danışıqlardan, Minsk qrupunun verdiyi təkliflərdən mənə bir şey aydındır ki, bunlar Dağlıq Qarabağa müstəqilliyə yaxın bir status verməklə məsələni həll etmək, yaxud da tamam müstəqillik vermək istəyirlər. Minsk qrupunun bütün təkliflərindən bu görünür, başqa bir şey yox. Biz də buna razı olmamışıq və razı ola bilmərik.

Koçaryanla danışıqlarımızı açmaq istəmirəm. Ancaq bir şey aydındır ki, onlar bizim ərazimizi işğal ediblər və əsas məqsədləri odur ki, bir sözlə, Dağlıq Qarabağ bundan sonra heç bir formada Azərbaycan dövlətinin tabeliyində ola bilməz. Onların fikri budur.

Mən bu danışıqları aparıram və aparacağam. Fransanın prezidenti Şirak bir müddət öncə mənə telefon etdi. Çünki yanvarın 26-da orada biz – Koçaryanla mən təkbətək görüşmüşdük, sonra üçümüz birlikdə görüşmüşdük. Bir müddət bundan öncə mənə telefon etdi ki, Koçaryan yenidən Fransaya gəlmişdi. Siz buraya gələ bilərsinizmi ki, təkbətək bir də görüşəsiniz. Mən etiraz etmədim. Martın 4-də Parisdə prezident Koçaryanla mənim təkbətək görüşüm olacaqdır və ayın 5-də də üç prezident – prezident Şirak, prezident Koçaryan, bir də Azərbaycan prezidenti görüşəcəkdir.

İndi kimsə deyə bilər ki, Fransa "soyqırımı" haqqında qərar qəbul edibdir. Niyə ora gedirsiniz, filan edirsiniz? Bunlar bir-birindən fərqli məsələlərdir. Bu məsələnin həll olunmasının ona dəxli yoxdur. Biz Fransanın [59-60] ədalətsiz qərarına etirazımızı bildirmişik, bildiririk. Mən bunu prezident Şirakın üzünə demişəm. Amma eyni zamanda, Fransa Minsk qrupunun həmsədridir. Əgər hansısa bir fürsət varsa, burada nəyisə əldə etmək olarsa, biz bundan istifadə etməliyik və bundan imtina edə bilmərik. Ona görə də mən bu görüşə gedirəm. Nə olacaq, nə olmayacaq, deyə bilmərəm. Amma onu bildirmək istəyirəm ki, vəziyyət çox

mürəkkəbdir.

Vilayət Quliyev burada dedi ki, Minsk qrupu öz fəaliyyətini dayandırıb. Minsk qrupu öz fəaliyyətini dayandırmayıbdır. Məsələn, elə Minsk qrupunun həmsədrlərindən birinin, prezident Şirakın bu məsələ ilə məşğul olması onu göstərir ki, Minsk qrupunun həmsədrləri öz fəaliyyətini dayandırmayıblar. Minsk qrupunun həmsədrləri deyəndə, biz onların nümayəndələrini nəzərdə tuturuq, amma əsas dövlət başçılarıdır.

Məsələn, Rusiyanın prezidenti Vladimir Putin buraya gələndə mən onunla iki-üç saat təkbətək çox ətraflı söhbət etdim. Sonra telefon danışıqlarımız olubdur. Ona görə də indi Minsk qrupu öz fəaliyyətini dayandırmayıbdır. Mən dəfələrlə bəyan etmişəm ki, Minsk qrupu və onun həmsədrləri bilməlidirlər ki, Ermənistan və Azərbaycan prezidentlərinin bilavasitə görüşləri Minsk qrupunun fəaliyyəti ilə paralel getməlidir. Bu, onun fəaliyyətini əvəz etmir və etməyəcəkdir. Bunu dəfələrlə demişəm və yenə də deyirəm. Beləliklə, biz həm Minsk qrupunun fəaliyyətini gücləndirməliyik, həm də öz imkanlarımızdan hərtərəfli istifadə etməliyik.

Mən sizə vəziyyəti açdım. İndiyə qədər nə mümkündür, etmişəm. Təkcə mən yox, təbiidir ki, bizim müvafiq icra orqanlarımız bunda çox geniş iştirak edirlər. Milli Məclis iştirak edir. Ancaq təbiidir ki, danışıqların əsas hissəsi mənim üzərimə düşür. Eyni zamanda, bizim xarici işlər naziri də, xarici işlər nazirinin müavinləri də danışıqlar aparırlar. Başqa səviyyələrdə də danışıqlar gedir. Bizim parlament nümayəndələri ayrı-ayrı ölkələrə gedəndə bu məsələləri qaldırırlar. Yəni bunu biz hamımız edirik. Amma Minsk qrupu ilə əsas danışıqları ya bizim icra orqanında işləyənlər, yaxud da bilavasitə mən aparıram. [60-61]

Mənim məqsədim nədir? Vəziyyət belədir. Siz demisiniz ki, bunu Milli Məclisdə müzakirə edək. Kimsə deyir ki, gəlin komissiya yaradaq. Siz mənə deyin görüm, bu komissiya nə edəcəkdir, nəyə qadirdir, hansı təklifi verə bilər?

Azərbaycanın siyasi partiyaları, müxalifət, ya qeyri-müxalifət – hay-küy salmaq çətin bir iş deyildir. Daha bu hay-küylər keçib getdi. Seçkiqabağı bəziləri çıxış edirdilər ki, bizim konsepsiyamız var. Konsepsiyanı ver! Günahlandırırsınız ki, Azərbaycan prezidenti Heydər Əliyev 7 il müddətində bu məsələni həll edə bilməyibdir. Mən də sizə vəziyyət necədir, deyirəm. Siz deyirsiniz ki, həll edə bilərsiniz – konsepsiyanızı verin. Mənə vermirsiniz. Milli Məclisə verin. Milli Məclisə vermirsiniz, Minsk qrupuna verin, Minsk qrupuna vermirsiniz, Birləşmiş Millətlər Təşkilatına verin. Verin, verin və verin! Amma heç birinizdə nə bir konsepsiya var, nə bir təklif var, nə də bu məsələnin mürəkkəbliyi, dərinliyi haqqında təsəvvür var.

Ancaq buna baxmayaraq, mən bu gün bir daha müraciət edirəm. Milli Məclis üzvlərinə, bizim ictimaiyyətin nümayəndələrinə, xüsusən Azərbaycan cəmiyyətinin, necə deyərlər, qaymağı olan bizim alimlərə, mədəniyyət xadimlərinə, yazıçılara, bütün başqa ziyalılara müraciət edirəm. Bütün siyasi partiyalara, lap mənə düşmən münasibəti göstərən siyasi partiyalara müraciət edirəm – təkliflərinizi verin. Məni saymırsınız, saymayın. Minsk qrupuna verin. Parlamenti saymırsınız, saymayın. Bu, sizin öz işinizdir. Minsk qrupuna verin. Gətir, necə ki, televiziyada bəzi çıxış edənlər kağızı belə qoyurdular ki, bu, bizim bir konsepsiyamız, bu, o biri konsepsiyamız. Amma bu kağızda nə var, Allah bilir. İstəyirsən, o kağızı beş dəfə götür, qoy, de ki, bu, bir konsepsiya, iki konsepsiya, üç konsepsiya və s. Əgər bu məsələ ilə bağlı konsepsiyan varsa, apar Minsk qrupuna ver. Mən şərait yaradım ki, Minsk qrupunun həmsədrləri səninlə görüşsünlər. Yazılı şəkildə onlara ver, izah et ki, bax, məsələni bu yol ilə həll edin.

Ancaq bəzi bəyanatlar yayırlar ki, nə bilim, Dağlıq Qarabağa mədəni muxtariyyət verilməlidir. Dağlıq Qarabağa vilayət muxtariyyəti vermək olmaz və s. Gəlin, ağılla düşünək. Onlar 1923-cü ildə yaranmış bu vilayət [61-62] muxtariyyətinə dözmədilər, 1988-ci ildə müharibəyə, təcavüzə başladılar, bir belə qan töküldü, torpaqlarımızı işğal etdilər, indi bunları həmin vilayət muxtariyyətinə qaytarmaq olarmı? Mümkün olan şey deyil.

Bəziləri deyirlər ki, müharibə edin, güclü ordumuz olmalıdır. Azərbaycanın güclü ordusu var. Mən Təhlükəsizlik Şurasında bu məsələni bir neçə dəfə müzakirə etmişəm. Azərbaycanın güclü ordusu var. Müharibə etmək olar. Ancaq bu lazımdırmı? Kim müharibənin tərəfdarıdır, qoy, yazsın görək, bu müharibənin nəticəsində nə olacaqdır?

Birincisi, bizim Dağlıq Qarabağdan kənarda yeddi rayonumuz işğal altındadır. İnsanlar çadırlarda yaşayırlar. İşğal olunmuş hər bir rayonu azad etmək üçün nə qədər zaman lazım olacaq, nə qədər qan töküləcəkdir. İkincisi, indi dünya ictimaiyyətində müharibəni kim qəbul edəcəkdir? Üçüncüsü, əvvəldən dünya ictimaiyyətində fikir yaranıbdır ki, orada azərbaycanlılar erməniləri qırıblar. İndi də müharibəni biz başlasaq, deyəcəklər ki, bəli, azərbaycanlılar elə keçmişdəki kimi, indi də erməniləri qırmaq istəyirlər. Ancaq mən müharibədən qaçmıram. Əgər bizim cəmiyyətimizin hamısı belə qərara gəlsələr ki, bunu əsaslandırsalar və müharibə istəyən adamların konkret strategiyanı müəyyən etsələr ki, müharibə etmək lazımdır, müharibəni nə cür edək, buna bizim ordumuzun gücü var. Heç narahat olmayın.

Bəziləri deyir ki, yox, beş-on ilə güclü ordu yaradaq, ondan sonra başlayarıq. Bəziləri deyirlər ki, gəlin, məsələni donduraq. Nə qədər donduraq? Tutaq ki, məsələni beş il də dondurduq. Yazıq qaçqınlar beş il də çadırlarda yaşamalıdır?

Ondan sonra nə edəcəyik? Bəzilərində belə fikir var ki, Ermənistanda iqtisadiyyat çox ağır vəziyyətdədir, insanlar ölkəni tərk edir və s. Burada müəyyən həqiqət var. Ermənistanın iqtisadiyyatı ağır vəziyyətdədir.

Amma Gürcüstanın iqtisadiyyatı ondan da ağır vəziyyətdədir. Bizim ölkənin iqtisadiyyatının yüksək olduğunu hamı, bütün dünya ekspertləri, nümayəndələr – elə iki gün bundan əvvəl Avropa Birliyinin rəhbərlərini qəbul edirdim, onlarda bütün məlumatlar var, – deyir. Nə qədər gözləyək ki, Ermənistanın iqtisadiyyatı dağılsın, Ermənistan tamamilə dağılsın, Dağlıq Qarabağ dağılsın, ondan sonra biz gedək bu yerləri tutaq? Nə [62-63] qədər gözləyək? Əgər belə bir fikir varsa, gəlin, bunu da əsaslandırın. Yəni mən hər bir təklifə tam ciddiyyətlə, tam məsuliyyətlə baxmağa hazıram. Ona görə də mən bu məlumatları sizə verdim.

Bugünkü müzakirənin məqsədi təklifdən ibarət olmalıdır. Çıxış edənlərdən xahiş edirəm, nə tarixdən, nə kim günahkardır, günahkar deyil, bu, nədən başımıza gəldi – bunlardan danışmasınlar, bunlar qalsın kənarda. Bu, sonranın işidir. Bu gün nə etmək lazımdır? İşğal olunmuş torpaqları azad etmək lazımdır. Heç olmasa, Dağlıq Qarabağın ətrafındakı işğal olunmuş rayonları azad etmək lazımdır.

Bəlkə də mən düşünmürdüm ki, bu qədər geniş danışacağam. Ancaq hər halda güman edirəm ki, bu məsələ o qədər mürəkkəb məsələdir ki, mənim bu barədə sizə ətraflı məlumat verməyimə ehtiyac var idi. Mən sizdən təkliflər gözləyirəm. Mən sizdən yardım gözləyirəm. Mən xalqımızın əlləşib, əl-ələ verib bu məsələni həll etməsini arzu edirəm. Sağ olun. [63]

## MİLLİ MƏCLİSİN 24 FEVRAL TARİXLİ İCLASINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN NİTQİ

Hörmətli Milli Məclis!

Hörmətli deputatlar, xanımlar və cənablar!

Azərbaycanın ali qanunvericilik orqanında, Milli Məclisdə iki gün müddətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması yollarının araşdırılması istiqamətində gedən müzakirə, hesab edirəm, həm bizim üçün, yəni bu müzakirənin iştirakçıları üçün, həm də Azərbaycan ictimaiyyəti üçün, xalqımız üçün çox əhəmiyyətlidir.

Mən çox məmnunam ki, müzakirə keçdi. Hesab edirəm ki, bu müzakirə vəziyyətin nə qədər çətin, nə qədər ağır olduğunu bir daha hamıya göstərdi. Bəzi çıxışlarda səsləndi ki, nə üçün bu müzakirə gecikibdir, biz bunu vaxtında etməliydik, təklif verməli idik, məsələ həll etməliydik. Mən bunlarla razı deyiləm. Çünki elə dünən, bu gün aparılan müzakirə də onu göstərdi ki, konkret bir təklif verən yoxdur. Azərbaycan prezidenti kimi mən və mənimlə bərabər bu məsələ ilə bilavasitə məşğul olan şəxslər ötən illər birlikdə çalışmışıq ki, məsələnin sülh yolu ilə, birinci növbədə, ATƏT-in Minsk qrupu vasitəsilə və eyni zamanda dünyanın bütün beynəlxalq təşkilatları vasitəsilə, dünyanın böyük dövlətlərinin köməyi ilə həll edilməsinə nail olaq. Biz bu işləri apararaq, müəyyən bir konkret nəticəyə gələ bilmədiyimizə görə, bu məsələni müzakirəyə çıxarıb sadəcə, söhbət, danışıq aparmağı lüzumsuz hesab etmişik. Dünən, bu gün gedən müzakirələr də mənim üçün bu fikri tam təsdiq etdi.

Danışmaq, hissiyyatları bildirmək, vətəni sevməyi bir daha bəyan etmək, ərazi bütövlüyümüzün ən mühüm məsələ olduğunu bəyan etmək, Qarabağın bizim üçün nə qədər əziz olduğunu bəyan etmək, bəyan etmək ki, "Dağlıq Qarabağsız Azərbaycan yaşaya bilməz" – bunlar artıq 12 il müddətində yüz, min dəfələrlə deyilibdir. Bunu hamı deyir. Dünən də, bu gün də çıxışların əksəriyyəti bundan ibarət olubdur. [64-65]

Ancaq bunu nə cür həll etmək lazımdır? Biz bunun üçün ötən illərdə çalışmışıq ki, heç olmasa məsələnin həllinə yaxınlaşan zaman, Azərbaycan üçün hansısa bir variant məqbul olan zaman gətirib onu Milli Məclisin müzakirəsinə verək ki, görək, Milli Məclis buna nə münasibət göstərir. Əgər indiyə qədər apardığımız danışıqlar bizi qane etməyibsə, yəni bizə verilən təkliflərlə və danışıqlar zamanı irəliyə sürülmüş fikirlərlə razı olmamışıqsa, razı olmadığımız məsələləri müzakirəyə çıxarmağın əhəmiyyəti var? Bəziləri dünən də, bu gün də deyirlər ki, siz bu məsələni bir neçə il bundan öncə müzakirəyə çıxarsaydınız, biz yolları deyərdik. Yaxşı, hesab edək ki, biz günahkarıq. Hərçənd hesab etmirəm, amma şərti olaraq belə hesab edək. Bəs indi nə deyirsiniz?

Xüsusən, bizi bu barədə tənqid atəşinə tutanlara deyirəm. Biri deyir ki, biz 1994-cü ildə nə bilim, demkonqresdə məsələni müzakirə etmək üçün təklif vermişik. Axı, bu qədər də ağ yalan olmaz. 1994-cü ildə həmin o müxalifət qüvvələri pərən-pərən düşüb qaçıb gizlənmişdilər, canlarını qurtardılar. Surət Hüseynovun qorxusundan hərəsi bir deşiyə girmişdi. O vaxt onlar təklif verə bilərdilərmi?

Mən ad çəkmək istəmirəm, amma birinin adını çəkməyə məcburam. 1993-cü il hadisələrindən sonra keçmiş baş nazir Pənah Hüseynov üç ildən artıq gizləndi. Sonra onu haradasa, təsadüfən tutdular, həbsə saldılar. O, bir müddət orada qaldı. Mən dedim, yaxşı, qaçıb gizlənibdir, indi gəlibdir. Fikirləşdim və dedim ki, bəlkə bu adamın günahlarını bağışlamaq lazımdır. Hətta mən xahiş etdim ki, onu həbsxanadan yanıma gətirsinlər.

Mən onunla üç saat söhbət etdim. Həmin söhbətin yazısı vardır. O, söhbət zamanı bizim apardığımız işlərin hamısının düzgün olduğunu dedi, öz təşkilatının buraxdığı səhvləri dedi. Hətta 1994-cü ildə Surət Hüseynovun Azərbaycanda dövlət çevrilişi həyata keçirmək cəhdi zamanı özünün mənsub olduğu siyasi təşkilatın bu məsələyə münasibətini tənqid etdi, başqa şeylər etdi. Dedim, Allaha şükürlər olsun ki, o ağıllanıbdır. Mən də hüquq-mühafizə orqanlarından xahiş etdim ki, onu azad etsinlər, getsin. Bəlkə doğrudan da o, başqalarını başa sala bilər. Getdi. [65-66]

Amma bir neçə aydan sonra Azərbaycanda bütün müxalifəti bir-birinə vuran, aranı qarışdıran, heç bir şeyə layiq olmayıb, amma eyni zamanda, müxalifətin içində onu buna, bunu ona qızışdıran ki, sən lider olacaqsan, sən lider olacaqsan, sən lider olacaqsan... Bax, indi deyirlər ki, biz təklif verirdik. Həmin adamlar 1994-cü ildə belə vəziyyətdə idilər. Niyə yalan danışırsınız? Nə üçün yalan danışırsınız?

Mən açıq deyirəm, heç vaxt, heç bir konkret təklif heç bir müxalifət təşkilatı tərəfindən verilməyibdir. Əgər mənim bu sözlərimi onlar təkzib etmək istəyirlərsə, o təklifləri çıxarsınlar, bəyan etsinlər, dərc etsinlər. Əgər həqiqətən orada bir rasional fikir olsa, mən onlardan üzr istəməyə hazıram.

Bilirsiniz, bu cür pozucu mövqe tutub, Azərbaycanda hakimiyyət iddiası ilə yaşayaraq, Azərbaycanın müstəqilliyini, suverenliyini, bütövlüyünü, Azərbaycanın vəziyyətini öz şəxsi ambisiyalarına qurban verən adamlar özlərini Azərbaycan vətəndaşı hesab edə bilməzlər. Bax, bunlara görə bu gün deməyə haqqım var ki, indiyə qədər biz heç bir təşkilatdan, heç bir yerdən heç bir təklif almamışıq. Özümüz nə bacarmışıq, onu da etmişik. Mən bu barədə dünən dedim.

1993-cü ildə mən fəaliyyətə başlayandan Minsk qrupu ilə sıx əməkdaşlıq edirdim. Mən dünən dedim, Minsk qrupu həmsədrlərinin Azərbaycana birgə ziyarətləri zamanı onlarla 98 dəfə görüşmüşəm. Hər görüş də

iki, üç, dörd saat çəkibdir. Sadəcə, boş söhbətmi aparmışıq? Nəhayət, 1997-ci ildə Minsk qrupunun verdiyi təklif nəyi göstərir? Onu göstərir ki, onlar ancaq məsələnin indiki reallıq əsasında həllini mümkün hesab edirlər.

Hesab edirəm, bizim indiyə qədər gördüyümüz işlər faydalıdır. Bundan artıq heç bir şey etmək mümkün olmazdı. Amma biz dünən, bu gün məsələni Milli Məclisə çıxarıb müzakirə edən zaman və müzakirə dövründə ictimaiyyət bildi, bu salonda oturanlar bildilər ki, vəziyyət nə yerdədir. İndi vəziyyətin belə olduğu halda gərək, real vəziyyəti dərk edib mümkün, real yollarla gedək. İndi hay-küylə heç bir şey etmək mümkün deyildir.

Mən burada bir təklif ala bilmədim. Bəli, müharibə edək, bu, çoxdan məlum olan şeydir. Sülh yolu ilə danışıqlar aparaq, 7 ildir aparırıq. [66-67] Sonra nə edək? Başqa bir şey deyən olmadı. Nəhayət, Ermənistan prezidenti Koçaryan ilə danışıqlar aparıram. Ancaq nə üçün bunlar sülh yolu ilə həll olunmur? Çünki mən dünən də dedim, bu gün də deyirəm: Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı hələ 1990-cı ildə işğal edibdir. Hələ 1989-cu ildə SSRİ hökuməti Dağlıq Qarabağda Xüsusi İdarəetmə Komitəsi yaradaraq, onu Azərbaycanın tərkibindən çıxarıbdır. Sonra gedən müharibələrdə Dağlıq Qarabağ işğal olunubdur.

Nəhayət, 1992-ci ildə burada, Azərbaycanda hakimiyyət mübarizəsi getdiyi zaman, o vaxtkı rəhbərlik ilə Xalq Cəbhəsi arasında hakimiyyət mübarizəsi getdiyi zaman, mayın 9-da Şuşa işğal olundu. Mayın 14-də burada, bu salonda bəzi qüvvələr Mütəllibovu yenə də hakimiyyətə gətirdilər. Sonra ona hücum olundu. Mayın 17-də Laçın işğal edildi. Mayın 18-də bu salonda Xalq Cəbhəsi parlamenti ələ alıb parlament sədri seçdi. İki ay sonra isə prezident seçdi. Bu iki rayonun işğal olunması artıq o vaxt Dağlıq Qarabağı Ermənistana birləşdirdi. Bunlar reallıqdır.

Ondan sonra da rayonlar işğal olunubdur. O da reallıqdır. Artıq bu rayonlar neçə ildir işğal altındadır. Əhali oradan çıxarılıbdır. Dağlıq Qarabağ, faktiki olaraq, Ermənistana birləşdirilibdir. İndi belə olan halda dünyada heç bir qüvvə Ermənistan silahlı qüvvələrinin oradan çıxarılması üçün tədbir görmək istəmir və ona təsir etmək istəmir – nə 12 dövlətdən ibarət Minsk qrupu, nə Amerika Birləşmiş Ştatları, nə Fransa, nə Rusiya, nə də başqa dövlətlər. Bu, reallıqdır.

Bizimlə ən dost, qardaş ölkə Türkiyədir. Bizə bütün dəstəkləri verir. Ancaq Ermənistanın işğal etdiyi rayonlardan ermənilərin çıxarılması üçün bir tədbir görə bilmir. Çünki onun imkanı yoxdur. Başqalarının birgə imkanı var, çünki onlar Ermənistana yardım edirlər. Amerika Birləşmiş Ştatları da, Rusiya da Fransa da. Ancaq onlar bunu etmirlər. Əksinə gün kimi aydın olubdur ki, təcavüzkar kimdir. Təcavüzkara kömək edirlər, yardım edirlər və Azərbaycana qarşı 907-ci maddəni tətbiq ediblər, indiyə qədər də aradan götürmürlər.

Amerikanın keçmiş prezidenti cənab Klinton, – hansı ki, mən dəfələrlə görüşüb söhbətlər etmişəm və o, bir neçə dəfə söz vermişdi. Bizim bəyanatımızda yazılıbdır ki, 907-ci maddə ləğv olunmalıdır, – [67-68] hakimiyyətdən getməsindən üç gün əvvəl mənə məktub göndəribdir ki, biz 907-ci maddəni ləğv edə bilərik, ancaq siz Ermənistana bir jest edin. Jest nədən ibarətdir? Heç olmasa, Qazax bölgəsində, ya başqa bir bölgədə sərhədi açın, Ermənistanla Azərbaycan arasında ticarət getsin. Biz də 907-ci maddəni götürək.

Mən bunu artıq sizə deməliyəm. Dedim ki, olmaz. Mən buna gedə bilmərəm. Əgər siz, o böyüklükdə dövlət orada, Amerikada erməni diasporundan qorxub bunu mənə təklif edirsinizsə, buna gedə bilmərəm. Biz 8 ildir 907-ci maddənin təzyiqi altında yaşayırıq, bundan sonra da yaşayarıq. Budur, real vəziyyət.

Türkiyənin hörmətli səfiri tənəffüsdə mənə bir məlumat verdi. Kaliforniya ştatının Konqresinə – onun da Konqresi var – məsələ çıxarılıbdır: 24 apreli "soyqırımı günü" elan etmək, Türkiyəyə qarşı lazımi qərar çıxarmaq. Demək, Amerikada bu iş gedir və gedəcəkdir. Ancaq indi əlavə nə olunur? Əlavə olunur ki, 1988-ci il Sumqayıt hadisələri və nəticədə 350 min erməninin Azərbaycandan kütləvi şəkildə sürgün edilməsi haqqında iddialar əks olunsun. Erməni diasporu budur. Yenə də Arzumanlıya demək istəyirəm, Amerikada yaşayan azərbaycanlıların əksəriyyəti Kaliforniyada yaşayır. Heç birinin ağlına gəlir ki, Azərbaycanı müdafiə etmək lazımdır? Doğrudur, onlar İrandan köçmüş azərbaycanlılardır. Mən həqiqəti deyirəm, bundan artıq nə olacaqdır? Onların əksəriyyəti özünü azərbaycanlı hesab etmir. Deyirlər ki, biz iranlıyıq. Reallıq budur. Ona görə də ümumi sözlər yox, yenə də deyirəm, konkret təkliflər.

Bizim apardığımız bütün işlər gəlib bu yerdə dayanır ki, Ermənistan silahlı qüvvələrini o şərtlə çıxara bilər ki, Dağlıq Qarabağın statusu müəyyən olunsun. Əgər bu olmasa Ermənistan heç bir şey etməyəcəkdir. Bizə bunu bütün başqa ölkələr də deyirlər.

Təbiidir, Dağlıq Qarabağ Azərbaycanın qədim torpağıdır. Bizim üçün əziz torpaqdır. Amma həqiqət ondan ibarətdir ki, orada yaşayanların əksəriyyəti erməni olubdur. Dağlıq Qarabağın ətrafında yerləşən 7 rayon işğal edilibdir. Onlar qaçqın vəziyyətində çadırlarda yaşayırlar. Burada bəziləri yenə də deyirlər ki, gəlin gözləyək, gəlin donduraq, filan edək. Mən istərdim ki, bu sözləri deyən adamlar, bu fikirdə olan adamlar [68] – kimsə burada dedi, mən də onunla razıyam – öz evini bir ay qaçqına versin, getsin çadırda yaşasın. Heç qaçqına verməsin. Qoy evi 10 gün burada qalsın, özü gedib 10 gün o çadırda yaşasın, indi bu dəqiqə. Bilirsiniz, Azərbaycanda həqiqət bundan ibarətdir.

Biz bazar iqtisadiyyatı qururuq, iqtisadi islahatlar həyata keçiririk. Bunun nəticəsində əhalimizin bir qismi bizneslə məşğul olaraq zənginləşib və həddindən artıq zənginləşibdir. Bir qismi orta şəraitdə yaşayır. Bir qismi kasıb şəraitdə yaşayır, amma onlardan da ən ağır şəraitdə yaşayan qaçqınlardır. Qaçqınlar elə vəziyyətdədir ki, buna dözmək mümkün deyildir. Amma qaçqın olmayan, yəni evi-eşiyi olan adamlar tək Bakıda yox, başqa

yerlərdə – dövlətlilər, zənginlər heç , onlar pullarını bilmirlər hara qoysunlar, malikanələr tikirlər, başqa şeylər edirlər, – rahat yaşayırlar. O birisi orta təbəqə də rahat yaşayır.

Biz Azərbaycanın hər yerində, Bakıda ictimai-siyasi sabitliyi təmin etmişik. Restoranlar gecə saat 2-yə, 3-ə, 5-ə qədər işləyir. İnsanlar toy edirlər. Hər toya 300-400 adam çağırır, 3-4 orkestr çağırır. Rahat yaşayır, elektrik işığı da iki saat sönəndə hay qaldırırlar ki, niyə mənim iki saat işığım olmadı. Evində də üç dənə televizor var, beş dənə paltaryuyan maşını var, dörd dənə də qızdırıcı cihazı var. Onlar heç bilirlərmi ki, qaçqınlar nə vəziyyətdə yaşayır?

O cümlədən orta təbəqə. Restoranlara barlara təkcə zənginlər getmir ki? Orta təbəqə də gedir. Lap kasıb təbəqə, hansı ki, kasıbdır, pulu azdır, amma onun evi var, heç olmasa, nə təhər deyərlər, başının üstündə damı var, damının altında yaşayır. Biz bu cür rahatlığı yaratmışıq.

Xaricdən gələn adamlar deyirlər ki, Azərbaycanda olan rahatlıq, yəni ictimai asayiş indi heç bir yerdə yoxdur. İndi biri çox zəngin, biri ondan bir az aşağı, biri ondan bir az yoxsul yaşayır, lap yoxsulun da müəyyən yaşamaq yeri var, müəyyən qədər imkanı var. Ancaq o çadırda yaşayanlar? Bəs biz onların haqqında düşünməliyik, yoxsa yox? Onlara elə o çətinliyi verməliyik? Ancaq deyirlər ki, yox, gəlin, Dağlıq Qarabağa muxtariyyətdən da aşağı bir status verək. Bunu heç kəs qəbul etmir. Qəbul etmir, torpaqlarımız azad olmur, insanlar əziyyət çəkir. Bunun da sonu görünmür. [69-70]

Ona görə mən bir daha xahiş edirəm, bir daha hamıdan xahiş edirəm, o cümlədən müxalifətə müraciət edirəm, bizim ziyalılara müraciət edirəm. İndi gördüm ki, Milli Məclisdə çıxış edənlərin sən deyən elə bir təklifi yoxdur. Amma yenə də hər biri otursun, düşünsün, yazıb Milli Məclisə versinlər. Bəlkə bizim indiyə qədər tapa bilmədiyimiz bir yolu hamımız, Azərbaycan xalqı, milləti birlikdə tapaq. Bizi günahlandıranlar ki, biz bunu tapa bilməmişik, gəlsinlər o yolu göstərsinlər. Onda biz bu məsələnin həll olunmasını onlara verərik. Qoy gəlsinlər, göstərsinlər. Amma bilin, ümumi danışıqlarla məsələ həll oluna bilməyəcəkdir. Tələb etməklə ki, erməni oradan çıxmalıdır, bu olmayacaqdır. Real vəziyyəti bilmək lazımdır.

Nəhayət, mənim sözlərim ondan ibarətdir ki, dünənki bugünkü, müzakirəni Azərbaycan prezidenti kimi, özümə çox faydalı hesab edirəm. Ona görə ki, mən imkan tapdım, açıq-aydın, heç bir şeyi gizlətmədən sizə və sizin vasitənizlə bütün Azərbaycan xalqına bildirim. Eyni zamanda bu mənə imkan verdi ki, görüm bizim Milli Məclis, dəvət olunan başqa şəxslər, yaxud da adi vətəndaşlar bizə bu barədə nə kömək edə bilərlər, nə təklif verə bilərlər. Bu sözləri sizə deyərək, mən heç də onu bildirmək istəmirəm ki, biz ümidsizlik. Yox. Məsələni mütləq həll edəcəyik. Ancaq məsələnin həll olunmasının nə qədər çətin, nə qədər ağır olduğunu hamı bilməlidir. Bir daha deyirəm, kim bu sahədə öz xidmətini göstərə bilərsə, o, Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndiriləcəkdir.

Burada hansısa çıxışlarda belə fikir səsləndi ki, Milli Məclisin adından Birləşmiş Millətlər Təşkilatına və ATƏT-ə müraciət edilsin. Mən bu təklifləri dəstəkləyirəm.

Sizə deyim ki, mart ayının 1-də ATƏT-in fəaliyyətdə olan sədri, Rumıniyanın xarici işlər naziri Azərbaycanda olacaqdır. Kim istəyirsə, çalışsın onunla görüşsün, öz fikrini desin. Hesab edirəm, o vaxta çatdırmaq olar, Milli Məclisin müraciətini hazırlayıb ATƏT-in sədrinə vermək olar. ATƏT-in Minsk qrupuna 12 dövlət daxildir. Onun həmsədrləri var. Demək, həmsədrlərə göndərmək lazımdır – Amerikanın prezidentinə, Rusiyanın prezidentinə, bir də Fransanın prezidentinə. Milli Məclis bunu da edə bilər. Xahiş edərdim ki, əgər deputatlar razı olsa, Milli Məclisin [70-71] adından bu müzakirənin nəticəsi olaraq belə bir müraciəti Minsk qrupunun həmsədrlərinə göndərsinlər.

Nəhayət, burada dedilər ki, biz məcbur etməliyik ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası qərarlar çıxarsın. Mən ona cavab verdim. Ancaq eyni zamanda hesab edirəm ki, Milli Məclis deputatların adından, Azərbaycan xalqı adından BMT-nin Baş katibi Kofi Annana və BMT Təhlükəsizlik Şurasının sədrinə belə bir məktub göndərsin və onların qarşısında qoysun ki, nə üçün qəbul etdiyiniz qətnamələr yerinə yetirilmir.

Biz bunu edə bilməmişik. Bəlkə kimsə edə bilər, yaxud da Milli Məclis edə bilər. Qoy, etsin. Başa düşün, mən bunları forma üçün demirəm, düşünəsiniz ki, sizə belə cavab verirəm. Mən bunu real həqiqət kimi qəbul edirəm və istəyirəm ki, bütün istiqamətlərdən bu təşkilatlara təzyiqimizi, təsirimizi göstərək.

O ki qaldı mənə, birincisi, Minsk qrupu öz fəaliyyətini davam etdirməlidir və bundan sonra da Minsk qrupunun həmsədrləri ilə intensiv danışıqlar aparacağam. Məsələnin ədalətli həll olunması üçün təkliflərimizi irəli sürəcəyəm və onlardan məsələnin ədalətli həllinə dair yeni tədbirlər görməsini xahiş edəcəyəm. Bu məsələ həmişə mənim danışıqlarımda əsas yer tutubdur və bundan sonra da bütün xarici siyasət fəaliyyətimdə əsas yer tutacaqdır. Nə Minsk qrupundan, nə də ATƏT-dən imtina edə bilmərik. Çünki başqa vasitə yoxdur.

Ermənistan prezidenti ilə Parisdəki danışıqlarımızı sizə dedim, çətin və ağır danışıqlardır. Baxmayaraq ki, bu danışıqlar necə bir insan kimi, necə bir şəxsiyyət kimi mənim üçün çox çətindir, ağırdır, ancaq bu danışıqları yenə Parisdə aparacağıq. Ondan sonra da əgər bir şey olsa, bunu davam etdirəcəyik.

Mən sizə bir də təşəkkür edirəm ki, Milli Məclis iki gün bu məsələni müzakirə etdi və gələcəkdə əldə olunan hansısa bir müsbət hadisə ilə əlaqədar Milli Məclisə məlumat verəcəyəm. Bir də deyirəm, danışıqlar aparmaq işin birinci hissəsidir. Amma nəyəsə nail olmaq əsas hissəsidir, ikinci hissəsidir. Əgər hansısa bir razılığa gəlsəm, hansısa mən başa düşdüyüm, mənim nöqteyi-nəzərimdən bizim üçün qəbul olunası varianta razı

olsam, mütləq onu Milli Məclisin müzakirəsinə verəcəyəm. Əgər Milli Məclis razı olmasa, mən milli Məclissiz heç bir şey [71] etməyəcəyəm. Fikrim belədir ki, əgər Milli Məclis hansısa bir təkliflə razı olsa, ondan sonra bunu xalqın müzakirəsinə verməliyik. Xalqsız heç bir şey etməməliyik.

Mən həyatımın demək olar ki, çox böyük bir hissəsini bu işə həsr etmişəm və bundan sonra da mənim həyatım üçün, Azərbaycan xalqının qarşısında xidmətlərim sahəsində bundan vacib heç bir vəzifə yoxdur. Əmin ola bilərsiniz ki, mən bu vəzifəni bundan sonra da şərəflə yerinə yetirməyə çalışacağam. [72]

# II BÖLMƏ

## ERMƏNISTAN – AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSI BEYNƏLXALQ TƏŞKİLATLARDA

### 1. QARABAĞ PROBLEMİ BEYNƏLXALQ TƏŞKİLATLARIN DİQQƏT MƏRKƏZİNDƏ

#### *Birləşmiş Millətlər Təşkilatı*

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başladıqdan sonra uzun müddət bu problem beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmədi. Bunun birinci səbəbi ondan ibarət idi ki, münaqişənin start götürdüyü ilkin mərhələdə dünya birliyi onun aradan qaldırılmasında maraqlı deyildi. Çünki bu problem SSRİ-nin dağılması prosesini sürətləndirən çoxsaylı amillərdən biri kimi çıxış edirdi və onun aradan qaldırılması Sovet İttifaqının daxilində gedən dağıdıcı proseslərə mane ola bilərdi.

Maraqlıdır ki, Dağlıq Qarabağ məsələsinin meydana çıxması bilavasitə Kremlin ssenarisi əsasında baş tutmuşdu. İttifaq rəhbərliyi "parçala, hökmranlıq et" prinsipinə əsaslanaraq regional münaqişələr yaratmaqla diqqəti ölkənin əsas problemlərindən yayındırmaq, beləliklə, müttəfiq respublikalarda müşahidə edilən milli azadlıq hərəkatının genişlənməsini əngəlləməyə çalışırdı. Lakin bu plan SSRİ üçün bumeranq rolunu oynadı və etnik münaqişələr imperiyanın dağılmasının nəinki qarşısını ala bilmədi, hətta prosesi daha da sürətləndirdi.

Ermənilər isə hələ münaqişə başlamamışdan əvvəl beynəlxalq ictimaiyyətin dəstəyini almaq üçün ciddi kampaniya aparmışdılar. Burada erməni lobbisinin imkanlarından da geniş istifadə edilirdi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu gün faktiki olaraq dünyada gedən [73-74] ictimai-siyasi və iqtisadi proseslərə bilavasitə nəzarət etmək imkanına malik olan ABŞ Konqresi ilə erməni lobbisi arasında çox isti münasibətlər mövcuddur. Eyni sözləri Fransa senatı haqqında da söyləmək mümkündür.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin həyata keçirilməsi hər zaman beynəlxalq birliyin laqeyd münasibətilə müşayiət olunurdu. Artıq 1992-ci ildə erməni silahlı birləşmələri respublikamızın ərazilərinin işğalına istiqamətlənmiş hərbi əməliyyatların miqyasını kifayət qədər genişləndirmişdilər. Lakin heç bir beynəlxalq təşkilat hamının gözü qarşısında baş verməkdə olan və beynəlxalq hüquq normalarını kobud şəkildə tapdalayan bu işğalçılıq əməllərinə obyektiv qiymət vermədi. Doğrudur, müxtəlif dövrlərdə BMT-nin, ATƏT-in, Avropa Birliyinin bu barədə müəyyən qətnamələri, bəyanatları meydana çıxdı, bununla belə, həmin sənədlər münaqişənin həqiqi səbəblərini dəqiq şəkildə qiymətləndirmir, təcavüzkarla təcavüzə məruz qalan tərəf arasında heç bir fərq qoymurdu.

1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan Respublikası bu barədə bütün beynəlxalq təşkilatlara, o cümlədən BMT-yə və dünya dövlətlərinə müraciət etdi. Həmin müraciətdə demokratiya, azadlıq və bərabərlik prinsiplərinin respublikanın əsas strateji yolu olduğu göstərilir və ölkənin BMT-yə qəbul olunmaq arzusu ifadə edilirdi. 1992-ci ilin martında Azərbaycan BMT-yə üzv qəbul edildi. Elə həmin ilin martında Nyu-Yorkda Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi açıldı.

Bundan sonra Azərbaycan BMT-yə müraciət edərək Ermənistanın təcavüzkar siyasətinə münasibət bildirməyi və bu ölkənin işğalçılıq əməllərinin qarşısını almağı xahiş etdi. BMT-nin nümayəndə heyəti bu müraciətə əsaslanaraq regiona səfər etdi və bu barədə BMT Baş katibinə müvafiq məlumatlar verdi. BMT-nin Baş katibi isə münaqişənin həllində ATƏM-in (Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi -1995-ci ilin yanvarından ATƏT - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) səylərini dəstəklədiyini və bu təşkilata müvafiq nəticələr əldə etmək üçün kömək göstərməyə hazır olduğunu bildirdi. Bu, [74-75] artıq beynəlxalq ictimaiyyətin məsələyə soyuq münasibətinin ilk simptomları idi.

1992-ci ildə Şuşanın işğalı Azərbaycanı yenidən BMT-yə müraciət etmək məcburiyyətində qoydu. May ayının 12-də BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ problemini müzakirə edərək bəyanat verməklə kifayətləndi. Bəyanat Təhlükəsizlik Şurası sədrinin adından yayıldı. Bəyanatda Dağlıq Qarabağda vəziyyətin pisləşməsindən narahatlıq ifadə olunur və məcburi köçkünlərə təcili yardım göstərilməsinin zəruriliyi bildirilirdi. Sənəddə maraqlı tərəflər zorakılığa son qoymağa çağırılır və BMT Nizamnaməsinin müddəalarına əməl etməyə dəvət olunurdu. "Təhlükəsizlik Şurasının üzvləri bütün maraqlı tərəfləri zorakılığa son qoyulması, Baş katibin missiyasının işini asanlaşdırmaq və onun personalarının təhlükəsizliyini təmin etmək üçün bütün tədbirləri görməyə çağırır. Onlar Şuranın sədri adından 1992-ci il yanvarın 23-də (S/23496) və fevralın 14-də (S/23597) müvafiq olaraq Ermənistanın və Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunması barədə bəyanatlarını, xüsusilə də nizamnamənin mübahisələrin dinc yolla və güc tətbiq etmədən nizamlanmasına aid prinsiplərinə istinadları xatırladırlar", - deyə sənəddə bildirilirdi. Bu isə bəyanatın əslində münaqişənin real mahiyyəti barədə heç nə ifadə etməyən adi bir sənəd olduğunu göstərirdi. BMT Təhlükəsizlik Şurasının yeganə müsbət addımı ondan ibarət oldu ki, Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin

Təhlükəsizlik Şurası sədrinə məktubu TŞ-nin rəsmi sənədi kimi yayıldı. Bu məktubda Ermənistanın keçirdiyi hərbi əməliyyatlar suveren dövlətin ərazi bütövlüyünü pozmaq cəhdi kimi qiymətləndirilirdi.

Təbii ki, Ermənistan da alternativ addımlar atmağa çalışırdı. Elə bunun nəticəsi idi ki, 1992-ci ilin avqustunda Ermənistanın müraciətinə əsasən BMT Təhlükəsizlik Şurasının yeni iclası çağırıldı və TŞ sədrinin yeni bəyanatı yayıldı. Bu sənəddə də tərəflər atəşi dayandırmağa çağırılır və vəziyyətin gərginləşməsindən BMT-nin narahatlıq keçirdiyi ifadə olunurdu. [75-76]

1992-ci ilin oktyabrında isə BMT Təhlükəsizlik Şurası sədrinin daha bir bəyanatı qəbul edildi. Lakin bu sənəd də məzmununa və siyasi mahiyyətinə görə əvvəlkilərdən heç nə ilə fərqlənmirdi. Burada da vəziyyətin gərginləşməsindən, eləcə də çoxsaylı insan tələfatından narahatlıq ifadə olunur və ATƏM-in münaqişənin həllinə dair fəaliyyətinin dəstəkləndiyi bildirilirdi. Təhlükəsizlik Şurası problemin nizamlanması üçün danışıqlar prosesinin təcili başlanmasının zəruriliyini qeyd edərək tərəfləri bu istiqamətdə konkret addımlar atmağa dəvət edirdi.

1993-cü ildə Azərbaycanın daha bir rayonu - Kəlbəcər ermənilər tərəfindən işğal edildi. Azərbaycan bu barədə BMT-yə müraciət edərək təcavüzkarın əməllərinə qiymət verilməsini xahiş etdi. Aprelin 6-da BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatı qəbul olundu. Bəyanatda Ermənistanla Azərbaycan arasında gərginliyin artmasından və "yerli erməni qüvvələrinin" Kəlbəcər rayonuna müdaxiləsindən narahatlıq ifadə olunurdu. Bəyanatda bütün dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi bir daha təsdiqlənir və yenə də ATƏM çərçivəsində sülh prosesində irəliləyişə nail olmaq üçün tərəflərə müvafiq addımlar atmağa çağırış öz əksini tapırdı. Lakin bu bəyanat da problemə düzgün qiymət vermirdi. Məsələ burasındadır ki, Ermənistanın işğalçılıq siyasətinə münasibət sənəddə əksini tapmamış və Kəlbəcərin işğalının guya "yerli ermənilər" tərəfindən həyata keçirildiyi vurğulanmışdı. Qeyd edək ki, bu bəyanat əsasən Ermənistanın təqdim etdiyi məlumatlara əsaslanırdı. Ermənistan Kəlbəcərin işğalında iştirak etdiyinə dair Azərbaycanın ortaya qoyduğu faktları təkzib edərək rayonun qəsb edilməsində "yerli ermənilərin" günahkar olduğunu sübut etməyə çalışırdı.

Elə həmin il aprel ayının 30-da BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ilk qətnaməsi qəbul edildi. "BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi" adlanan bu sənəd Təhlükəsizlik Şurası sədrinin 1993-cü il yanvarın 29-da və aprelin 6-da verdiyi bəyanatlara istinadən hazırlanmışdı. Qətnamədə bölgədə sabitliyin və əmin-amanlığın təhlükə altında olduğu qeyd edilir, [76-77] məcburi köçkünlərin sayının artmasından narahatlıq ifadə olunur və Kəlbəcər rayonunda yaranmış fövqəladə vəziyyətin doğurduğu problemlərin aradan qaldırılmasının zəruriliyi bildirilirdi. BMT TŞ atəşin həmişəlik dayandırılması üçün işğalçılıq əməllərinə və hərbi əməliyyatlara son qoyulmasına çağırır, təcavüzkar qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın işğala məruz qalmış digər ərazilərindən çıxarılmasını tələb edirdi. "Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi barədə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il yanvarın 29-da (S/25199) və aprelin 6-da (S/25539) verdiyi bəyanatlara istinad edərək Baş katibin 1993-cü il aprelin 14-dək məruzəsini (S/26600) nəzərə alaraq Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlıq izhar edərək silahlı hərbi əməliyyatların güclənməsi, qismən də Azərbaycan Respublikasının Kəlbəcər rayonuna yerli erməni qüvvələrinin son təcavüzünü narahatlıqla qeyd edərək, eləcə də vəziyyətin bölgədəki əmin-amanlığı və təhlükəsizliyi qorxu altına aldığından narahat olaraq, çoxlu sayda mülki şəxsin yerdəyişməsi və bölgədə, o cümlədən Kəlbəcər rayonunda yaranmış fövqəladə durumla bağlı ciddi narahatlıq ifadə edərək, bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörməti bir daha təsdiq edərək, eləcə də beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyini bir daha təsdiqləyərək, ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bildirərək və silahlı hərbi əməliyyatların güclənməsinin bu proses üçün dağıdıcı nəticələr verə biləcəyindən dərin narahatlıq keçirərək:

1. Atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Bu işdə maraqlı olan tərəfləri münaqişəni ATƏM-in Minsk qrupunun sülh prosesi çərçivəsində həll etmək məqsədilə dərhal danışığı bərpa etməyə və problemin dinc yolla həllini çətinləşdirə biləcək hər cür fəaliyyətdən imtina etməyə israrla dəvət edir", - deyə qətnamədə bildirilirdi. [77-78]

Lakin bu qətnamə də əslində, regionda sülhün əldə olunmasına stimul vermək gücündə deyildi. Əvvəla ona görə ki, BMT Təhlükəsizlik Şurasının qətnaməsi yalnız ümumi sözlərlə yüklənmiş və məsələyə heç bir konkret qiymət vermək məqsədinə xidmət etməmişdir. Digər tərəfdən, qətnamədə öz əksini tapmış müddəaların həyata keçirilmə mexanizmləri də göstərilməmişdi. Sənəddə Azərbaycan torpaqlarının işğal olunması faktı təsdiqlənsə də, bunun kim tərəfindən həyata keçirildiyi dəqiq göstərilmir və hərbi əməliyyatların guya "yerli ermənilər" tərəfindən reallaşdırıldığı vurğulanırdı. Bu isə, əlbəttə ki, təcavüzkar tərəfi müəyyənləşdirməyə və münaqişənin konkret həlli yollarını aydınlaşdırmağa imkan vermirdi.

1993-cü ilin iyul ayının 23-də Ermənistan silahlı birləşmələri Azərbaycanın Ağdam rayonunu işğal etdi. Qeyd edək ki, bu artıq Ermənistanın BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnaməyə heç bir əhəmiyyət vermədiyini təsdiqləyirdi. İyulun sonlarında BMT Təhlükəsizlik Şurasının iclası keçirildi və burada Ermənistan-

Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 853 saylı qətnamə qəbul olundu. Bu qətnamədə də işğalçı qüvvələrin Azərbaycanın Ağdam da daxil olmaqla, bütün digər işğal olunmuş ərazilərindən çıxarılması tələbi qoyulmuşdu. Qətnamədə Azərbaycan vətəndaşlarının bir hissəsinin məcburi köçkün kimi yaşamasından narahatlıq ifadə edilir və tərəflərin münaqişəni dayandırmaq üçün atəşkəsə nail olmalarının zəruriliyi bildirilirdi. Təhlükəsizlik Şurası növbəti dəfə dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığının təmin olunmasının vacibliyini bəyanlayaraq ATƏM-in sülh prosesini sürətləndirmək cəhdlərini təqdir etdiyini də vurğulamışdı. Bununla yanaşı, Ermənistanla Azərbaycan arasında vəziyyətin gərginləşməsi və Azərbaycanın bəzi ərazilərinin işğalı faktı da bu sənəddə xüsusi qeyd edilir və təcavüz aktlarının regionda sülhə ciddi mane olduğu göstərilirdi. BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi bütövlükdə bəzi əlamətlərinə görə 822 saylı qətnamədən daha obyektiv görünsə də, burada da məsələ öz dəqiq qiymətini almamışdır. Çünki Təhlükəsizlik Şurası təcavüzkarın adını çəkmir, yalnız "yerli ermənilər" ifadəsi ilə kifayətlənməyə üstünlük verirdi. Halbuki artıq təcavüzkarın kim olduğu hamıya məlum idi və indi bunu yalnız rəsmi [78-79] şəkildə təsdiqləmək qalırdı. BMT Təhlükəsizlik Şurası isə belə bir addım atmadı.

1993-cü ilin avqustunda Ermənistan Azərbaycanın Füzuli rayonunu işğal etmək məqsədilə hərbi əməliyyatları gücləndirdikdən sonra BMT Təhlükəsizlik Şurası sədrinin yeni bəyanatı yayıldı. Həmin bəyanatda Azərbaycan ərazilərinin işğalı faktı təsdiqlənir, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu vurğulanır və bölgədə hökm sürən vəziyyətdən narahatlıq ifadə edilirdi.

Sənəddə deyilirdi ki, BMT Təhlükəsizlik Şurası məsələnin ATƏM çərçivəsində həllinə tərəfdardır və eyni zamanda tərəflərin özlərinin münaqişənin aradan qaldırılması üçün müvafiq addımlar atmasının zəruriliyinə əmindir. "Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə və onların arasındakı gərginliklə əlaqədar ciddi narahatlıq keçirdiyini bildirir. Şura Ermənistan Respublikası hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin Şuranın 822 və 853 saylı qətnamələri ilə razılaşmalarına nail olmaq məqsədilə öz təsirindən istifadə etməyə çağırır.

Şura habelə bu günlərdə Füzuli rayonunda döyüş əməliyyatlarının güclənməsindən dərin narahatlıq keçirdiyini bildirir. Şura əvvəllər Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarına müdaxiləni və onların işğalını pislədiyi kimi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindən Füzuli rayonuna edilən hücumları da pisləyir. Şura bütün hücumların dayandırılmasını və bölgədə sülh və təhlükəsizlik üçün qorxu törədən hərbi əməliyyatların və bombardmanların dərhal dayandırılmasını tələb edir, habelə işğalçı qüvvələrin Füzuli zonasından, həmçinin Azərbaycan Respublikasının Kəlbəcər, Ağdam rayonlarından və bu yaxınlarda işğal olunmuş başqa rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Şura Ermənistan Respublikasının hökumətini bu məqsədlə öz təsirindən istifadə etməyə çağırır. Şura Azərbaycan Respublikasının və regionun bütün başqa dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, habelə onların sərhədlərinin pozulmazlığını bir daha təsdiq edir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail [79-80] olmağa dair ATƏM-in Minsk qrupunun səylərinə döyüş əməliyyatlarının göstərdiyi təsirdən dərin narahatlıq keçirdiyini bildirir".

Bəyanatda BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair "təxirəsalınmaz tədbirlər cədvəli"nin dəqiqləşdirilmiş variantının münaqişə tərəflərinin qəbul etməsinin vacibliyi də öz əksini tapmışdı. Lakin bu bəyanat da əvvəlki sənədlərdən bir o qədər fərqlənmirdi. Çünki burada Ermənistanın işğalçı tərəf olması faktı etiraf edilmir, münaqişə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərlə Azərbaycan arasında olan problem kimi səciyyələndirilirdi.

Bu qeyri-müəyyən münasibət isə Ermənistanın işğalçılıq əməliyyatlarını genişləndirməsinə əlverişli şərait yaradırdı. Ermənilər beynəlxalq birliyin hadisələrə obyektiv reaksiya verməməsindən istifadə edərək yeni təcavüz aktları həyata keçirir, Azərbaycan torpaqlarını zəbt edirdilər.

Beləliklə də Füzuli və Cəbrayıl rayonları da işğal olundu. 1993-cü ilin avqustunda atəşkəs haqqında razılıq əldə olunsa da, ermənilər buna əməl etməyərək Qubadlı rayonunu da ələ keçirdilər. Azərbaycan növbəti dəfə BMT Təhlükəsizlik Şurasına müraciət etməli oldu. Bu müraciətdə Minsk qrupu tərəfindən hazırlanmış "Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli" ilə Azərbaycanın razı olmadığı öz əksini tapmışdı. 1993-cü il oktyabrın 14-də BMT Təhlükəsizlik Şurası yenidən Dağlıq Qarabağ problemini müzakirəyə çıxararaq 874 saylı qətnamə qəbul etdi. Bu qətnamədə Minsk qrupu tərəfindən hazırlanmış "Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli" təqdir olunur və bu plan əsasında münaqişənin nizamlanmasının mümkünlüyü bildirilirdi.

Mahiyyət etibarilə bu qətnamə də əvvəlkilərdən fərqlənmirdi. Burada da Ermənistanla Azərbaycan arasında yaranmış gərginlikdən, cəbhə bölgəsində hərbi əməliyyatların yenidən güclənməsindən, çoxsaylı insan tələfatından və Azərbaycan ərazilərinin işğal edilməsi faktlarından narahatlıq ifadə olunur, münaqişənin aradan qaldırılması istiqamətində ATƏM-in səyləri dəstəklənir, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı bir daha təsdiqlənirdi. Amma bütün bunlarla yanaşı yenə də [80-81] təcavüzkarla təcavüzə məruz qalan tərəflər adları ilə qeyd olunmur, münaqişənin yalnız Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməniləri ilə Azərbaycan arasında olan problem kimi səciyyələndiyi vurğulanırdı. Digər tərəfdən, maraqlı idi ki, 874 saylı qətnamədə

Azərbaycanın son vaxtlar işğal olunmuş rayonları haqqında heç nə deyilmirdi. Halbuki əvvəlki qətnamələrə işğal olunmuş ərazilərin konkret adları da salınmışdı.

1993-cü ilin oktyabrında isə Ermənistanın beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərə etinasızlığı özünü daha açıq şəkildə göstərdi. ATƏM sədrinin bölgədə səfərdə olduğu bir vaxtda Ermənistan silahlı qüvvələri Azərbaycanın Zəngilan rayonunu işğal etdi. Bu, artıq beynəlxalq birliyin münaqişəyə obyektiv qiymət verməsinin zəminliyini ifadə edən növbəti hadisə idi.

1993-cü il noyabrın 11-də BMT Təhlükəsizlik Şurası Azərbaycanın müraciətinə müvafiq olaraq münaqişənin davam etməsi ilə bağlı vəziyyəti yenidən müzakirəyə çıxararaq 884 saylı qətnamə qəbul etdi. Həmin qətnamə Azərbaycanın Horadiz qəsəbəsinin və Zəngilan rayonunun işğal edilməsi faktından narahatlıq ifadə edir və sənəddə işğalçı qüvvələrin bu ərazilərdən çıxarılması tələb olunurdu. Bu qətnamə, təbii ki, yerinə yetirilmədi. Qeyd edək ki, sözügedən sənəd BMT TŞ-nin əvvəlki qətnamələrindən prinsip etibarilə heç nə ilə fərqlənmirdi. Bu qətnamələrin heç biri BMT-nin müvafiq nizamnaməsinin tələblərini özündə tam şəkildə əks etdirə bilməmişdir. Məsələ burasındadır ki, BMT-nin qəbul etdiyi sənədlərdə beynəlxalq hüququn çox vacib prinsipləri nədənsə unudulur və təcavüzkarın cəzalandırılması üçün heç bir konkret mexanizm müəyyənləşdirilmirdi. Halbuki münaqişələrin həlli sahəsində müəyyən təcrübəsi olan bu təşkilat Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasətinə son qoymaq və regionda həqiqi, davamlı sülhə nail olmaq üçün kifayət qədər geniş imkanlara malik idi. Bu, həm beynəlxalq hüququn bütün dövlətlər tərəfindən yekdilliklə qəbul edilmiş prinsiplərində, həm də BMT-nin Nizamnaməsində öz əksini tapmışdır. Sadəcə olaraq bu prinsipləri həyata keçirmək üçün iradə nümayiş etdirmək tələb olunurdu ki, bu da, görünür, beynəlxalq ictimaiyyət üçün o qədər də mühüm əhəmiyyət kəsb etmirdi. Hər halda münaqişə başladıqdan sonra [81-82] bu məsələyə münasibətdə ikili standartların mövcudluğunu təsdiqləyən onlarla faktın ortaya çıxması belə düşünməyə əsas verir.

Məsələ burasındadır ki, BMT Nizamnaməsinə görə, TŞ-yə mübahisəli məsələləri, o cümlədən münaqişələri həll etmək üçün geniş səlahiyyətlər verilir. Şuranın qətnamələri məcburi mahiyyət kəsb etməsə və tövsiyə xarakteri daşısa da, yerinə yetirilmədikdə və məsələ beynəlxalq sülh üçün təhlükə xarakteri daşıdıqda TŞ-nin məcburi qərarlar qəbul etmək hüququ var. Lakin biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin timsalında bunu müşahidə etmədik. Halbuki ölkəmizə qarşı təcavüz aktı bir tərəfdən xalqımızın dinc və sakit yaşamasına mane olurdusa, digər tərəfdən həm də regional təhlükəsizliyə ciddi problemlər yaradırdı.

BMT Nizamnaməsində o da qeyd olunur ki, hər bir dövlətin ərazi bütövlüyü toxunulmazdır və bu prinsipi pozanlar beynəlxalq hüququn normalarına zidd hərəkət etmiş olurlar. Ermənistan dünyanın gözü qarşısında beynəlxalq hüquq normalarına məhəl qoymadığını sübut etdi. Bunun qarşısını almaq üçün real təzyiq mexanizmlərindən ifadə mümkün idi. Lakin beynəlxalq birlik bu məsələdə də laqeydlik nümayiş etdirdi.

Təcavüz anlayışının mahiyyəti BMT-nin 1974-cü ildə qəbul edilmiş qətnaməsində öz əksini tapmışdır. Həmin qətnaməyə görə:

1. Bir dövlətin digər dövlətin suverenliyinə, siyasi müstəqilliyinə, ərazi bütövlüyünə qarşı silahlı qüvvə tətbiq etməsi;

2. Hər hansı dövlətin BMT Nizamnaməsinə zidd olaraq birinci silahlı qüvvə tətbiq etməsi;

3. a) bir dövlətin digər dövlətin ərazisinə silahlı müdaxilə və ya hücum etməsi, yaxud müvəqqəti xarakter daşımasından asılı olmayaraq istənilən hərbi işğal və ya müdaxilə nəticəsində başqa bir dövlətin ərazisinin ilhaqı;

b) bir dövlətin hərbi qüvvələri tərəfindən digər dövlətin ərazilərinin bombardman olunması;

c) bir dövlət tərəfindən və ya onun adından silahlı qüvvələrin, muzdluların, nizamsız hərbi dəstələrin göndərilməsi təcavüz aktı hesab edilir.

Təcavüz aktının bu və ya digər formasına görə təcavüzkar dövlət BMT Təhlükəsizlik Şurası qarşısında birbaşa məsuliyyət daşıyır. Bu isə [82-83] Təhlükəsizlik Şurasına təcavüzkar haqqında məcburi tədbirlərin görülməsi səlahiyyətini verir. Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasət yürütdüyünü təsdiqləyən onlarla fakt var və bu faktlar sözügedən ölkənin respublikamıza qarşı həyata keçirdiyi hərbi əməliyyatların bütün kriteriyalar üzrə məhz təcavüz aktı olduğunu söyləməyə əsas verir. Lakin bütün bunlara baxmayaraq, BMT Təhlükəsizlik Şurası təcavüzkarı cəzalandırmaq və onu öz qanunsuz hərəkətlərindən çəkindirmək üçün lazımi qərarlar qəbul etmək istəmədi. [83]

## *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı*

Azərbaycanın bu nüfuzlu beynəlxalq quruma üzv olması 1992-ci ilə təsadüf edir. Həmin il yanvar ayının 30-da Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirəyə üzv olan Azərbaycan iyulun 8-də ATƏM-in Helsinkidə keçirilən zirvə toplantısında təşkilatın sənədlərini imzaladı. 1992-ci ilin fevralında ATƏM-in ilk missiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məruzə hazırlamaq üçün respublikamıza gəldi. Fevral ayında missiyanın məruzəsi təşkilatın Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən iclasında dinlənildi. Məruzədə Dağlıq Qarabağın Azərbaycan ərazisi olması faktı təsdiqlənirdi. Komitə münaqişənin həllinə dinc vasitələrlə nail olmağın zəruriliyini də bəyan etmişdi.

1992-ci ilin mart ayında ATƏM-in nümayəndələri ikinci dəfə regiona səfər etdilər və bu dəfə də YVŞK-nın iclasında məruzə dinlənildi və komitə yenidən tərəfləri Dağlıq Qarabağa dair sülh konfransının keçirilməsinə şərait yaratmağa çağırmaqla kifayətləndi.

Martın 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurası vəziyyəti müzakirə edərək münaqişənin sülh yolu ilə nizamlanmasını təmin etmək üçün YVŞK-nin zəmanəti əsasında Dağlıq Qarabağa dair sülh konfransının çağırılması barədə qərar qəbul etdi. Bununla da Minsk prosesinin əsası qoyulmuş oldu.

1994-cü ilin dekabrında Budapeştdə ATƏM üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşü keçirildi. Zirvə görüşündə qəbul olunan ən mühüm qərarlardan biri təşkilatın Avropada sülhün və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində fəaliyyətinin genişləndirilməsi oldu. Sammitin ən vacib hadisələrindən biri də ATƏM-in təşkilati cəhətdən yeniləşməsi və onun fəaliyyətinin genişləndirilməsi məqsədilə qurumun 1995-ci ilin yanvar ayının 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı adlandırılması idi.

Zirvə toplantısının iştirakçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini də müzakirə edərək bu barədə qəbul olunmuş [84-85] sənədlərə müvafiq bölmənin salınmasına razılıq verdilər. Həmin bölmə "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" adlanırdı. Bu bölmədə tərəflər arasında atəşkəsin əldə edilməsi alqışlanır və ATƏM-in fəaliyyətdə olan sədrinə Minsk Konfransı həmsədrlərinin təyin edilməsi tapşırılırdı. Sənədin birinci bəndində deyilir: "İştirakçı dövlətlər münaqişə və onun nəticəsi kimi insan faciəsinin davam etməsini pisləyərək münaqişədə iştirak edən tərəflərin 1994-cü il may ayının 12-də ATƏM-in Minsk qrupu ilə birgə əməkdaşlıqda Rusiya Federasiyasının vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsi təsdiq etmələrini alqışladılar. İştirakçı dövlətlər BMT Təhlükəsizlik Şurasının əlaqədar qətnamələrinə dair öhdəliklərini təsdiq etdilər və Təhlükəsizlik Şurasının münaqişənin sülh yolu ilə həll edilməsinə yönəlmiş ATƏM-in səylərinə verdiyi siyasi dəstəyi alqışladılar. Bununla əlaqədar onlar münaqişədə iştirak edən tərəfləri, birbaşa əlaqələr də daxil olmaqla intensiv daimi danışıqlara çağırdılar. Bundan çıxış edərək onlar ATƏM-in səylərini və yardımını gücləndirəcəklərinə əmin etdilər, ATƏM-in Minsk qrupunun vasitəçilik səylərini tamamilə müdafiə etdilər və Rusiya Federasiyasının çox mühüm yardımını və Minsk qrupunun digər ayrılıqda götürülmüş üzvlərinin səylərini yüksək qiymətləndirdilər. Onlar bütün bunları ATƏM çərçivəsi daxilində vahid, uzlaşdırılmış səylər şəklində uyğunlaşdırmağa razılaşdılar".

Sənəddə münaqişənin həlli üçün sülhməramlı qüvvələrin göndərilməsinin zəruriliyi də öz əksini tapmışdı: "Onlar BMT Təhlükəsizlik Şurasının uyğun qətnaməsi ilə silahlı münaqişə bitərkən tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏM-in çoxmillətli sülhməramlı qüvvələri göndərmək barədə siyasi iradələrini bəyan etdilər. Onlar fəaliyyətdə olan sədrdən xahiş etdilər ki, o. mümkün qədər tez bir zamanda, 1992-ci il Helsinki sənədinin üçüncü bəndinə əsasən və BMT Nizamnaməsinə tam uyğun şəkildə təşkil olunacaq belə qüvvələrin yaradılması, tərkibi və əməliyyatlarına dair plan hazırlasın. Bununla əlaqədar fəaliyyətdə olan sədrə Minsk Konfransının həmsədrləri və Minsk qrupu, Baş katib [85-86] tərəfindən köməklik və yardım göstəriləcək, o, həmçinin müvafiq məsləhətləşmələrdən sonra sülhməramlı qüvvələri yaradan dövlətlərə bu qüvvələrin xarakteristikası və həcmi, onlara rəhbərlik və nəzarət, arxa təminat hissələrinin və ehtiyatlarının paylanması, davranış və sazişlərin qaydalarına dair tövsiyələr vermək üçün Vyanada yüksək səviyyəli planlaşdırma qrupu yaradacaq. O, BMT-nin texniki məsləhət və ekspertiza təminatına hazır olduğu barədə bəyanatına əsasən BMT-dən yardım almağa çalışacaqdır. O, həmçinin BMT TŞ-dən ATƏM-in sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsi barədə davamedici siyasi dəstəyə çalışacaqdır". Bu, faktiki olaraq, Rusiyanın regiona rus ordusundan təşkil edilmiş sülhməramlı qüvvələr yerləşdirmək cəhdinə qarşı atılmış addım idi.

ATƏM-in zirvə toplantısı Minsk Konfransına Minsk qrupunun köməyi ilə mövcud atəşkəsin davam etdirilməsi və sülh sazişinin imzalanması üçün müvafiq tədbirlər görülməsi istiqamətində səylərini artırmağı tövsiyə edirdi. Burada sülh sazişinin imzalanmasından sonra münaqişə bölgəsinə çoxmillətli sülhməramlı qüvvələrin göndərilməsi də nəzərdə tutulurdu.

Budapeşt sammitinin əsas nəticələrindən biri Minsk qrupunda həmsədrlik institutunun yaradılması oldu. Sülhməramlı qüvvələrin müxtəlif dövlətlərin hərbi qüvvələrindən təşkil olunması barədə qərar Rusiyanın məsələni təkbaşına həll etmək istəyinin qarşısını aldı. Qeyd edək ki, o vaxt rəsmi Moskva çox cidd-cəhdlə sülhməramlıların məhz Rusiya ordusundan ibarət olmasına çalışırdı.

1996-cı ilin dekabrında Lissabonda keçirilən ATƏT üzvü ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə üç mühüm sənəd (ATƏT-ə üzv ölkələrin Lissabon zirvə görüşünün bəyannaməsi, XXI əsrin Avropası üçün ümumi və hərtərəfli təhlükəsizlik modelinə dair bəyannamə və Avropadakı adi silahlı qüvvələrin məhdudlaşdırılması prosesinin parametrləri və əhatə dairəsi haqqında sənəd) qəbul olunmalı idi. Lakin zirvə toplantısının bəyannaməsində öz əksini tapmış müddəalardan biri - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prinsiplərini özündə ehtiva edən 20-ci maddə Ermənistan tərəfin etirazına səbəb oldu. Ermənistan həmin maddəyə veto qoydu. [86-87] Azərbaycan Prezidenti Heydər Əliyev isə həmin maddənin bəyanatın mətnindən çıxarılmasına qəti etirazını bildirərək sammitin bütün sənədlərinə veto qoyacağını bildirdi. Aparılmış danışıqlar Azərbaycan Prezidentini mövqeyini dəyişməyə vadar edə bilmədi və ölkəmiz konsensus verməmək hüququndan istifadə edərək sammitin bütün sənədlərinə veto qoydu. Bu isə Lissabon sammitinin nəticəsiz başa çata biləcəyi demək idi.

20-ci maddə Dağlıq Qarabağ münaqişəsinin üç prinsip əsasında həll edilməsinin mümkünlüyünü göstərirdi: Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün toxunulmazlığı, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində öz müqəddəratını təyinetmə hüququ əsasında muxtariyyət və özünüidarə statusunun verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması sözügedən prinsiplər ATƏT-in Minsk qrupunun 1996-cı ilin noyabr ayında Helsinkidə keçirilmiş iclasında münaqişənin həlli formulu kimi qəbul olunmuşdu və təxminən eyni layihəni də elə həmin ilin fevralında ATƏT-in fəaliyyətdə olan sədri Flavia Kolti irəli sürmüşdü.

Bütün maneələrə və çətinliklərə baxmayaraq, Azərbaycan Prezidenti sona qədər öz prinsiplərinə sadiq qaldı və bir çox dövlət başçıları ilə keçirilmiş görüşlərində də mövqeyini kifayət qədər ciddi arqumentlərlə əsaslandırdı. Uzun və gərgin müzakirələrdən sonra 20-ci maddədə öz əksini tapmış bütün prinsiplərin ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatında təsbit olunması barədə konsensus əldə edildi. Bəyanatda deyilirdi: "Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin tərkib hissəsi olacaq 3 prinsipi tövsiyə etmişlər. Bu prinsipləri Minsk qrupunun üzvü olan bütün ölkələr müdafiə edirlər. Onlar aşağıdakılardır:

- Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Dağlıq Qarabağın Azərbaycan tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyənləşdirilən ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu; [87-88]
- məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi". Bu, ölkəmizin diplomatik müstəvidə əldə etdiyi çox mühüm uğur idi.

Əvvəla, Azərbaycan bütün dünyanın diqqətini Qarabağ münaqişəsinə yönəltməyə nail olmuşdu, bu isə olduqca vacib məsələ idi. Çünki dünyanın problemə münasibəti heç də obyektiv məlumatlar əsasında formalaşmamışdı və Azərbaycan Lissabon sammitində Ermənistanın və erməni lobbisinin uzun müddətdən bəri apardığı təbliğat kampaniyasının nəticələrini bir günün içərisində dəyişməyə nail oldu.

Digər tərəfdən Ermənistan bir daha işğalçı siyasət yürütdüyünü və beynəlxalq hüququn bütün dünya tərəfindən qəbul olunmuş prinsiplərinə qarşı çıxdığını ortaya qoydu. Bununla yanaşı ATƏT üzvlərinin hamısı, Ermənistan istisna olmaqla, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması və Dağlıq Qarabağın bütün əhalisinin (buraya ərazidə yaşayan azərbaycanlılar da daxildir) təhlükəsizliyinin təmin edilməsi şərtləri daxilində həllinin mümkünlüyünü təsdiqlədilər. Ermənistan isə ilk dəfə məhz bu sammit zamanı beynəlxalq birliyin ciddi səpkisi ilə qarşılaşdı və özünü təcrid olunmuş vəziyyətə saldı. Və nəhayət, Lissabon sammiti zamanı münaqişənin həlli ilə bağlı danışıqlar prosesinin sonrakı mərhələsi üçün Azərbaycanın milli maraqlarını təmin edən, beynəlxalq birliyin qəbul etdiyi hüquqi baza müəyyənləşdirildi.

1999-cu ildə ATƏT-in İstanbul zirvə toplantısında da Azərbaycan öz ədalətli mövqeyini dünyaya bəyan etmək üçün mühüm addımlar atdı. İstanbul sammitində prezident Heydər Əliyevin apardığı səmərəli danışıqlar Ermənistanın qeyri-konstruktiv mövqeyini bir daha nümayiş etdirdi. Rəsmi Yerevan faktiki olaraq sülh sazişinin imzalanması prosesini hər vəchlə ləngitməyə çalışırdı. Halbuki sammitdən əvvəl bir çox beynəlxalq müşahidəçilər, o cümlədən zirvə görüşünün iştirakçıları sülh sazişinin imzalanacağına böyük ümid bəsləyirdilər, İstanbul sammitində qəbul olunmuş deklarasiyanın 20 və 21-ci maddələri tamamilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuşdu və [88-89] burada sülh prosesinin davam etdirilməsinin zəruriliyi qəti şəkildə bildirilirdi.

ATƏT Avropada sülhün qorunub saxlanılmasına və dövlətlərarası əməkdaşlığın genişləndirilməsinə xidmət edən bir təşkilat kimi bu günə qədər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını yerinə yetirsə də, heç bir konkret addım atmağa nail olmayıb. Təşkilatın münaqişənin həllini sürətləndirmək üçün konkret mexanizmlərinin olmaması burada müəyyən rol oynasa da, etiraf etmək lazımdır ki, ATƏT-in işğalçı dövlətə qarşı müəyyən təzyiqlər göstərmək və dünya birliyini bu prosesə cəlb etmək imkanları var. ATƏT beynəlxalq hüquqdan doğan 10 təhlükəsizlik prinsipi müəyyənləşdirmişdir ki, bunların da hamısı Ermənistan tərəfindən pozulmuşdur. Həmin prinsiplər aşağıdakılardır:

1. Suverenliyə hörmət;
2. Silahlı qüvvələrdən istifadə etməmək;

3. Sərhədlərin toxunulmazlığı;
4. Dövlətlərin ərazi bütövlüyü;
5. Mübahisələrin dinc yolla həlli;
6. Bir-birinin daxili işlərinə qarışmamaq;
7. İnsan hüquq və azadlıqlarına hörmət etmək;
8. Millətlərin bərabərliyi və xalqların öz müqəddəratını təyinetmə hüququna hörmət;
9. Dövlətlər arasında əməkdaşlıq;
10. Beynəlxalq hüquqa dair öhdəliklərin vicdanla yerinə yetirilməsi.

Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti yürütməklə bu prinsiplərin heç birini nəzərə almadığını göstərib. Azərbaycanın suverenliyinə qəsd edib (1-ci prinsip), ölkəmizə və xalqımıza qarşı silahlı qüvvələrdən istifadə edib (2-ci prinsip), sərhədlərimizi pozub (3-cü prinsip), ərazi bütövlüyümüzü tanımadığını dəfələrlə beynəlxalq əhəmiyyətli tədbirlərdə nümayiş etdirib və təcavüzkar əməlləri ilə bunu bir daha [89-90] təsdiqləyib (4-cü prinsip), Azərbaycanın daxili işlərinə qarışıb, bu, Dağlıq Qarabağda məhz Ermənistan hökumətinin təhriki ilə başlayan proseslərdə öz əksini tapır (6-cı prinsip), bir milyona qədər qaçqın və məcburi köçkünün hüquqlarını tapdalayıb (7-ci prinsip), millətlərin bərabərliyi anlayışına hörmət etmədiyini və azərbaycanlıları, eyni zamanda bütün türkləri düşmən kimi qəbul etdiyini əməlləri ilə sübuta yetirib, erməni xalqının bir dəfə öz müqəddəratını təyin edərək dövlət yaratdığını bilə-bilə ikinci dəfə bu xalqın öz müqəddəratını təyin etməsini bəhanə gətirərək xalqımıza qarşı görünməmiş vəhşiliklərə rəvac verib (9-cu prinsip), beynəlxalq hüquqa dair heç bir öhdəliyi yerinə yetirmir (10-cu prinsip). [90]

## *İslam Konfransı Təşkilatı*

İslam Konfransı Təşkilatı Ermənistanın Azərbaycana təcavüz faktını tanıyan ilk beynəlxalq qurum olmuşdur. Təşkilatın zirvə görüşlərində daim Dağıq Qarabağ problemi diqqət mərkəzində saxlanılmış və bu barədə kifayət qədər aydın, beynəlxalq hüquq normalarına əməl olunmasını tələb edən bəyanatlar qəbul edilmişdir. Təşkilatın 1993-cü ildə Kəraçidə (Pakistan) keçirilmiş xarici işlər nazirlərinin 21-ci konfransında ilk dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edilmişdir. Qətnamədə Ermənistanın Azərbaycana qarşı hücumları və respublikamızın torpaqlarını işğal etməsi qətiyyətlə pislənilir. Sənəddə Ermənistanın təcavüzkar hərbi əməliyyatlara rəvac verməsi nəticəsində Azərbaycanda humanitar vəziyyətin dözülməz həddə çatması, Ermənistanın davranışının beynəlxalq sülh üçün təhlükə yaratması, bu dövlətin silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasının zəruriliyi bildirilirdi. Bundan başqa. qətnamədə münaqişənin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında, tanınmış sərhədlərin dəyişdirilməməsi şərtilə və sülh yolu ilə həlli tövsiyə olunurdu. "İKT Bəyannaməsinin prinsipləri və məqsədlərindən çıxış edərək, Qarabağ məsələsi barəsində Ermənistanla Azərbaycan arasında münaqişənin kəskinləşməsi ilə əlaqədar dərindən narahat olaraq, Ermənistanın Azərbaycana qarşı son hücumunu və Azərbaycan ərazisinin işğalını qətiyyətlə pisləyərək, Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzü nəticəsində humanitar problemlərin dözülməz vəziyyətindən təsirlənərək, İKT xarici işlər nazirlərinin 1992-ci ildə İstanbulda keçirilmiş V fövqəladə iclasının prinsipial mövqeyini yada salaraq, həmçinin İKT xarici işlər nazirlərinin BMT qərargahında keçirilmiş əlaqələndirmə iclasının son rəsmi məlumatının müvafiq bəndlərini yada salaraq, qonşu ölkələrin və regional dövlətlərin, xüsusilə İran və Türkiyənin Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi istiqamətində göstərdiyi cəhdləri nəzərə alaraq, ermənilərin son təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə yaratdığını dərk edərək, bu eyni hücumun ATƏM çərçivəsində [91-92] aparılan sülh prosesinə dağıdıcı təsir göstərə biləcəyindən xəbərdar olaraq, Baş katibin bu məsələ üzrə məruzəsini yüksək qiymətləndirərək:

1. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;
2. Erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılmasına, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməyi Ermənistandan ciddi surətdə tələb edir;
3. Qarabağ məsələsini dövlətlərin ərazi bütövlüyünün və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır", - deyə sənəddə qeyd edilir.

İslam Konfransı Təşkilatı eyni zamanda Azərbaycan dövlətinin öz ölkəsini və xalqını müdafiə etmək cəhdlərini də dəstəklədiyini bəyanlayırdı. Məcburi köçkünlərin öz yerlərinə qaytarılması üçün müvafiq tədbirlər görülməsinin zəruriliyini ifadə edən bu sənəddə İslam İnkişaf Bankından və digər islam təsisatlarından Azərbaycana humanitar yardımlar ayrılması da məqsədəuyğun hesab edilmişdi. Təşkilat BMT Baş katibindən və Təhlükəsizlik Şurasının sədrindən Ermənistanın təcavüzünü pisləyən və Azərbaycanın işğal edilmiş bütün torpaqlarından erməni qüvvələrinin çıxarılmasını tələb edən qətnamə qəbul olunması üçün öz səlahiyyətlərindən istifadə etməyi də xahiş edirdi.

1994-cü ildə Kasablankada (Mərakeş) İKT ölkələrinin dövlət və hökumət başçılarının növbəti - 7-ci zirvə görüşündə Dağlıq Qarabağa dair daha bir qətnamə qəbul edildi. Həmin qətnamədə Azərbaycan torpaq-larının 20 faizinin Ermənistan tərəfindən işğal olunması faktı kəskin şəkildə pislənilir və respublikamızda 1 milyona qədər məcburi köçkün ordusunun yaranmasından narahatlıq ifadə edilirdi. Bu qətnamə prinsip etibarilə əvvəlkindən bir o qədər də fərqlənmirdi. Sözügedən sənəddə Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində mülki şəxslərə qarşı edilən hərəkətlər bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilir, erməni hərbi birləşmələrinin Laçın və Şuşa rayonlarından təcili çıxarılması, [92-93] Ermənistandan Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmaq tələb olunurdu. Qətnamənin sonuncu müddəasında BMT Baş katibindən sənəddə əks olunmuş müddəanın yerinə yetirilməsinə nəzarət etmək xahiş edilirdi.

1996-cı ildə Cakartada (İndoneziya) İKT Xarici İşlər Nazirlərinin növbəti konfransında daha bir qətnamə qəbul edildi. Bu qətnamə əvvəlkilərlə müqayisədə bir qədər də konkret xarakter daşıyırdı. İlk növbədə qətnamənin adı dəqiq seçilmişdi: "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında". Xatırladaq ki, əvvəlki qətnamələr sadəcə olaraq "Ermənistan və Azərbaycan arasında münaqişə üzrə" adlanırdı. Cakartada qəbul olunmuş qətnamənin adı isə Ermənistanın Azərbaycana qarşı təcavüzü faktını konkret və açıq formada ifadə edirdi. Bu sənəddə Ermənistanın işğalçı siyasəti pislənilir və işğal edilmiş ərazilərin boşaldılması tələb olunurdu. Bundan başqa, qətnamədə Ermənistanın təcavüzkar addımlarının sülh prosesinə mane olduğu da vurğulanırdı. Burada Azərbaycanda məcburi köçkünlərin artması ilə bağlı humanitar vəziyyətin kəskinləşməsindən narahatlıq ifadə olunur və beynəlxalq ictimaiyyətdən respublikada yaranmış bu problemin həlli üçün müvafiq maliyyə yardımı göstərilməsi xahiş edilirdi.

Bundan sonrakı dövrlərdə də İKT prinsipial mövqeyinə sadiq qalmış və Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını müxtəlif səviyyəli görüşlərdə, zirvə toplantılarında, xarici işlər nazirlərinin

konfranslarında daim bəyan etmişdir. 2004-cü ildə isə Azərbaycanın təklifi ilə İKT-nin qətnaməsinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair yeni müddəalar əlavə edilmişdir. [93]

## *Avropa Birliyi*

Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın tarixi 1993-cü ildən başlanır. Məhz həmin ilin fevral ayında bu beynəlxalq təşkilatla ölkəmiz arasında əlaqələr qurulub. 1993-cü ilin aprel ayının 7-də AB Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanatla çıxış etmişdir. Həmin bəyanatda təşkilata üzv ölkələr münaqişənin dərinləşməsindən narahatlıq keçirdiklərini, Kəlbəcər və Füzuli rayonlarında əməliyyatların genişlənməsindən təəssüfləndiklərini ifadə etmişdilər. Lakin bu bəyanatda Ermənistanın respublikamızın ərazilərini işğal etməsi faktına dair heç bir konkret münasibət ifadə olunmur və münaqişənin əsl səbəbləri barədə fikir bildirilmirdi. AB məsələyə daha çox neytral mövqedən yanaşmağa və təcavüzkarın kim olduğunu etiraf etməməyə çalışırdı.

Həmin ilin sentyabr ayında Ermənistanın işğalçı qüvvələrinin cəbhə bölgəsində yeni əməliyyatlar keçirilməsi qurumu daha bir bəyanatla çıxış etməyə məcbur etdi. Bu sənəddə ermənilərin Azərbaycana qarşı hərbi hücumları pislənilir və qaçqınların sayının həddən artıq çoxalmasından narahatlıq ifadə olunurdu. AB ATƏM-in Minsk qrupunun bölgədə sülhün əldə edilməsi istiqamətində səylərini də dəstəkləyir və tərəfləri bu prosesin həyata keçməsi üçün əlverişli şərait yaratmağa çağırırdı. Təşkilat BMT qətnamələrinə hörmət göstərilməsini hər iki tərəfdən tələb, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarından qoşunların çıxarılmasının zəruriliyini qeyd edirdi. Bundan başqa, bəyanatda Ermənistandan Azərbaycan ərazilərinə hücum edən yerli erməni qüvvələrinə yardım göstərməmək də tələb olunurdu.

Lakin bu sənəddə qüsurlu məqamlar çox idi. Çünki Azərbaycanda hərbi əməliyyatları yerli ermənilər deyil, Ermənistan ordusu həyata keçirirdi.

"Birlik və onun üzvü olan dövlətlər atəşin müvəqqəti dayandırılmasını (1993-cü il avqustun 31-də Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan hökuməti arasında bu barədə qərar qəbul edilmişdir) [94-95] möhkəmlətmək üçün ATƏM çərçivəsində Minsk qrupunun göstərdiyi səylərə tamamilə tərəfdar çıxırlar. Onlar hər iki tərəfi ikitərəfli dialoqun əlavə olaraq hər hansı formasına başlamağa çağırırlar. Elə bir dialoqa ki, iyun ayının axırlarında bütün tərəflərin prinsipial sazişə nail olduqları cədvəlin yerinə yetirilməsinin mümkünlüyünü gücləndirir. Birlik və onun üzvü olan dövlətlər, həmçinin istədilər ki, Dağlıq Qarabağda yerli erməni qüvvələri BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinə hörmət göstərsin. Onlar Kəlbəcər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarından qoşunların çıxarılmasını tələb edirlər. Birlik və onun üzvü olan dövlətlər Azərbaycanın həmin bölgələrdən hücumlar hazırlamağa qadir olduğuna dair dəlillərə malik deyildirlər", - deyə sənəddə vurğulanır. Göründüyü kimi, sənəddə münaqişənin mahiyyəti barədə heç bir dəqiq məlumat yoxdur. Bununla yanaşı, AB təcavüzkarın kim olduğunu da göstərməmişdi.

1993-cü ilin 9 noyabrında AB Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair növbəti bəyanatını qəbul etdi və bu sənəd də əvvəlkilərdən fərqlənmədi. Təşkilat toqquşmaların güclənməsindən narahatlıq keçirdiyini və qaçqınların sayının artmasının bölgədə gərginliyin çoxalmasına gətirib çıxaracağını vurğulayırdı. "Avropa Birliyi 1993-cü il oktyabrın 24-də Dağlıq Qarabağ bölgəsində atəşkəs haqqında sazişin pozulmasını pisləyir və bu yaxınlarda işğal olunmuş ərazilərdən bütün qüvvələri çıxarmağa çağırır. AB ATƏM-in prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir. AB silahlı toqquşmalardan qaçmaqla canını qurtaran on minlərlə mülki şəxsin taleyindən, xüsusilə narahatdır. Həmin qaçqınların qəbulu və müdafiə edilməsi beynəlxalq birliyin üstün vəzifələrindən olmalıdır. Bundan əlavə, bu qaçqınların olması münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırır və bütün regionun sabitliyi üçün qorxu törədir. Avropa Birliyi zərər çəkmiş əhaliyə bundan sonra da humanitar yardım göstərəcəkdir. Bununla əlaqədar o, regionun bütün dövlətlərini yardımın çatdırılmasına kömək etməyə çağırır", - deyə sənəddə bildirilir.

Ümumiyyətlə. Avropa Birliyi münaqişə ilə o qədər də dərindən maraqlanmamış və bu prosesə dair qəti mövqeyini bildirməyə ciddi meyl [95-96] göstərməmişdir. Çünki münaqişələrin həlli məsələsi AB-nin fəaliyyət strategiyasına daxil deyildir. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, ilk vaxtlarda təşkilat, ümumiyyətlə, Cənubi Qafqaza və buradakı proseslərə çox az maraq göstərirdi. AB sırf iqtisadi birlik kimi nəzərdə tutulduğundan siyasi məsələlər, o cümlədən münaqişələrlə bağlı həmişə ehtiyatlı mövqe nümayiş etdirməyə çalışır.

Bununla belə, AB-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini ifadə edən ən əsas hadisələrdən biri 2003-cü ildə baş verdi. Təşkilat münaqişənin həlli üçün kommunikasiya xətlərinin açılması müqabilində Azərbaycanın işğal olunmuş rayonlarından 5-nin geri qaytarılmasını təklif etdi. Bu təklif uzun müddət müzakirə obyekti oldu və bu gün də öz aktuallığını saxlamaqdadır. AB-nin həm regionla əlaqələri inkişaf etdirmək, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında fəal iştirak etmək niyyəti kifayət qədər ciddi məsələyə çevrilib. Bu, süni prosesinin daha geniş müstəviyə çıxarıldığını və problemin beynəlxalq birliyi narahat etdiyini ortaya qoyur.

Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü ildə Belçikaya işgüzar səfəri zamanı Avropa Komissiyasının sədri Roman Prodi ilə görüşündə ölkəmizlə AB arasında əməkdaşlığın genişləndirilməsi və

təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə təkan verməsinin mümkünlüyü ilə bağlı müzakirələr aparılmışdı.

Görüşün ümumi yekunu isə bundan ibarət oldu ki, AB Ermənistanla Azərbaycan arasında beynəlxalq hüququn bütün prinsiplərini nəzərə alan sülh əldə edilməsində maraqlıdır və bunun üçün konkret addımlar atmağa hazırdır. Azərbaycan Prezidentinin Avropa Birliyi Şurasının Baş katibi Xavyer Solana ilə keçirilən görüşündə də bu mövzuya geniş toxunuldu.

Bütün bunlar bir daha göstərir ki, ayrı-ayrı dövrlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə dair beynəlxalq təşkilatlar müxtəlif sənədlər, qətnamələr, bəyanatlar qəbul etsə də, hələ də işğalçı dövlət öz mövqelərindən geri çəkilmir. Bu, beynəlxalq birliyin [96-97] təcavüzkarı layiq olduğu formada cəzalandırmaq istəməməsinin nəticəsi kimi qiymətləndirilə bilər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün yalnız bir yol var ki, bu da beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərinə bu ölkənin də riayət etməsinə nail olmaqdır. [97]

## 2. Münaqişənin həllinə dair danişiqlar prosesi və ATƏT-in vasitəçilik missiyasi

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1992-ci ildən etibarən ATƏT-in diqqət mərkəzində saxladığı əsas məsələlərdən biri olmuşdur. Bu təşkilat münaqişənin həlli prosesində vasitəçilik missiyasını öz üzərinə götürmüş və bu istiqamətdə müəyyən irəliləyişlər əldə olunması üçün bir çox mühüm addımlar atmışdır. Lakin hələ ki, ATƏT münaqişənin nizamlanması üçün konkret nəticələr əldə etməyə nail ola bilməmişdir.

1992-ci il mart aymın 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurası Azərbaycanm Dağlıq Qarabağ bölgəsində yaranmış vəziyyəti müzakirə edərək münaqişənin sülh yolu ilə nizamlanmasını təmin etmək üçün Yüksək Vəzifəli Şəxslər Komitəsinin zəmanəti əsasında Dağlıq Qarabağa dair sülh konfransının çağırılması barədə qərar qəbul etdi. Konfransda ABŞ, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya-Slovakiya, Belarus, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı nəzərdə tutulmuşdu.

1992-ci ilin mayında ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsi tərəfindən konfransın təşkili və iclasın keçirilməsi şərtləri, eləcə də sədrin səlahiyyətlərini müəyyənləşdirən qərar qəbul olundu. Minsk Konfransının keçirilməsi üçün yaradılan Minsk qrupu münaqişənin həlli prosesində iştirak etməli və nəticədə Belarusun paytaxtında yekun sənəd qəbul olunmalı idi. Bu zaman Ermənistan tərəfı Dağlıq Qarabağ ermənilərinin konfransda ayrıca tərəf kimi iştirakını nəzərdə tutan təkliflə çıxış etdi, lakin Azərbaycan tərəfı buna razı olmayaraq Dağlıq Qarabağ ermənilərinin yalnız Azərbaycan nümayəndə heyətinin tərkibində konfransa qatılmasının mümkünlüyünü bildirdi.

1992-ci ilin mayında Helsinkidə ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası keçirildi və burada Azərbaycan, Türkiyə və Ermənistan nümayəndələri bəyanatla çıxış etdilər. Azərbaycan təcavüzkarın cəzalandırılmasını, Ermənistanın işğalçılıq əməliyyatlarına son qoymasını [98-99] tələb etsə də, əks tərəfin mövqeyi onun belə bir addım atmağa hazırlaşmadığını ortaya qoydu. Beləliklə də görüşdə heç bir nəticə əldə olunmadı.

May ayında isə ermənilər hərbi əməliyyatlan genişləndirərək Şuşa və Laçını da işğal etməyə nail oldular.

1992-ci ilin 1 iyununda Romada Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar prosesinin ilkin mərhələsi start götürdü. ABŞ, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, Belarus, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən bu görüş iyunun sonlarında açılması nəzərdə tutulan Minsk Konfransına hazırlıq məqsədi daşıyırdı.[1] Ermənistan tərəfı Dağlıq Qarabağın erməni nümayəndələrinin də görüşə qatılmasında israr edirdi. Belə olan təqdirdə Azərbaycan tərəfı də Dağlıq Qarabağın azərbaycanlı icmasının görüşdə iştirak etməsi barədə təklif irəli sürdü. Bundan sonra Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələri Romaya gəlməkdən imtina etdilər. Onlar danışıqlarda müstəqil tərəf kimi iştirak etmək istədiklərini bildirdilər və bu da bir daha ermənilərin sülhə hazır olmadığını ortaya qoydu. Lakin buna baxmayaraq, görüş baş tutdu və qəbul olunmuş sənədlərdə Laçından və Şuşadan qoşunların çıxarılması, qaçqınların yerlərinə qaytarılmasının təmin edilməsi barədə müddəalar öz əksini tapdı.

İyunun 15-də Romada damşıqların ikinci mərhələsi başladı. Bu görüşdə isə ermənilər Türkiyənin danışıqlardan kənarlaşdırılması tələbini irəli sürdülər. Onlar eyni zamanda Goranboy və Ağdərədə Azərbaycanın apardığı hərbi əməliyyatlar haqqında bəndlərin də sənədlərə əlavə olunmasını təklif etdilər. Bu təklif Azərbaycan tərəfının etirazı ilə qarşılandı və danışıqlarda heç bir nəticə əldə olunmadı. Həmin görüş zamanı tərəflərə atəşin 60 gün müddətində dayandırılması barədə müraciət qəbul olundu. Ermənistan bu müraciətə də əməl etmədi.

Avqust ayında Minsk Konfransının sədri Mario Raffaelli atəşin dayandırılması haqqında təkliflə regiona səfərə gəldi. Təklif tərəflərə təqdim olundu və Azərbaycan onu qəbul etdiyini bildirdi. Həmin təklifə [99-100] görə, tərəflər atəşin dayandırılmasına dərhal razılaşmalı və bundan sonra cəbhə xəttinə müşahidəçilərin ilkin qrupu yerləşdirilməli idi. Avqustun 27-də Azərbaycan, Qazaxıstan və Ermənistan nümayəndələri birgə bəyanatla çıxış edərək ATƏM-in Minsk Konfransının təklifıni alqışladıqlarını bildirdilər. Sentyabrm 3-də İcevan protokolu imzalandı. Bu saziş atəşin dayandırılması haqqında təklifın müddəaların yerinə yetirilməsini nəzərdə tuturdu.

Sentyabrda Almatıda Azərbaycan və Ermənistan arasında münaqişənin nizamlanmasına dair danışıqlar başladı. Lakin burada da bir nəticə əldə olunmadı. Ermənistan Azərbaycan və Qazaxıstanın qəbul etdiyi bəyannamə layihəsini rədd etdi.

Bundan sonra ATƏM-in Minsk qrupunda ABŞ-ı təmsil edən Con Mareska yeni təkliflə çıxış edərək ABŞ, Türkiyə, Rusiya, Azərbaycan və Ermənistanın iştirakı ilə Minsk Konfransmm başlanması üçün damşıqların bərpa olunması ideyasını irəli sürdü. Bu təklifə görə, adı çəkilən 5 ölkənin nümayəndələri Cenevrədə toplanmalı və müəyyən nəticə əldə etmək üçün danışıqlara başlamah idilər. Bundan sonra müəyyən ilkin razılaşmalar əldə olundu. Belə ki, Minsk Konfransımn keçirilməsi barədə bəzi prinsiplər müəyyənləşdirildi, atəşin dekabr və yanvar aylarında dayandırılması haqqında razılığa gəlindi, cəbhə bölgəsinə müşahidəçilərin göndərilməsi qərara

alındı. Amma bütün bunlara baxmayaraq, Ermənistanın əməliyyatları genişləndirməsi nəticəsində sülhün əldə edilməsi istiqamətində irəliləyişləri sona qədər davam etdirmək mümkün olmadı.

1993-cü ildə Minsk qrupuna üzv dövlətlərin iştirakı ilə münaqişənin həllinə dair növbəti görüş keçirildi. Burada tərəflər cəbhə bölgəsinə müşahidəçilər göndərilməsini razılaşdırdılar. Danışıqlar çox gərgin keçsə də, Ermənistanla Azərbaycan arasında sazişin imzalanması baş tutdu. Görüşdə belə bir qərar qəbul edildi ki, atəşin dayandırılması müddətləri və ATƏM-in müşahidəçilər missiyasının işə başlaması, eyni zamanda sülh danışıqlarının sənədləri barədə saziş imzalamaq üçün Minsk qrupunun aprel ayında görüşü keçirilsin. Tərəflərin imzaladığı saziş ATƏM YVŞK-nın iclasında müzakirə olunmalı və təsdiqlənməli idi. Lakin bütün bunlar hələ münaqişə tərəfləri arasında ümumi razılığın [100-101] əldə olunması demək deyildi. Çünki atəşin dayandırılması və Minsk Konfransının açılması məsələsi həll edilməmiş qalmaqda davam edirdi.

Bu görüşdən sonra nizamlama prosesinin proqressiv xarakter alacağına böyük ümidlər yaranmışdı. Lakin aprel ayında Ermənistan silahlı qüvvələrinin Azərbaycanm Kəlbəcər rayonunu işğal etməsi sülhün əldə edilməsinə yaranan ümidləri puça çıxartdı. Azərbaycan yenidən dünya dövlətlərinə və beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın işğalçılıq siyasətinə qiymət verməyi xahiş etdi.

1993-cü il aprel aymın sonlarında Praqada ATƏM YVŞK-nm iclası keçirildi və burada Kəlbəcər rayonunun işğalı məsələsi müzakirəyə çıxarıldı. Ermənistanın işğalçılıq əməllərini pisləyən və hərbi qüvvələrin Kəlbəcərdən çıxarılmasını tələb edən sənədin layihəsi hazırlansa da, qəbul olunmadı. Çünki ATƏM-də bütün sənədlər konsensus yolu ilə qəbul edilirdi, Ermənistan isə sənədə səs vermədi. Bu vaxt artıq BMT təhlükəsizlik Şurası məsələyə münasibətini ifadə edən 822 saylı qətnamə qəbul etmişdi.

İyun ayında ATƏM-in Minsk qrupu üzvlərinin növbəti görüşü keçirildi. Bu görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini nəzərdə tutan daha bir sənəd layihəsi hazırlandı. Həmin sənəddə BMT Təhlükəsizlik Şurasınm 822 sayh qətnaməsinin yerinə yetirilməsi nəzərdə tutulurdu. Bundan başqa, Minsk qrupunun üzvləri "Təxirəsalmmaz tədbirlər cədvəli" adlı plan qəbul edərək onu tərəflərə təqdim etdilər.[1] Görüş zamanı həmin planm qeyd-şərtsiz qəbul olunması barədə Minsk qrupu üzvlərinin və sədrinin müraciəti də oldu. "Təxirəsalınmaz tədbirlər cədvəli" qısa vaxt ərzində (iyunun 11-dək) Ermənistan və Azərbaycan tərəfindən imzalanmalı idi. Həmçinin burada Ermənistanın öz silahlı qüvvələrini iyunun 15-dən etibarən Kəlbəcər ərazisindən çıxarması da tələb olunurdu. Qoşunların çıxarılması üçün 5 gün vaxt nəzərdə tutulmuşdu. İyunun sonlarında Minsk qrupunun üzvləri məsləhətləşmələrə başlamalı və müşahidəçilər missiyasının yerləşdirilməsi, Minsk Konfransımn açıhşı barədə plan hazırlamalı idilər. [101-102]

Azərbaycan bu cədvələ dərhal razılıq verdiyini bəyanladı. Ermənistan isə bu dəfə də qeyri-konstruktiv mövqe nümayiş etdirərək cədvəlin yerinə yetirilməsi vaxtının bir ay uzadılmasını xahiş etdi. Onlar bu təkliflərini guya Dağlıq Qarabağda "Təxirəsalmmaz tədbirlər cədvəli"nin narahatlıq yaratması ilə izah etdilər. Əslində isə ermənilər bu bəhanə ilə danışıqların konstruktiv məcrada inkişafına mane olmaq və beləliklə də hərbi əməliyyatların genişləndirilməsi üçün stimul yaratmağa çalışırdılar. Danışıqlardan bir qədər sonra Azərbaycanın Ağdam və Ağdərə rayonlarının Ermənistan tərəfindən işğal edilməsi bunu bir daha təsdiqlədi.

1993-cü il avqustun 9-da ATƏM-in Minsk qrupu münaqişə tərəfləri ilə məsləhətləşmələrə başladı və "Təxirəsalınmaz tədbirlər cədvəli"ni yenidən müzakirə etdi. Ermənistanın sənəddə nəzərdə tutulmuş bəzi planlara etirazından sonra cədvəlin yeni variantı hazırlandı. Bu, "Təxirə-salınmaz tədbirlər cədvəli"nin dəqiqləşdirilmiş variantı kimi təqdim olunurdu. Əslində isə yeni variant tamamilə Ermənistanınn iddiaları və təklifləri əsasında qurulmuşdu. Belə ki, burada ATƏM müşahidəçilərinin Azərbaycan ərazisində yerləşdirilməsi nəzərdə tutulur, Ermənistanla sərhəd rayonlarda isə yalnız 10 kilometrlik məsafənin nəzarətdə saxlanılacağı göstərilirdi. Azərbaycan bu sənədə qəti etirazını bildirərək onu qəbul etmədiyini Minsk qrupu üzvlərinin diqqətinə çatdırdı.

Bundan sonra artıq ATƏM-in münaqişənin həlli üçün heç bir real mexanizmlərə əl atmamasından və beynəlxalq ictimaiyyətin laqeyd münasibətindən istifadə edən Ermənistan Azərbaycanın Qubadlı, Cəbrayıl və Füzuli rayonlarını da ələ keçirdi.

Sentyabr ayında ATƏM-in Minsk qrupunun üzvləri Parisdə görüşdülər və burada da "Təxirəsalınmaz tədbirlər cədvəli"nin yeni variantı tərəflərə təqdim olundu. Lakin bu layihədə də Azərbaycanın təklifləri nəzərə alınmamışdı. Burada Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxanlması üçün şərtlər irəli sürülür və bununla da beynəlxalq hüququn mühüm prinsipləri pozulurdu. Azərbaycan tərəfı belə bir sənədin qəbul olunmasının mümkünsüzlüyünü bildirərək ona imza atmaqdan qəti şəkildə imtina etdi. BMT Təhlükəsizlik Şurası sənədi müzakirə edərək onu bəyəndiyini və bu layihə əsasında [102-103] regionda sülh yaratmağın mümkünlüyünü bəyanladı. BMT Təhlükəsizlik şurasının 874 saylı qətnaməsində bu, açıq şəkildə öz əksini tapmışdı.

Oktyabr ayında ATƏM-in sədri Marqareta af Uqlasın münaqişə bölgəsinə səfəri zamanı Ermənistan Zəngilan rayonunu da işğal etdi. Bu, artıq Ermənistanın beynəlxalq təşkilatların reaksiyasına heç bir məhəl qoymadığını və qəbul olunmuş qərarlara, qətnamələrə laqeyd münasibətini açıq şəkildə ifadə edirdi.

1993-cü ilin noyabrında ATƏM-ə üzv dövlətlərin Vyanada keçirilən görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bəyanat qəbul edildi. Sənəddə döyüş əməliyyatlarının davam etdirilməsi və yeni

ərazilərin işğal olunması faktı beynəlxalq hüququn prinsiplərinə zidd addım kimi qiymətləndirilir və işğalçı qüvvələrin Horadizdən və Zəngilan rayonundan çıxarılmasının zəruriliyi qeyd olunurdu. Bəyanatda ATƏM-in Minsk Konfransının çağırılması və buna qədər işğal edilmiş ərazilərdən hərbi qüvvələrin çıxarılması, atəşin dayandırılması məsələləri də öz oksini tapmışdı. Bu görüş zamanı "Təxirəsahnmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli" yenidən münaqişə tərəflərinə təqdim olundu. Lakin bu sənəd də Azərbaycanın qəbul etmədiyi "Paris cədvəli"ndən bir o qədər fərqlənmirdi. Çünki "Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli" Dağlıq Qarabağdakı separatçı rejimi müstəqil tərəf kimi təqdim edir, işğalçı qüvvələrin Şuşa və Laçından çıxarılması tələbini qoymurdu. Ona görə də Azərbaycan bu planın qəbul olunmasına razılıq vermədi.

1994-cü ildən etibarən münaqişənin həllində Rusiya daha fəal rol oynamağa başladı. Fevral ayının 8-də Rusiyanın hazırladığı "Silahlı münaqişəyə son qoymaq və onun nəticələrini ləğv etmək haqqında" saziş layihəsi tərəflərə təqdim olundu.

Bu sənədin bəzi müsbət və mənfı cəhətləri vardı. Müsbət cəhət layihədə BMT qətnamələrinin qeyd-şərtsiz yerinə yetirilməsinin göstərilməsi idi. Bundan başqa, Rusiya Dağlıq Qarabağm hüquqi statusunun sonralar razılaşdırılmış formada müəyyənləşdirilməsini təklif edirdi. İlkin mərhələdə isə atəş dayandırılmalı və Ermənistan qoşunları işğal olunmuş ərazilərdən çıxarılmalı idi. Bu isə o demək idi ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən başqa, işğal olunmuş [103-104] digər rayonlarını azad edir və yalnız bundan sonra Dağlıq Qarabağın statusu məsələsi gündəliyə gəlirdi. Təbii ki, belə bir vəziyyət Azərbaycana sərf edirdi, ən azı o baxımdan ki, işğal olunmuş ərazilərin bir hissəsini döyüşsüz geri qaytarmaq imkanı yaranırdı. Lakin sənəddə Şuşa və Laçın barəsində heç nə deyilmirdi. Rusiya Ermənistanla Dağlıq Qarabağ arasında beynəlxalq nəzarət altında olan təhlükəsiz yolun yaradılması ilə eyni vaxtda Laçının taleyinin müəyyənləşdirilməsini təklif edirdi ki, bu da o dövr üçün bir tərəfdən real görünmürdü, digər tərəfdən də Rusiya dəhlizə nəzarət edəcək qüvvələrin məhz rus əsgərlərindən ibarət olmasını nəzərdə tuturdu. Layihədə Dağlıq Qarabağdakı separatçı rejim də müstəqil tərəf kimi göstərilirdi. Rusiyanın təklif etdiyi plan qəbul olunmadı.

Aprel ayında ATƏM-in Minsk qrupunun Praqada keçirilən görüşü zamanı "Etimadı möhkəmləndirmək tədbirləri haqqında" yeni plan irəli sürüldü. Bu planın bəzi hissələri Rusiyanın təklifləri ilə üst-üstə düşürdü. Planda göstərilirdi ki, danışıqlar prosesinin gedişində Azərbaycan Emənistanla bütün kommunikasiya xətlərini açmaq öhdəliyini üzərinə götürməlidir.

1994-cü ilin mayında MDB Parlamentlərarası Məclisinin təşəbbüsü ilə Bişkek şəhərində münaqişənin həllinə dair daha bir görüş keçirildi. Burada da yekun sənəd qəbul olundu, lakin Azərbaycan həmin sənədə imza atmadı. Çünki bu layihədə Dağlıq Qarabağdakı erməni icmasına müstəqil tərəf kimi sənədə imza atmaq səlahiyyəti verilir, azərbaycanlı icması üçün isə belə bir hüquq nəzərdə tutulmurdu.

Nəhayət, uzun sürən danışıqlardan və müzakirələrdən sonra 1994-cü ilin may ayının 12-də Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında saziş imzalandı. Xatırladaq ki, bu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlayandan münaqişə tərəfləri arasında sülhə doğru atılmış ilk ciddi və əhəmiyyətli addım kimi yadda qaldı.

Atəşkəsin əldə edilməsindən sonra da danışıqlar prosesi davam etdirildi. ATƏM, əvvəlki kimi, danışıqlarda vasitəçilik missiyasını yerinə yetirir və tərəflər arasında davamlı sülhə gətirib çıxara biləcək razılaşmanın əldə olunmasına çalışırdı. Doğrudur, bu prosesdə bəzi obyektiv və [104-105] subyektiv çatışmazlıqlar meydana çıxırdı, bir çox hallarda ikili standartlar amili özünü göstərirdi, ATƏM-in sənədlərində, təkliflərində ədalətsiz məqamlar öz əksini tapırdı. Amma bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, ATƏM münaqişənin həlli ilə intensiv məşğul olan və real nəticələrin əldə edilməsi istiqamətində həqiqətən fəallıq nümayiş etdirən yeganə beynəlxalq təşkilat olmuşdur. Minsk qrupunun səyləri bu mənada xüsusən yüksək qiymətləndirilməlidir. Bu qurumun fəaliyyəti hələlik real sülhə gətirib çıxarmasa da, etiraf etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həmişə beynəlxalq ictimaiyyətin diqqət mərkəzində qalmasında ATƏM-in fəaliyyəti əvəzsiz rol oynamışdır.

Qeyd edək ki, danışıqlar prosesinin gedişində ATƏM ilə Rusiya arasında ziddiyyətlər meydana çıxır və bəzi hallarda sülhün əldə olunmasına bu amil də öz mənfı təsirini göstərirdi. Bilavasitə Qərbin maraqlarını təmsil edən və Rusiya ilə müqayisədə bir qədər neytral görünməyə çalışan ATƏM Moskvanın mövqelərinin Cənubi Qafqazda möhkəmlənməsini istəmirdi. Bununla yanaşı, təbii ki, Rusiya da tamamilə fərqli mövqedən çıxış edir və öz mənafelərinə uyğun həll modelinin gündəliyə çıxmasına can atırdı. Danışıqların gedişi zamanı müəyyən kompromislərin əldə edildiyi ərəfədə Ermənistanın cəbhə xəttində əməliyyatlarını intensivləşdirilməsi də məhz bu ziddiyyətlərin təzahürü kimi özünü göstərirdi.

1994-cü ilin iyulunda Vyanada ATƏM-in Minsk qrupunun iclasında Rusiyanın hazırladığı "Böyük Siyasi Saziş" layihəsi müzakirəyə təqdim olundu. Bu layihə ATƏM-in bəzi təklif və əlavələrindən sonra tərəflərə verilməli idi. Uzun müzakirələrdən sonra məlum oldu ki, ATƏM-lə Rusiya layihə barədə ortaq mövqeyə gələ bilməyiblər. Qeyd edək ki, burada Minsk qrupunun təklif etdiyi "Təxirəsalmmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli"ni Rusiyanın irəli sürdüyü layihə ilə razılaşdırmaq nəzərdə tutulmuşdu. Sənədlərin əsas fərqi isə bundan ibarətdi ki, Rusiya nizamlama prosesini sırf özünün nəzarətinə keçirmək niyyətində idi.

ATƏM isə çoxtərəfli vasitəçiliyə tərəfdar çıxırdı. Rusiya, əvvəlki kimi, sülhməramlıların rus ordusundan, ATƏM isə çoxmillətli qüvvələrdən [105-106] təşkil olunması ideyasını dəstəkləyirdi. Nəhayət, 1994-cü ilin oktyabrmda sülhməramlı qüvvələrin çoxmillətli olması barədə ATƏM-in qərarı qəbul edildi.[1] Bu, Rusiya tərəfindən ciddi etirazla qarşılandı. Beləliklə də ATƏM-in Minsk qrupunun qərarı ilə münaqişə bölgəsinə çoxmillətli sülhməramlı qüvvələrin göndərilməsi barədə təklif tərəflərin müzakirəsinə verildi. Ermənistan bu təkliflə razılaşmadı.

1994-cü ilin dekabrında Budapeştdə ATƏM-ə üzv olan dövlət başçılarının növbəti zirvə görüşü keçirildi. Burada qəbul olunmuş sənədlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair xüsusi bölmə də öz əksini tapmışdı. Budapeşt sammitində 1995-ci ilin yanvarından etibarən ATƏM-in ATƏT adlandırılması barədə qərar qəbul edildi.[2]

1995-ci ilin fevralında ABŞ-ın DQ üzrə xüsusi nümayəndəsi Cozef Pressel münaqişə bölgəsinə səfər etdi. Lakin onun bu səfəri Azərbaycan-da ciddi narazılıqla qarşılandı. Belə ki, C.Pressel Azərbaycam güzəştə getməyə, öz iddialarmdan (?) əl çəkməyə çağırmaqla əslində Ermənistanın mövqelərini müdafıə etdiyini göstərdi. Bu isə, təbii ki, münaqişənin həllinə kömək göstərə bilməzdi, əksinə, sülh prosesini ləngidən bir mövqe idi.

1995-ci ildə Moskvada yenə də Rusiyanın təşəbbüsü ilə danışıqlar başladı. Bu danışıqlarda Dağlıq Qarabağdakı separatçı rejimin də müstəqil tərəf kimi iştirakı nəzərdə tutulurdu. Belə olan halda Azərbaycan da Dağlıq Qarabağın azərbaycanlı icmasının prosesə qatılmasını təklif etdi. Danışıqların gedişində Ermənistan yeni bir təkliflə çıxış edərək sülh sazişinin sülhməramlı qüvvələrin münaqişə bölgəsinə göndərilməsindən sonra imzalanmasını təklif etdi. Ermənilər sülhməramlı qüvvələrin tərkibində Türkiyənin təmsil olunmasının da əleyhinə çıxış edir, Şuşa və Laçının azad olunması məsələsinə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsindən sonra baxılmasını istəyir, Laçının da erməni qoşunlarının nəzarəti altında olmasını tələb edirdilər. Bu təkliflərin heç biri Azərbaycan tərəfindən qəbul olunmadı. [106-107]

1995-ci ildə Stokholmda ATƏT-in Minsk qrupunun növbəti iclası keçirildi. Burada qəbul olunmuş bəyanatda ATƏT-in Minsk qrupu atəşkəs rejiminin qorunub saxlanılmasını təqdir edir, münaqişə tərəflərini hərbi əməliyyatların yenidən başlanmasından çəkinməyə çağırır, münaqişənin nəticələrini qeyd-şərtsiz aradan qaldırmağı tələb edir və danışıqlar prosesini davam etdirməyi tövsiyə edirdi.

Həmin ilin mayında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Moskvada danışıqlar keçirilməsi ərəfəsində Ermənistan Minsk prosesi çərçivəsində danışıqları dayandırdığını bəyan etdi. Bu, danışıqlar prosesinin iflasa uğradığını göstərirdi. Bir qədər sonra ATƏT-in Minsk qrupunun Helsinkidə və Badendə keçirdiyi danışıqlar da nəticəsiz bitdi.

Bundan sonra Qərb ölkələri danışıqlar prosesində real nəticələrə çatmaq üçün daha fəal mövqe nümayiş etdirməyə başladılar. ABŞ, Türkiyə və Almaniyanın ATƏT-in Minsk qrupundakı nümayəndələrinə xüsusi səlahiyyətli səfır statusu verilməsi bunun əyani göstəricisi idi.

1995-ci ilin sentyabrında Moskvada danışıqların növbəti raundu keçirildi və burada Azərbaycan bəzi irəliləyişlərə nail ola bildi. Belə ki, Ermənistan Şuşa və Laçının azad edilməsi məsələsinə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsindən əvvəl baxılmasma razılıq verdi. Qeyd edək ki, bu, hər şeydən əvvəl Rusiyanın təzyiqlərinin nəticəsi idi. Çünki Rusiya C.Presselin məlum bəyanatmdan sonra danışıqlar prosesini öz nəzarətinə keçirmək üçün belə bir manevr etməyi qərara almışdı. Bununla da rəsmi Moskva özünün daha konstruktiv və səmərəli fəaliyyət göstərdiyini nümayiş etdirməyə çahşırdı. Lakin Ermənistan bu dəfə də Laçın və Şuşanın azad olunması barədə öhdəlik götürməkdən imtina etdi. Ermənilər Laçma ATƏT-in sülhməramh qüvvələrinin göndərilməsinə etirazlarım bildirdilər, həmçinin Şuşanm Azərbaycana qaytarılmasmın mümkünsüzlüyünü bəyan etdilər.

1995-ci ilin dekabrında Budapeştdə ATƏT-in Xarici İşlər Nazirləri Şurasının iclası keçirildi və burada yenə də eyni məsələlər ətrafmda ortaq mövqenin tapılmaması sülh prosesində irəliləyişə gətirib çıxarmadı. [107-108]

1996-cı ilin yanvarında ATƏT-in Minsk qrupunun Moskvada keçirdiyi görüş də nəticəsiz başa çatdı. Mübahisə doğuran məqamlar əvvəlkilərdən fərqlənmirdi.

İyun ayında Moskvada yenidən danışıqlar keçirildi. Bu dəfə də Ermənistan Şuşa və Laçınm işğaldan azad edilməsinə razılaşmadı. Onlar Azərbaycanın iqtisadi və hərbi qüdrətinin artdığını bəhanə gətirərək bundan ehtiyatlandıqlarını bildirdilər. Maraqlıdır ki, bu məsələdə həmsədrlərin fıkri də ermənilərin bəhanələri ilə üst-üstə düşürdü. Elə buna görə də Moskvada aparılan danışıqlarda irəliləyiş əldə edilmədi.

1996-cı ildə Lissabon sammitindən sonra ATƏT-in Minsk qrupunun həmsədrliyi uğrunda ciddi mübarizə müşahidə edilməyə başlandı. Belə ki, bu dövrdə Minsk qrupunun həmsədrləri Rusiya və Finlandiya idi ki, onların da mövqeyi əksər hallarda eyni idi.

Gərgin müzakirələrdən sonra Finlandiyanın həmsədrliyi Fransa ilə əvəz olundu. Lakin bu da danışıqların gedişində Azərbaycanın mövqelərinin güclənməsinə xidmət etmirdi. Elə buna görə də Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə ABŞ-ın da həmsədr olması məsələsi gündəliyə gəldi. Ermənistan və Rusiya buna ciddi şəkildə müqavimət göstərsələr də, 1997-ci ilin fevralında ABŞ dövlət katibinin müavini Stroub Telbott ATƏT-in Minsk qrupunun həmsədri vəzifəsinə təyin olundu.

Aprel ayında Lissabon sammitindən sonra ilk dəfə olaraq Moskvada ATƏT-in Minsk qrupunun növbəti görüşü keçirildi. Lakin burada da Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından hər hansı bir konkret qərarın qəbul edilməsi baş tutmadı. Bundan sonra həmsədrlər fəaliyyətlərini daha da intensivləşdirərək Ermənistan-Azərbaycan, Dağ-lıq Qarabağ münaqişəsinin həllinə dair layihə üzərində işləməyə başladılar.

1997-ci ilin iyununda həmsədrlər münaqişənin həllinə dair ilk konsepsiyalarını "Dağlıq Qarabağ münaqişəsinin həllinə dair hərtərəfli saziş'" adlanan sənəd layihəsini hazırladılar və onu tərəflərə təqdim [108-109] etdilər. Təklif bir paketdə ehtiva olunan iki anlaşmadan ibarət idi. Birinci anlaşma silahlı münaqişənin dayandırılmasım, ikinci isə Dağlıq Qarabağın statusunun müəyyən edilməsini nəzərdə tuturdu.[1] Silahlı qüvvələri iki mərhələdə çıxarmaq tövsiyə olunurdu.

Birinci mərhələdə Dağhq Qarabağdan şərqə və cənuba doğru indiki təmas xətti boyunca olan qüvvələr razılaşdırılmış xətlərə tərəf bir neçə kilometr geri çəkilir, bu zaman ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsində təhlükəsizliyin təmin edilməsinə imkan yaratmaq məqsədilə yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri lazımınca nəzərə alınmalı idi.

İkinci mərhələdə erməni qüvvələri Ermənistan Respublikasının sərhədləri daxilinə aparılır, Dağlıq Qarabağ qüvvələri Dağlıq Qarabağ Muxtar Vilayətinin 1988-ci ildəki hüdudları daxilinə qaytarılır, Azərbaycan qüvvələri yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında razılaşdırılmış xətlərə çəkilir.

Status adlanan ikinci sazişdə isə Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının tanınması əsas prinsip kimi göstərilirdi, bu sənədə görə, Dağlıq Qarabağ Azərbaycanın tərkibində dövlət və ərazi qurumudur və onun öz müqəddəratını təyin etməsi Azərbaycan Respublikası ilə Dağlıq Qarabağm hakimiyyət orqanları arasında sazişdə rəsmiləşdiriləndən, Minsk Konfransı tərəfindən bəyəniləndən, Azərbaycanın və Dağlıq Qarabağm konstitusiyalarında inkorporasiya olunandan sonra mümkündür.

Belə bir razılaşmanın olduğu halda isə Dağlıq Qarabağ və Naxçıvan Ermənistan və Azərbaycanla sərbəst, maneəsiz nəqliyyat və rabitə əlaqəsi saxlamaq hüququna malik ola bilərdilər. Bundan başqa, Dağlıq Qarabağın inzibati sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri üzrə müəyyən ediməliydi. Saziş layihəsində Dağlıq Qarabağın konstitusiyasının olmasının mümkünlüyü də göstərilirdi. Lakin [109-110] həmin konstitusiya bu sənəd əsasında öz müqəddəratmı təyin etmək forması haqqında Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan arasmda rəsmi sazişi inkorporasiya etməli idi. Sənəddə Dağlıq Qarabağın özünün qanunverici orqanının olması, milli qvardiya saxlaması da öz əksini tapmışdı.

Bir sıra çatışmazlıqlarına baxmayaraq, Azərbaycan tərəfı təklifı qəbul etdiyini bildirdi. Məsələ burasındaydı ki, saziş layihəsi adlandırılmasına baxmayaraq, bu sənəddə münaqişənin həllinin dəqiq mexanizmləri yox, əslində danışıqlar prosesinin təxmini istiqamətləri əks olunmuşdu və buna görə də Azərbaycan tərəfı layihənin əsas kimi qəbulundan imtina etmədi. Digər tərəfdən, çox güman ki, Ermənistanın bu layihə ilə razılaşmayacağını Azərbaycan proqnozlaşdırmışdı və proseslərin sonrakı inkişafı proqnozları doğrultdu. Ermənistan hakimiyyəti və Qarabağda məskunlaşmış separatçı rejimin rəhbərləri təklifi rədd etdilər. Bu, qarşı tərəfin dialoqa hazır olmadığını nümayiş etdirən növbəti fakt kimi Azərbaycana çox lazım idi.

Elə həmin ilin sentyabrında həmsədrlər regiona yeni təkliflər paketi ilə gəldilər. Münaqişənin "mərhələli həll" planını nəzərdə tutan "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında" adlı yeni saziş layihəsi Azərbaycan üçün əvvəlkindən daha məqbul idi və oktyabrın 1-də rəsmi Bakı bu təklifı danışıqlara başlamaq üçün əsas kimi qəbul etməyin mürnkün olduğunu bildirdi.[1] Qeyd edək ki, "mərhələli həll" plam kimi tanman bu təkliflər paketində münaqişənin iki mərhələdə həlli nəzərdə tutulurdu. Birinci mərhələdə münaqişənin dayandırılması və onun nəticələrinin aradan qaldırılması haqqında müddəalar öz əksini tapmışdısa, ikinci mərhələdə ATƏT-in Minsk Konfransına qədər Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi nəzərdə tutulurdu.

"Mərhələli həll" planının üstünlüyü ondan ibarət idi ki, burada Azər-baycanm Dağlıq Qarabağdan başqa, işğal olunmuş digər 7 rayonundan 6-nın azad edilməsi göstərilmişdi. Bu rayonlar Kəlbəcər, Ağdam, Füzuli, [110-111] Cəbrayıl, Qubadh və Zəngilan idi. Laçm rayonunun taleyi sonrakı mərhələdə həll edilməli idi. Digər tərəfdən, saziş layihəsinin bir üstünlüyü də müvafiq müddəalara əməl etməyən tərəflərə qarşı sanksiya tətbiqinin mümkünlüyünü göstərməsində idi.

Prezident L.Ter-Petrosyanm səylərinə baxmayaraq, bu təklif də reallaşmadı. 1997-ci il dekabrın 2-də həmsədrlər həmin layihənin Dağlıq Qarabağdakı separatçı rejimin tərəf kimi damşıqlarda iştirakını nəzərdə tutan yeni variantını təqdim ctdilər. Lakin bu, Azərbaycan tərə-fmdən qəbuledilməz olduğundan rəsmi Bakının kəskin etirazı ilə qarşılandı. Dövlət başçımız qəti şəkildə bu formatla razılaşmayacağını bəyan etdi.

Bir qədər sonra, 1998-ci ilin fevralında daxili və xarici təhdidlərə davam gətirə bilməyən L.Ter-Petrosyan istefa verməli oldu. Lakin onun "Belə getsə, bir neçə ildən sonra Dağlıq Qarabağla birlikdə Ermənistanı da itirə bilərik" fıkri artıq ictimaiyyəti ciddi şəkildə silkələmişdi. 1998-ci ilin noyabrında həmsədrlərin irəli sürdüyü "ümumi dövlət" təklifı isə Azərbaycanı heç cür qane etmirdi. Layihədə qeyd olunurdu ki, tərəfiər Dağlıq Qarabağm statusu haqqmda saziş imzalayacaqlar və həmin saziş Dağlıq Qarabağın respublika formasmda dövlət

və ərazi qurumu olduğunu təsdiqləyəcək. Burada göstərilirdi ki, Dağhq Qarabağ Azərbaycanm beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində onunla ümumi dövlət yaradacaq. Azərbaycan və Dağlıq Qarabağ müvafıq dövlət hakimiyyəti orqanları arasında səlahiyyətlərin həyata keçirüməsi və qarşılıqlı surətdə həvalə olunması redmetlərinin hüdudlarını müəyyənləşdirmək haqqında saziş imzalayacaqlar və onun konstitusiya qanunu qüvvəsi olacaqdır.

Layihədə Azərbaycanın və Dağhq Qarabağm birgə səlahiyyətlər sahəsinə aid siyasəti və fəaliyyəti müəyyənləşdirmək üçün prezident-lərin, baş nazirlərin, parlamentlərin sədrlərinin nümayəndələrinin daxil olacağı birgə komitə yaratmaları da göstərilmişdi.

Bununla yanaşı, həmin layihəyə görə, əlaqə saxlamaq və birgə tədbirləri əlaqələndirmək üçün Bakıda və Stepanakertdə müvafıq olaraq Dağlıq Qarabağm və Azərbaycanm nümayəndəlikləri yaradılmalı idi ki, [111-112] bu da, faktiki olaraq, Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınması şərtini özündə ifadə edirdi. Sənəddə açıq şəkildə bildirilirdi ki, Dağlıq Qarabağ xaricdə müvafiq nümayəndəliyi olmaq şərtilə iqtisadiyyat, tica-rət, elm, mədəniyyət, idman və humanitar sahələrdə əcnəbi dövlətlərlə, bu problemlərlə birbaşa xarici əlaqələr saxlamaq hüququna malik olacaqdır. Dağlıq Qarabağdakı siyasi partiyalarm və ictimai təşkilatların xarici dövlətlərin siyasi partiyaları və ictimai təşkilatları ilə əlaqələr yaratmaq hüququ olacaq. Hətta burada belə bir müddəa da öz əksini tapmışdı ki, Dağlıq Qarabağ özünün mənafeləri ilə bağlı məsələlər üzrə Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində iştirak edəcək və bu tip məsələlər haqqında qərarlar iki tərəfin razılığı ilə qəbul olunacaqdır.

Həmsədrlərin üçüncü təklifində DQ hökumətinin özünün xüsusi maraqları olan xarici dövlətlərdəki Azərbaycan səfirliklərində və ya konsul idarələrində öz nümayəndələrinin olmasmın mümkünlüyü də qeyd olunmuşdu. Bu layihə Dağlıq Qarabağdakı separatçı rejimə öz mənafeləri ilə bağlı beynəlxalq danışıqlarda iştirak etmək üçün Azərbaycan nümayəndə heyətlərinin tərkibində ekspertlərini göndərmək səlahiyyəti də verirdi. Təbii ki, DQ-yə müstəqil dövlət səlahiyyətlərinin verilməsini nəzərdə tutan belə bir təklif Azərbaycan tərəfmdən qəbul edilə bilməzdi. Elə buna görə də prezident Heydər Əliyev buna qəti etirazını bildirdi və layihə qəbul olunmadı.

Bundan sonra da müxtəlif dövrlərdə həmsədrlər regiona səfərlərə gəldilər, ATƏT-in Minsk qrupunun görüşləri keçirildi. Lakin "ümumi dövlət" təklifi tərəflərə təqdim olunan sonuncu layihə kimi qalmaqda davam edir. Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından bu təkliflərin heç biri həyata keçməmişdir. Halbuki beynəlxalq birliyin təcavüzkara təsir göstərərək Azərbaycan ərazilərinin işğaldan azad olunmasını təmin etmək imkanları o qədər də məhdud deyildir.

1999-cu ilin aprelindən etibarən ABŞ-ın təşəbbüsü ilə prezidentlərin birbaşa dialoqu keçirilməyə başlanmış, ATƏT-in Minsk qrupu bu formatı bəyəndiyini və dövlət başçılarının dialoqunun davam etdirilməsinin zəru-riliyini dəfələrlə bəyan etmişdir. Əslində sonuncu təklifdən və [112-113] prezidentlərin birbaşa dialoqunun başlamasından sonra ATƏT-in Minsk qrupu artıq faktiki olaraq vasitəçilik yox, müşahidəçilik missiyasmı yerinə yetirməyə başlamışdır. Lakin prezidentlərin dialoqu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində konkret irəliləyişlərə gətirib çıxara bilmədi.

Tərəflər arasında kompromis əldə olunması artıq mümkünsüz göründüyündən Azərbaycanda müharibə əhvali-ruhiyyəsi güclənirdi. Şübhəsiz, burada ölkədə aparılan sosial-iqtisadi islahatların uğurlu nəticələri də az rol oynamamışdı. Digər tərəfdən, Azərbaycan beynəlxalq müstəvidə də Ermənistanın mövqelərinə əhəmiyyətli zərbələr endirməyə nail olmuş və münaqişənin həqiqi səbəbləri, mahiyyəti barədə dünya ictimaiyyətində obyektiv təsəvvür formalaşdırılması sahəsində ciddi nailiyyətlər qazanmışdı. Bütün bunlar isə Azərbaycanda əhalinin psixoloji əhvali-ruhiyyəsinə təsir göstərir və nəyin bahasına olursa-olsun, torpaqlarm geri qaytanlması istəyini artırırdı.

Təxminən 2001-ci ilin əvvəllərindən etibarən danışıqlar prosesinin yenidən fəallaşdığı müşahidə edilməyə başlandı. Format dəyişilməz olaraq qalırdı və beynəlxalq birlik münaqişənin prezidentlərin birbaşa görüşü çərçivəsində həllinə çalışırdı.

2001-ci ilin yanvarında Fransada Jak Şirakın təşəbbüsü ilə Azərbaycan və Ermənistanın dövlət başçıları arasında danışıqlarm növbəti mərhələsi başlandı. Paris danışıqları prezidentlərin artıq sayca 14-cü görüşü idi. Görüşdə münaqişənin həllinə dair ciddi müzakirələr aparılsa da, konkret bir nəticə alınmadı. Bununla belə, həm Azərbaycan və Ermənistan prezidentləri, həm Fransanın dövlət başçıs Jak Şirak dialoqun davam etdirilməsinin zəruriliyini bildirən bəyanatla çıxış etdilər, tərəflər arasında kompromis əldə olunması üçün səylərin bundan sonra da davam etdiriləcəyini vurğuladılar.

Mart ayında ATƏT-in sədri Mirça Cuane regiona səfərə gəldi. Səfər zamanı tərəflər arasmda dialoqun bundan sonra da davam etdirilməsi üçün bütün imkanlardan istifadə ediləcəyinə dair bəyanatla çıxış edən ATƏT sədri münaqişənin nizamlanması üçün yaxşı imkan olduğunu və prezidentlərin birbaşa görüşlərindən real nəticə gözlədiklərini bildirdi. [113-114] Bu səfər də danışıqların fəallaşdığı bir mərhələyə təsadüf etdiyindən tezliklə sülh əldə olunması üçün ciddi addımlar atılacağma inam yaratmışdı.

Mart ayının 3-də Fransada prezidentlərin Jak Şirakın təşəbbüsü ilə keçirilən növbəti görüşü artıq sülh sazişinin imzalanacağı günün uzaqda olmadığı təəssüratını yaratmışdı.[1] Prezidentlər də öz bəyanatlarında nikbin

notlara daha çox üstünlük verdiklərindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində irəliləyişin mümkünlüyü real görünürdü. Amma buna baxmayaraq, qeyd etmək lazımdır ki, prezidentlərin yeganə ortaq mövqeyi danışıqları davam etdirmək və bu istiqamətdə fəallığı artırmaq prinsiplərini nəzərdə tuturdu.

Martın 12-də Heydər Əliyev Türkiyəyə getdi və burada sülh məsələləri geniş müzakirə olundu. Prezidentlərin imzaladıqları birgə bəyanatda Qarabağ məsələsinə də toxunulur və Türkiyə bu dəfə də Azərbaycanın mənafelərini sona qədər müdafıə edəcəyini bildirirdi. Prezident Əhməd Necdət Sezər prezident Heydər Əliyevə bütün zəruri dəstəyi göstərməyə hazır olduğunu vurğulayırdı.

Martın 14-də isə ABŞ-ın dövlət katibi K.Pauell prezidentləri danışıqların növbəti mərhələsinə başlamaq üçün ABŞ-a dəvət etdi. Bu görüşdə həmsədrlərlə bərabər K.Pauell də iştirak etməli idi və Ki Uestdə keçiriləcək danışıqların münaqişənin nizamlanmasında çox mühüm addım olacağı, hətta burada imzalanacaq sülh sazişinin prinsiplərinin də müəyyənləşəcəyi gözlənilirdi.

Prezidentlər Heydər Əliyev və R.Koçaryan, ABŞ-ın dövlət katibi Kolin Pauell, ATƏT həmsədrləri Keri Kavano, Jan Jak Qaydar, Nikolay Qribkov və Rusiya xarici işlər nazirinin birinci müavini V.Trubnikovun iştirakı ilə aprelin 3-də Ki Uestdə danışıqlar başladı.

6 apreldə danışıqlar başa çatdı və həmsədrlər bəyan etdilər ki, onlar yeni təklif üzərində işləyirlər və bunu iyunda Cenevrədə keçirilən görüşdə prezidentlərə təqdim edəcəklər. Lakin sonradan bu görüş təxirə salındı.[114-115]

Danışıqlar olduqca gərgin keçirdi. Artıq bütün dünyanın diqqəti ABŞ-a yönəlmişdi. Bu görüşdə bir çox məsələlər ətrafında razılıq əldə olunacağını proqnozlaşdıranlar çox idi. Lakin optimist ehtimallar yenə də özünü doğrultmadı. Ki Uestdə heç bir razılığa gəlinmədi və həmsədrlər də, prezidentlər də sadəcə onu qeyd etdilər ki, sülhə doğru irəliləyiş var. Qeyd edək ki, bu görüş zamanı prezident Heydər Əliyev verdiyi bəyanatda ATƏT həmsədrlərini ciddi şəkildə tənqid edərək onların passiv fəaliyyət göstərdiyini vurğulamış, K.Pauell bu bəyanatın obyektiv olduğunu və münaqişənin həlli üçün indikindən daha fəal şəkildə iş aparmağa ehtiyac duyulduğunu təsdiqləmişdi.

Aprelin 9-da Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ Prezidenti Corc Buşla görüşdü.[1] Münaqişə ilə bağlı geniş fikir mübadiləsi aparıldı və prezident C.Buş Ki Uest danışıqlarının nəticələri barədə məlumatı olduğunu vurğulayaraq onun davam etdirilməsinə tərəfdar çıxdığını, tərəflər arasında kompromis əldə olunması üçün Amerikanın bundan sonra da lazımi səylər göstərəcəyini ifadə etdi.

Ki Uest danışıqları da əslində arzulanan sülhə gətirib çıxara bilmədi. Danışıqların gedişində irəliləyiş üçün imkanlar yaransa da, onların inkişaf etdirilməsi mümkün olmadı və beləliklə, daha bir cəhd nəticəsiz tamamlandı.

2001-ci ildə bütün dünyanı sarsıdan 11 sentyabr terror aktlarından sonra Azərbaycanın nümayiş etdirdiyi prinsipial mövqe ölkəmizə qarşı münasibətin dəyişməsində əhəmiyyətli rol oynadı. XXI əsrin əvvəlində beynəlxalq terrorizmin qlobal təhlükəyə çevrilməsinin dərki dünyanın siyasi düzənində yeni konfıqurasiyanın yaranmasma rəvac verdi və bu mərhələdə Azərbaycan ABŞ-m ən etibarlı tərəfdaşları sırasına daxil oldu. Prezident Heydər Əliyev beynəlxalq terrorizmlə mübarizədə Amerikaya Azərbaycanın hər zaman dəstək verəcəyini nümayiş etdirməklə bir tərəfdən Vaşinqtonun ölkəmizə etimadını bir qədər də möhkəmləndirdisə, digər tərəfdən Ermənistanın terrorçu fəaliyyətinin dünya birliyi tərəfından pislənilməsi üçün zəmin yaratdı.[115]

2001-ci ilin 24 oktyabrında ABŞ Senatı 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında senator Sem Braunbekin layihəsini təsdiqlədi. 2002-ci ilin yanvarında isə prezident C.Buş tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci əlavənin qüvvəsinin dayandırılması barədə fərman imzalandı. 907-ci düzəlişin qüvvəsinin dayandırılması Azərbaycan -ABŞ münasibətlərində yeni bir mərhələnin başlanğıcı kimi xarakterizə olunur. Çünki bu qadağa 1992-ci ildən sonra Azərbaycana ABŞ dövlətinin birbaşa yardımına məhdudiyyət qoyurdu və onun nəticələri yalnız iqtisadi amillərlə şərtlənmirdi. Bu faktdan Ermənistan siyasi dairələri və erməni lobbisi ölkəmiz əleyhinə təbliğat vasitəsi kimi istifadə edirdi.

2002-ci ilin 30 aprelində Trabzonda Azərbaycan, Türkiyə və Gürcüstan dövlət başçılarının zirvə görüşü keçirildi. Prezidentlərin zirvə görüşündə beynəlxalq terrorizmlə mübarizə və boru kəmərlərinin təhlükəsizliyi məsələləri müzakirə olundu. Danışıqlar nəticəsində "Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə arasında saziş" imzalandı. Bu saziş Azərbaycanın regionda mövqelərinin daha da gücləndirilməsinə və Ermənistanın təcrid olunmuş vəziyyətə düşməsinə böyük təsir göstərdi. Faktiki olaraq sözügedən razılaşma üç dövlətin geosiyasi və həm də iqtisadi mövqelərinin eyni müstəvidə inkişaf etdiyinin rəsmi təsdiqi anlamına gəlirdi və bundan sonra hər üç dövlət bütün vacib məsələlərdə eyni mövqedən çıxış etmək öhdəliyi götürürdü. Ermənistan isə Cənubi Qafqazın yeganə ölkəsi idi ki, belə bir əhəmiyyətli razılaşmadan kənarda qalırdı.

Bundan sonrakı dövrdə danışıqlar prosesində ciddi fəallıq müşahidə edilməsə də, prezidentlərin birbaşa dialoqu yenə də öz aktuallığını saxlamaqda davam edirdi. 2002-ci ilin 15 avqustunda prezidentlər Sədərəkdə görüşdülər və danışıqlar 4 saat çəkdi. Sonda hər iki dövlət başçısı bəyanatla çıxış edərək danışıqları davam etdirmək əzmində olduqlarını bildirdilər. [116-117]

2002-ci ilin yayında BMT Baş Assambleyasının 49-cu sessiyası keçirildi. Azərbaycan Prezidenti Heydər Əliyev də bu sessiyada iştirak edirdi. O, nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərə geniş yer ayıraraq BMT-nin qətnamələrinin yerinə yetirilməməsindən narahatlığını ifadə etdi. Sessiyanın gedişində Azərbaycanın Xarici İşlər Nazirliyi BMT-nin Baş katibi Kofe Annana məktub göndərərək BMT qətnamələrinə Ermənistanın məhəl qoymadığını və Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin bu ölkə tərəfindən pozulduğunu bildirdi. K.Annan Azərbaycan xarici işlər nazirinə göndərdiyi məktubda BMT-nin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha vurğuladı.

2003-cü ilin sonuna qədər danışıqlar prosesi o qədər də fəal keçməmişdi. Bunun əsas səbəblərindən biri Azərbaycanda və Ermənistanda keçiriləcək prezident seçkiləri ilə bağlı idi. Seçkilərdən sonra isə damşıqlar yenidən fəallaşmağa başladı.

2003-cü ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Prezidenti R.Koçaryan arasında ilk görüş keçirildi. Bu görüş əsasən tanışlıq xarakteri daşıyırdı və onun əsas nəticələrindən biri bundan ibarət oldu ki, hər iki tərəf danışıqları davam etdirməyə hazır olduğunu və prosesin daha intensiv şəkil almasına çalışacağını bəyan etdi.

Azərbaycan və Ermənistan prezidentlərinin aprelin 28-də Varşavada keçirilən görüşü də bəzi mühüm məqamlara görə böyük əhəmiyyətə malik idi. Əvvəla, hər iki dövlət başçısı danışıqların davam etdirilməsi imkanlarının tükənmədiyini və bu istiqamətdə addımların davam etdiriləcəyini bildirdi.

Digər tərəfdən, görüş zamanı xarici işlər nazirlərinin birbaşa danışıqlarının intensiv olaraq davam etdirilməsi qərara alındı. Qeyd edək ki, prezidentlərin iki görüşü arasındakı zaman məsafəsində baş vermiş bəzi mühüm dəyişikliklər danışıqların indiki məzmunu barədə bəzi mülahizələr yürütməyə imkan verir. Məsələ burasındadır ki, bu müddət ərzində ABŞ-ı ATƏT-in Minsk qrupunun tərkibində Azərbaycanla isti [117-118] münasibətlərə malik yeni həmsədr - Stiven Mənn təmsil etməyə başladı. Bu, vaxtilə Azərbaycan Prezidentinin də söylədiyi kimi, ABŞ-ın münaqişənin həllində daha fəal rol oynamaq niyyətinin təzahürü kimi qiymətləndirilir.

Daha bir vacib məqamı da nəzərdən qaçırmaq olmaz ki, Ermənistan Prezidentinin ilk görüşün keçirildiyi dövrdəki vəziyyəti ilə indiki durumu arasında olduqca ciddi fərqlər meydana çıxıb. Ölkə daxilində ciddi siyasi böhran yaşanmaqdadır və R.Koçaryan müxalifətin təzyiqləri qarşısında çox böyük çətinliklə davam gətirir. Yeri gəlmişkən, elə o özü də görüş ərəfəsinə təsadüf edən bəyanatlarının birində Ermənistandakı durumu xəyanət kimi qiymətləndirmişdir.

Ermənistanın xarici işlər naziri V.Oskanyan da bildirmişdir ki, ölkədəki gərginlik prezident Koçaryanın danışıqlar ərəfəsində mövqelərinə ciddi zərbə vurur və bundan, hər şeydən əvvəl, Ermənistan dövlətinin milli maraqları ziyan çəkir. İndi Avropa Şurası Ermənistandakı vəziyyəti müzakirə etmək niyyətindədir və bu müzakirələrdə sözügedən ölkə haqqında heç də yaxşı fikirlər deyilməyəcəyi şübhəsizdir.

Azərbaycanda isə vəziyyət xeyli dərəcədə fərqlidir. Respublikada ictimai-siyasi sabitlik, iqtisadi inkişaf hökm sürür. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycan iqtisadiyyatına orta hesabla hər gün 10 milyon dollar sərmayə yatırılmaqdadır.

Beynəlxalq münasibətlər sistemində də qüvvələr nisbəti məhz rəsmi Bakının xeyrinədir.

Beləliklə, prezidentlərin ilk və ikinci görüşləri arasındakı vaxt ərzində xeyli yenilik baş verib və bu, bir daha təsdiqləyir ki, prezident İlham Əliyevin "Biz tələsmirik" fıkri olduqca dəqiq proqnozlara əsaslanır. Və nəhayət, onu da nəzərə almaq lazımdır ki, Azərbaycanın xeyrinə olan bu proses o qədər də ləng getmir, əksinə, vəziyyət, demək olar, hər gün daha böyük sürətlə dəyişməkdədir. [118]

## 3. **Avropa Şurası Ermənistanın Azərbaycan ərazilərini İşğal etməsi faktını tanıyır**

Avropa Şurası ilə Azərbaycan arasında əlaqələrin tarixi 1992-ci ildən başlayır. Bu dövrdə müstəqilliyini yenicə əldə etmiş respublikamız dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə etibarlı əməkdaşlıq münasibətləri qurmağa cəhd göstərir və bu istiqamətdə müəyyən addımlar atırdı. 1992-ci ildə Azərbaycan "xüsusi dəvət olunmuş qonaq" statusu verilməsi xahişi ilə Avropa Şurasına rəsmi müraciət etdi.

Lakin bu müraciət uzun müddət AŞ-nin diqqətindən kənarda qaldı. Şübhəsiz ki, bunun səbəblərini ilk növbədə Azərbaycan rəhbərliyinin səriştəsiz xarici siyasətində axtarmaq lazım gəlirdi. Doğrudur, burada beynəlxalq birliyin Azərbaycana münasibətdə ikili standartlara üstünlük verməsini də nəzərdən qaçırmaq olmaz. Lakin qeyd etmək lazımdır ki, respublikanın o vaxtkı rəhbərliyi də "buzun" sındırılması üçün konkret və qəti addımlar atmırdı.

Bütün bunlar isə nəticə etibarilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində də özünü aydın şəkildə büruzə verirdi. Avropa Şurası bu münaqişəyə dair qəbul etdiyi ilk sənədlərdə qərəzli və ədalətsiz təhlillərə yol vermiş və problemin əsl mahiyyətini açıqlamağa cəhd göstərməmişdi.

1992-ci ilin fevralında Avropa Şurası Parlament Assambleyasının AŞ-yə üzv olmayan Avropa ölkələri ilə Əlaqələr Komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ilk bəyanatı qəbul etdi. Sənəddə Dağlıq Qarabağda vəziyyətin pisləşməsindən narahatlıq ifadə edilir və tərəflərə atəşi dayandırmaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq tövsiyə olunurdu. Bu bəyanatda Ermənistanla münaqişə bölgəsinə BMT qüvvələrinin gətirilməsi xahişi də öz əksini tapmışdı.

Həmin ilin mart ayının 12-də Avropa Şurasının Nazirlər Komitəsi də münaqişə ilə bağlı bəyanat qəbul etdi. Bu sənəd də problemə obyektiv [119-120] qiymət vermir və onun mahiyyətini açıqlamırdı. AŞ-nin Nazirlər Komitəsi mümkün qədər neytral mövqe nümayiş etdirməyə çalışmışdı. Sənəd münaqişənin zor yolu ilə həllinin qəti əleyhinə çıxır və bütün sərhədlərin toxunulmazlığı prinsipinin gözlənilməsini tələb edirdi. Qeyd edək ki, sərhədlərin toxunulmazlığı prinsipinin gözlənilməsi bəyanatın yeganə müsbət məqamı olsa da, sənədin sonrakı hissələrində sərhədlərin dinc yolla və qarşılıqlı razılıq əsasında dəyişdirilməsinin mümkünlüyü öz əksini tapmışdı.

1993-cü ilin aprelində AŞ Nazirlər Komitəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair daha bir bəyanat qəbul olundu. Bəyanata görə, AŞ Nazirlər Komitəsi BMT-nin bölgədə sülhün bərqərar edilməsinə dair tələblərini dəstəkləyir və döyüş əməliyyatlarının dayandırılmasına tərəfdar çıxırdı. AŞ Nazirlər Komitəsi Kəlbəcərdə hərbi əməliyyatların güclənməsindən narahatlığını ifadə etsə də, rayonun erməni qəsbkarları tərəfindən işğal olunması faktını göstərmirdi. Ən maraqlı məqamlardan biri isə bundan ibarət idi ki, Avropa Şurası Nazirlər Komitəsinin qəbul etdiyi sənəddə Ermənistanın adı, ümumiyyətlə, çəkilmirdi, halbuki işğalçılıq əməliyyatları məhz bu ölkə tərəfindən həyata keçirilmişdi.

Avropa Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ədalətsiz mövqe tutmasını sübut edən daha bir hadisə 1994-cü ilin yanvarında baş verdi. Belə ki, qurumun AŞ üzvü olmayan Avropa dövlətləri ilə Əlaqələr Komitəsi Strasburqda münaqişənin həlli ilə bağlı görüş keçirilməsi barədə təşəbbüslə çıxış edərkən, danışıqlara Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrini də dəvət etmişdi. Bu isə görüşün baş tutmamasına gətirib çıxardı və Azərbaycan tərəfi bu formatda keçiriləcək danışıqlara qatılmayacağını bəyanladı.

Bir qədər sonra, 1994-cü ilin iyulunda Strasburqda Avropa Şurasının təşəbbüsü ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlar keçirildi. Azərbaycan AŞ ilə əlaqələrin inkişafının zəruriliyini nəzərə alaraq bu danışıqlarda iştirak etdi. Görüşün nəticələrindən biri ondan ibarət oldu ki, AŞPA-nın quruma üzv olmayan Avropa dövlətləri ilə Əlaqələr Komitəsinin sədri Devid Atkinsonun rəhbərliyi ilə regiona nümayəndə heyətinin göndərilməsi qərara alındı. [120-121]

Noyabrın 14-də nümayəndə heyəti Azərbaycana səfərə gəldi. Bundan bir neçə gün əvvəl, noyabr ayının 10-da isə Avropa Şurası Parlament Assambleyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ilk qətnaməsini qəbul etdi.

"Dağlıq Qarabağda münaqişəyə dair" adlanan bu qətnamə problemə ədalətli qiymət vermir və onun mahiyyətini təhrif edirdi. Qətnamədə may ayının 12-də əldə olunmuş atəşkəsə riayət olunmasından razılıq ifadə edilir və sülh sazişinin yaxın vaxtlarda imzalanacağına böyük ümidlər olduğu bildirilirdi. Burada 20 mindən çox insanın həlak olması və bir milyon insanın qaçqın düşməsi faktı göstərilsə də, qaçqınların azərbaycanlı olması və Ermənistanın təcavüzkar siyasəti nəticəsində öz torpaqlarını tərk etdiyi göstərilmirdi. Qətnamədə hətta belə bir bənd də öz əksini tapmışdı ki, AŞ PA Ermənistan və Azərbaycan müdafiə nazirlərinin və Dağlıq Qarabağ ordu komandanının atəşkəsi gözləmək öhdəliyini alqışlayır. Bu, bir tərəfdən Ermənistanın münaqişədə iştirakını təsdiqləyirdisə, digər tərəfdən Dağlıq Qarabağdakı separatçı rejimi ayrıca bir tərəf kimi təqdim edirdi.

1996-cı ilin 28 iyununda Azərbaycan Avropa Şurasına "xüsusi dəvət olunmuş qonaq" statusu aldı. Bu, artıq AŞ ilə münasibətlərin inkişafında növbəti mərhələnin başlanğıcı kimi xarakterizə olunurdu. "Xüsusi dəvət

olunmuş qonaq" statusu Azərbaycanın tezliklə AŞ-yə tamhüquqlu üzv kimi qəbul olunacağına böyük inam yaratmışdı.

1997-ci ilin aprelində AŞ PA Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair daha bir qətnamə qəbul etdi. "Zaqafqaziyada münaqişələrə dair" qətnamə Abxaziya və Dağlıq Qarabağdakı münaqişələrin həllinə AŞ-nin kömək göstərməsinin zəruriliyini vurğulayırdı. Azərbaycan, Gürcüstan və Ermənistanın AŞ-yə üzv qəbul edilməsində bölgədəki münaqişələrin həlli istiqamətində səylərin də əsaslı rol oynaya biləcəyini göstərən bu sənəddə münaqişələrin həllinin sərhədlərin toxunulmazlığı, region xalqları üçün çoxmillətli sülhməramlı qüvvələr tərəfindən dəstəklənən təminatlı təhlükəsizlik, Abxaziyaya və Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsi, qaçqın və köçkünlərin geri qaytarılması prinsipləri əsasında mümkünlüyü nəzərdə tutulurdu. [121-122]

Sənədin Dağlıq Qarabağ münaqişəsinə dair bölməsində işğal olunmuş ərazilərin azad edilməsi münaqişənin sülh yolu ilə nizamlanması Avropa Şurasının tövsiyəsi kimi öz əksini tapmışdı. Lakin qətnamənin mənfi cəhətlərindən biri bundan ibarət idi ki, Azərbaycan, Ermənistan və Dağlıq Qarabağın birbaşa danışıqlar aparmasının zəruriliyi vurğulanırdı. Bu isə yenə də Dağlıq Qarabağdakı separatçı rejimin müstəqil tərəf kimi tanınması mənasını verirdi və buna görə də həmin qətnamə də real səciyyə daşımırdı.

2000-ci ilin 28 iyununda AŞ PA Azərbaycanın təşkilata tamhüquqlu üzv qəbul olunması haqqında qərar qəbul etdi. 2001-ci il 17 yanvar AŞ Nazirlər Komitəsi də analoji addım ataraq bu qərarın hüquqi qüvvəyə minməsini təmin etdi. Həmin ilin yanvar ayının 25-də Azərbaycanın Avropa Şurasına qəbul olunması mərasimi keçirildi və bununla da ölkəmizin Avropa ilə əlaqələrinin tarixində yeni mərhələ start götürmüş oldu.

AŞPA-da Azərbaycanı təmsil edən nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin təşəbbüskarlığı və diplomatik fəallığı nəticəsində elə ilk sessiyadan etibarən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətləri özündə əks etdirən sənədlər yayılmağa başladı. Azərbaycanlı deputatlar AŞPA-nın müxtəlif dövlətlərdən olan üzvləri ilə yaxşı münasibətlər qurur, ölkəmizin qarşılaşdığı problemlər, əldə etdiyi nailiyyətlər, eləcə də torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyondan çox insanın qaçqın və məcburi köçkün kimi yaşaması barəsində ətraflı məlumatlar verirdilər.

2001-ci ilin yanvarında Azərbaycan və Ermənistanın AŞ-yə tamhüquqlu üzv kimi qəbul olunduğu sessiyada İngiltərədən olan deputat Corc Teylor Azərbaycanda Dağlıq Qarabağda ermənilərin törətdiyi vəhşiliklərdən danışdı. O, burada insan hüquqlarının kobud şəkildə tapdalandığını, ermənilərin Azərbaycana qarşı təcavüzkar siyasət apardıqlarını bəyan etdi. C. Teylor qaçqınların və məcburi köçkünlərin ağır vəziyyətdə yaşadığına diqqəti çəkərək AŞ-nın bu sahədə ciddi addımlar atmasının [122-123] zəruriliyini bildirdi. O, ermənilərin işğal olunmuş ərazilərdə dağıdıcılıqla məşğul olduqlarını, buradakı mədəniyyət abidələrini, xidməti binaları, məktəbləri, xəstəxanaları məhv etdiklərini söylədi: "Dağlıq Qarabağda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş genosidə siyasi qiymət verilməlidir", - deyə sərt bəyanatla çıxış edən C. Teylorun bu fikirləri ermənilərin ciddi etirazı ilə qarşılansa da, obyektiv həqiqətləri özündə əks etdirirdi. Bu ermənilərin AŞ PA-da qarşılaşdıqları ilk sürpriz idi.

Bundan sonra da Azərbaycan nümayəndə heyəti ermənilərin işğalçılıq siyasətinin beynəlxalq aləmdə ifşası istiqamətində mühüm işlər görə bildi. Məhz Azərbaycan nümayəndə heyətinin fəallığı sayəsində AŞ Nazirlər Komitəsinin 108-ci sessiyasının rəsmi məlumatında Ermənistanın təcavüzkar siyasəti pislənilirdi.

Həmin sənəddə aydın şəkildə qeyd olunurdu ki, Avropa Şurası ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığını dəstəkləyir. Ermənistan bu sənədə millətlərin öz müqəddəratını təyinetmə hüququnun da salınmasını istədi. Lakin heç kim bu təklifi dəstəkləmədi və rəsmi məlumat olduğu kimi qəbul edildi. Nəticədə 43 dövlətdən yalnız Ermənistan həmin sənədin əleyhinə çıxdı.

Bu, erməni deputatlarının ilk ciddi səhvi idi. Çünki ərazi bütövlüyünün dəstəklənməməsi, faktiki olaraq, beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş normalarına qarşı çıxmaq demək idi. Bir qədər sonra Azərbaycan nümayəndə heyəti bu vacib məqamdan istifadə edərək Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımaması faktı ilə bağlı AŞ-yə sorğu təqdim etdi.

2001-ci il aprelin 24-də Strasburqda AŞPA-nın sessiyasında "Avropanın iqtisadi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizəsi" mövzusunda keçirilən müzakirələrdə Azərbaycan nümayəndə heyəti də fəal iştirak etdi. Bu müzakirələrdə nümayəndə heyətimizin rəhbəri cənab İlham Əliyev çıxış edərək ölkəmizi narahat edən məsələlərə toxundu: "Azərbaycan bu məsələdən, xüsusilə narahatdır. Çünki Avropada [123-124] mütəşəkkil cinayətkarlığın mərkəzlərindən biri məhz bizim ərazidədir. "Dağlıq Qarabağ respublikası" deyilən ərazidə nəinki Azərbaycanın hakimiyyət orqanlarının bu cinayətkarlıqla mübarizəyə məsul olan beynəlxalq təsisatların da heç bir nəzarəti yoxdur.

Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə nəinki bir milyon azərbaycanlı qaçqın evsiz-eşiksiz qalıb, çoxsaylı şəhərlərimiz, kəndlərimiz, mədəniyyət abidələrimizin, əcdadlarımızın qəbirləri büsbütün dağıdılıb, bir sözlə, erməni işğalçılarının zəbt etdikləri ərazidə bütün infrastruktur məhv edilib, həm də ermənilərin işğal etdikləri ərazidə mütəşəkkil cinayətkarlığın inkişafı üçün çox əlverişli şərait yaranmışdır". Daha sonra cənab İlham Əliyev Azərbaycanda yaranmış vəziyyətin ağırlığını göstərən faktları sadaladı:

1. "Dağlıq Qarabağ respublikası" deyilən ərazidən narkotik bitkilərin yetişdirilməsi və daşınması üçün istifadə edilir. Bu fakt ABŞ Dövlət Departamentinin narkotik maddələr üzərində beynəlxalq nəzarət strategiyasına dair 2000-ci il mart tarixli hesabatında öz əksini tapmışdır. Narkotiklərlə məşğul olan işbazlar və tiryək alverçiləri orada özlərini təhlükəsiz və çox rahat hiss edirlər. Onları "Dağlıq Qarabağ respublikası"nın bədnam rəhbərləri müdafiə edir. Həmin rəhbərlər narkotiklərin satışından gələn pulları Azərbaycanın işğal olunmuş ərazisini əldə saxlamaq və muzdlulara haqq ödəmək üçün istifadə edirlər.

2. Yaxşı məlumdur ki, Rusiyanın keçmiş rəhbərləri özlərinin müvafiq strukturlarına Ermənistana qanunsuz yolla bir milyard dollarlıq silah ötürməyə icazə vermişdilər.

Həmin silahların çox hissəsi Dağlıq Qarabağda və Azərbaycanın işğal edilmiş digər ərazilərində yerləşdirilmişdir. Mən sual edirəm, Ermənistan və Dağlıq Qarabağ bu silahları almaq üçün bu qədər pulu haradan tapdı? Bu regiondakı vəziyyəti bilən hər kəsə aydındır ki, Ermənistanda iqtisadi vəziyyət çox pisdir. Ermənistan əsas etibarilə xarici yardımlar hesabına yaşayır. Daimi iqtisadi tənəzzül ucbatından yüz minlərlə adam Ermənistanı tərk etmişdir.

Cavab aydındır. Ya onlar həmin silahları pulsuz alıblar - buna güman çox azdır - ya da narkotiklərin satışından əldə olunan pula alırlar. [124-125]

3. Dağlıq Qarabağda mövcud olan qanunsuz iqtisadi fəaliyyət bu qondarma "respublikanı" "çirkli" pulların "yuyulması" əməliyyatları sahəsində məşhurlaşdırmışdır.

4. Ermənilər Dağlıq Qarabağın ərazisində silahlı birləşmələrə təlim keçirlər, bu birləşmələr terrorizmə qarşı mübarizə üzrə beynəlxalq konvensiyaların nəzarətindən tamamilə kənardadır".

Bu məlumatları diqqətə çatdırdıqdan sonra Azərbaycan nümayəndə heyətinin rəhbəri bütün Avropa strukturlarından erməni təcavüzkarlarının, işğalçıların torpaqlarımızdan çıxması, bir milyon azərbaycanlı qaçqının insani hüquqlarını pozmağa və torpaqlarımızdan öz cinayətkar əməllərindən ötrü istifadə etməyə son qoymaları üçün ciddi tədbirlər görməyi xahiş etdi.

Sessiya zamanı nümayəndə heyətimiz Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlı girov və əsirlərin olması faktı ilə bağlı xüsusi sənədin layihəsini hazırlayaraq deputatlar arasında yaydı. Bu sənəddə torpaqlarımızın işğalı nəticəsində 4959 nəfərin itkin düşdüyü, onlardan 1092 nəfərinin 1992-2001-ci illər ərzində azad edildiyi və bu insanların 176 nəfərinin xəstə olduğu göstərilirdi.

Sənəddə qeyd olunurdu ki, Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazisində 783 nəfər əsir saxlanılır, onlardan 18-i uşaq, 43-i qadın, 56 nəfəri qocadır. Layihədə Ermənistanın bu faktı inkar etdiyi də bildirilirdi və faktlarla göstərilirdi ki, əsirlikdə olanlar qul kimi işlədilir, daim təhqir olunur və işgəncələrə məruz qalırlar. Onlar normal qidalanmır, lazımi tibbi yardım almırlar.

Bu sənədə Macarıstan, Rusiya, Lüksemburq, İspaniya, Türkiyə, Niderland, Latviya, Litva, İsveç, Ukrayna və digər ölkələrdən olan bir çox deputatlar da imza atmışdılar və layihə AŞPA-nın sessiyasında iştirak edən dövlətlərin parlament nümayəndə heyətləri arasında yayılmışdır.

Bu sessiya ərəfəsində Fransa parlamenti və Senatı qondarma "erməni soyqırımı"nı tanıması barədə qərar çıxarmışdı. Bu fürsətdən istifadə etməyə çalışan erməni deputatları, Avropa Şurası Parlament [125-126] Assambleyasında Ermənistan parlamentini təmsil edən deputatlar "məzlum erməni millətinin Osmanlı imperiyası tərəfindən soyqırımına məruz qalmasına dair sənəd hazırlamışdılar. Aparılmış təbliğat nəticəsində bir neçə deputat bu sənədə imza atmışdı.

Buna cavab olaraq Azərbaycan nümayəndə heyəti ötən əsrin əvvəlindən bu günə kimi ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklər, indi isə ərazimizin 20 faizini işğal etmələri haqqında bəyannamə hazırlayaraq Avropa Şurasının üzvü olan ölkələrin deputatları arasında yaydı.

Həmin bəyannamədə bildirilirdi ki, ermənilər "böyük Ermənistan" yaratmaq iddiası ilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirmiş, 1918-ci ilin martında Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və başqa ərazilərdə azərbaycanlılara qarşı qətlim törətmişlər.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsi başlanandan sonra yüz minlərlə azərbaycanlı yenidən öz tarixi torpaqlarından deportasiya olunmuş, 1992-ci il fevral ayının 26-da Xocalı əhalisi ermənilər tərəfindən bütünlüklə məhv edilmiş, şəhər xarabazara çevrilmişdir.

Azərbaycan nümayəndə heyəti bununla kifayətlənməyərək həm də geniş təbliğat aparmış və bunun nəticəsində ermənilərin heç bir əsası olmayan sənədinə imza atmış bir neçə deputat öz imzalarını geri götürmüşdü.

2001-ci ilin yay sessiyası da Azərbaycan nümayəndə heyətinin gərgin və səmərəli fəaliyyəti ilə yadda qaldı.

Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Milli Məclisinin nümayəndə heyəti tərəfindən hazırlanmış və iyunun 26-da deputat Gültəkin Hacıyevanın adından Nazirlər Komitəsinə ünvanlanmış "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır" sərlövhəli müraciət rəsmi sənəd kimi AŞPA-nın deputatları arasında yayıldı. Həmin sənəddə qeyd olunurdu ki, Avropa Şurasının Nazirlər Komitəsinin mayın 10-11-də keçirdiyi 108-ci sessiyasında Ermənistanın Xarici İşlər naziri Vardan Oskanyan sessiyada bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi həll edilməyincə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq niyyətində deyil və tanımayacaq. Bunu nəzərə alaraq nümayəndə heyəti [126-127] Azərbaycanın və

Ermənistanın Avropa Şurasının tamhüquqlu üzvü olduğunu; ölkəmizin ərazi bütövlüyünün BMT, ATƏT, Avropa Şurası və bütün dünya dövlətləri tərəfindən tanındığını; Avropa Şurasının üzvü olan bir dövlətin - Ermənistanın Avropa Şurasının üzvü olan başqa bir dövlətin - Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmədiyini; Azərbaycan torpaqlarının 20 faizini Ermənistanın işğal etdiyini və bunun nəticəsində insan hüquqlarını kütləvi sürətdə pozduğunu nəzərə alaraq Avropa Şurasının Nazirlər Komitəsindən Ermənistan Respublikasını beynəlxalq qanunların əsas prinsiplərindən biri olan dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipinə hörmət etməyə və Ermənistan hərbi qüvvələrini Azərbaycan ərazisindən dərhal çıxarmağa çağırmağı xahiş edirdi.

Azərbaycan nümayəndə heyətinin hazırladığı daha iki mühüm sənəd iyunun 27-də rəsmi sənəd kimi AŞPA-nın deputatları arasında paylanmışdır. Azərbaycan mədəniyyət abidələrinin ermənilər tərəfindən dağıdılması və mənimsənilməsi barədə sənədi 18 deputat imzalamışdır. Bu sənəddə qeyd olunurdu ki, Azərbaycan Respublikasına qarşı erməni təcavüzünün faciəvi nəticələrindən biri də odur ki, Azərbaycan torpaqlarının 20 faizini işğal etməkdən əlavə, ermənilər ölkənin zəbt olunmuş bölgələrində Azərbaycanın milli-mənəvi irsini məhv edirlər.

Nümayəndə heyətinin yaydığı ikinci sənəd Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji tarazlığın Ermənistan tərəfindən pozulmasına aid idi. Həmin sənədə 16 deputat imza atmışdı.

2001-ci ilin sentyabrında AŞPA sədri Rassel Conston Bakıya gəldi. Səfər zamanı bir sıra əhəmiyyətli görüşlər keçirən R. Conston Dağlıq Qarabağdakı separatçı rejimin keçirdiyi qanunsuz "seçkilərə" də münasibətini bildirdi. Ö, AŞ-nin bu seçkiləri tanımadığını və DQ-nin Azərbaycanın tərkib hissəsi olduğunu bəyan etdi. AŞPA sədri Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını da öz çıxışlarında dəfələrlə təsdiqlədi.

Sentyabrda AŞPA-nın payız sessiyasında Azərbaycan tərəfi iki sənəd təqdim etdi. Birinci sənəd Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin AŞPA-da müzakirəsi ilə bağlı olmuşdu. Hazırlanmış layihədə Azərbaycan torpaqlarının işğalı, bir milyondan çox insanın [127-128] qaçqın və məcburi köçkün vəziyyətində yaşaması, Ermənistanın regionda sülhə və sabitliyə təhlükə yaradan siyasət yürütməsi və digər mühüm faktlar öz əksini tapmışdı. Azərbaycan nümayəndə heyətinin hazırladığı bu sənəd AŞPA-da 30-a qədər ölkəni təmsil edən 50 deputat tərəfindən imzalanmışdı. Layihədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal olunduğu qeyd edilirdi. Bu sənəd AŞPA-da yayıldı və təşkilatın rəsmi sənədləri sırasına salındı.

Azərbaycan nümayəndə heyətinin hazırladığı ikinci sənəd isə "Avropada təhsilin gələcək inkişafı kontekstində Azərbaycanda qaçqın və məcburi köçkünlərin təhsil hüquqları" adlanırdı. Bu sənəddə Ermənistanın təcavüzü nəticəsində yüz minlərlə azərbaycanlının öz yurd-yuvalarından didərgin düşməsi nəticəsində yaranmış vəziyyət haqqında geniş məlumat verilirdi. Minlərlə uşağın təhsil almaq hüququnun Ermənistan tərəfindən kobud şəkildə pozulduğunu qeyd edən Azərbaycan nümayəndələri AŞ-nin nüfuzlu beynəlxalq təşkilat kimi bu mühüm problemi diqqət mərkəzində saxlamasının zəruriliyini ifadə etmişdilər. Qeyd edək ki, bu sənəd də kifayət qədər geniş rezonans doğurdu və Ermənistanın işğalçılıq siyasətinin nəticələrinin beynəlxalq ictimaiyyətə açıqlanması istiqamətində mühüm addım kimi yadda qaldı.

Erməni deputatları bu dəfə də Azərbaycan nümayəndə heyətinin gözlənilməz addımı ilə qarşılaşdılar və əsas diqqətlərini sənəddə əksini tapmış faktların təkzib edilməsinə ayırmalı oldular. Qeyd edək ki, cənab İlham Əliyevin başçılığı ilə nümayəndə heyətimizin fəallığı hər dəfə erməniləri çıxılmaz vəziyyətə salaraq münaqişə barəsində dünyada obyektiv təsəvvür formalaşmasına xidmət etməklə yanaşı, qarşı tərəfin də əks-təbliğat aparmasına imkan vermirdi. Çünki hər sessiyada azərbaycanlı deputatlar yeni sənədlər təqdim edirdi ki, bu da AŞPA-da böyük rezonans yaradır və həm Ermənistana qarşı münasibətin pisləşməsinə, həm də erməni deputatlarının Azərbaycana qarşı addımlarının qarşısının alınmasına gətirib çıxarırdı.

Azərbaycan nümayəndə heyəti AŞ Nazirlər Komitəsinin 108-ci sessiyasında ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin əleyhinə çıxmış Ermənistanla bağlı sorğu göndərmişdi. Bu sorğuda Ermənistanın [128-129] Azərbaycanın ərazi bütövlüyünü tanımamasının AŞPA-nın və ümumiyyətlə, beynəlxalq hüququn prinsiplərinə uyğun gəlmədiyi qeyd olunurdu. Azərbaycan nümayəndə heyəti bu məsələyə dair AŞPA-nın rəsmi mövqeyini öyrənmək istəyirdi. Bu sorğu əsasında müzakirə aparıldı və Nazirlər Komitəsi Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı prinsipini tanıdığını rəsmən elan edərək Ermənistanı da bu sənədə imza atmağa dəvət etdi. Nəticədə Ermənistan bu məsələdə mövqeyini dəyişdi və sənədə imza atmağa məcbur oldu.

AŞPA-nın sentyabrın 25-də keçirilmiş iclasında beynəlxalq terrorizm məsələsi ətrafında müzakirələr aparıldı. Ayrı-ayrı ölkələri təmsil edən deputatlar çıxış edərək terrorizmin genişlənməsini pisləmiş və onun bəşəriyyətin ümumi bəlasına çevrilməsindən narahatlıqlarını bildirmişdilər. Erməni deputatı Hovanesyan iclasda çıxış edərək bildirdi ki, guya Ermənistan heç bir terror aktını dəstəkləmir və terrorizmə qarşı mübarizə aparır. O, Dağlıq Qarabağın erməni əhalisinə qarşı Azərbaycanın guya terror siyasəti yeritdiyini, məşhur terrorçu Ben Ladenin Bakı ilə telefon əlaqəsi saxladığını iddia edən gülünc mülahizələr söyləmişdi. AŞPA-da Azərbaycan nümayəndə heyətinin başçısı, Milli Məclisin deputatı İlham Əliyev isə çıxış edərək erməni nümayəndələrinin bu iftiralarının heç bir əsası olmadığını faktlarla sübut etdi: "Tam məsuliyyətlə sizə deməliyəm ki, bu, tamamilə

əsassız yalandır. Bu əsassız iddia heç kim tərəfindən təsdiq olunmayıb və mən bütün həmkarlarıma müraciətlə xahiş etmək istəyirəm ki, Avropa Şurasının yüksək kürsüsündən öz siyasi məqsədləri naminə böhtan yaymaq üçün istifadə etməsinlər.

Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları ilə bağlı bizim hamımız böyük sarsıntı keçirdik. Azərbaycan nümayəndə heyətinin adından mən istərdim ki, minlərlə günahsız insanın ölümü və yaralanması ilə nəticələnmiş terror aktları ilə bağlı Birləşmiş Ştatların hökumətinə və Amerika xalqına səmimi başsağlığı verim.

Mən həm də istərdim ki, bu dəhşətli cinayəti törətmiş adamların tapılması və onların ədalət məhkəməsinə cəlb olunması ilə əlaqədar Azərbaycan hökuməti adından Birləşmiş Ştatlara tam dəstəyimizi bir daha bildirim. [129-130]

Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları aydın şəkildə göstərir ki, hamımızın yaşadığı dünya nə dərəcədə kövrəkdir. Heç kim özünü tam təhlükəsiz hiss edə bilməz. Ona görə də beynəlxalq birlik dünyanın hər yerində terrorizmin bütün formalarına qarşı mübarizədə birləşməlidir", - deyə cənab İlham Əliyev vurğulamışdır. Nümayəndə heyətimizin rəhbəri Ermənistanın Azərbaycana qarşı törətdiyi terror aktlarına da diqqəti çəkərək bildirdi ki, Azərbaycan terrorizmdən çox əziyyət çəkmişdir. "Ermənistanın təcavüzü başlanandan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Bu terror aktları nəticəsində Azərbaycanda 2 min adam yaralanmışdır. Azərbaycan xalqına qarşı terror aktları qatarlarda, avtobuslarda, gəmilərdə, metro qatarlarında törədilmişdir. Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana genişmiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon adam qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Erməni terrorçu təşkilatı ASALA Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi terror və soyqırımı siyasətində çox fəal rol oynamışdır. Hazırda qondarma "Dağlıq Qarabağ respublikası"nın ərazisi və eləcə də Azərbaycanın işğal olunmuş digər rayonları tam nəzarətsiz ərazilərdir. Qanunsuzluq hökm sürən bu ərazilərdə erməni rəsmiləri təkcə Ermənistandan deyil, digər ölkələrdən gələn terrorçuların da hazırlanması üçün düşərgələr yaradıblar. Dağlıq Qarabağın ərazisi narkotik maddələrin daşınması üçün istifadə olunur və narkotiklərin istehsalından, daşınmasından əldə edilən külli miqdarda pul terror məqsədləri üçün xərclənir".

2002-ci ilin aprelində AŞPA-nın yaz sessiyasında Azərbaycan nümayəndə heyəti fəal surətdə iştirak edərək bir sıra məsələlərlə bağlı mühüm sənədlərin yayılmasına nail oldu. Həmin sənədlərdən biri "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texnologiyaları və nüvə tullantıları haqqında" adlanırdı. Bu sənəddə Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə nüvə tullantılarının basdırılması və burada nüvə texnologiyalarının saxlanılması barədə faktlar öz [130-131] əksini tapmışdı. 80 deputatın və 30 dövlətin imzaladığı sənəd AŞPA-nın rəsmi sənədləri sırasına daxil edildi. Sənəddə öz əksini tapmış faktları Ermənistan nümayəndə heyətinin üzvləri təkzib etməyə çalışsalar da, inandırıcı arqumentlər təqdim edə bilmədilər. Digər tərəfdən, azərbaycanlı deputatlar da AŞPA-nın üzvləri ilə fəal əməkdaşlıq əlaqələri qurmağa müvəffəq olduqlarından artıq Ermənistan Assambleyada təklənmiş vəziyyətə düşmüşdü və bu ölkəni təmsil edənlər Azərbaycan nümayəndə heyətinin addımlarına qarşı adekvat tədbirlər görə bilmirdilər.

"AŞ-yə üzv olan dövlətlərdə beynəlxalq prinsip və qaydalara riayət olunması haqqında" 20 ölkəni təmsil edən 40-dan çox deputatın imzaladığı daha bir sənəddə isə Ermənistanın işğalçılıq əməllərinin regionda təhlükəsizlik üçün problem yaratdığı və AŞ üzvü olan ölkələrin qəbul etdiyi beynəlxalq hüquq normaları ilə bir araya sığmadığı qeyd olunurdu. Bu sənəd də AŞPA-nın əksər üzvləri tərəfindən dəstəklənmişdi.

2002-ci ilin iyununda AŞPA-nın yay sessiyası zamanı Azərbaycan nümayəndə heyəti bir sıra məsələlərdə irəliləyiş əldə olunmasına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair təşkilat üzvlərinin məlumatlandırılması istiqamətində uğurlu addımlar atılmasına nail oldular. Sessiya başlanmamışdan əvvəl və sessiyanın gedişi zamanı da nümayəndə heyəti burada yüksək səviyyəli görüşlər keçirir və ölkəmizin qarşılaşdığı problemlər ətrafında təşkilatın nüfuzlu şəxsləri ilə müzakirələr aparırdılar. Belə görüşlərdən biri də AŞPA sədri Piter Şiderlə keçirildi. Burada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun ağrılı nəticələri ilə bağlı danışıqlar keçirildi və Azərbaycan nümayəndə heyəti AŞPA sədrindən bu məsələni diqqətdə saxlamağı xahiş etdi. Ölkəmizi təmsil edən deputatlar qaçqınların və məcburi köçkünlərin yaşayış tərzinin dözülməz olduğu barədə də ətraflı məlumat verərək beynəlxalq təşkilatlar tərəfindən onlara humanitar yardımın artırılmasının zəruri olduğunu bildirdilər.

Nümayəndə heyətinin AŞPA-nın Baş katibi Valter Şvimmerlə görüşündə də bu məsələlər diqqət mərkəzində saxlanıldı. Şübhəsiz ki, [131-132] burada deputatların əsas məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təşkilatın diqqət mərkəzində qalmasına nail olmaq və Azərbaycana qarşı münasibətdə mövcud olan ikili standartların aradan qaldırılması üçün müəyyən təbliğatı işlər aparmaqdan ibarət idi. Artıq sessiya başladıqdan sonra müəyyən uğurların əldə edildiyi məlum oldu. 27 iyunda AŞPA-nın Miqrasiya, qaçqınlar və demoqrafiya komissiyasının sədri Rutqabi Vermot-Manqold "Ermənistan, Gürcüstan və Azərbaycanda qaçqınların vəziyyəti" mövzusunda məruzə ilə çıxış etdi. O öz nitqində Azərbaycanda 900 min, Ermənistanda 150 min qaçqın olduğunu, Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini dedi. Qeyd edək ki, R. Vermot- Manqold azərbaycanlı qaçqın və məcburi köçkünlərin sayını dəqiq göstərməmişdi. Çünki rəsmi

statistikada qaçqın və köçkünlərin sayı bir milyondan çox göstərildiyi halda, onun çıxışında bu rəqəmin 900 min civarında olduğu qeyd edilirdi. Bununla belə, bu çıxış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri barədə müəyyən qədər obyektiv təsəvvür yaradır və həqiqətin avropalı deputatın dilindən səslənməsi faktların obyektiv olduğuna daha böyük inam yaradırdı. Rutqabi Vermot-Manqold on minlərlə Məhsəti türkünün də Azərbaycanda məskunlaşdığını bildirdi. Qaçqınların çox ağır şəraitdə yaşadığını qeyd edən deputat onların sosial vəziyyətini yaxşılaşdırmaq üçün bütün beynəlxalq təşkilatların humanitar yardım göstərməsinin zəruriliyini vurğuladı. Sessiyada Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyev də geniş çıxış edərək qaçqınların vəziyyətinin ağır, Azərbaycanda hər 8 nəfərdən birinin qaçqın olduğuna diqqəti çəkdi. O, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə beynəlxalq ictimaiyyətin göz yummamalı olduğunu və bu məsələyə konkret münasibət bildirilməsinin vacibliyini önə çəkdi. Ermənistandan, işğal olunmuş ərazilərimizdən və Özbəkistandan gəlmiş qaçqın və məcburi köçkünlərə Azərbaycanda dövlət tərəfindən böyük qayğı göstərildiyini, bununla belə, onların sosial şəraitinin yaxşılaşdırılması üçün dünya ictimaiyyətinin köməyinə ehtiyac olduğunu vurğulayan İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ədalətli münasibət bildirilməsinin zəruriliyini bir daha vurğuladı: "Nə vaxta kimi Avropa [132-133] belə bir fakta göz yumacaq ki, Avropa Şurasının bir üzvü olan Ermənistan başqa bir üzvün - Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayır?" - deyə o bildirdi. Azərbaycan nümayəndə heyətinin bu çıxışı sessiyada böyük rezonans doğurdu və problemə obyektiv şəkildə münasibət bildirməyin vaxtının çatdığını ortaya qoydu. Məhz bu çıxış AŞPA deputatlarını münaqişənin nəticələri barədə təşkilatın ədalətli mövqe tutmasının vacib olduğuna inandırmışdı. Görünür elə bunun nəticəsi idi ki, həmin sessiyada Terri Devis AŞPA-nın Dağlıq Qarabağ üzrə məruzəçisi təyin edildi. Qeyd edək ki, ermənilər Azərbaycan və Ermənistanın AŞ-ya üzv qəbul olunmasından sonra Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçinin təyin olunmasına həmişə etiraz edir və bu ideyanın həyata keçirilməsinə mane olmağa çalışırdılar. Lakin Azərbaycan nümayəndə heyətinin prinsipial mövqeyi və cənab İlham Əliyevin rəhbərliyi altında aparılmış ardıcıl diplomatik mübarizə sayəsində bu təklif AŞPA üzvləri tərəfindən dəstəkləndi.

2002-ci ilin sentyabrında payız sessiyasında Azərbaycan və Ermənistanın AŞ qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsi vəziyyəti müzakirə olundu. Azərbaycanın təkidi ilə Ermənistan barədə qətnaməyə Azərbaycan torpaqlarının işğal olunması, qaçqınlar və məcburi köçkünlərin bu işğal nəticəsində öz torpaqlarından didərgin düşməsi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri barədə düzəlişlər edildi. Bu məsələlər Azərbaycana aid qətnamədə də öz əksini tapdı. Ermənilər ciddi müqavimət göstərsələr də, qətnamənin mətninə Azərbaycan tərəfinin təklif etdiyi düzəliş və əlavələrin aradan qaldırılmasına nail ola bilmədilər.

2003-cü il yanvarın 27-də isə Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev AŞPA-nın sədr müavini və büro üzvü vəzifələrinə seçildi. Bu, ölkəmizin AŞ ilə əlaqələrinin kifayət qədər yüksək səviyyədə inkişaf etdiyini və nümayəndə heyətimizə cənab İlham Əliyevə böyük etimadın mövcud olduğunu təsdiqləyən çox mühüm bir hadisə idi. Azərbaycan nümayəndə heyəti rəhbərinin AŞ PA kimi nüfuzlu [133-134] beynəlxalq təşkilatın sədr müavini və büro üzvü seçilməsi isə daha ciddi nailiyyətdir və bunu heç kim inkar edə bilməz. AŞ Azərbaycan üçün yeni, eyni zamanda daha yüksək tribuna kimi qiymətləndirilirdi və onun fəaliyyətini istiqamətləndirən əsas vəzifələrdən birində Azərbaycan vətəndaşının əyləşməsi ölkəmizə göstərilən etimadın təcəssümü kimi səciyyələndirilməlidir. Diplomatiya tariximizdə analoqu olmayan bu faktı yetərincə qiymətləndirmək üçün, sadəcə, on il bundan öncə xarici siyasətin ən müxtəlif sahələrində qarşılaşdığımız problemləri xatırlamaq kifayətdir. Bu möhtəşəm hadisə cənab İlham Əliyevin beynəlxalq aləmdə nüfuzlu siyasi xadim kimi tanındığını, onun fəaliyyətinin dünyanın ən qüdrətli dövlətləri tərəfindən diqqətlə izlənildiyini sübuta yetirən çoxsaylı faktlardan biri idi və sonrakı mərhələdə də biz onun siyasi nüfuzunun məhz şəxsi keyfiyyətlərinin zəruri etirafı kimi başa düşüldüyünün şahidi olduq.

Qeyd edək ki, cənab İlham Əliyevə göstərilən bu etimadın arxasında kifayət qədər ciddi arqumentlər dayanırdı. Avropa Şurasına tamhüquqlu üzv qəbul edildikdən sonra Azərbaycan öz milli maraqları ilə bağlı problemlərin beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə çıxarılması istiqamətində prinsipial addımlar atmağa müvəffəq olmuşdur. Azərbaycan nümayəndə heyətinin AŞPA-nın sessiyasında nümayiş etdirdiyi fəallıq bu prosesin uğurlu inkişafını təmin edə bilmişdir. Cənab İlham Əliyev nümayəndə heyətinin fəaliyyətini milli mənafelərimizin effektli şəkildə müdafiəsinə və Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq miqyasda ifşasına yönəltməklə yüksək keyfiyyətlərə malik bir lider olduğunu nümayiş etdirə bilmişdir. Məhz onun xüsusi siyasi uzaqgörənliyinin nəticəsi idi ki, təşkilatın və onun ayrı-ayrı komitələrinin demək olar, hər iclasında ermənilər azərbaycanlı deputatların yeni "sürprizləri" ilə qarşılaşırdılar.

AŞPA sədrinin müavini və büro üzvü kimi fəaliyyətə başlayan cənab İlham Əliyevin bu vəzifədəki ilk addımı da Ermənistanın təcavüzkar siyasətinin nəticələrinin beynəlxalq aləmə çatdırılmasından ibarət oldu. Cənab İlham Əliyev Parlament Assambleyasının 2003-cü il yaz sessiyasında deputat Əli Abbasovun "Cənubi Qafqazda mədəniyyətin vəziyyəti" [134-135] mövzusunda məruzəsinə dair çıxışında Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycana aid külli miqdarda mədəniyyət abidələrinin dağıdılması haqqında faktlara toxunaraq bu sənəddə əksini tapmış statistik göstəricilərin real həyat həqiqətlərinə əsaslandığını inandırıcı

dəlillər əsasında sübut etmişdir. Nəticədə erməni deputatlarının işğal faktını sənəddən çıxarılması ilə bağlı təklifi rədd olundu. Lakin ermənilərin narahatlığı təkcə bu məsələnin müzakirəsi zamanı üzə çıxmamışdı və Azərbaycan nümayəndə heyətinin başçısı cənab İlham Əliyevə sessiyanın iclasına sədrlik etmək səlahiyyətinin verilməsi onları daha çox qıcıqlandırmışdı. Bütün bunlara baxmayaraq, ermənilərin iddiaları təmin olunmadı və onlar növbəti dəfə bu nüfuzlu beynəlxalq təşkilatın sessiyasında uğursuzluğa düçar oldular.

Həmin sessiyada AŞPA-nın bürosunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edildi. Müzakirələr zamanı Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasət yürütməsi qəti şəkildə pislənildi və bunun bütün beynəlxalq hüquq normalarına zidd olduğu bəyanlandı. Bu, Ermənistanın işğalçı dövlət olmasının və Azərbaycan ərazilərini qəsb etməsinin AŞPA tərəfindən təsdiqləndiyini sübut edən növbəti fakt idi.

2003-cü ilin yay sessiyasında da Azərbaycan nümayəndə heyəti nəzərəçarpacaq fəallıq nümayiş etdirə bildi. Bu sessiya zamanı ölkəmizin qarşılaşdığı problemlərlə bilavasitə bağlı olan bir məsələ - "Avropada muxtar vilayətlərin müsbət təcrübəsi" mövzusunda müzakirələr aparıldı. AŞPA sədrinin müavini və büro üzvü, Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin təklifi ilə muxtar vilayətlərin ərazi bütövlüyünü pozmaq səlahiyyətlərinə malik olmadığı barədə müddəa sənədə əlavə edildi. Qeyd edək ki, ermənilər bu təklifə qarşı ciddi müqavimət göstərdilər və belə bir maddənin sənədə daxil edilməsinə lüzum olmadığına AŞPA deputatlarını inandırmaq üçün müxtəlif arqumentlər gətirdilər. Lakin cənab İlham Əliyevin qətiyyətli, eyni zamanda məntiqli çıxışları ermənilərin təklifinin keçməsinə imkan vermədi. Nəticədə sənədə "muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır" cümləsi əlavə edildi. Bu, faktiki olaraq, [135-136] Dağlıq Qarabağdakı separatçı rejimin müstəqillik tələblərinin qarşısına sədd çəkən çox mühüm bir addım idi. Çünki artıq belə bir maddənin AŞPA sənədlərində öz əksini tapması Dağlıq Qarabağdakı rejimin müstəqillik tələblərinin hüquqi cəhətdən əsassız olduğunu göstərirdi.

Qısa vaxt ərzində azərbaycanlı nümayəndələr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair faktları Avropanın mərkəzindən dünya ictimaiyyətinə bəyan edə bildilər. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları, işğal olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhvi, hərbi əsirlər və girovların saxlanma şəraiti, ermənilərin qəsb etdiyi torpaqların ekoloji vəziyyəti, qaçqın və məcburi köçkün uşaqlarının təhsilində yaranmış problemlər, məcburi köçkünlərin sosial durumu və bu kimi onlarca ağrılı fakt bütün Avropaya və dünyaya regiondakı hadisələrin mahiyyətini obyektiv və dəqiq təsəvvür etmək imkanı verirdi. Bu imkanı cənab İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin vətənpərvər fəallığı yaratmışdı.

Cənab İlham Əliyevin nümayəndə heyətimizə rəhbərlik etdiyi dövrdə AŞPA-da Azərbaycan həqiqətlərini özündə ehtiva edən 30-a yaxın sənəd hazırlanmış və təşkilatın rəsmi sənədləri kimi yayılmışdır. Azərbaycan nümayəndə heyətinin AŞPA-da çoxşaxəli fəaliyyətinin əsas prinsiplərindən biri Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbləri barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmaqdan ibarət idi və nəticələr həmin prinsipin bütün müddəalarının həyata keçirildiyini söyləməyə əsas verir. Təşkilatın konflikt üzrə xüsusi məruzəçisinin təyin edilməsi istiqamətində aparılan gərgin mübarizənin uğurlu sonluqla yekunlaşması bu mənada, xüsusilə diqqətəlayiq hadisə kimi qiymətləndirilə bilər. Cənab İlham Əliyevin AŞPA-dakı uğurlu fəaliyyəti təşkilatın bütün strukturlarında, komissiya və komitələrində nümayəndə heyətimizin fəal iştirakının təmin olunması ilə nəticələndi. Bütün bunlar ermənilərin beynəlxalq aləmdən təcrid olunması prosesinin həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malik idi. [136-137]

Şübhəsiz ki, bütün bu qeyd olunan məqamlar Azərbaycan nümayəndə heyətinin AŞPA-dakı fəaliyyətinin müxtəlif detallarını özündə ifadə edir. Cənab İlham Əliyevin azərbaycanlı deputatların vahid bir komanda kimi formalaşması və milli maraqlarımızı daha etibarlı şəkildə müdafiə etməsi sahəsində nümayiş etdirdiyi prinsipiallıq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasını təmin etmişdir. Məhz buna görə də o, artıq beynəlxalq siyasi müstəvidə də ciddi və qətiyyətli siyasətçi kimi qiymətləndirilir. Şübhəsiz ki, prezident İlham Əliyevin siyasətdə qazandığı uğurlar onun Azərbaycan xalqının milli maraqları uğrunda gərgin və səmərəli fəaliyyətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Dünya o siyasətçini qəbul edir və perspektivinə inanır ki, o, ilk növbədə mənsub olduğu xalqın daimi mənafelərinin müdafiəçisi kimi özünü tanıtmağa müvəffəq olsun. Cənab İlham Əliyev Azərbaycanda yalnız milli maraqlarımızın etibarlı müdafiəçisi yox, həm də fəaliyyətini müasir dünyanın mürəkkəb reallıqlarına uyğunlaşdırmağı bacaran lider kimi qəbul edilir. Onun siyasi uğurlarının əsas səbəblərindən biri də elə bu amillə bağlıdır. [137]

# III BÖLMƏ

## BEYNƏLXALQ TƏŞKİLATLARIN QƏBUL ETDİYİ SƏNƏDLƏR

## B M T

### BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi

*30 aprel 1993-cü il*

Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi barədə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il yanvarın 29-da (S/5199) və aprelin 6-da (S/25539) verdiyi bəyanatlara istinad edərək,

Baş katibin 1993-cü il aprelin 14-dəki məruzəsini (S/26600) nəzərə alaraq,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlıq izhar edərək,

silahlı hərbi əməliyyatların güclənməsi, qismən də Azərbaycan Respublikasının Kəlbəcər rayonuna yerli erməni qüvvələrinin son təcavüzünü narahatlıqla qeyd edərək,

eləcə də vəziyyətin bölgədəki əminamanhğı və təhlükəsizliyi qorxu altına aldığından narahat olaraq,

çoxlu sayda mülki şəxsin yerdəyişməsi və bölgədə, o cümlədən Kəlbəcər rayonunda yaranmış fövqəladə durumla bağlı ciddi narahatlıq ifadə edərək,

bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörməti bir daha təsdiq edərək,

eləcə də beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyini bir daha təsdiqləyərək, [138-139]

ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bildirərək və silahlı hərbi əməliyyatların güclənməsinin bu proses üçün dağıdıcı nəticələr verə biləcəyindən dərin narahatlıq keçirərək:

1. Atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Bu işdə maraqlı olan tərəfləri münaqişənin ATƏM-in Minsk qrupunun sülh prosesi çərçivəsində həll etmək məqsədilə dərhal danışığı bərpa etməyə və problemin dinc yolla həllini çətinləşdirə biləcək hər cür fəaliyyətdən imtina etməyə israrla dəvət edir;

3. Bölgədə, o cümlədən münaqişənin əhatə etdiyi bütün rayonlarda mülki əhalinin iztirablarını yüngülləşdirmək üçün humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağın və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

4. Baş katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə, habelə ATƏM-in Minsk qrupunun sədri ilə məsləhətləşmə keçirib bölgədəki, o cümlədən Azərbaycanın Kəlbəcər rayonundakı vəziyyətə qiymət versin və Şuraya yeni məruzə təqdim etsin;

5. Qərara alır ki, bu məsələ ilə fəal məşğul olunmasını davam etdirsin. [139]

## BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi

*29 iyul 1993-cü il*

Təhlükəsizlik Şurası 1993-cü il 30 aprel tarixli öz 822 (1993) saylı qətnaməsini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Minsk qrupunun sədri tərəfindən 1993-cü il iyulun 27-də (S/26184) baxılmış məruzəni nəzərdən keçirərək,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onların arasındakı gərginliklə əlaqədar olaraq ciddi narahatlıq keçirdiyini ifadə edərək,

əlaqədar tərəflərin onun 822 (1993) saylı qətnaməsinin həyata keçirilməsi sahəsində təxirəsalınmaz tədbirlər cədvəlini qəbul etməsini alqışlayaraq,

hərbi əməliyyatların güclənməsini, o cümlədən Azərbaycan Respublikasmda Ağdam rayonunun işğal olunmasmı təşvişlə qeyd edərək,

bu vəziyyətin bölgədə sülh və təhlükəsizlik üçün qorxu törətməsindən narahat olaraq,

Azərbaycan Respublikasında çox böyük miqdarda mülki şəxslərin didərgin düşməsi və bölgədəki fövqəladə humanitar vəziyyətlə əlaqədar yenə də ciddi narahatlıq keçirdiyini ifadə edərək:

1. Azərbaycan Respublikasının Ağdam rayonunun və bu yaxınlarda zəbt olunmuş bütün digər rayonlarının işğalını pisləyir;

2. Bölgədə gələcəkdəki bütün düşmənçilik hərəkətlərini, o cümlədən mülki şəxslərə hücumları və yaşayış rayonlarının bombalanmasını və top atəşlərinə tutulmasını pisləyir;

3. Bütün hərbi əməliyyatların təxirə salmmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeydşərtsiz çıxarılmasını tələb edir;

4. Əlaqədar tərəfləri atəşin dayandırılması haqqında razılığa gəlməyə və bu razılaşmalara əməl etməyə çağırır; [140-141]

5. Bölgədə iqtisadi, nəqliyyat və energetika əlaqələrini bərpa etməyə dair özünün əvvəlki çağırışlarım yuxarıdakı 3 və 4-cü bəndlər baxımından bir daha təsdiq edir;

6. Münaqişənin dincliklə aradan qaldırılmasma nail olmaq sahəsində ATƏM-in Minsk qrupunun davam etdirdiyi səyləri, o cümlədən 822 (1993) saylı qətnamənin həyata keçirilməsi sahəsində səyləri bəyənir və hərbi əməliyyatlarm gücləndirilməsinin bu səylər üçün fəlakətli nəticələr verə biləcəyi ilə əlaqədar ciddi narahatlıq keçirdiyini ifadə edir;

7. ATƏM-in müşahidə üzrə nümayəndə heyətinin, həmçinin onun yerləşdirilməsi cədvəlinin hazırlanması sahəsində tədbirləri, habelə bölgədə ATƏM-in nümayəndələrinin olmasının təmin edilməsinə dair təkliflərə ATƏM çərçivəsində baxılmasını alqışlayır;

8. Əlaqədar tərəfləri münaqişənin dincliklə aradan qaldırılmasına maneçilik törədən hər hansı hərəkətlərdən çəkinməyə və vəziyyətin qəti şəkildə nizama salmmasma nail olmaq məqsədilə danışıqları ATƏM-in Minsk qrupu çərçivəsində, habelə əlaqədar tərəflər arasmda birbaşa gö-rüşlər vasitəsilə davam etdirməyə təkidlə çağırır;

9. Ermənistan Respublikası hökumətini Azərbaycan Respublikasmm Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 (1993) saylı qətnamənin müddəalarına əməl etməsi və ATƏM-in Minsk qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır;

10. Dövlətləri münaqişənin güclənməsinə və ya ərazinin işğalınm davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və ləvazimat göndərməkdən çəkinməyə təkidlə çağırır;

11. Mülki əhalinin artmış iztirablarmı yüngülləşdirmək üçün bölgədə, xüsusən münaqişənin əhatə etdiyi bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçiril-məsini təmin etməyə yenidən çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarma əməl etməyə borcludurlar; [141-142]

12. Baş katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş edir ki, zərərçəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərsin və didərgin düşmüş şəxslərə öz evlərinə qayıtmağa kömək etsinlər;

13. Baş katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə məsləhətlə-şərək yaranmış vəziyyət haqqmda Şuraya məruzələr təqdim olunmasını davam etdirsin;

14. Bu məsələ ilə fəal məşğul olmağı davam etdirməyi qərara alır. [142]

## BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi

*14 oktyabr 1993-cü il*

Təhlükəsizlik Şurası özünün 1993-cü il 30 aprel tarixli 822 saylı və 1993-cü il 29 iyul tarixli 853 saylı qətnamələrini təsdiq edərək və Şuranın sədrinin Şura admdan 1993-cü il avqustun 18-də oxunmuş bəyanata (S/26326) istinad edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin Dağlıq Qarabağa dair Minsk Konfransı sədrinin Təhlükəsizlik Şurası sədrinin adına göndərilmiş məktubunu (S/26522) nəzərdən keçirərək,

Azərbaycan Respublikasının Dağlaq Qarabağ bölgəsində və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlərdəki gərginliyin bölgədə sülh və təhlükəsizlik üçün qorxu yarada biləcəyindən ciddi narahat olduğunu bildirərək,

1993-cü il oktyabın 8-də Moskvada yüksək səviyyədə keçirilmiş görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına kömək edəcəyinə ümid bəsləyərək,

Azərbaycan Respublikasının və regiondakı bütün başqa dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

habelə beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyini bir daha təsdiq edərək,

münaqişənin adamlara gətirdiyi müsibətlərdən ciddi narahat olduğunu bir daha bildirərək və o cümlədən Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin köçkün vəziyyətə düşməsi ilə əlaqədar özünün ciddi narahatlığını ifadə edərək:

1. Əlaqədar tərəfləri ATƏM-in Minsk qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin köməyi ilə birbaşa əlaqələr nəticəsində müəyyən olunmuş atəşkəsi səmərəli və daimi etməyə çağırır;

2. ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini, habelə ATƏM-in Minsk qrupunun daimi səylərini tamamilə dəstəklədiyini bir daha bəyan edir; [143-144]

3. 1993-cü il sentyabrın 28-də ATƏM-in Minsk qrupunun müşavirəsində hazırlanmış və qrupun sədri tərəfindən əlaqədar tərəflərə təqdim olunmuş və həmin qrupun digər doqquz üzvünün hərtərəfli dəstəklədiyi "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli"ni alqışlayır, tərəflərin buna diqqət yetirməsini tövsiyə edir və tərəfləri həmin cədvəli qəbul etməyə çağırır;

4. Əmin olduğunu bildirir ki, münaqişədən doğan və "Yeniləşdirilmiş cədvəl"də bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll edilməmiş məsələləri ATƏM-in Minsk prosesi baxımından tezliklə sülh danışıqları çərçivəsində həll etmək lazımdır;

5. Qüvvələrin bu yaxınlarda işğal edilmiş ərazilərdən çıxarılması, kommunikasiya və nəqliyyat üçün olan bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk qrupunun "Yeniləşdirilmiş cədvəl"də nəzərdə tutulmuş qarşılıqlı və təxirəsalınmaz tədbirləri dərhal həyata keçirməyə çağırır;

6. Habelə cədvəldə nəzərdə tutulduğu kimi, münaqişənin danışıqlar yolu ilə aradan qaldırılmasına nail olmaq məqsədilə ATƏM Nazirlər Şurasının 1992-ci il 24 mart tarixli mandatına uyğun olaraq ATƏM-in Minsk Konfransını tezliklə keçirməyə çağırır;

7. Baş katibdən ATƏM-in Minsk Konfransında iştirak etmək üçün nümayəndə göndərmək təklifınə müsbət yanaşmağı və konfransın açılışından sonra danışıqların mətləbdən kənara çıxmaması üçün mümkün olan hər cür kömək göstərməyi xahiş edir;

8. ATƏM-in müşahidə üçün yaratdığı missiyanı dəstəkləyir;

9. Bütün tərəfləri beynəlxalq humanitar hüququ hər hansı şəkildə pozmaqdan çəkinməyə çağırır və münaqişənin toxunduğu bütün rayonlarda humanitar yardım göstərilməsinə dair beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etmək barədə 822 (1993) və 853 (1993) saylı qətnamələrdəki çağırışını bir daha təkrar edir;

10. Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə, bölgədə sülh və təhlükəsizliyin pozulmasına səbəb ola biləcək hər hansı düşmənçilik hərəkətlərindən, işə hər hansı [144-145] şəkildə qarışmaqdan və ya hərbi müdaxilədən çəkinməyə təkidlə çağırır;

11. Baş katibdən və müvafıq beynəlxalq idarələrdən xahiş edir ki, zərərçəkmiş mülki əhaliyə fövqəladə humanitar yardım göstərsinlər, qaçqınlara və köçkün şəxslərə öz evlərinə ləyaqətlə və təhlükəsizlik şəraitində qayıtmağa kömək etsinlər;

12. Habelə Baş katibdən, ATƏM-in indiki sədrindən və ATƏM-in Minsk Konfransınm sədrindən xahiş edir ki, Minsk prosesinin gedişi haqqında və yerlərdə vəziyyətin bütün cəhətlərinə dair, habelə bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcəkdəki əməkdaşlıq haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsinlər;

13. Bu məsələ ilə fəal məşğul olmağı davam etdirməyi qərara alır. [145]

## BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsi

*11 noyabr 1993-cü il*

Təhlükəsizlik Şurası özünün 30 aprel 1993-cü il tarixli 822 saylı (1993), 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 saylı (1993) qətnamələrini təsdiq edərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərgin olaraq qalmasının regionda sülhü və təhlükəsizliyi təhdid edəcəyinə görə ciddi narahatlıq ifadə edərək,

atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların eskalasiyasının və bu pozuntulara cavab olaraq həddindən artıq güc tətbiq edilməsini, o cümlədən Azərbaycan Respublikasının Zəngilan rayonunun və Horadiz şəhərinin işğahnı təşvişlə qeyd edərək,

Azərbaycan Respublikasının və regiondakı bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü təsdiq edərək,

həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyini bir daha təsdiq edərək,

böyük sayda mülki şəxsin ən sonuncu yerdəyişmə hadisəsinə və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar şəraitin yaranmasına görə ciddi narahatlıq ifadə edərək:

1. Tərəflərin qəbul etdiyi atəşkəsin bu yaxında hərbi əməliyyatların yenidən başlanmasına səbəb olmuş pozulmasını, o cümlədən Zəngilan rayonunun və Horadiz şəhərinin işğahnı, dinc sakinlərə hücumları və Azərbaycan Respublikası ərazilərini atəşə tutmasını pisləyir;

2. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq və hərbi kampaniyaya cəlb olunmuş qüvvələrin onu davam etdirmək üçün vəsaitlə təchiz olunmasını təmin etmək məqsədilə Ermənistan dövlətini öz təsirindən istifadə etməyə çağırır; [146-147]

3. ATƏM-in Minsk qrupunun 9 üzvünün 4 noyabr 1993-cü il tarixli (S/26718) bəyanatını razılıqla qeyd edir, orada əks olunmuş atəşin dayandırılması barədə birtərəfli bəyannamələrə aid təklifləri yüksək qiymətləndirir;

4. ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü il tarixli Vyana müşavirəsində edilmiş müraciətlər də nəzərə alınmaqla, Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), (S/26522, əlavə) saylı qətnamələrinin yerinə yetirilməsi üzrə "Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli"nə əsasən hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasını, işğalçı qüvvələrin Zəngilan rayonundan və Horadiz şəhərindən birtərəfli surətdə çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxında işğal olunmuş rayonlarından qəsbkar qüvvələrin çıxarılmasını maraqlı tərəflərdən tələb edir;

5. Ən təkidli surətdə maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin yardımı ilə qurulmuş birbaşa əlaqələr nəticəsində əldə edilmiş atəşkəsin təcili bərpa olun-masına, onun səmərəli və daimi olmasına; münaqişənin danışıqlar yolu ilə ATƏM-in Minsk prosesi və ATƏM-in Minsk qrupunun 1993-cü ilin 2-8 noyabrında Vyanada keçirilmiş müşavirəsində "Yeniləşdirilmiş cədvəl"inə edilən düzəlişlər kontekstində nizamlanmasının imkanlarını axtarmağı davam etdirməyə çağırır;

6. Yenidən təkidlə regionun bütün dövlətlərini münaqişənin böyüməsinə, regionda sülhü və təhlükəsizliyi poza biləcək hər hansı bir düşmənçilik aktından, hər hansı bir müdaxilədən çəkinməyə çağırır;

7. Baş katibdən və müvafiq beynəlxalq təsisatlardan zərər çəkmiş mülki əhaliyə, o cümlədən Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədlərinin əhalisinə təcili humanitar yardım göstərilməsini, qaçqınlara və məcburi köçkünlərə öz evlərinə ləyaqətlə və təhlükəyə məruz qalmadan qayıtmasına kömək etməyi xahiş edir;

8. Yenidən Baş katibə, ATƏM-in fəaliyyətdə olan sədrinə və ATƏM-in Minsk Konfransının sədrinə müraciət edərək gələcəkdə Minsk prosesinin gedişi barədə və yerdə vəziyyətin bütün aspektləri, [147-148] xüsusilə Şuranm müvafiq qətnamələrinin həyata keçirilməsi, ATƏM və BMT arasında bu münasibətlərdə indiki və gələcək əməkdaşlıq barədə məlumat verməlàrini xahiş edir;

9. Bu məqsədlə fəal məşğul olmağı davam etdirməyi qərara alır. [148]

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı

*12 may 1992-ci il*

Təhlükəsizlik Şurasınm üzvləri arasmda məsləhətləşmələrdən sonra Şuranın sədri Şuranın adından 1992-ci il mayın 12-də onun 3072-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

Təhlükəsizlik Şurasının üzvləri Dağlıq Qarabağa dair vəziyyətin pisləşməsi və atəşkəs barədə sazişlərin pozulması ilə bağlı böyük insan itəfatına və xeyli maddi ziyan vurulmasına gətirib çıxaran son məlumatlardan, eləcə də bunların region ölkələri üçün nəticələrindən dərin narahatlıq keçirirlər.

Təhlükəsizlik Şurasının üzvləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində görülən səyləri, eynilə tərəflərə sülh yolu ilə nizamlanma əldə etməyə və humanitar yardım göstərilməsinə yönələn digər səyləri yüksək qiymətləndirir və dəstəkləyirlər.

Onlar Baş katib tərəfındən bu bölgəyə təcili olaraq faktlarm araşdırılması və tərəflərə sülh yolu ilə nizamlanma əldə etmək üçün ATƏM çərçivəsində göstərilən səylərə tezliklə kömək edilməsinin yollarını və vasitələrinin öyrənilməsi üçün missiya göndərilməsini alqışlayırlar. Bu missiya, həmçinin beynəlxalq birlik tərəfindən təxirəsalınmaz humanitar yardım göstərilməsinin mümkün yollarının özünə müvafıq texniki elementini daxil edəcəkdir.

Təhlükəsizlik Şurasınm üzvləri bütün maraqlı tərəfləri zorakıhğa son qoyulması, Baş katibin missiyasmın işini asanlaşdırmaq və onun personalının təhlükəsizliyini təmin etmək üçün bütün tədbirləri görməyə çağırır. Onlar Şuranın sədri adından 1992-ci il yanvarın 23-də (S/23496) və fevralın 14-də (S/23597) müvafıq olaraq Ermənistanın və Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunması barədə edilən bəyanatlarını və xüsusilə də nizamnamənin mübahisələrin dinc yollarla və güc tətbiq etmədən nizamlanmasına aid prinsiplərinə istinadları xatırlayırlar. [149]

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı

*26 avqust 1992-ci il*

Təhlükəsizlik Şurasınm üzvləri arasında məsləhətləşmələrdən sonra Şuranın sədri Şuranın adından "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndlə əlaqədar aşağıdakıları bəyan etmişdir:

Dağlıq Qarabağda vəziyyətin pisləşməsi, çoxlu insan tələfatına və geniş miqyasda maddi zərərə səbəb olması haqqında məlumatlar Təhlükəsizlik Şurasının üzvlərini dərindən narahat etmişdir.

Təhlükəsizlik Şurasının üzvləri bütün tərəfləri və digər əlaqədar tərəfləri atəşi dərhal dayandırmağa və ATƏM çərçivəsində Dağlıq Qarabağ məsələsinə dair Minsk Konfransının səylərinə, habelə Romada keçirilən hazırlıq danışıqlarına yardım göstərməyə qətiyyətlə çağırırlar. Onlar bürün tərəfləri və digər əlaqədar tərəfləri ATƏM ilə sıx əməkdaşlıq etməyə və öz mübahisələrinin dinc yolla aradan qaldırılmasına mümkün qədər tez nail olmaq məqsədilə danışıqlarda müsbət mövqelərdən iştirak etməyə təkidlə çağırırlar. Onlar qeyd etmişlər ki, Baş katib faktları müəyyən etmək üçün həmin bölgəyə nümayəndələr göndərmiş və ATƏM-in yuxarıda adı çəkilən danışıqlarına nümayəndələr göndərməyə hazırdır. Şuranın üzvləri Dağlıq Qarabağda vəziyyətin inkişafı ilə əlaqədar olaraq həmin rayonlarda Birləşmiş Millətlər Təşkilatının rolunu sonralar lazımi vaxtda müzakirə edəcəklər. [150]

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı

*27 oktyabr 1992-ci il*

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələr apararaq Şuranm sədri Şuranm adından onun 1992-ci il sentyabrın 27-də keçirilmiş 3127-ci iclasmda "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

Təhlükəsizlik Şurası 1992-ci il sentyabrın 21-də Soçidə atəşkəs barədə sazişin bağlanılmasına baxmayaraq, Dağlıq Qarabağda və onun ətrafında ciddi vəziyyətin qalmasından, eləcə də bununla əlaqədar insan tələfatı və maddi itkilər olmasından dərin narahatdır.

Təhlükəsizlik Şurası özünün 1992-ci il 26 avqust (S/24493) tarixli "Dağlıq Qarabağda vəziyyətə dair bəyanat"ının məzmununu, xüsusilə də ATƏM-in Dağlıq Qarabağ münaqişəsinə dair Minsk Konfransının səylərinə dəstəyini təsdiq edir. O, qətiyyətlə bütün tərəfləri və bu məsələyə aid olan digərlərini dərhal atəşi dayandırmağa və blokadanın bütün növlərini aradan qaldırmağa çağırır. O, Minsk Konfransının işinin dərhal yenidən başlanılmasına və sədrin təklif etdiyi qayda və prosedurlar əsasında siyasi danışıqlar açılmasına çağırır. O, təkidlə bu məsələyə aidiyyəti olan bütün tərəfləri və digərlərini onların mübahisələrinin tezliklə hərtərəfli nizamlanmasını əldə etmək üçün ATƏM-lə sıx əməkdaşlığa və konfransın işində əsaslı iştirak etməyə çağırır.

Təhlükəsizlik Şurası Baş katibin Birləşmiş Millətlər Təşkilatının ATƏM-in səylərinin dəstəklənməsi planına, eləcə də humanitar yardım göstərilməsinə nə kimi töhfə verə biləcəyi məsələsinin öyrənilməsi üçün bu regiona öz nümayəndəsini göndərməyə dair niyyətindən məmnun olduğunu bildirir. [151]

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı

*29 yanvar 1993-cü il*

Təhlükəsizlik Şurasının sədri 1993-cü ilin 29 yanvarında keçirdiyi məsləhətləşmələrdən sonra Şuranın üzvləri adından kütləvi informasiya vasitələrinin nümayəndələrinə aşağıdakıları bəyan etmişdir:

Ermənistan və Azərbaycanın Naxçıvan Muxtar Respublikasına malların və materialların göndərilməsi, xüsusilə elektrik enerjisi verilməsindəki fasilələrin dağıdıcı nəticələri ilə əlaqədar Təhlükəsizlik Şurasının üzvləri dərin narahatlıq keçirdiklərini bildirirlər. Qeyri-adi dərəcədə sərt qışın genişləndirdiyi bu fasilələr həmin bölgələrin iqtisadiyyatını və infrastrukturunu iflas həddinə gətirib çıxarmış və real aclıq təhlükəsi yaratmışdır.

Şuranın üzvləri təkidlə bütün kömək edə biləcək ölkələri yanacaq və humanitar yardımın göndərilməsinə kömək etməyə və region ölkələrinin humanitar vəziyyətinin gələcəkdə daha da pisləşməsinin qarşısını almaq məqsədilə humanitar yüklərin, xüsusilə də yanacağın Ermənistana və Azərbaycanın Naxçıvan bölgəsinə maneəsiz çatdırılmasını təmin etməyə çağırır.

Şuranın üzvləri ATƏM-in tərəfləri bir araya gətirməyə və bu regionda sülhün bərqərar olmasına yönələn bütün səylərini tam dəstəklədiklərini bir daha bəyan edirlər. Onlar tərəfləri dərhal atəşkəsə və tezliklə ATƏM çərçivəsində danışıqların yenidən başlanılmasına razılaşmağa çağırırlar.

Təhlükəsizlik Şurasının üzvləri bu məsələyə baxmağı davam etdirəcəklər. [152]

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı

*6 aprel 1993-cü il*

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələrdən sonra Şuranın sədri Şura adından 1993-cü il aprelin 6-da onun 3194-cü iclasmda "Dağhq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsindən və Dağlıq Qarabağ münaqişəsində düşmənçilik hərəkətlərinin güclənməsindən, xüsusilə yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna müdaxiləsindən ciddi narahat olduğunu bildirir. Şura sülh və bölgənin təhlükəsizliyi üçün qorxu törədən belə düşmənçilik hərəkətlərinin hamısına dərhal son qoymağı və bu qüvvələri oradan çıxarmağı tələb edir.

Bununla əlaqədar Təhlükəsizlik Şurası bölgənin bütün dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, onların sərhədlərinin pozulmazlığını təsdiq edərək ATƏM çərçivəsində sülh prosesinə tərəfdar olduğunu bildirir. O, ümid etdiyini bildirir ki, Minsk qrupunun bu yaxınlarda əldə etdiyi ilkin sazişdən sonra yaxın vaxtlarda atəşi dayandırmaq, müşahidəçilərin yerləşdirilməsi cədvəli, siyasi bəyannamənin layihəsi barədə sazişlər də əldə olunacaq və Minsk Konfransı tezliklə çağırılacaqdır.

Təhlükəsizlik Şurası müvafıq tərəfləri ATƏM çərçivəsində sülh prosesində irəliləyiş olması üçün əllərindən gələni əsirgəməməyə və problemin siyasi həllini çətinləşdirə bilən heç bir hərəkətə yol verməməyə təkidlə çağırır.

Şura, həmçinin mülki əhalinin iztirablarını azaltmaq məqsədilə bölgədə, o cümlədən münaqişəyə cəlb olunmuş bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır. [153-154]

Təhlükəsizlik Şurası Baş katibdən xahiş edir ki, ATƏM ilə məsləhətləşərək faktları müvafıq şəkildə müəyyənləşdirsin və təcili olaraq Şuraya hadisə yerində vəziyyətə qiymət verən məruzə təqdim etsin.

Şura bu məsələ ilə məşğul olmaqda davam edəcəkdir. [154]

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı

*18 avqust 1993-cü il*

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələr apararaq Şuranın sədri Şuranın adından onun 1993-cü il avqustun 18-də keçirilmiş 3264-cü iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə və onların arasındakı gərginliklə əlaqədar ciddi narahatlıq keçirdiyini bildirir. Şura Ermənistan Respublikasının hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin Şuranın 822 və 853 saylı qətnamələri ilə razılaşmalarına nail olmaq məqsədilə öz təsirindən istifadə etməyə çağırır.

Şura, habelə bu günlərdə Füzuli rayonunda döyüş əməliyyatlarının güclənməsindən dərin narahatlıq keçirdiyini bildirir. Şura əvvəllər Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarına müdaxiləni və onların işğalını pislədiyi kimi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindən Füzuli rayonuna edilən hücumları da pisləyir. Şura bütün hücumların dayandırılmasını və bölgədə sülh və təhlükəsizlik üçün qorxu törədən hərbi əməliyyatların və bombardmanların dərhal dayandırılmasını tələb edir, habelə işğalçı qüvvələrin Füzuli zonasından, həmçinin Azərbaycan Respublikasınm Kəlbəcər, Ağdam rayonlarından və bu yaxınlarda işğal olunmuş başqa rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Şura Ermənistan Respublikasının hökumətini bu məqsədlə öz təsirindən istifadə etməyə çağırır.

Şura Azərbaycan Respublikasının və regionun bütün başqa dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, habelə onların sərhədlərinin pozulmazlığını bir daha təsdiq edir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olmağa dair ATƏM-in Minsk qrupunun səylərinə döyüş əməliyyatlarının göstərdiyi təsirdən dərin narahatlıq keçirdiyini bildirir. Şura ATƏM-in sülh prosesini tamamilə müdafiə etdiyini qeyd edir və Minsk qrupunun danışıqlarının indiki mərhələsində öz [155-156] baxışlarını və mövqelərini bilavasitə ifadə etmək üçün münaqişədə iştirak edən tərəflərə verilmiş imkanı, xüsusilə nəzərə çarpdırır. Bu baxımdan Şura bütün tərəfləri avqustun 13-də Minsk qrupunun təqdim etdiyi "BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair təxirəsalınmaz tədbirlər cədvəli"nin dəqiqləşdirilmiş variantına müsbət cavab verməyə və məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırır. Şura yaranmış vəziyyətin bütün cəhətləri barədə məruzə hazırlamaq üçün bölgəyə missiya göndərmək haqqında ATƏM-in niyyətini alqışlayır.

Son günlərdə münaqişənin genişlənməsi ilə əlaqədar Şura dövlətləri münaqişənin güclənməsinə və ya Azərbaycan Respublikası ərazisinin işğalının davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və döyüş sursatı göndərməkdən çəkinmək barədə 853 saylı qətnamədəki çağırışını bir daha təkidlə təsdiq edir. Şura Ermənistan Respublikasının hökumətini cəlb olunmuş qüvvələrin gələcəkdə hərbi əməliyyatı genişləndirmək üçün vəsait almamalarını təmin etməyə çağırır.

Şura, habelə mülki əhalinin getdikcə artan iztirablarını yüngülləşdirmək məqsədilə bölgəyə, münaqişədən zərər çəkmiş bütün zonalara beynəlxalq humanitar yardımın maneəsiz çatdırılmasını təmin etməyə dair 822 və 853 saylı qətnamələrdə olan çağırışları bir daha təkrar edir. Şura tərəflərə xatırladır ki, onlar beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar və əməl etməlidirlər.

Təhlükəsizlik Şurası bu məsələ ilə fəal məşğul olmaqda davam edəcək və özünün qətnamələrinə bütün tərəflərin tamamilə razı olmasını və əməl etməsini təmin etməkdən ötrü müvafiq tədbirləri nəzərdən keçirməyə hazır olacaqdır. [156]

## Təhlükəsizlik Şurası sədrinin bəyanatı

*26 aprel 1995-ci il*

Təhlükəsizlik Şurasının 1995-ci il aprelin 26-da 3525-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndə baxılması ilə əlaqədar Təhlükəsizlik Şurasının sədri Təhlükəsizlik Şurasının adından aşağıdakıları bəyan etmişdir:

Təhlükəsizlik Şurası özünün 884 saylı qətnaməsinin 8-ci bəndinə uyğun olaraq ATƏT-in Dağlıq Qarabağa dair Minsk Konfransımn həmsədrlərinin təqdim etdiyi məruzələrə (S/1995/249 və S/1995/321) baxmışdır. Təhlükəsizlik Şurası 1994-cü il mayın 12-də Rusiya Federasiyasının vasitəçiliyi və ATƏT-in Minsk qrupu ilə qarşıhqh fəaliyyət sayəsin-də razılaşdırılmış atəşkəsin bir ilə yaxın müddətdə saxlanılmasından məmnunluğunu bildirir.

Eyni zamanda, Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişədən və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginlikdən təkrarən narahatlığını bildirir. Təhlükəsizlik Şurası, xüsusilə bu yaxınlarda baş vermiş zorakı hadisələrlə əlaqədar narahat olduğunu bildirir və 1995-ci il fevralın 6-da razılaşdırıldığı kimi, hadisələrin nizamlanmasmda birbaşa əlaqələr mexanizmindən istifadə edilməsinin vacibliyini vurğulayır. O, qətiyyətlə tərəfləri belə hadisələrin gələcəkdə qarşısının alınması üçün bütün zəruri tədbirləri görməyə çağırır.

Şura regionun bütün dövlətlərinin suverenliyi və ərazi bütövlüyünə əsaslanan özünün bütün qətnamələrini təsdiq edir. O, həmçinin beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi zəbt edilməsi üçün gücdən istifadənin yolverilməzliyini təsdiqləyir.

Təhlükəsizlik Şurası qoşunların geri çəkilməsini təmin etməklə münaqişənin bütün tərəflər üçün əsas nəticələrini aradan qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan yaradacaq, silahlı münaqişənin dayandırılmasına dair siyasi saziş bağlanması üçün sürətli danışıqlar [157-158] keçirilməsinə yönələn Minsk Konfransı həmsədrlərinin bütün səylərinə özünün tam dəstəyini yenidən göstərməyə başlayır.

Təhlükəsizlik Şurası vurğulayır ki, sülh nizamlanmasını əldə etmək üçün əsas məsuliyyəti münaqişə tərəfləri daşıyır. Təhlükəsizlik Şurası silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişin BMT Nizamnaməsi və ATƏT-in müvafiq prinsipləri əsasında bağlanılmasının zəruriliyini bildirir. O, qətiyyətlə tərəfləri, hər hansı bir ilkin şərtlərsiz və prosedur maneələrsiz konstruktiv danışıqlar aparmağa, sülh prosesini sarsıda biləcək istənilən hərəkətlərdən çəkinməyə çağırır. O vurğulayır ki, belə sazişin əldə edilməsi ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi üçün ilkin şərtidir.

Təhlükəsizlik Şurası ATƏT-in Budapeşt sammitinin 1994-cü il 6 dekabr tarixli "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" qərarını alqışlayır. O, tərəflər arasında silahlı münaqişələrin dayandırılmasına dair saziş olarsa, ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsinə dair lazımi qətnamələrlə davamlı siyasi dəstək verməyə hazır olduğunu təsdiqləyir. BMT, həmçinin texniki məsləhətlər və ekspert rəyi verməyə hazırdır.

Təhlükəsizlik Şurası tərəflərin Minsk qrupu çərçivəsində 1994-cü il aprelin 15-də razılaşdırıldığı kimi, etimad yaradılmasına dair tədbirləri, xüsusilə də humanitar sahədə, o cümlədən bütün hərbi əsirlərin və mülki saxlanılmaların atəşkəsin birinci ildönümünə qədər azad edilməsinin yerinə yetirilməsinin zəruriliyini vurğulayır. O, tərəfləri silahlı münaqişədən zərər çəkmiş mülki əhalinin iztirablarımn qarşısını almağa çağınr.

Təhlükəsizlik Şurası Baş katibə, ATƏT-in sədrinə və ATƏT-in Minsk qrupunun həmsədrliyinə öz tələbini yeniləşdirir ki, Minsk prosesinin irəliləyişi, yerlərdə vəziyyəti, xüsusilə müvafiq qətnamələrin yerinə yetirilməsi, ATƏT və BMT arasında indiki və gələcək qarşılıqh fəaliyyət haqqında Şuraya məruzə etməyi davam etdirsinlər.

Şura bu məsələyə baxmaqda davam edəcək. [158]

## A T Ə T

**Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi**

*Budapeşt, 5 dekabr 1994-cü il*

1. İştirakçı dövlətlər münaqişə və onun nəticəsi kimi insan faciəsinin davam etməsini pisləyərək münaqişədə iştirak edən tərəflərin 1994-cü il may ayının 12-də ATƏM-in Minsk qrupu ilə birgə əməkdaşlıqda Rusiya Federasiyasının vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsi təsdiq etmələrini alqışladılar. İştirakçı dövlətlər BMT Təhlükəsizlik Şurasının əlaqədar qətnamələrinə dair öhdəliklərini təsdiq etdilər və Təhlükəsizlik Şurasının münaqişənin sülh yolu ilə həll edilməsinə yönəlmiş ATƏM-in səylərinə verdiyi siyasi dəstəyi alqışladılar. Bununla əlaqədar onlar münaqişədə iştirak edən tərəfləri, birbaşa əlaqələr də daxil olmaqla, intensiv daimi danışıqlara çağırdılar. Bundan çıxış edərək onlar ATƏM-in səylərini və yardımını gücləndirəcəklərinə əmin etdilər. Onlar ATƏM-in Minsk qrupunun vasitəçilik səylərini tamamilə müdafıə etdilər və Rusiya Federasiyasının çox mühüm yardımını və Minsk qrupunun digər ayrılıqda götürülmüş üzvlərinin səylərini yüksək qiymətləndirdilər. Onlar bütün bunları ATƏM çərçivəsi daxilində vahid, uzlaşdırılmış səylər şəklində uyğunlaşdırmağa razılaşdılar.

2. Bununla əlaqədar onlar fəaliyyətdə olan sədrə iştirakçı dövlətlərlə məsləhətləşərək və mümkün qədər tez bir zamanda fəaliyyət göstərərək danışıqlar üçün ümumi və razılaşdırılmış əsasın təmin olunması və bütün vasitəçilik və danışıqlara dair fəaliyyətlərin tam uyğunlaşdırılmasının həyata keçirilməsindən ötrü Minsk Konfransının həmsədrlərini təyin etməyi tapşırdılar. ATƏM prinsiplərini və razılaşdırılmış mandatı əldə rəhbər tutan həmsədrlər Minsk qrupunun iclaslarında birgə sədrlik edəcək və fəaliyyətdə olan sədrə birgə hesabat verəcəklər. Onlar mütəmadi olaraq Daimi Şuraya öz işlərindəki irəliləyişlər barədə ətraflı məlumat verəcəklər. [159-160]

3. Bu səylərdə birinci addım kimi onlar Minsk Konfransının həmsədrlərinə Rusiya Federasiyasının və Minsk qrupunun digər ayrı-ayrı dövlətlərinin köməyi və onlarla əməkdaşlıq edərək mövcud atəşkəsin davam etdirilməsinə kömək etmək üçün dərhal addımlar atmağı və ötən vasitəçilik fəaliyyətində artıq əldə edilmiş irəliləyişlərə əsaslanaraq silahlı münaqişə bitdikdən sonra siyasi sazişin imzalanması üçün intensiv danışıqlar keçirməyi tapşırdılar. Bu sazişin həyata keçirilməsi bütün tərəflər üçün münaqişənin əsas nəticələrini aradan qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan verəcəkdir. Bundan başqa, onlar Minsk Konfransının həmsədrlərindən inam yaradılması sahəsində, xüsusən humanitar sahədə tədbirlərin gələcəkdə də həyata keçirilməsi yolunda tərəfiərlə birgə işi davam etdirməyi xahiş etdilər. Onlar iştirakçı dövlətlərin həm ayrı-ayrılıqda, həm də əlaqədar beynəlxalq təşkilatlar çərçivəsində qaçqınların vəziyyətinin yüngülləşdirilməsinə xüsusi diqqət yetirərək regiondakı əhaliyə humanitar yardımının təmin olunması sahəsində fəaliyyət göstərmələrinin vacibliyini qeyd etdilər.

4. Onlar belə razılaşdılar ki, münaqişədə iştirak edən tərəflərin nöqteyi-nəzərinə əsasən yuxarıda göstərilən sazişin imzalanması sazişin özünün həyata keçirilməsi üçün mühüm element olan çoxmillətli sülhməramlı qüvvələrin yerləşdirilməsinə imkan verəcəkdir. Onlar BMT Təhlükəsizlik Şurasınm uyğun qətnaməsi ilə, silahlı münaqişə bitərkən tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrini göndərmək barədə siyasi iradələrini bəyan etdilər. Onlar fəaliyyətdə olan sədrdən xahiş etdilər ki, o, mümkün qədər tez bir zamanda, 1992-ci il Helsinki sənədinin üçüncü bəndinə əsasən və BMT Nizamnaməsinə tam uyğun şəkildə təşkil olunacaq belə qüvvələrin yaradılması, tərkibi və əməliyyatlarına dair plan hazırlasın. Bununla əlaqədar fəaliyyətdə olan sədrə Minsk Konfransının həmsədrləri və Minsk qrupu, Baş katib tərəfindən köməklik və yardım göstəriləcək, o, həmçinin müvafiq məsləhətləşmələrdən sonra sülhməramlı qüvvələri yaradan dövlətlərə bu qüvvələrin xarakteristikası və həcmi, onlara rəhbərlik və nəzarət, arxa təminat hissələri və ehtiyatların paylanması, davranış və sazişlərin qaydalarına dair tövsiyələr vermək üçün Vyanada [160] yüksək səviyyəli planlaşdırma qrupu yaradacaq. O, BMT-nin texniki məsləhət və ekspertiza təminatına hazır olduğu barədə bəyanatına əsasən BMT-dən yardım almağa çalışacaqdır. O, həmçinin BMT TŞ-dən ATƏM-in sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsi barədə davamedici siyasi dəstəyə çahşacaqdır.

5. 1992-ci il Helsinki sənədinin üçüncü bəndinin müvafiq maddələrinə və hazırlıq işlərinə, sonrakı saziş və tərəflərin Minsk Konfransının həmsədrləri vasitəsilə fəaliyyətdə olan sədrə rəsmi müraciətinə əsasən Daimi Şura ATƏM-in sülhməramh əməliyyatlarının təşkilinə dair qərar qəbul edəcəkdir. [161]

## ATƏT-in LİSSABON SAMMİTİNİN SƏNƏDLƏRİNƏ ƏLAVƏ

## ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatı

*Lissabon, 3 dekabr 1996-cı il*

Hamınız bilirsiniz ki, son iki il ərzində Dağlıq Qarabağ münaqişəsinin həllində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində heç bir tərəqqi əldə edilməmişdir. Mən təəssüf edirəm ki, Minsk Konfransı həmsədrlərinin tənzimləmə prinsipləri məsələsində tərəflərin mövqelərini yaxınlaşdırmağa yönəldilən səyləri uğursuz olmuşdur.

Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin tərkib hissəsi olacaq 3 prinsipi tövsiyə etmişlər. Bu prinsipləri Minsk qrupunun üzvü olan bütün ölkələr müdafiə edir. Onlar aşağıdakılardır

- Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Dağlıq Qarabağın Azərbaycan tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən, ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu;
- məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi.

Mən təəssüf edirəm ki, Ermənistan bununla razılaşa bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfından müdafıə edilir.

Bu bəyanat Lissabon sammitinin sənədləri sırasına daxil ediləcəkdir. [162]

# AVROPA BİRLİYİ

## Avropa Birliyinin Dağlıq Qarabağa dair bəyanatı

*Brüssel, 3 sentyabr 1993-cü il*

Birlik və onun üzvü olan dövlətlər Azərbaycan ərazisinin içərilərinə doğru getdikcə daha çox irəliləyən Dağlıq Qarabağın yerli erməni qüvvələrinin hücumunu pisləyirlər. Onlar təəssüflə qeyd edirlər ki, bu cür hərəkətlər getdikcə daha çox Azərbaycan ərazisini əhatə edən silahlı münaqişənin sərhədlərini genişləndirir və Azərbaycanda qaçqınların olduqca ciddi problemini yaradır və bununla da qonşu ölkələri məhəlli təhlükəsizlik üçün daim artan qorxu ilə münaqişəyə cəlb edir.

Birlik və onun üzvü olan dövlətlər bölgədə dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə öz sadiqliyini təsdiqləyirlər.

Birlik və onun üzvü olan dövlətlər atəşin müvəqqəti dayandırılmasını (1993-cü il avqustun 31-də Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan hökuməti arasmda bu barədə qərar qəbul edilmişdir) möhkəmlətmək üçün ATƏM çərçivəsində Minsk qrupunun göstərdiyi səylərə tamamilə tərəfdar çıxırlar. Onlar hər iki tərəfi ikitərəfli dialoqun əlavə olaraq hər hansı formasma başlamağa çağırırlar. Elə bir dialoqa ki, iyun ayının axırlarında bütün tərəflərin prinsipial sazişə nail olduqları cədvəlin yerinə yetirilməsinin mümkünlüyünü gücləndirir.

Birlik və onun üzvü olan dövlətlər, həmçinin istərdilər ki, Dağlıq Qarabağda yerli erməni qüvvələri BMT Təhlükəsizlik Şurasınm 822 və 853 saylı qətnamələrinə hörmət göstərsinlər. Onlar Kəlbəcər, Ağdam, Füzuli və Cəbrayü rayonlarından qoşunların çıxarılmasmı tələb edirlər. Birlik və onun üzvü olan dövlətlər Azərbaycanın həmin bölgələrdən hücumlar hazırlamağa qadir olduğuna dair dəlillərə malik deyildirlər.

Birlik və onun üzvü olan dövlətlər Ermənistan Respublikası hökumətinin Dağlıq Qarabağ ermənilərinə öz həlledici təsirindən istifadə etməyə çağırırlar ki, onlar 822 və 853 saylı qətnamələri və ATƏT-in Minsk qrupunun təkliflərini yerinə yetirsinlər. [163-164] Birlik və onun üzvü olan dövlətlər Ermənistanı bunu təsdiq etməyə çağırırlar ki, Azərbaycan ərazilərinə hücum edən yerli erməni qüvvələri belə hücumları daha da genişləndirmək üçün maddi vasitələr almayacaqlar. [164]

## Avropa Birliyinin Dağlıq Qarabağa dair bəyanatı

*Brüssel, 9 noyabr 1993-cü il*

Avropa Birliyi 1993-cü il oktyabrın 24-də Dağlıq Qarabağ bölgəsində atəşkəs haqqında sazişin pozulmasını pisləyir və bu yaxınlarda işğal olunmuş ərazilərdən bütün qüvvələri çıxarmağa çağırır. Avropa Birliyi ATƏM-in prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir.

Avropa Birliyi silahlı toqquşmalardan qaçmaqla canını qurtaran on minlərlə mülki şəxsin taleyindən, xüsusilə narahatdır. Həmin qaçqınların qəbulu və müdafiə edilməsi beynəlxalq birliyin üstün vəzifələrindən olmalıdır. Bundan əlavə, bu qaçqınların olması münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırır və bütün regionun sabitliyi üçün qorxu törədir.

Avropa Birliyi zərər çəkmiş əhaliyə bundan sonra da humanitar yardım göstərəcəkdir. Bununla əlaqədar 0, regionun bütün dövlətlərinə yardımın çatdırılmasına kömək etməyə çağırır.

Avropa Birliyi Dağlıq Qarabağ münaqişəsini möhkəm siyasi vasitələrlə aradan qaldırmaq yollarmı axtarmaq məqsədilə ATƏM-in Minsk qrupunun göstərdiyi səyləri bütünlüklə dəstəklədiyini bir daha təsdiq edir. O, münaqişədə iştirak edən tərəfləri 1993-cü il oktyabrın 24-də pozulmuş atəşkəs vəziyyətini bərpa etməyə çağırır. [165]

## AVROPA ŞURASI

### Avropa Şurası Parlament Assambleyası Dağlıq Qarabağdakı münaqişəyə dair 1047 (1994) sayh qətnamə

*Strasburq, 10 noyabr 1994-cü il*

1. Assambleya məmnunluqla qeyd edir ki, 1994-cü il mayın 12-də qüvvəyə minmiş atəşkəsə nisbətən yaxşı riayət olunmuşdur və ümid edir ki, bunun ardınca müharibə edən tərəflər arasında tezliklə sülh müqaviləsi imzalanacaq;

2. 1988-ci ildə başlanmış bu münaqişə 20 min nəfərin ölümünə və 1 milyondan çox adamın qaçqın olmasma gətirib çıxarmışdır;

3. Assambleyada ATƏM-in Minsk qrupunun, Rusiya Federasiyası hökumətinin, BMT Təhlükəsizlik Şurasının, MDB Parlamentlərarası Assambleyası özünün iştirakçı olmayan Avropa dövlətləri ilə münasibətlər üzrə Komitəsinin müharibə edən tərəfləri sälh müqaviləsi imzalamağa inandırmaq cəhdlərini məmnunluqla qeyd edir;

4. O, Ermənistan və Azərbaycan müdafiə nazirlərinin və Dağlıq Qarabağ ordu komandanının atəşkəsi gözləmək öhdəliyini və siyasi sazişin imzalanmasını sürətləndirmək barədə istəyi bəyan etdikləri 26 iyun 1994-cü ildə imzalanmış sazişi alqışlayır və bütün müharibə edən tərəfləri 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsin mövcudluğuna təhlükə törədəcək hər hansı hərbi hərəkətlərdən çəkindirməyə təkidlə çağırır;

5. O, sülh müqaviləsinin bərqərar olmasının tezləşdirilməsində ən yaxşı vasitələrlə, xüsusən maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqu həvəsləndirməklə kömək etməyə hazır olduğunu bəyan edir;

6. Yekun olaraq o, müharibə edən tərəfləri 1251 saylı tövsiyədə nəzərdə tutulduğu kimi, birinci dərəcəli vacib iş kimi qaçqınların doğma torpaqlarına qayıtmaları üçün şərait yaratmağa və azlıqların hüquqlarına hörmət etməyə, Azərbaycanı və Türkiyəni Ermənistana qarşı kommunikasiyaların blokadasına dərhal son qoymağa çağırır. [166]

## Avropa Şurası Parlament Assambleyası
## Zaqafqaziya münaqişələrinə dair 1119 (1997) saylı qətnamə

*Strasburq, 22 aprel 1997-ci il*

**1.** Assambleya hesab edir ki, Zaqafqaziya münaqişələri zonasında, xüsusən Abxaziyada və Dağlıq Qarabağda 1994-cü ilin mayından atəşkəs rejiminin saxlanması gərginlik zonalarında siyasi sabitliyin təmin olunmasına kömək göstərməlidir;

2. Üzv olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin müxtəlif dinləmələrini keçirən assambleya ümid edir ki, bu münaqişələrin siyasi yolla nizama salınması işində mühüm irəliləyiş əldə olunacaqdır;

3. Xüsusi qonaq statusu olan üç Zaqafqaziya dövləti - Ermənistan, Azərbaycan və Gürcüstan Avropa Şurasının tamhüquqlu üzvü olmaq barəsində ərizə vermişlər. Assambleya hesab edir ki, bütün tərəflərin bu münaqişələri nizama salmağa yönəldilmiş əsl siyasi iradəsi qəbul prosedurlarını sürətləndirməyə kömək göstərəcəkdir;

4. Assambleya birbaşa və ya dolayısı ilə bu münaqişələrə cəlb olunmuş bütün tərəfləri yerlərdə həyata keçirilən vasitəçilik fəaliyyətində, xüsusən Birləşmiş Millətlər Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin və ATƏT-in vasitəçilik fəaliyyətində əməli iştirak etməyə çağırır;

5. Bu iki münaqişə öz təbiətinə görə müxtəlif olsa da, assambleya qeyd edir ki, onların siyasi yolla nizama salınması 1975-ci il Helsinki Yekun Aktının və 1990-cı il Paris Xartiyasının aşağıdakı prinsiplərinə uyğun olaraq münaqişələrə cəlb olunmuş bütün tərəflərlə razılaşdırılmalıdır:

I. sərhədlərin pozulmazlığı;

II. regionun bütün xalqları üçün əsasən çoxmillətli sülhyaratma qüvvələri tərəfindən dəstəklənən təminatlı təhlükəsizlik;

III. cəlb olunmuş bütün tərəflərin Abxaziya və Dağlıq Qarabağa geniş muxtariyyət statusu verilməsi barədə razılaşması;

IV. qaçqınlann və köçkünlərin geri qayıtmaq hüququ və insan hüquqlarına hörmət əsasında onların yenidən inteqrasiyası. [167-168]

6. Assambleya hesab edir ki, Avropa Şurası Zaqafqaziya dövlətlərində hüquqi dövlətin və plüralist demokratiyanın bərqərar olmasma, insan hüquqlarının müdafiəsinə və sosialyönümlü bazar iqtisadiyyatının yaradılmasına həqiqi kömək göstərməlidir;

A. Abxaziya barəsində:

7. Assambleya Tbilisi ilə Suxuminin mövqelərinin yaxınlaşmasına dair müəyyən əlamətlərin olduğunu razılıqla qeyd edərək ümidvar olduğunu bildirir ki, tezliklə münaqişə yuxarıda göstərilən prinsiplər əsasında siyasi yolla nizama salma biləcəkdir;

8. Assambleya ümidvar olduğunu bildirir ki, cəlb olunmuş tərəflərin, habelə Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in və Rusiya Federasiyasının cəhdləri ən yaxın zamanda həm Tbilisi, həm də Suxumi üçün məqbul olan elə bir təsisat balansının yaranmasına gətirib çıxaracaqdır ki, qaçqınlar əlverişli təhlükəsizlik şəraitində geri qayıda biləcək, regionun əhalisi dinc və firavan həyat şəraitini bərpa edə biləcəkdir;

B. Dağlıq Qarabağ barəsində:

9. Assambleya Ermənistanın və Azərbaycanın parlament üzvləri arasında davam edən dialoqu, xüsusən üzv olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin təşkil etdiyi, 1996-cı il yanvarın 26-da Strasburqda keçirilmiş Zaqafqaziyada münaqişələrə dair seminarı alqışlayır. Bununla əlaqədar Assambleya ATƏT-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun yenidən fəaliyyətə başlamasını alqışlayır və onun münaqişəni tezliklə nizama salmağa yönəldilmiş danışıqları davam etdirməsini dəstəkləyir;

10. Assambleya münaqişənin siyasi yolla nizama salınmasına nail olmaq, bunun sayəsində işğal olunmuş ərazilərin azad edilməsinə, qaçqınların və köçkünlərin geri qayıtmasına, Dağlıq Qarabağ üçün qənaətbəxş alternativ statusa, habelə təhlükəsizliyə təminat yaratmaq məqsədilə münaqişənin bütün tərəflərini birbaşa danışıqlar aparmağa çağırır;

11. Nəhayət, Assambleya arzu etdiyini bildirir ki, gələcəkdə üç Zaqafqaziya dövləti – Ermənistan, Azərbaycan və Gürcüstan Zaqafqaziya dövlətləri birliyi və birgə parlament assambleyası yaradılmasının mümkünlüyü məsələsinə baxacaqlar. [168]

## Ermənistanda və Dağlıq Qarabağda saxlamlan hərbi əsirlər və girovlar haqqında

*Strasburq, 25 aprel 2001-ci il*

1. 1988-ci ildə başlanmış və sonralar Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsinə çevrilmiş Dağlıq Qarabağ münaqişəsi respublikamızın ərazisinin təxminən 20 faizinin işğalı ilə nəticələnmişdir.

2. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin 2001-ci il 10 aprel tarixli məlumatına əasən, işğal nəticəsində 4959 nəfər itkin düşmüş, onlardan 1092 nəfəri 1992-2001-ci illər ərzində azad edilmişdir. Həmin məlumatda göstərildiyi kimi, onlardan 176 nəfəri xəstədir.

3. İndi Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazisində 783 nəfər əsir saxlanılır, onlardan 18-i uşaq, 43-ü qadın, 56 nəfəri qocadır. Ancaq Ermənistan tərəfı bu faktı inkar edir.

4. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin verdiyi məlumata görə, bu təşkilat altı aydan artıqdır ki, həmin əsirlərlə görüşə bilmir.

5. Azərbaycan və Ermənistanın Avropa Şurasının tamhüquqlu üzvü olmasından artıq üç ay keçir. Belə bir nüfuzlu təşkilatın üzvü olan ölkənin ərazisində hətta adi insan hüquqları qorunmayan bu qədər əsirin olması qəbuledilməzdir.

6. Azad edilmiş əsirlərin dediyinə görə, əsirlikdə olanlar qul kimi işlədilir, daim təhqir olunur və işgəncələrə məruz qalırlar. Onlar normal qidalanmır, lazımi tibbi yardım almırlar.

7. Assambleya Nazirlər Komitəsinə müraciət edərək Avropa Şurasının üzvü olan bir dövlətin – Ermənistanın işğal etdiyi Azərbaycan ərazisində insan hüquqlarına dair Avropa Konvensiyasının həyata keçirilməsini bütün imkanlardan istifadə etməklə təmin etməyə çağırır.

8. Assambleya Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsinə müraciət edərək problemin tezliklə həll olunması ilə bağlı xüsusi məruzə hazırlamağı xahiş edir. [169]

## Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin tanınması haqqında yazılı bəyannamə

*Strasburq, 26 aprel 2001-ci il*

Azərbaycan torpaqlarının Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə parçalanmasından başlanan soyqırımı Azərbaycan tarixinin tərkib hissəsidir.

Ermənilər "böyük Ermənistan" yaratmaq iddiası ilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirdilər.

1918-ci ilin martında ermənilər Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və başqa ərazilərdə azərbaycanlılara qarşı qətliam törətdilər.

Sovet rejiminin köməyi ilə Ermənistan 1920-ci ildə Zəngəzuru və başqa Azərbaycan torpaqlarını öz ərazisinə birləşdirdi.

Kommunist rejimi 1948-1953-cü illərdə azərbaycanlıları onların Ermənistandakı tarixi torpaqlarından Azərbaycana deportasyia etdi.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsi başlanandan sonra yüz minlərlə azərbaycanlı yenidən öz tarixi torpaqlarından deportasiya edildi.

1992-ci il fevral ayının 26-da Xocalı əhalisi ermənilər tərəfindən bütünlüklə məhv edildi, şəhər xarabazara çevrildi.

Dağlıq Qarabağdakı erməni separatizmi və Azərbaycan torpaqlarının 20 faizinin işğalı nəticəsində minlərlə insan məhv oldu, bir milyondan artıq əhali evindən-eşiyindən didərgin düşdü.

Biz, Parlament Assambleyasının bütün digər üzvlərinə müraciət edərək XIX əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımını tanımaq üçün zəruri addımlar atmağı xahiş edirik. [170]

**Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır**
**AŞ PA desutatlarının Nazirlər Komitəsinə müraciəti**

*Strasburq, 26 iyıın 2001-ci il*

Avropa Şurasının Nazirlər Komitəsi 2001-ci il mayın 10-11-də keçirdiyi 108-ci sessiyasında Balkanlarda və Qafqaz regionunda vəziyyəti müzakirə etmişdir. Ermənistanın xarici işlər naziri Vardan Oskanyan sessiyada bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi həll edilməyincə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq niyyətində deyil və tanımayacaqdır.

- Azərbaycanın və Ermənistanın Avropa Şurasınm tamhüquqlu üzvü olduğunu;

- Azərbaycan Respublikasmın ərazi bütövlüyünün BMT, ATƏT, Avropa Şurası və bütün dünya dövlətləri tərəfindən tanındığını;

- Avropa Şurasının üzvü olan bir dövlətin - Ermənistanın Avropa Şurasının üzvü olan başqa bir dövlətin - Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmədiyini;

- Azərbaycan torpaqlarının 20 faizini Ermənistanın işğal etdiyini və bunun nəticəsində insan hüquqlarını kütləvi surətdə pozduğunu nəzərə alaraq Avropa Şurasının Nazirlər Komitəsindən xahiş edilir ki;

- Ermənistan Respublikasını beynəlxalq qanunların əsas prinsiplərindən biri olan dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipinə hörmət etməyə;

- Ermənistan hərbi qüvvələrini Azərbaycan ərazisindən dərhal çıxarmağa çağırsın. [171]

## Azərbaycanın nıədəni irsinin zəbt edilməsi və dağıdılması

*Strasburq, 27 iyun 2001-ci il*

Azərbaycan Respublikasına qarşı erməni təcavüzünün faciəvi nəticələrindən biri də odur ki, Azərbaycan torpaqlarının 20 faizini işğal etməkdən əlavə, ermənilər ölkənin zəbt olunmuş bölgələrində Azərbaycanın milli-mənəvi irsini məhv edirlər. Bir çox beynəlxalq təşkilatların müraciətinə baxmayaraq, Ermənistan işğal olunmuş bölgələrdə Azərbaycanın mədəni sərvətlərinin təhlükəsizliyi üçün heç bir konstruktiv addım atmamışdır.

İşğal olunmuş ərazidə 500 tarixi-memarlıq və 100-dən çox memarlıq abidəsi, 22 muzey, 4 şəkil qalereyası, 927 kitabxana, 85 musiqi məktəbi, 4 dövlət teatrı qalmışdır.

İşğal nəticəsində tunc dövrünə aid nadir abidələr - 100-dən çox Xocalı kurqanı yerlə yeksan edilmişdir.

Parlament Assambleyası belə xəbəri təşviş hissi ilə qarşılamışdır ki, insan sivilizasiyasının qədim məskənlərindən biri olan Azıx mağarası silah anbarı kimi istifadə olunur.

Azərbaycanın ədəbiyyat və incəsənət nümunələrinin ermənilər tərəfindən təhqirə məruz qalması Azərbaycan xalqını ciddi narahat edir.

Uzun əsrlər boyu yaradılmış mədəni irsin yalnız bir xalqa və ya ölkəyə mənsub olmadığını, dünya mədəniyyətinin bir parçası olduğunu nəzərə alaraq Parlament Assambleyası Avropa Şurasının Nazirlər Komitəsinə müraciət edir, Azərbaycanın mədəni irsinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almağa çağırır. [172]

## Azərbaycan Respublikasında ekoloji vəziyyət
## (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl)

*Strasburq, 27 iyun 2001-ci il*

Müasir dünyada ekoloji problemlərin ümumbəşəri əhəmiyyətini nəzərə alaraq Avropa Şurası Azərbaycan Respublikasının ərazisində (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) yaranmış ekoloji vəziyyətlə əlaqədar dərin təşviş hissi keçirir.

Azərbaycanın həmin ərazisində iki milli qoruq (Qarabağ və Bəsitçay) və dörd müvəqqəti qoruq (Laçın, Qubadlı, Arazətrafı, Cəbrayıl) var. Nadir təbii relyefi, zəngin fauna və florası ilə tanınan həmin milli qoruqlar nəzarətdən kənarda qaldığına görə aramsız olaraq ermənilər tərəfindən qarət edilir.

Adı çəkilən ərazilərdə meşələrin ümumi sahəsi 264.000 hektardır. Nadir ağac və heyvan növləri hər gün məhv edilir. Nəticədə təbii növlər arasında bioloji əlaqələr pozulur, bu isə ekoloji böhrana səbəb olur.

Azərbaycanm ən mühüm su arteriyalarından biri olan Araz çayında suyun kimyəvi analizi göstərir ki, suyun çirklənməsi normadan bir neçə dəfə yuxarıdır. Araz çayınm əsas qollarınm (Oxçuçay, Razdan, Arpaçay) Ermənistan ərazisindən keçdiyini, habelə Ermənistanın "Sərhədlərarası su arteriyalarmdan və beynəlxalq sulardan istifadə edilməsi və onların mühafızəsi haqqında Konvensiya"nı (Helsinki, 2000-ci il) imzalamadığını nəzərə alaraq Parlament Assambleyası vəziyyətlə əlaqədar böyük narahatlıq hissi keçirir.

Qafqaz regionunda seysmoloji aktivliyin (Spitak, 1988, Bakı, 2000) yüksək olduğunu, Ermənistan Respublikasındakı atom stansiyasının təkcə region üçün deyil, bütün Şərqi Avropa və Yaxın Şərq ölkələri üçün potensial təhlükə olduğunu, Azərbaycan Respublikasının 2001-ci ildə [173-174] "Zəhərli tullantıların sərhədlərarası daşınasına nəzarət haqqında bazel Konvensiyası"nı imzaladığını, həmçinin adı çəkilən ərazilərin tamamilə nəzarətsiz qaldığını nəzərə alaraq Parlament Assambleyası belə bir narahatlıq hissi keçirir ki, Azərbaycanın həmin ərazilərində Ermənistandakı atom stansiyasının nüvə tullantıları basdırıla bilər.

Yuxarıda deyilənləri nəzərə alaraq Parlament Assambleyası Nazirlər Komitəsinə müraciət edir, Avropanın nadir torpaq sahələrindən olan həmin işğal zonasında mümkün ekoloji fəaliyyətin qarşısını almaq üçün təsirli tədbirlər görməyə çağırır. [174]

## AŞ PA-mn Nazirlər Komitəsinin qərarı

*Strasburq, 24 sentyabr 2001-ci il*

Nümayəndələr xanım Hacıyevanın 396 nömrəli sualına aşağıdakı cavabı qəbul edirlər:

1. Nazirlər Komitəsi xanım Hacıyevanın Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması haqqında 396 nömrəli yazılı sualı ilə maraqla tanış oldu.

2. Xanım Hacıyeva Nazirlər Komitəsinin 2001-ci üin 10-11 may tarixində keçirilmiş 108-ci sessiyasma istinad edir. Bu görüş zamanı Nazirlər Komitəsi həqiqətən Balkanlardakı və Qafqazdakı vəziyyəti nəzərdən keçirmişdir. Bütün üzv ölkələrin təmsil olunduğu bu sessiyanın sonunda Nazirlər Komitəsi rəsmi məlumat qəbul etmişdir ki, onun 2-ci paraqrafı aşağıdakıları bəyan edir:

3. Nazirlər bütün Avropada beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə, eləcə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, ATƏM-in Helsinki Yekun Aktında və digər müvafıq mətnlərdə əks olunmuş beynəlxalq hüquq prinsiplərinə hörmət edilməsinə dəstəklərini bir daha təsdiq edirlər.

4. Bu cümləni qəbul edərkən:

Bir nümayəndə heyəti bildirmişdir ki, o bu cümləni, istinad olunmuş beynəlxalq hüququn – açıq şəkildə qeyd olunmuş və ya yox – prinsipləri arasmda iyerarxiyanın mövcud olmamasını nəzərə almaqla qəbul edir. Həmin nümayəndə heyəti bununla bağlı bəyanat vermişdir ki, o da iclasın protokolunda öz əksini tapmışdır.

5. Yuxarıda göstərilənlərdən belə nəticələnir ki, Nazirlər Komitəsi Avropa Şurasının bütün üzvlərinin beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinə dəstəyini, beynəlxalq hüququn digər prinsiplərinin dəyərini bərabər surətdə tammaqla aydın şəkildə bir daha təsdiq etmişdir. Xalqların öz müqəddəratını təyin etmək hüququ və Helsinki Yekun Aktında göstərilmiş başqa prinsiplər, onlardan hər biri digərləri nəzərə alınaraq [175-176] təfsir edilməklə bərabər surətdə və qeyd-şərtsiz tətbiq olunur. Beləliklə, xalqların öz müqəddəratını təyin etmək hüququna Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn normalarına, o cümlədən dövlətlərin ərazi bütövlüyünə dair normalara uyğun olaraq hörmət olunmalıdır. Nəticə etibarilə bu hüquq yalnız sülh danışıqları əsasında həyata keçirilə bilər. Torpaq əldə etmək məqsədilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz.

6. Nazirlər Komitəsi 108-ci sessiyanm yuxarıda qeyd olunmuş rəsmi məlumatının 12-ci paraqrafına istinad edir. Əlavə olaraq özünün 761-ci iclası zamanı (18 iyul 2001-ci il, 2.6-cı məsələ) GT. SUIVI. AGO-nun məruzəsinə baxılması kontekstində o, yenidən "hər iki ölkəni Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində fəal addımlar atmağa çağırmışdır". Bununla bağlı Nazirlər Komitəsi Qrupun Parlament Assambleyasına göndərilmiş məruzəsinə istinad edir.

7. Nazirlər Komitəsi iki aidiyyəti üzv dövləti yuxarıda göstərilən 5-ci paraqrafda qeyd edilən prinsiplərə uyğun olaraq kompromis tapmağa və hər iki dövlətin Avropa Şurasına üzv qəbul edilən zaman üzərlərinə götürdükləri öhdəliklərin əksinə olaraq hərbi həllin lehinə və düşmənçiliyi və kini gücləndirəcək bəyanatlar verməkdən çəkinməyə çağırır. Nazirlər Komitəsi həqiqətən əmindir ki, bu münaqişənin sülh yolu ilə həlli fundamental məsələdir və çox təcilidir, belə ki, iki ölkənin bu ümumi öhdəliyinin həyata keçirilməsi onların bütün digər öhdəliklərinin yerinə yetirilməsinə müsbət təsir göstərə bilər. Yoxsulluq və kin demokratiya və insan hüquqlarına hörmət üçün əlverişli əsaş deyildir. Sülh yalnız regionun sabitliyi, onun iqtisadi inkişafı üçün deyil, həm də bu ölkələrdə demokratiyanın bərqərar olması və möhkəmlənməsi üçün vacibdir. [176]

**Azərbaycan Respubükasının işğal olunmuş ərazilərində**
**Ermənistanın himayədarlıq etdiyi terrorçu təşkilatlar şəbəkəsi**

*Strasburq, 24 iyun 2002-ci il*

Azərbaycan Respublikasının işğal olunmuş və beynəlxalq qanunların işləmədiyi 20 faiz ərazisi, faktiki olaraq, Avropa məkanından təcrid edilmiş və dünya birliyi üçün ciddi təhlükə zonasına çevrilmişdir. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindəki terrorçu təşkilatlarının maliyyə qaynağını narkobiznes, nüvə layihələri, qanunsuz silah alveri təşkil edir. ABŞ Dövlət Departamentinin 2000-ci il mart hesabatında Dağlıq Qarabağ ərazisində narkotik maddələrin qanunsuz becərilməsi və istehsalı ilə bağlı müddəaların əksini tapması, 2002-ci ilin mayında ABŞ Dövlət Departamentinin qanunsuz nüvə layihələrini gerçəkləşdirən erməni şirkətlərinə qarşı sanksiyaların tətbiqi haqda qərar qəbul etməsi qanundankənar bölgədə bu cinayətkar prosesləri Ermənistan dövlətinin himayəsi altında idarə edən terrorçu şəbəkələrə xüsusi diqqət ayırmağı zəruriləşdirir.

İşğal ərazilərinin nəzarətsizliyi ermənilərin ASALA və "Haydud" terrorçu təşkilatlarından savayı, onlarla əməkdaşlıq edən bir sıra xarici ölkələrin terrorçu təşkilatlarının da burada təlimməşq düşərgələri salması və maneəsiz fəaliyyəti üçün münasib imkan yaratmışdır.

İşğal altındakı Kəlbəcərdə Livanın "Qayıdan qəhrəmanlar təşkilatı" (rəhbəri Beyrut ermənisi O.Ter-Qriqoryan), Laçında PKK kürd separatçı təşkilatının xüsusi dəstəsi (C.Şamoyan), "Vartan cəngavərləri" terror təşkilatı (rəhbəri A.Babacanyan), Zəngilanda Livanın "Həmas" qrupunun "Ziyəddin əl-Qissan" hərbi qanadı, Xankəndidə Yunanıstanın "Milli dirçəliş təşkilatı" terrorçu qrupu (rəhbəri E.Qalustyan) və s. fəaliyyətdədir.

1970-1980-ci illərdə Fransada terror aktları törətmiş məşhur beynəlxalq terrorçular – ABŞ vətəndaşı Monte Melkonyana, İran vətəndaşı Vazgen Sisliyana, Suriya vətəndaşı Varujan Qarbijyana və başqa terrorçulara Ermənistan Prezidentinin fərmanı ilə rəsmən milli qəhrəman, [177-178] Qarabağ müharibəsinin qəhrəmanı adlarının verilməsi, onlara dövlət qayğısı göstərilməsi Ermənistan Respublikasının terrorizmə rəsmi dövlət dəstəyi verməsinə əyani sübutdur. Assambleya Azərbaycanın işğal edilmiş ərazilərindəki "qanundankənar" zonanın bütün Avropa üçün təhlükə mənbəyi olduğunu qeyd edərək üzv dövlətləri problemin həlli üçün səylərini artırmağa çağırır.

Assambleya Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki və ondan kənardakı 7 başqa işğal rayonundakı mövcud vəziyyəti araşdırmaq üçün monitorinq qrupunun yaradılması zəruriliyini təkidlə vurğulayır.

Assambleya Nazirlər Komitəsinə tövsiyə edir ki, beynəlxalq nəzarətin olmamasından istifadə edərək işğal etdiyi əraziləri terrorçu qrup və şəbəkələrin yerləşdirilməsi, narkotiklərin yetişdirilməsi və tranziti, məxfı nüvə layihələrinin icrası üçün istifadə edən Ermənistanın beynəlxalq hüquq normalarına və Avropa Şurası Nizamnaməsinə zidd olan fəaliyyətlərini təxirə salmadan dayandırmasından ötrü lazımi tədbirlər görsün. [178]

## İSLAM KONFRANSI TƏŞKILATI

### Ermənistan və Azərbaycan arasında münaqişə üzrə qətnamə

*Kəraçi, 25-29 aprel 1993-cü il*

Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilən İKT Xarici İşlər Nazirlərinin XXI konfransı.

İKT Bəyannaməsinin prinsipləri və məqsədlərindən çıxış edərək,

Qarabağ məsələsi barəsində Ermənistanla Azərbaycan arasında münaqişənin kəskinləşməsi ilə əlaqədar dərindən narahat olaraq,

Ermənistanın Azərbaycana qarşı son hücumunu və Azərbaycan ərazisinin işğalını qətiyyətlə pisləyərək.

Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzü nəticəsində humanitar problemlərin dözülməz vəziyyətindən təsirlənərək,

İKT Xarici İşlər Nazirlərinin 1992-ci ildə İstanbulda keçirilmiş V fövqəladə iclasının prinsipial mövqeyini yada salaraq,

həmçinin İKT Xarici İşlər Nazirlərinin BMT qərargahında keçirilmiş əlaqələndirmə iclasının son rəsmi məlumatının müvafiq bəndlərini yada salaraq,

qonşu ölkələrin və regional dövlətlərin, xüsusilə İran və Türkiyənin, Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi istiqamətində göstərdiyi cəhdləri nəzərə alaraq,

ermənilərin son təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə yaratdığını dərk edərək,

bu yeni hərbi hücumun ATƏM çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsir göstərə biləcəyindən xəbərdar olaraq.

Baş katibin bu məsələ üzrə məruzəsini yüksək qiymətləndirərək:

1. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;
2. Erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılmasına və Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməyi Ermənistandan ciddi surətdə tələb edir; [179-180]
3. Qarabağ məsələsini dövlətlərin ərazi bütövlüyünün və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır;
4. Həm Ermənistanın, həm də Azərbaycanın əməli surətdə həyata keçirilən ATƏM sülh prosesində konstruktiv mövqe tutmalarını tələb edir və məsələnin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər bir əməldən çəkinməyi tələb edir;
5. Azərbaycan hökumətinin və xalqının öz ölkəsinin müdafiəsi üçün etdiyi cəhdlərlə tam həmrəy olduğunu bir daha təsdiq edir;
6. Yaşayış yerlərini tərk edənlərin öz evlərinə təhlükəsiz, hörmət və qayğı ilə qayıtmalarını asanlaşdırmağa çağırır;
7. Üzv olan ölkələr İslam İnkişaf Bankından və digər islam təsisatlarından Azərbaycan Respublikasına təcili maliyyə yardımı və humanitar yardımı göstərməyi xahiş edirlər;
8. BMT Baş katibindən və Təhlükəsizlik Şurasının sədrindən Təhlükəsizlik Şurasında Ermənistanın təcavüzünü pisləyən və Azərbaycanın işğal edilmiş bütün torpaqlarından erməni qüvvələrinin çıxarılmasını tələb edən qətnamə qəbul olunması üçün bütün səlahiyyətlərdən istifadə etməyi xahiş edir;
9. Baş katibdən bu qətnamənin yerinə yetirilməsinə nəzarət etməyi və İKT Xarici İşlər Nazirlərinin XXII konfransında bu haqda məruzə etməyi xahiş edir. [180]

***(E. Abdullayev, Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində, Bakı, 2004, səh. 179-180)***

## Ermənistan və Azərbaycan arasında münaqişə üzrə qətnamə

*Kasablanka, 13-14 dekabr 1994-cü il*

İKT ölkələrinin dövlət başçılarının Mərakeş Krallığının Kasablanka şəhərində hicri tarixi ilə 1415-ci il rəcəb ayının 11-12-də, miladi tarixi ilə 1994-cü il dekabrın 13-14-də keçirilən VII zirvə konfransı

İKT Bəyannaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində hərbi münaqişənin kəskinləşməsi və Azərbaycan ərazisinin 20 faizdən artığının işğalından dərindən narahat olaraq;

Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın vəziyyətinə düşməsi və humanitar problemlərin dözülməzliyindən təsirlənərək;

1992-ci ilin iyun ayında İstanbulda keçirilmiş V və 1994-cü ilin sentyabrında İslamabadda keçirilən İKT Xarici İşlər Nazirlərinin VII fövqəladə konfransının prinsipial mövqeyini yada salaraq;

1993-cü il aprelin 25-29-da Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilən İKT Xarici İşlər Nazirlərinin XXI konfransında qəbul edilən qətnamənin müddəalarını bir daha təsdiq edərək;

həmçinin İKT-nin 23 sentyabr 1992-ci ildə və 3 oktyabr 1994-cü ildə keçirilmiş İKT Xarici İşlər Nazirlərinin koordinasiya iclasının yekun sənədlərinin müvafiq bəndlərini yada salaraq;

qonşu ölkələr və regional dövlətlərin, xüsusilə İran və Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində etdikləri cəhdləri nəzərə alaraq;

Ermənistan Respublikasının təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün maneə yaratdığını dərk edərək;

BMT Nizamnaməsinin və Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin dönmədən yerinə yetirilməsini bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam edən təcavüzkar siyasətinin ATƏM çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsir edə biləcəyindən xəbərdar olaraq: [181-182]

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;
2. Təcavüz nəticəsində Azərbaycan ərazisində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı törədilən cinayət kimi qiymətləndirir;
3. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan Respublikası silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılmasını qəti surətdə tələb edir. Ermənistandan Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət bəsləməsini tələb edir;
4. Təhlükəsizlik Şurası tərəfindən Azərbaycana qarşı edilən təcavüzün etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci fəslinə uyğun olaraq öz qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımlar atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT-də koordinasiyalı fəaliyyətdə olmağı qərara alır;
5. Bir daha təsdiq edir ki, ərazinin zor işlətməklə əldə edilməsi tanına bilməz;
6. Ermənistan və Azərbaycan arasındakı münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin pozulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırır;
7. Həm Ermənistan, həm də Azərbaycandan ATƏM-in sülh prosesində iştirak etməsi və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər bir əməldən çəkinməsini tələb edir;
8. Azərbaycan hökuməti və xalqının ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlara tam həmrəy olduğunu bir daha təsdiq edir;
9. Yaşayış yerlərini tərk etmişlərin öz evlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələri üçün imkan yaratmağa çağırır;
10. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün olması ilə əlaqədar humanitar vəziyyətin kəskinləşməsindən [182-183] təşviş keçirir və üzv ölkələr İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım etmələrini xahiş edir;
11. Baş katibdən bu qətnamənin yerinə yetirilməsinə nəzarət və bu barədə İKT Xarici İşlər Nazirlərinin XXIII konfransına məruzə təqdim etməsini xahiş edir. [183]

***(E. Abdullayev, Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində, Bakı, 2004, səh. 181-183)***

## Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə

*Cakarta, 9-13 dekabr 1996-cı il*

İKT Xarici İşlər Nazirlərinin İndoneziya Respublikasının Cakarta şəhərində hicri tarixi ilə 1417-ci il rəcəb ayının 28-dən şaban ayının 3-dək, miladi tarixi ilə 1996-cı il 9-13 dekabrda keçirilən 24-cü konfransı İKT Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizindən artığının işğalından dərin narahat olaraq;

Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqının aqibəti və humanitar problemlərin böyük həcmindən təsirlənərək;

ötən konfransların bütün müvafiq qətnamələrinə, xüsusilə Mərakeş Krallığının Kasablanka şəhərində 11-12 rəcəb 1415-ci (13-14 dekabr 1994-cü il) ildə keçirilmiş VII zirvə konfransının qətnaməsinə istinad edərək;

BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə ciddi surətdə əməl edilməsinə çağıraraq;

münaqişənin həlli üzrə edilən bütün diplomatik və digər səyləri alqışlayaraq;

bütün üzv dövlətlərin Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə ehtiramını bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkar siyasətin ATƏT çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsirini dərk edərək:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;

2. Təcavüz nəticəsində işğal edilmiş Azərbaycan ərazisində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirir;

3. İşğal edilmiş Azərbaycan ərazisində arxeoloji, mədəni və islam abidələrinin talan və məhv edilməsini qətiyyətlə pisləyir; [184-185]

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılmasını qəti surətdə tələb edir. Ermənistanı ciddi surətdə Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə dəvət edir;

5. Təhlükəsizlik Şurası qətnamələrinin müddəalarının Ermənistan tərəfindən yerinə yetirilməməsindən narahat olduğunu bildirir;

6. Azərbaycana qarşı edilən təcavüzün Təhlükəsizlik Şurası tərəfindən etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci fəslinə uyğun olaraq öz qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımlar atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT-də koordinasiyalı fəaliyyətdə olmağı qərara alır;

7. Bütün üzv dövlətləri Azərbaycan ərazisinin işğalını davam etdirməyə təşviq edən Ermənistana silah və hərbi sursat təqdim etməkdən imtina etməyə çağırır. İKT-yə üzv dövlətin ərazisi bu kimi yüklərin tranziti üçün istifadə edilməməlidir;

8. Ermənistanın təcavüzünə və Azərbaycan torpaqlarının işğalına son qoyması üçün bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə müraciət edərək hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır;

9. Ermənistan və Azərbaycan arasındakı münaqişəni dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə ehtiram əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır;

10. Ermənistanı, Azərbaycanı və Minsk qrupuna daxil olan bütün üzv dövlətləri ATƏT-in sülh prosesində prinsipial surətdə iştirak etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür əməldən çəkinməyə çağırır;

11. Azərbaycan hökuməti və xalqının ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir; [185-186]

12. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələri üçün imkan yaratmağa çağırır;

13. Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir. Digər dövlətləri onlara yardım göstərməyə çağırır;

14. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün qarşılaşdığı kəskin humanitar vəziyyətlə əlaqədar narahat olduğunu bildirir və üzv dövlətlər, İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım təqdim etmələrini xahiş edir;

15. Hesab edir ki, Azərbaycan ona dəymiş ziyanın müqabilini almaq hüququna malikdir və Ermənistan bu ziyanın müqabilini ödəmək üzrə tam məsuliyyət daşıyır;

16. İKT-yə üzv dövlətlərin bu haqda mövqeyini ATƏT-in indiki sədrinə bildirməsini Baş katibdən xahiş edir;

17. Baş katibdən bu qətnamənin yerinə yetirilməsinə nəzarət və bu haqda İKT Xarici İşlər Nazirlərinin 25-ci konfransında məruzə etməsini xahiş edir. [186]

# IV BÖLMƏ

## ATƏT-IN TƏKLIFLƏRI

### *ATƏT-IN MINSK QRUPUNUN SƏDARƏTI*

### Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş

*Preambula*

Tərəflər onların xalqlarının tərəqqisi və firavanlığı üçün regionda sülhün və əməkdaşlığın önəmliyini tamamilə dərk edərək uzun sürən Dağlıq Qarabağ münaqişəsini dincliklə aradan qaldırmaq əzmindədirlər. Aşağıda şərh edilən nizamasalma Qafqazın birgə iqtisadi inkişafı üçün zəmin yaradacaq, demokratik təsisatlar, rifahın yüksəlməsi və gələcəyə böyük ümidlər bəslənməsi şəraitində bu regionun xalqlarına normal və səmərəli həyat sürməyə imkan verəcəkdir. Bu sazişə uyğun olaraq aparılan əməkdaşlıq bütün regionda ticarət, nəqliyyat və rabitə sahəsində normal münasibətlərə gətirib çıxaracaq, beynəlxalq təşkilatların köməyi ilə insanlara öz şəhər və kəndlərini bərpa etməyə, regionda xarici kapital qoyuluşlarının xeyli artırılması üçün lazımi sabitlik yaratmağa və müqəddəs şənləri Qafqaz regionunun özündə olan təbii tərəqqinin bütün insanlar üçün əldə edilməsinə doğru aparan qarşılıqlı surətdə faydalı ticarətə yol açmağa imkan verəcəkdir. İnsanlar arasında barışıq və əməkdaşlıq onların çox böyük potensialını öz qonşularının və dünya xalqlarının rifahı üçün sərbəstləşdirəcəkdir.

Ona görə tərəflər BMT Nizamnaməsinin müddəalarına, ATƏT-in əsas prinsiplərinə və qərarlarına beynəlxalq hüququn hamılıqla tanınmış normalarına sadiq qalaraq və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin tamamilə yerinə yetirilməsinə kömək göstərmək əzmində olduqlarını bildirərək silahlı münaqişənin [187-188] dayandırılmasına nail olmağa və normal münasibətlərin bərpasına dair I sazişdə şərh edilmiş tədbirləri həyata keçirmək və Dağlıq Qarabağın qəti statusu haqqında II sazişdə şərh olunmuş razılığa gəlmək barədə razılaşırlar.

***I saziş - silahlı münaqişənin dayandırılması***

Tərəflər razılığa gəlirlər:

I. Onların arasında mübahisələrin, o cümlədən bu sazişin həyata keçirilməsi ilə əlaqədar mübahisələrin nizama salınması üçün silahlı qüvvədən istifadə olunmasından imtina etmək.

II. Silahlı qüvvələri iki mərhələdə çıxarmaq:

Birinci mərhələdə Dağlıq Qarabağdan şərqə və cənuba doğru indiki təmas xətti boyunca olan qüvvələr I əlavədə razılaşdırılmış xətlərə tərəf bir neçə kilometr geri çəkiləcəkdir, bu zaman ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsində təhlükəsizliyin təmin edilməsinə imkan yaratmaq məqsədilə yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri lazımınca nəzərə alınmalıdır.

İkinci mərhələdə qüvvələr I əlavədə razılaşdırılmış cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılacaqdır:

A. Ermənistan  qüvvələri Ermənistan Respublikasının sərhədləri daxilinə aparılır.

B. Dağlıq Qarabağ qüvvələri Dağlıq Qarabağ Muxtar Vilayətinin 1988-ci ildəki hüdudları daxilinə aparılır (aşağıdakı VIII və IX bəndlərdə göstərilmiş istisnalarla).

S. Azərbaycan qüvvələri yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında I əlavədə razılaşdırılmış xətlərə çəkilir.

D. Ağır silahlar uzağa, şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməsi şərti ilə, yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında I əlavədə razılaşdırılmış yerlərə aparılacaqdır.

E. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası, I əlavədəki xəritədə göstərildiyi kimi, DQMV-nin 1988-ci ildəki hüdudları və Ermənistan-Azərbaycan sərhədinin şimal hissəsi boyunca yerləşəcəkdir. [188-189]

III. Qüvvələrin çıxarılması nəticəsində azad edilmiş ərazilər ayırıcı zona əmələ gətirir. Bu zonada təhlükəsizliyə nəzarəti ATƏT-in sülhümüdafiə qüvvələri daimi qarışıq komissiya ilə birlikdə həyata keçirəcəklər. ATƏT-in sülhümüdafiə qüvvələrinin və daimi qarışıq komissiyanın II əlavənin həyata keçirilməsi qaydasında razılığı olmadan tərəflərdən heç birinə bu zonaya öz qüvvələrini yeritməyə imkan verilməyəcəkdir; həmin əlavədə sərhəd xidməti, minalardan təmizləmə və mülki polis funksiyaları üçün razılaşdırılmış bölmələr

nəzərdə tutulacaqdır. Tərəflər ayırıcı zonada və bufer zonasında bütün hərbi uçuşlara yol verilməməsi barədə razılığa gəlirlər.

IV. Daimi qarışıq komissiya ilə birlikdə təhlükəsizliyə təminat verilməsi üçün ATƏT-in çoxmilli sülhümüdafiə qüvvələrinin bufer zonasında yerləşdirilməsinə kömək etmək. ATƏT-in sülhümüdafiə qüvvələri ATƏT tərəfindən təyin edilmiş qüvvələrdən ibarət olacaq və onların mandatı BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə müəyyənləşdiriləcək, həm də mandat ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə yenidən qüvvəyə minəcəkdir.

V. Köçkün şəxslərin ayırıcı zonadakı əvvəlki daimi yaşayış yerlərinə qayıtmasını həyata keçirmək ATƏT-in sülhümüdafiə qüvvələri daimi qarışıq komissiya ilə birlikdə qayıdan əhalinin təhlükəsizliyinə nəzarət edəcək və bu zonanın silahsızlaşdırılmış rejiminə bütün tərəflərin inamını təmin edəcək.

VI. Qüvvələrin çıxarılması ilə eyni vaxtda yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarət münasibətlərinin və digər münasibətlərin bərpası məqsədləri ilə tədbirlər, o cümlədən bu məqsədlər üçün lazım olan bütün işlər həyata keçiriləcəkdir. Tərəflər, etnik azlıqlar da daxil olmaqla, həmin əlaqələrdən hamının istifadə etməsinə təminat verir, bu azlıqların regionun digər yerlərindəki öz etnik qrupları ilə ünsiyyətdə olmasına təminat verirlər. Tərəflərdən hər biri blokadaları aradan qaldırmağı, yüklərin və adamların bütün digər tərəflərə maneəsiz daşınmasını təmin etməyi öhdəsinə götürür. Ermənistan və Azərbaycan öz aralarında, o cümlədən Bakı-Horadiz, Mehri-Ordubad-Naxçıvan-Yerevan xəttində sərbəst və təhlükəsiz dəmiryolu əlaqəsinə təminat verirlər. [189-190]

VII. Münaqişə ilə əlaqədar tutulub saxlanılan bütün şəxslərin qayıtmasının, itkin düşmüş şəxslərin taleyinin araşdırılması və bütün cənazələrin qaytarılmasının təmin olunması üçün Beynəlxalq Qırmızı Xaç Komitəsi, BMT-nin qaçqınların işləri üzrə ali komissarı ilə və digər beynəlxalq humanitar təşkilatlarla əməkdaşlıq etmək.

VIII. Laçın dəhlizinə aid aşağıdakı tədbirlər barəsində:

A. Azərbaycan dəhlizi ATƏT-ə icarəyə verir, ATƏT dəhlizdən yalnız Dağlıq Qarabağın hakimiyyət orqanlarının istifadəsi üçün müqavilə bağlayır (tranzit üçün aşağıda, E bəndində göstərilən istisnalarla).

B. ATƏT Dağlıq Qarabağın hakimiyyət orqanları ilə əməkdaşlıq şəraitində təhlükəsizliyə nəzarət edir.

S. Laçın dəhlizinin hüdudları yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri lazımınca nəzərə alınmaqla II əlavədə razılaşdırılmışdır,

D. ATƏT Laçın şəhərindən yan keçən yolun çəkilməsinə nəzarət edir. Yolun tikintisi başa çatdıqdan sonra Laçın şəhəri Laçın dəhlizindən çıxarılır. O, (ayırıcı zonanın bir hissəsi kimi) Azərbaycanın inzibati nəzarəti altına qaytarılır və onun əvvəlki sakinləri qayıda bilərlər.

E. Dəhlizdə daimi məskənlər salınmasına və təhlükəsizlik qüvvələrinin icazə verilmiş kontingentləri istisna olmaqla, silahlı qüvvələr yerləşdirilməsinə yol verilmir. Rəsmi şəxslər, müşahidəçilər və ATƏT-in sülhümüdafiə qüvvələrinin üzvləri, eləcə də Laçın rayonundan Qubadlı rayonuna gedən və ya geriyə qayıdan regionun azərbaycanlı sakinləri qabaqcadan xəbər verildikdə işlənilən istiqamətdə tranzit hüququna malikdirlər. Laçın rayonunun dəhlizin çərçivəsindən kənardakı ərazisi ayırıcı zonanın bir hissəsidir.

IX. Şuşa şəhərinə və Şaumyan rayonuna aid aşağıdakı tədbirlər barəsində:

A. Tərəflər, məhdud xidməti heyəti olan hava hücumundan müdafiə bölmələri istisna olmaqla, öz silahlı bölmələrini hər iki məntəqədən çıxarırlar.

B. Yerli hakimiyyət orqanları ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu müşahidəçilərinin yerləşdirilməsinə yardım göstərəcək. [190-191]

S. Köçkün şəxslər özlərinin əvvəlki daimi yaşayış yerlərinə qayıda bilərlər. Onların təhlükəsizliyinə müvafiq yerli hakimiyyət orqanları təminat verəcək.

D. Qayıdan sakinlər, siyasi partiyalar yaratmaq hüququ da daxil olmaqla, bütün vətəndaş hüquqlarına malikdirlər. Onlar müvafiq surətdə Bakının və Stepanakertin parlamentlərində və bu yerlərdə seçkili şuralarda, polisdə və təhlükəsizlik qüvvələrində həmin yerlərin əhalisi arasında sayına uyğun olaraq təmsil ediləcəklər.

E. Daimi qarışıq komissiya beynəlxalq yardımın bu yerlərdə ədalətli əsasda və əhalinin hər iki qrupuna sərfəli şəkildə bölüşdürülməsini əlaqələndirir.

F. Şuşa şəhərinin və Şaumyan rayonunun sakinləri yollardan, Azərbaycanın qalan hissəsi ilə və Dağlıq Qarabağla rabitədən və digər vasitələrdən təminatlı istifadə edə biləcəklər.

X. Bu sazişin Azərbaycanla və Dağlıq Qarabağla bağlı problemlərə aid müddəalarının həyata keçirilməsinə nəzarət üçün Daimi Qarışıq Komissiya (DQK) təsis etmək. DQK-nın üç həmsədri var; biri azərbaycanlı, biri Dağlıq Qarabağdan və ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsi. Azərbaycanlı və Dağlıq Qarabağdan olan həmsədrlərin əsas vəzifəsi sazişi həyata keçirməkdən ibarətdir; ATƏT-dən olan həmsədrin əsas vəzifəsi isə fikir ayrılıqları təqdirində vasitəçi və arbitraj olmaqdır. DQK-nın hərbi, iqtisadi, humanitar və mədəni yardımçı komissiyaları var. DQK və onun yardımçı funksiyaları II əlavədə şərh edilmişdir.

XI. Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında tam diplomatik münasibətlər yaratmaq.

XII. Bir həmsədri Ermənistan Respublikasından və digər həmsədri Azərbaycan Respublikasından olmaqla Ermənistan-Azərbaycan İkitərəfli Komissiyası (EAİK) yaratmaq. ATƏT-in fəaliyyətdə olan sədri bu komissiyada təmsil edilir.

EAİK sərhəd toqquşmaların qarşısının alınmasına kömək edir, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqəni həyata keçirir və yolların, dəmir yollarının, [191-192] rabitə xətlərinin, boru kəmərlərinin açılması, ticarət münasibətlərinin və digər münasibətlərin bərpası tədbirlərinə nəzarət edir.

XIII. BMT Təhlükəsizlik Şurası bu sazişin təminatçısı olacaqdır.

XIV. Bu saziş ATƏT-in Minsk Konfransında hərtərəfli nizamasalma haqqında saziş bağlanılan vaxtadək qüvvədə olacaqdır. Həmin saziş indiki sazişdə nəzərdə tutulan təhlükəsizlik və sülhümüdafıə mexanizmlərinin əvəzinə daimi belə mexanizmlər yaradacaqdır.

***II saziş: status Preambula:***

Dağlıq Qarabağın statusu və onun əsas etnik və mədəni xarakterinin saxlanılması, Ermənistan Respublikası da daxil olmaqla, beynəlxalq birlik üçün maraq doğurur. O, istər Azərbaycan Respublikasının, istərsə də Dağlıq Qarabağın hakimiyyət orqanlarının birtərəfli hərəkəti ilə müəyyən edilə bilməz. Status aşağıdakı parametrlərlə müəyyən olunur:

I. Münaqişədə iştirak edən bütün tərəflərin Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıması.

II. Dağlıq Qarabağ Azərbaycanın tərkibində dövlət və ərazi qurumudur və onun öz müqəddəratını təyin etməsi Azərbaycan Respublikası ilə Dağlıq Qarabağın hakimiyyət orqanları arasında sazişdə rəsmiləşdiriləndən, Minsk Konfransı tərəfindən bəyəniləndən, Azərbaycanın və Dağlıq Qarabağın konstitusiyalarında inkorporasiya olunandan sonra aşağıdakı hüquqları və imtiyazları əhatə edəcəkdir.

III. Dağlıq Qarabağ və Naxçıvan Ermənistanla və Azərbaycanla sərbəst və maneəsiz nəqliyyat və rabitə əlaqəsi saxlamaq hüququna malik olacaqlar.

IV. Dağlıq Qarabağın inzibati sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri üzrə müəyyən edilir.

V. Dağlıq Qarabağın referendumda Dağlıq Qarabağ xalqı tərəfindən qəbul edilmiş öz konstitusiyası olacaqdır. Həmin konstitusiya bu sənəd əsasında öz müqəddəratını təyin etmək forması haqqında [192-193] Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan arasında rəsmi sazişi inkorporasiya edəcəkdir. Azərbaycan bu sazişlərin inkorporasiyası üçün öz konstitusiyasına müvafiq dəyişikliklər edəcəkdir.

Dağlıq Qarabağın öz bayrağı, gerbi və himni olacaqdır.

VI. Dağlıq Qarabağın ərazisində Dağlıq Qarabağın konstitusiyası və qanunları işləyir. Əgər Azərbaycanın qanunları, qaydaları və icra qərarları Dağlıq Qarabağın konstitusiyasına və qanunlarına zidd deyildirsə, onlar sonuncunun ərazisində qüvvəyə malikdir.

VII. Dağlıq Qarabağ özünün qanunvericilik, icra və məhkəmə orqanlarını müstəqil surətdə formalaşdırır.

VIII. Dağlıq Qarabağ əhalisi Azərbaycan parlamentinə nümayəndələr seçir və Azərbaycan Prezidentinin seçkilərində iştirak edir.

IX. Dağlıq Qarabağ xaricdə müvafiq nümayəndəliyi olmaq şərti ilə iqtisadiyyat, elm, mədəniyyət, idman sahələrində və humanitar məsələlərdə əcnəbi dövlətlərlə və beynəlxalq təşkilatlarla bilavasitə xarici əlaqələr saxlamaq hüququna malik olacaqdır. Dağlıq Qarabağın siyasi partiyalarının digər ölkələrdəki siyasi partiyalarla əlaqələr yaratmaq hüququ olacaqdır.

X. Dağlıq Qarabağ vətəndaşlarının üzərində xüsusi olaraq "Dağlıq Qarabağ" yazılmış Azərbaycan pasportu olacaqdır. Dağlıq Qarabağ vətəndaşları Ermənistan qanunlarına uyğun olaraq əcnəbilər hesab edilməyəcəklər, istənilən vaxt Ermənistana mühacirət edə və Ermənistan Respublikasına daimi mühacirət təqdirində Ermənistan vətəndaşlığını qəbul edə bilərlər.

XI. Dağlıq Qarabağ valyutaların sərbəst işləndiyi azad iqtisadi zona olacaqdır.

XII. Dağlıq Qarabağın milli qvardiyası və polis qüvvələri olacaqdır. Dağlıq Qarabağ vətəndaşlarının Dağlıq Qarabağ ərazisində hərbi xidmət etmək hüququ olacaqdır.

XIII. Azərbaycanın ordusu təhlükəsizlik və polis qüvvələri Dağlıq Qarabağ ərazisinə yalnız Dağlıq Qarabağ hakimiyyət orqanlarının icazəsi ilə daxil olmaq hüququna malik olacaqdır.

XIV. Dağlıq Qarabağın büdcəsi onun öz ehtiyatları hesabına əmələ gələn daxilolmalardan tərtib edilir. Dağlıq Qarabağ hökuməti [193-194] Azərbaycanın və xarici ölkələrin şəxslərini və şirkətlərini kapital qoyuluşuna həvəsləndirəcək və buna təminat verəcəkdir.

XV. Dağlıq Qarabağ çox etnik xarakterə malikdir. Hər bir vətəndaş bütün rəsmi və qeyri-rəsmi hallarda öz milli dilindən istifadə etmək hüququna malikdir.

XVI. BMT Təhlükəsizlik Şurası bu sazişin təminatçısı olacaqdır.

***Dağlıq Qarabağ münaqişəsi üçün etimadın möhkəmləndirilməsi tədbirləri***

Münaqişənin dincliklə aradan qaldırılmasına nail olunaq niyyətini nümayiş etdirmək üçün tərəflər hər hansı bir digər sazişi gözləmədən, etimadı və təhlükəsizliyin möhkəmləndirilməsinə dair aşağıdakı tədbirlərdən istənilənləri və ya onların hamısını həyata keçirə bilərlər:

- Azərbaycan və Ermənistan İcevan - Qazax sektorunda öz aralarındakı sərhəd boyunca atəşkəs rejimini dərhal bərpa etmək barədə öhdəlik götürə bilərlər. 1992-ci ildə tətbiq olunmuş bu rejimin təcili telefon rabitəsi xəttindən və sərhəddə birgə keşik çəkilməsindən ibarət idi;

- tərəflər Dağlıq Qarabağla əlaqədar, məsələn, İcevan-Qazax sektorunda Ermənistan-Azərbaycan sərhədi boyunca əlavə müşahidənin həyata keçirilməsi üçün ATƏT-in fəaliyyətdə olan sədrinin müşahidə üzrə missiyasının genişləndirilməsi haqqında sazişə gələ bilərlər;

- humanitar tələbatların (istər Azərbaycanının köçkün şəxsləri üçün, istərsə də Dağlıq Qarabağın daxilində) müəyyənləşdirilməsi məqsədilə BMT-nin qaçqınların işləri üzrə ali komissarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin köməyi ilə dialoq. Bu, ya BMT ali komissarının, ya da Beynəlxalq Qırmızı Xaç Komitəsinin razılığı ilə həyata keçirilə bilər;

- Dağlıq Qarabağ regionunda həm ermənilər üçün, həm də azərbaycanlılar üçün açıq olan həftəlik və ya gündəlik bazarların təşkili. Bu, sərhədi keçmək üçün məntəqələr yaradılmasını, bazar meydançalarına gələn yolların açılmasını və minalardan təmizlənməsini, tranzit rejimlərinin və ticarət qaydalarının modallığı haqqında sazişlər bağlanmasını tələb edəcəkdir. [194]

***18 iyul 1997-ci il***

*ATƏT-IN MINSK QRUPUNUN SƏDARƏTI*

## Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş

*Preambula*

Tərəflər uzun sürən Dağlıq Qarabağ münaqişəsini dincliklə nizama salıb mövcud atəşkəsi möhkəm sülhə çevirmək əzmində olaraq;

regionda sülhün və əməkdaşlığın onların xalqlarının tərəqqisi və firavanlığı üçün önəmliyini təsdiqləyərək;

Qafqaz xalqlarına demokratik təsisatlar, rifahın yüksəlməsi və gələcəyə böyük ümid bəslənməsi şəraitində normal və səmərəli həyat sürmək imkanı verməklə bu regionun birgə iqtisadi inkişafı üçün zəmin yaratmaq istəyərək;

bu sazişə uyğun olaraq əməkdaşlığın bütün regionda ticarət, nəqliyyat və rabitə sahəsində normal münasibətlərə gətirib çıxaracağını, beynəlxalq təşkilatların köməyi ilə insanlara öz şəhər və kəndlərini bərpa etməyə, regionda xarici kapital qoyuluşlarının xeyli artması üçün lazımi sabitlik yaradılmasına və müqəddəs şərtləri Qafqaz regionunun özündə olan təbii tərəqqinin bütün insanlar üçün əldə edilməsinə doğru aparan qarşılıqlı surətdə faydalı ticarətə yol açmasına və insanlar arasında barışığın və əməkdaşlığın onların çox böyük potensialının qonşularının və dünya xalqlarının firavanlığı üçün sərbəstləşdirməyə imkan verəcəyini dərk edərək;

BMT Nizamnaməsinin müddəalarına, ATƏT-in əsas prinsiplərinə və qərarlarına, beynəlxalq hüququn hamılıqla tanınmış normalarına və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin tamamilə həyata keçirilməsinə sadiq qalaraq;

ATƏT üzvü olan dövlətlərin münaqişənin dincliklə nizama salınmasında səylərini gücləndirmək və ATƏT-ə kömək etmək barədə 1994-cü ildə Budapeşt sammitində öhdəlik götürdüklərini [195-196] və onların Minsk Konfransının həmsədrlərinə operativ danışıqlar aparmağa dair tapşırıq verdiklərini və silahlı münaqişənin dayandırılması haqqında tərəflər arasında saziş əldə edildikdən sonra BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinin qəbul olunacağı təqdirdə sülhün qorunması üzrə ATƏT-ə çoxmilli qüvvələr verməyə siyasi cəhətdən hazır olduqları barədə bəyanatını xatırladaraq;

və Dağlıq Qarabağın qəti statusunu müəyyənləşdirəcək hərtərəfli nizamasalmaya təxirə salınmadan nail olmaq məqsədilə sülh prosesini vicdanla davam etdirmək əzmində olaraq aşağıdakılar barədə öz üzərilərinə öhdəliklər götürürlər:

I. Tərəflər öz aralarındakı mübahisələrin həlli üçün zor işlətməklə hədələməkdən və ya zor işlətməkdən imtina edir və çəkinirlər. Onlar bütün belə mübahisələri, o cümlədən bu sazişin həyata keçirilməsi ilə əlaqədar yarana biləcək mübahisələri dinc vasitələrlə, ilk növbədə danışıqlar yolu ilə, o cümlədən ATƏT-in Minsk prosesi çərçivəsində danışıqlar yolu ilə həll edirlər.

II. Tərəflər öz silahlı qüvvələrini aşağıdakı müddəalara uyğun olaraq və 1-ci əlavədə müfəssəl şərh edildiyi kimi çıxarırlar:

A) birinci mərhələdə qüvvələr Dağlıq Qarabağdan şərqə və cənuba doğru uzanan indiki təmas xətti boyunca 1-ci əlavədə göstərilmiş xətlərə və bu əlavədə olan cədvələ müvafiq surətdə, ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış müvəqqəti bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsi zamanı təhlükəsizliyi təmin etməyə imkan yaradılması məqsədilə Yüksək Səviyyədə Planlaşdırma Qrupunun (YSPQ) tövsiyələri lazımınca nəzərə alınmaqla çəkilirlər.

B) ikinci mərhələdə qüvvələr eyni vaxtda və 1-ci əlavədə göstərilmiş cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılır:

(1) Ermənistan Respublikasının sərhədləri xaricində yerləşdirilmiş Ermənistanın hər hansı qüvvələri bu sərhədlərin hüdudları daxilinə aparılır.

(2) Dağlıq Qarabağın qüvvələri Dağlıq Qarabağ Muxtar Vilayətinin 1988-ci il hüdudları daxilinə aparılır, Laçın rayonu istisna olmaqla. [196-197]

(3) Azərbaycanın qüvvələri YSPQ-nin tövsiyələrinə əsasən 1-ci əlavədə göstərilmiş xətdən kənara çıxarılır və Ermənistanın hər hansı ərazisindən çıxarılır.

(4) Ağır silahlar YSPQ-nin tövsiyələrinə əsasən ATƏT-in sülhümüdafiə qüvvələrinin müşahidəsi altında, 1-ci əlavədə şərh edilmiş şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməklə bu əlavədə göstərilmiş yerlərə aparılır.

III. Qüvvələrin bu cür çıxarılması və yerdəyişməsinin aid olduğu ərazi, 2-ci əlavədə müfəssəl şərh olunduğu kimi, bufer zonasını və ayırıcı zonanı əmələ gətirir:

A. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası DQMV-nin 1988-ci il hüdudları, Laçın rayonunun şimal və cənub hüdudları boyunca yerləşir. Bufer zonasında əhali məskunlaşdırılmır və ATƏT-in sülhümüdafiə əməliyyatının elementləri istisna olmaqla, tamamilə silahsızlaşdırılır.

B. 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi. daimi qarışıq komissiya ilə əməkdaşlıq şəraitində fəaliyyət üçün icazə verilmiş qüvvələr, o cümlədən aşağıda göstərilən qüvvələr istisna olmaqla ayırıcı zona silahsızlaşdırılır:

(1) - sülhümüdafıə əməliyyatının elementləri;

(2) - sərhəddə keşik çəkmək və minalardan təmizləmə üçün bölmələr;

(3) - say tərkibi və icazə verilmiş silahı 2-ci əlavədə müəyyən edilmiş mülki polis.

C. 2-ci əlavədə şərh edildiyi kimi, bufer zonasında və ayırıcı zonada uçuşsuz zona yaradılır, ATƏT-in sülhümüdafıə əməliyyatının nəzarəti altında tərəflər bu zonada hərbi uçuşlar keçirilməsinə yol vermirlər.

D. II maddəyə uyğun olaraq qüvvələr çıxarıldıqdan sonra Dağlıq Qarabağın hakimiyyət orqanlarının nəzarət etdikləri bütün yerlərdə təhlükəsizlik Dağlıq Qarabağın mövcud hərbi strukturları tərəfindən təmin olunur.

IV. ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarlarına uyğun olaraq tərəflər ATƏT-in çoxmilli sülhümüdafıə əməliyyatını (SMƏ) dəvət edir və onun yerləşdirilməsinə kömək göstərirlər, o, 7-ci maddədə [197-198] müəyyən olunduğu kimi, daimi qarışıq komissiya və Ermənistan-Azərbaycan hökumətlərarası komissiyası ilə əməkdaşlıqda fəaliyyət göstərəcəkdir.

SMƏ qüvvələrin və ağır silahların çıxarılmasına. hərbi uçuşlara yol verilməməsinə, silahsızlaşdırma rejiminin qorunub saxlanmasına və 2-ci əlavədə şərh olunduğu kimi, Ermənistan-Azərbaycan sərhədində vəziyyətə nəzarət edir. Tərəflər bu məqsədlərdən ötrü BMT Təhlükəsizlik Şurasını bir ildən az olmayaraq ilkin dövr üçün müvafiq qətnamə qəbul etməyə və lazım gəldikdə ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə həmin qətnamənin müddəalarını bərpa etməyə çağırırlar. Tərəflər razıdırlar ki, çoxmilli sülhümüdafıə əməliyyatının ümumi müddəti regiondakı vəziyyətdən və münaqişənin hərtərəfli həllinin sürətindən asılı olaraq minimum zərurət həddində olacaqdır. Tərəflər bu sazişin həyata keçirilməsini təmin etmək və sülhümüdafıə əməliyyatının hər hansı şəkildə pozulmasının və ya dayandırılmasının qarşısını almaq üçün SMƏ ilə tam əməkdaşlıq edirlər.

V. Tərəflər, 2-ci əlavədə şərh olunduğu kimi, köçkün şəxslərin ayırıcı zonadakı öz əvvəlki daimi yaşayış yerlərinə təhlükəsiz və könüllü qayıtmasına kömək edirlər. Bu zonada silahsızlaşdırma rejiminə əməl olunacağına bütün tərəflərdə inam yaratmaq üçün daimi qarışıq komissiya ilə əməkdaşlıq şəraitində SMƏ qayıdan əhalinin təhlükəsizliyinə göz qoyur. Tərəflər bu sazişlə və ya hərtərəfli nizamasalma ilə əhatə olunmuş və Ermənistanla Azərbaycan arasında münaqişə və gərginlik nəticəsində 1987-ci ildən sonra köçmüş şəxslərdən savayı, qalan digər bütün şəxslərin tezliklə təhlükəsiz şəraitdə və könüllü şəkildə qayıtmasının həyata keçirilməsi haqqında danışıqlar aparırlar.

VI. Qüvvələrin çıxarılması ilə eyni zamanda tərəflər yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarət münasibətlərinin və digər münasibətlərin bərpası məqsədilə bütün tədbirləri, o cümlədən buna mümkün qədər qısa müddətdə nail olmaq üçün bütün lazımi işləri 3-cü əlavədə şərh edilmiş cədvələ və konkret müddəalara müvafiq surətdə dərhal həyata keçirirlər. Tərəflər, etnik azlıqlar da daxil olmaqla, hamının bu əlaqələrdən istifadə etməsinə təminat verir, bu azlıqların regionun digər yerlərindəki öz etnik qrupları ilə ünsiyyətdə olmasını təmin edirlər. [198-199] Tərəflərdən hər biri bütün blokadaları aradan qaldırmağı və yüklərin, adamların bütün digər tərəflərə maneəsiz daşınmasını təmin etməyi öhdələrinə götürürlər. Tərəflər öz aralarında sərbəst və təhlükəsiz dəmiryolu əlaqəsinə təminat verirlər.

VII. Tərəflər münaqişə ilə əlaqədar tutulub saxlanılan bütün şəxslərin tezliklə və təhlükəsiz qayıtmasının, itkin düşmüş şəxslərin taleyinin araşdırılması və bütün cənazələrin qalıqlarının qaytarılmasının, yenidənqurma məqsədləri ilə ayrı-seçkilik qoyulmadan humanitar yardımın və köməyin Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin qaçqınların işləri üzrə ali komissarının və digər beynəlxalq təşkilatların nəzarət etdikləri ərazidən münaqişə zamanı zərər çəkmiş rayonlara çatdırılmasının təmin olunması üçün onlarla tam əməkdaşlıq edirlər. Tərəflər etimadı möhkəmlətmək tədbirlərinin həyata keçirilməsində Daimi Qarışıq Komissiya (DQK) vasitəsilə ATƏT SMƏ ilə əməkdaşlıq edirlər.

VIII. Tərəflər bu sazişin Azərbaycana və Dağlıq Qarabağa aid problemlər barəsində müddəalarının həyata keçirilməsinə nəzarət etmək üçün dərhal Daimi Qarışıq Komissiya yaradırlar. DQK-nın sədri ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsidir, sədrin bir müavini Azərbaycandan, bir müavini isə Dağlıq Qarabağdandır. DQK-nın əsas vəzifəsi sazişin həyata keçirilməsinə nəzarət etməkdən ibarətdir; ATƏT-dən olan sədrin vəzifələrinə fikir ayrılıqları zamanı vasitəçilik etmək və təbii fəlakətlər kimi fövqəladə hallarda tədbirlər görülməsinə sanksiya verilməsi də daxildir. DQK-nın hərbi, iqtisadi, humanitar və mədəni yardımçı komissiyaları və rabitə üzrə yardımçı komissiyası olur. DQK-nın strukturu, funksiyaların və ona aid başqa təfərrüatları 4-cü əlavədə şərh edilmişdir.

IX. Tərəflər Ermənistanla Azərbaycan arasında sərhəd toqquşmalarının qarşısının alınmasına kömək edilməsi, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqələr qurulması

və yolların, dəmir yollarının, rabitənin, boru kəmərlərinin açılmasına, ticarət münasibətlərinin və başqa münasibətlərin bərpası tədbirlərinə nəzarət olunması və bu tədbirlərə kömək göstərilməsi üçün dərhal Ermənistan-Azərbaycan Hökumətlərarası Komissiyası (EAHK) yaradırlar. [199-200] EAHK-nın iki həmsədri olur: biri Ermənistandan, biri Azərbaycandan. Komissiyaya ATƏT-in fəaliyyətdə olan sədrinin təyin etdiyi nümayəndə daxildir. EAHK-ın strukturu, funksiyaları və ona aid digər təfərrüatları 5-ci əlavədə şərh olunmuşdur. Azərbaycan Respublikası və Ermənistan Respublikası bir-birlərinin paytaxtlarında əlaqə büroları yaradırlar.

X. Azərbaycan Respublikası və Ermənistan Respublikası hərbi tarazlıq və Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə tam əməl edilməsi də daxil olmaqla, regionda təhlükəsizliyin artmasını təmin etmək məqsədilə müvafiq beynəlxalq və regional forumlarda ikitərəfli və çoxtərəfli danışıqlara qoşulurlar.

XI. Bu müqavilədə üç tərəf, beləliklə, münaqişənin hərbi cəhətinə son qoyaraq Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini və Laçın, Şuşa və Şaumyan rayonlarının problemlərinin həllini əhatə edən siyasi cəhət də daxil olmaqla, münaqişənin bütün başqa cəhətlərinin hərtərəfli həllinə təxirə salınmadan nail olmaq üçün Minsk Konfransı həmsədrlərinin və müvafiq surətdə ATƏT-in fəaliyyətdə olan sədrinin dəvət etdiyi digər tərəflərin köməyi ilə danışıqları vicdanla davam etdirməyə razılaşırlar; bu danışıqlar yolu ilə nizamasalmaya nail olduqdan və yuxanda göstərilən üç tərəf onu imzaladıqdan sonra belə nizamasalma mümkün qədər tezliklə çağırılan Minsk Konfransında beynəlxalq birlik tərəfindən tanınmalıdır.

XII. Tərəflərdən hər biri digər tərəflərin və onların əhalisinin təhlükəsizliyinə tamamilə hörmət edir. Tərəflər öz xalqları arasında ticarətə və normal qarşılıqlı fəaliyyətə kömək göstərərək onların arasında mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyi və bu sazişi, yaxud xoş münasibətləri sarsıda biləcək bəyanatlardan və ya hərəkətlərdən çəkinməyi öhdələrinə götürürlər.

XIII. Sülhün qorunması və qoşunların çıxarılmasına nəzarət barədə yuxarıda şərh edilmiş konkret müddəalara əlavə olaraq və ATƏT-in müvafiq prinsiplərini və öhdəliklərini, o cümlədən 1992-ci ilin Helsinki sənədində və 1994-cü ilin Budapeşt sənədində əksini tapmış prinsipləri və öhdəlikləri xatırladaraq, ATƏT bu sazişin bütün cəhətlərinin tamamilə həyata keçirilməsinə müvafiq mexanizmlər vasitəsilə nəzarət edir [200-201] və sazişin şərtlərinin pozulmasının qarşısını almaq və belə hallara mane olmaq üçün həmin prinsiplərə və qərarlara uyğun olaraq müvafiq tədbirlər görür. Bu sazişin şahidləri ATƏT-in Daimi Şurası və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası vasitəsilə fəaliyyət göstərərək onun tam şəkildə həyata keçirilməsinə kömək edirlər. Bu saziş ciddi şəkildə pozulduğu təqdirdə onlar zəruri tədbirlər barəsində öz aralarında məsləhətləşir, ATƏT-in fəaliyyətdə olan sədrinə, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Baş katibinə dərhal məlumat verir və ATƏT-in Daimi Şurasından, yaxud BMT-nin Təhlükəsizlik Şurasından bununla əlaqədar müvafiq hərəkətləri nəzərdən keçirməyi xahiş edirlər.

XIV. Tərəflər Dağlıq Qarabağın onun əhalisinin və qayıdan köçkün şəxslərin təhlükəsizliyinə təminat da daxil olmaqla, bu sazişin müddəalarına əməl olunmasını təmin etmək və bu sazişdən irəli gələn bütün öhdəliklərin yerinə yetirilməsi üçün lazımi tədbirlər görmək barədə öz üzərilərinə qarşılıqlı öhdəliklər götürürlər.

XV. Bu saziş imzalandıqdan və ratifikasiya olunduqdan sonra qüvvəyə minir və hərtərəfli nizamasalma barədə XI bənddə xatırladılan istisnalarla birlikdə qüvvədə qalır. Bu saziş bütün tərəflərin razılığı ilə dəyişdirilə, ona əlavələr edilə və o, dayandırıla bilər. [201]

***2 dekabr 1997-ci il***

**Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında**

Dağlıq Qarabağ münaqişəsini, dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn normalarına və prinsiplərinə müvafiq surətdə həll etmək əzmində olan Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ aşağıdakılar barədə razılığa gəlirlər:

***I. Dağlıq Qarabağın statusu haqqında saziş***

Tərəflər Dağlıq Qarabağın statusu haqqında saziş imzalayacaqlar və o, aşağıdakı müddəalardan ibarət olacaqdır:

Dağlıq Qarabağ respublika formasında dövlət və ərazi qurumudur və Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində onunla ümumi dövlət yaradır.

Azərbaycan və Dağlıq Qarabağ müvafiq dövlət hakimiyyəti orqanları arasında səlahiyyətlərin həyata keçirilməsi və qarşılıqlı surətdə həvalə olunması predmetlərinin hüdudlarını müəyyənləşdirmək haqqında saziş imzalayacaqlar və onun konstitusiya qanunu qüvvəsi olacaqdır.

Azərbaycan və Dağlıq Qarabağ birgə səlahiyyətlər sahəsinə aid siyasəti və fəaliyyəti müəyyənləşdirmək üçün prezidentlərin, baş nazirlərin, parlamentlərin sədrlərinin nümayəndələrinin daxil olacağı birgə komitə yaradırlar.

Əlaqə saxlamaq və birgə tədbirləri əlaqələndirmək üçün Bakıda və Stepanakertdə müvafiq olaraq Dağlıq Qarabağın və Azərbaycanın nümayəndəlikləri yaradılır.

Dağlıq Qarabağ xaricdə müvafiq nümayəndəliyi olmaq şərtilə iqtisadiyyat, ticarət, elm, mədəniyyət, idman və humanitar sahələrdə əcnəbi dövlətlərlə, bu problemlərlə birbaşa xarici əlaqələr saxlamaq hüququna malik olacaqdır. Dağlıq Qarabağdakı siyasi partiyaların və ictimai təşkilatların xarici dövlətlərin siyasi partiyaları və ictimai təşkilatları ilə əlaqələr yaratmaq hüququ olacaqdır. [202-203]

Dağlıq Qarabağ özünün mənafeləri ilə bağlı məsələlər üzrə Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində iştirak edir. Belə məsələlər haqqında qərarlar iki tərəfin razılığı olmadan qəbul edilə bilməz.

Dağlıq Qarabağ hökuməti özünün xüsusi maraqları olan xarici dövlətlərdəki Azərbaycan səfirliklərində və ya konsul idarələrində öz nümayəndələrinə malik ola, habelə beynəlxalq danışıqlarda - əgər bunlar Dağlıq Qarabağın mənafelərinə aiddirsə - iştirak etmək üçün Azərbaycan nümayəndə heyətlərinin tərkibində öz ekspertlərini göndərə bilər.

Dağlıq Qarabağın sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərinə uyğun olacaqdır. Onların mümkün olan dəqiqləşdirilməsi və ya dəyişdirilməsi Azərbaycanla Dağlıq Qarabağ arasında xüsusi qarşılıqlı razılaşmaların mövzusu ola bilər.

Azərbaycanla Dağlıq Qarabağ arasında sərhədlər bir-birinin silahsız vətəndaşlarının sərbəst hərəkəti üçün qarşılıqlı surətdə açıq olacaqdır. Gediş-gəliş və işgüzar əlaqələr zamanı onlardan gömrük rüsumu və ya başqa rüsumlar tutulmayacaqdır. Daimi yaşayış hüququ verilməsi müvafiq hökumətlərin səlahiyyətlərinə aid ediləcəkdir.

Azərbaycan və Dağlıq Qarabağ mübahisələrin nizama salınması üçün zor işlətməyəcək və ya zor işlətməklə hədələməyəcəklər.

Birgə komitə çərçivəsində aradan qaldırıla bilinməyən mübahisələr və ya fikir ayrılıqları yarandıqda tərəflər ATƏT-in fəaliyyətdə olan sədrinin məsləhətçi rəyini soruşa bilərlər və o, qəti qərar qəbul edilərkən nəzərə alınacaqdır.

Dağlıq Qarabağın statusuna Dağlıq Qarabağın statusu haqqında Minsk Konfransı tərəfindən bəyənilmiş sazişdə rəsmiləşdiriləcək aşağıdakı hüquqlar və imtiyazlar da daxildir.

1. Dağlıq Qarabağın referendumda Dağlıq Qarabağ xalqı tərəfindən qəbul edilmiş öz konstitusiyası olacaqdır. Bu konstitusiya Dağlıq Qarabağın statusu haqqında sazişin müddəalarını inkorporasiya edəcəkdir, müvafiq olaraq Azərbaycan bu sazişin inkorporasiyası üçün öz konstitusiyasına dəyişikliklər edəcəkdir. [203-204]

Bu sazişin və ya Dağlıq Qarabağ və Azərbaycan konstitusiyalarının onu inkorporasiya edən hissələrinin müddəaları hər üç tərəfin razılığı olmadan dəyişdirilə bilməz.

2. Dağlıq Qarabağ ərazisində Dağlıq Qarabağın konstitusiyası və qanunları işləyir. Əgər Azərbaycan qanunları, qaydaları və icra qərarları Dağlıq Qarabağın konstitusiyasına və qanunlarına zidd deyilsə, onun ərazisində qüvvəyə malikdir.

3. Dağlıq Qarabağın öz bayrağı, gerbi və himni olacaqdır.

4. Dağlıq Qarabağ öz konstitusiyasına müvafiq olaraq qanunvericilik, icra və məhkəmə orqanlarını müstəqil surətdə formalaşdırır.

5. Dağlıq Qarabağ vətəndaşlarının şəxsiyyət vəsiqəsi kimi üzərində xüsusi olaraq "Dağlıq Qarabağ" yazılmış Azərbaycan pasportu olacaqdır. Yalnız Dağlıq Qarabağ hökumətinin belə pasportları vermək hüququ olacaqdır.

Dağlıq Qarabağın erməni mənşəli vətəndaşları Ermənistana mühacirət edə və oraya daimi yaşamağa köçdükdə həmin ölkənin qanunlarına müvafiq olaraq Ermənistan vətəndaşlığı ala bilərlər.

6. Dağlıq Qarabağ əhalisinin Azərbaycan parlamentinə öz nümayəndələrini seçmək və Azərbaycan Prezidenti seçkilərində iştirak etmək hüququ var.

7. Dağlıq Qarabağ azad iqtisadi zona olacaq. Azərbaycan pul nişanları ilə yanaşı, işlənən öz pul nişanlarını buraxmaq hüququna, habelə öz markalarını buraxmaq hüququna malik olacaqdır.

8. Dağlıq Qarabağın Ermənistanla və Azərbaycanla azad və maneəsiz nəqliyyat və rabitə əlaqəsi saxlamaq hüququ olacaqdır.

9. Dağlıq Qarabağın könüllülük əsasında formalaşdırılan milli qvardiya (təhlükəsizlik qüvvələri) və polis qüvvələri olacaqdır. Bu qüvvələr Azərbaycan hökumətinin razılığı olmadan Dağlıq Qarabağdan kənarda fəaliyyət göstərə bilməz.

10. Azərbaycanın ordusu, təhlükəsizlik qüvvələrinin və polisinin Dağlıq Qarabağın hakimiyyət orqanlarının razılığı olmadan Dağlıq Qarabağın ərazisinə daxil olmaq hüququ olmayacaqdır. [204-205]

11. Erməni dili Dağlıq Qarabağın əsas rəsmi dili, Azərbaycan dili isə ikinci rəsmi dilidir. Onun vətəndaşları bütün rəsmi və qeyri-rəsmi hallarda digər doğma dillərdən də istifadə edə bilərlər.

12. Dağlıq Qarabağın büdcəsi öz mənbələrindən alınan vəsaitdən ibarət olacaqdır. Dağlıq Qarabağ hökuməti Azərbaycan şirkətlərini və xarici şirkətləri, şəxsləri kapital qoymağa həvəsləndirəcək, buna təminat verəcəkdir.

***II. Laçın dəhlizi barədə***

Azərbaycanın və Dağlıq Qarabağın razılığı ilə əgər Laçın rayonunun xüsusi rejiminə dair digər qərarlar qəbul edilməsə, Dağlıq Qarabağla Ermənistan arasında maneəsiz əlaqələri təmin etmək məqsədilə Dağlıq Qarabağın Laçın dəhlizindən istifadə etməsi məsələsi ayrıca razılaşmanın mövzusu olacaqdır. Laçın rayonu daim tam silahsızlaşdırılmış zona olaraq qalmalıdır.

***III. Şuşa şəhəri və Şaumyan şəhəri barədə***

Tərəflər razılaşırlar ki, bütün Azərbaycan qaçqınları Şuşa şəhərinə öz daimi yaşayış yerlərinə qayıda bilərlər. Onların təhlükəsizliyi Dağlıq Qarabağın müvafiq hakimiyyət orqanları tərəfindən təmin ediləcəkdir. Onlar Dağlıq Qarabağın bütün vətəndaşları ilə eyni hüquqa, o cümlədən siyasi partiyalar yaratmaq, bütün səviyyələrdə seçkilərdə iştirak etmək, dövlət qanunvericilik orqanlarına və yerli özünüidarə orqanlarına seçilmək, dövlət qulluğuna, o cümlədən hüquq-mühafizə orqanlarına işə qəbul edilmək hüququna malik olacaqlar.

Erməni qaçqınları da Şaumyan şəhərinə qayıdarkən eyni hüquqları alacaqlar.

Şuşa şəhərinin və Şaumyan şəhərinin sakinləri yollardan, Azərbaycanın və Dağlıq Qarabağın qalan yerləri ilə rabitədən və digər əlaqələrdən heç bir məhdudiyyət olmadan istifadə edə biləcəklər.

Dağlıq Qarabağın və Azərbaycanın hakimiyyət orqanları müvafiq olaraq Şuşa və Şaumyan şəhərlərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun nümayəndəliklərinin yerləşdirilməsinə və fəaliyyətinə kömək göstərəcəklər. [205-206]

Dağlıq Qarabağın statusu haqqında sazişi üç tərəf imzalayacaq və o, Minsk Konfransı tərəfindən bəyənildikdən sonra qüvvəyə minəcəkdir.

***IV. Silahlı münaqişənin dayandırılması haqqında saziş***

Tərəflər razılaşırlar ki, silahlı münaqişənin dayandırılması haqqında saziş aşağıdakı müddəaları əhatə edəcəkdir:

I. Tərəflər öz aralarındakı mübahisələrin həlli üçün zor işlətməklə hədələməkdən, yaxud zor işlətməkdən imtina edirlər. Onlar silahlı münaqişənin dayandırılması haqqında sazişin həyata keçirilməsi ilə əlaqədar meydana çıxa biləcək mübahisələr daxil olmaqla, bütün belə mübahisələri dinc vasitələrlə, ilk növbədə birbaşa danışıqlar yolu ilə, yaxud ATƏT-in Minsk prosesi çərçivəsində həll edirlər.

II. Tərəflər öz silahlı qüvvələrini aşağıdakı müddəalara müvafiq olaraq və 1-ci əlavədə ətraflı şərh edildiyi kimi çıxarırlar:

A. Birinci mərhələdə Dağlıq Qarabağdan şərq və cənubdakı indiki təmas xəttindəki qüvvələr 1-ci əlavədə göstərilmiş xətlərə və bu əlavədə olan cədvələ müvafiq sürətdə, ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış müvəqqəti bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsi zamanı təhlükəsizliyi təmin etməyə imkan yaradılması məqsədilə Yüksək Səviyyədə Planlaşdırma Qrupunun (YSPQ) tövsiyələri lazımınca nəzərə alınmaqla çəkilirlər.

B. İkinci mərhələdə qüvvələr eyni vaxtda və 1-ci əlavədə göstərilmiş cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılır:

(1) Ermənistan Respublikasının sərhədləri xaricində yerləşən Ermənistanın hər hansı qüvvələri bu sərhədlərin hüdudları daxilinə aparılır.

(2) Dağlıq Qarabağın qüvvələri Dağlıq Qarabağla Ermənistan arasında maneəsiz gediş-gəliş haqqında saziş əldə edilənədək Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) 1988-ci ildəki hüdudları daxilinə aparılır, Laçın rayonu istisna olmaqla. [206-207]

(3) Azərbaycanın qüvvələri YSPQ-nin tövsiyələrinə əsasən 1-ci əlavədə göstərilmiş xətdən kənara çıxarılır və Ermənistanın hər hansı ərazisindən çıxarılır.

(4) Ağır silahlar YSPQ-nin tövsiyələrinə əsasən, ATƏT-in sülhümüdafıə əməliyyatının nəzarəti altında, 1-ci əlavədə şərh olunmuş şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməklə bu əlavədə göstərilmiş yerlərə çıxarılır.

III. Qüvvələrin bu cür çıxarılması nəticəsində azad olunmuş ərazi aşağıdakı müddəalara müvafiq olaraq və 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, bufer zonası və ayırıcı zona təşkil edir:

A. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası DQMV-nin 1988-ci il hüdudları boyunca yerləşir. Əlavə razılaşma əldə edilərsə, o, Laçın rayonu hüdudları boyunca da keçə bilər. Bufer zonası məskunlaşdırılmır, ATƏT-in sülhümüdafıə əməliyyatının elementləri istisna olmaqla, tamamilə silahsızlaşdırılır.

B. 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, sülhümüdafıə əməliyyatının daimi qarışıq komissiyası ilə əməkdaşlıqda fəaliyyəti üçün icazə verilmiş, o cümlədən aşağıdakı qüvvələr istisna olmaqla, ayırıcı zona silahsızlaşdırılır;

(1) Sülhümüdafıə əməliyyatının elementləri.

(2) Azərbaycanın sərhəddə keşik çəkmək və minalardan təmizləmə üçün bölmələri.

(3) Azərbaycanın say tərkibi və icazə verilmiş silahı 2-ci əlavədə müəyyən edilmiş mülki polisi.

C. 2-ci əlavədə şərh edildiyi kimi, bufer zonasında və ayırıcı zonada ATƏT-in sülhümüdafiə əməliyyatının nəzarəti altında uçuşsuz zona yaradılır, tərəflər bu zonada hərbi uçuşlara yol vermirlər.

D. II maddəyə müvafiq olaraq qüvvələr çıxarıldıqdan sonra Dağlıq Qarabağın hakimiyyət orqanlarının nəzarət etdikləri bütün yerlərdə təhlükəsizlik Dağlıq Qarabağın mövcud təhlükəsizlik strukturları tərəfindən təmin olunur.

IV. ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarına uyğun olaraq tərəflər ATƏT-in çoxmilli sülhümüdafiə əməliyyatını dəvət edir [207-208] və onun yerləşdirilməsinə kömək göstərirlər, o, Daimi Qarışıq Komissiya və Ermənistan-Azərbaycan Hökumətlərarası Komissiyası ilə əməkdaşlıqda fəaliyyət göstərəcəkdir. SMƏ qüvvələrin və ağır silahların çıxarılmasına, hərbi uçuşlara yol verilməməsinə, silahsızlaşdırma rejiminin qorunub saxlanmasına və 2-ci əlavədə şərh edildiyi kimi, Ermənistan-Azərbaycan sərhədində vəziyyətə nəzarət edir.

Sülhümüdafiə əməliyyatı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə əsasən ilkin mərhələdə bir ildən çox olmayan müddətə təsis edilir və zərurət olduqda ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə uzadılır. Tərəflər bununla razıdırlar ki, çoxmilli sülhümüdafiə əməliyyatının ümumi müddəti regiondakı vəziyyətdən və münaqişənin hərtərəfli nizama salınmasının həyata keçirilməsi sürətindən asılı olaraq minimum zərurət həddində olacaqdır. Tərəflər bu sazişin həyata keçirilməsini təmin etmək və sülhümüdafiə əməliyyatının hər hansı şəkildə pozulmasının, yaxud dayandırılmasının qarşısını almaq üçün SMƏ ilə tam əməkdaşlıq edirlər.

V. Tərəflər, 2-ci əlavədə göstərildiyi kimi, qaçqınların və köçkünlərin təhlükəsiz və könüllü surətdə ayırıcı zonadakı daimi yaşayış yerlərinə qayıtmasına kömək edirlər. Bu zonada silahsızlaşdırma rejiminə əməl olunacağına bütün tərəflərdə inam yaratmağa kömək etmək məqsədilə SMƏ qayıdan əhalinin təhlükəsizliyinə daimi qarışıq komissiya ilə əməkdaşlıqda nəzarət edir. Tərəflər bu sazişlə əhatə olunanlardan savayı, Ermənistanla Azərbaycan arasında 1987-ci ildən sonra baş vermiş münaqişə və gərginlik nəticəsində qaçqın, yaxud köçkün düşmüş bütün digər şəxslərin təhlükəsiz şəraitdə və könüllü surətdə qayıtmasının həyata keçirilməsi haqqında danışıqlar aparırlar.

VI. Qüvvələrin çıxarılması ilə eyni vaxtda tərəflər yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarətin və digər münasibətlərin bərpası məqsədlə bütün tədbirləri buna mümkün qədər qısa müddətdə nail olmaq üçün bütün lazımi işləri 3-cü əlavədə şərh olunmuş cədvələ və konkret müddəalara müvafiq olaraq dərhal həyata keçirirlər. Tərəflər etnik azlıqlar da daxil olmaqla, bu əlaqələrdən hamının istifadə etməsinə təminat yaradacaq, onların regionun başqa yerlərindəki [208-209] öz etnik icmaları ilə maneəsiz ünsiyyətini təmin edəcəklər. Tərəflərdən hər biri bütün blokadaları aradan götürməyi və yüklərin, insanların bütün digər tərəflərə maneəsiz olaraq çatdırılmasını təmin etməyi öhdələrinə götürürlər. Tərəflər öz aralarında sərbəst və təhlükəsiz dəmir yolu əlaqəsini təmin edəcəklər.

VII. Tərəflər münaqişə ilə bağlı tutulub saxlanılan bütün şəxslərin tezliklə və təhlükəsiz qayıtmasını təmin etmək, itkin düşənlərin taleyini araşdırmaq, bütün cənazələrin qaytarılmasını və humanitar yardımın bərpa məqsədli yardımın münaqişənin gedişində zərər çəkmiş rayonlara özlərinin nəzarət etdikləri ərazi vasitəsilə ayrı-seçkilik qoyulmadan daşınmasını təmin etmək üçün Beynəlxalq Qırmızı Xaç Komitəsi, BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığı və digər beynəlxalq təşkilatlarla tam əməkdaşlıq edirlər. Tərəflər etimadı

möhkəmlətmək tədbirlərinin həyata keçirilməsində Daimi Qarışıq Komissiya vasitəsilə ATƏT SMƏ ilə əməkdaşlıq edirlər.

VIII. Tərəflər bu sazişin Azərbaycana və Dağlıq Qarabağa aid problemlərə dair müddəalarının həyata keçirilməsinə nəzarət etmək üçün dərhal Daimi Qarışıq Komissiya yaradırlar. DQK-nın sədri ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsidir, sədrin bir müavini Azərbaycandan və bir müavini Dağlıq Qarabağdandır. DQK-nın əsas vəzifəsi sazişin həyata keçirilməsinə nəzarət etməkdən ibarətdir; ATƏT-dən olan sədrin vəzifələrinə fikir ayrılıqları zamanı vasitəçilik etmək və təbii fəlakətlər kimi fövqəladə hallarda tədbirlər görülməsinə sanksiyalar vermək də daxildir. DQK-nın hərbi, iqtisadi, humanitar və mədəni yardımçı komissiyaları və rabitə üzrə yardımçı komissiyası var. DQK-nın strukturu, funksiyaları və ona aid digər təfərrüatları 4-cü əlavədə şərh olunmuşdur,

IX. Tərəflər Ermənistanla Azərbaycan arasında sərhəd toqquşmalarının qarşısının alınmasına, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqələrin həyata keçirilməsinə yardım göstərmək və yolların, dəmir yollarının, rabitənin, boru kəmərlərinin açılmasına, ticarətin və digər münasibətlərin bərpasına dair tədbirlərə nəzarət və yardım etmək üçün dərhal Ermənistan-Azərbaycan Hökumətlərarası Komissiyası yaradırlar. EAHK-ın iki həmsədri var: [209-210] biri Ermənistandan, biri Azərbaycandan. Komissiyaya ATƏT-in fəaliyyətdə olan sədrinin təyin etdiyi nümayəndə daxildir. EAHK-ın strukturu, funksiyaları və ona aid digər təlimatlar 5-ci əlavədə şərh olunmuşdur.

X Azərbaycan Respublikası və Ermənistan Respublikası hərbi tarazlıq və Avropada adi silahlar haqqında müqaviləyə tam əməl edilməsi də daxil olmaqla, regionda təhlükəsizliyin artmasını təmin etmək məqsədilə müvafiq beynəlxalq və regional forumlarda ikitərəfli və çoxtərəfli danışıqlar aparırlar.

XI. Tərəflərdən hər biri digər tərəfin və onun əhalisinin təhlükəsizliyinə hörmət edir. Tərəflər ticarətə və normal qarşılıqlı fəaliyyətə kömək etməklə öz xalqları arasında mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyi öhdələrinə götürür və bu sazişi, yaxud mehriban münasibətləri poza biləcək bəyanatlardan və ya hərəkətlərdən çəkinirlər.

XII. Sülhün qorunmasına və qoşunların çıxarılmasına nəzarət barədə yuxarıda şərh edilmiş konkret müddəalara əlavə olaraq və ATƏT-in müvafiq prinsiplərini və öhdəliklərini, o cümlədən 1992-ci ilin Helsinki sənədində və 1994-cü ilin Budapeşt sənədində əksini tapmış prinsipləri və öhdəlikləri xatırlayaraq, ATƏT bu sazişin bütün cəhətlərinin tam həyata keçirilməsinə müvafiq mexanizmlər vasitəsilə nəzarət edir və sazişin şərtlərinin pozulmasının qarşısını almaq və belə hallara mane olmaq üçün həmin prinsiplərə və qərarlara uyğun olaraq müvafiq tədbirlər görür.

XIII. Silahlı münaqişənin dayandırılması haqqında sazişi üç tərəf imzalayacaq və o, Minsk Konfransı tərəfindən bəyənildikdən və üç tərəfin parlamentlərində ratifikasiya olunduqdan sonra qüvvəyə minəcəkdir.

XIV. Sazişlər imzalandıqdan və onlar Minsk Konfransı tərəfindən bəyənildikdən sonra Azərbaycan Respublikası və Ermənistan Respublikası səfirlər səviyyəsində daimi diplomatik missiyalarla tam diplomatik münasibətlər yaradırlar.

***V. Təminatlar haqqında***

1. Tərəflər Dağlıq Qarabağın, onun əhalisinin və əvvəlki yaşayış yerlərinə qayıdan qaçqın və köçkünlərin təhlükəsizliyinin təminatı daxil olmaqla, [210-211] yuxarıda göstərilən sazişlərə əməl olunmasını təmin etmək üçün öz üzərilərinə qarşılıqlı öhdəliklər götürürlər.
2. BMT-nin Təhlükəsizlik Şurası hərtərəfli sazişin həyata keçirilməsini izləyəcəkdir.
3. Minsk Konfransının həmsədrləri Dağlıq Qarabağın statusu haqqında sazişi və silahlı münaqişənin dayandırılması haqqında sazişi şahid kimi imzalaya bilərlər. Rusiya, ABŞ və Fransa prezidentləri sazişlərin həyata keçirilməsinin gedişinə ciddi nəzarət etmək və bu sazişin yerinə yetirilməsi üçün lazımi tədbirlər görmək məqsədilə üç ölkənin birgə fəaliyyət göstərmək niyyətini təsdiqləyirlər. ATƏT və ya BMT-nin Təhlükəsizlik Şurası, lazım gələrsə, BMT-nin Nizamnaməsinə uyğun olaraq diplomatik, iqtisadi, yaxud əlacsız qaldıqda hərbi xarakterli tədbirlər görə bilərlər. [211]

***7 noyabr 1998-ci il***

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR


l. "Qəsd".Bakı, 1995.
2. "Heydər Əliyev dünyamn gözü ilə". Bakı, 2003.
3. R.Mehdiyev. "Lissabon sammiti - 96". Bakı, 1997.
4. Ə.Həsənov. "Azərbaycan və ATƏT. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi Ümumavropa təhlükəsizliyi fonunda". Bakı, 1997.
5. Z.Bünyadov. "Qırmızı terror". Bakı, 1993.
6. "Prezident 93-97" Bakı, 1998.
7. E.Abdullayev. "Böyük yolun davamçısı". Bakı, 2004.
8. E.Abdullayev. "Azərbaycan demokratik inkişaf yolunda". Bakı, 2004.
9. N.Axundov, M.Qasımov. "Azərbaycan və beynəlxalq parlament təşkilatları". Bakı, 1996.
10. Y.Mahmudov. "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti". Bakı, 2002.
11. M.Qasımov. "Azərbaycanın xarici siyasəti". Bakı, 1997.
12. E.Əhmədov. "Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar". Bakı, 1998.
13. H.Rəcəbli, V.İbayev. "Avropa beynəlxalq təşkilatları". Bakı, 1999.
14. İ.Hüseynova. "Müstəqil Azərbaycan dövlətinin qurucusu". Bakı, 2004.
15. Q.Əliyev. "Heydər Əliyev və milli mentalitet fəlsəfəsi". Bakı, 2003.
16. M.Исмаилов "События вокруг НКАО в кривом зеркале фальсификаторов". Bakı, 1989.
17. V.Arzumanlı. "Tarix siyasətin, siyasət tarixin dili ilə". Bakı, 1999.
18. "Avanqard". Bakı, 2003.
19. "Strateq". Bakı, 2003.
20. A.İsgəndərov "1918-ci il mart qırğınının tarixşünaslığı". Bakı, 1997.
21. A.Səmədov, A.İsayev. "Azərbaycanın qurtuluş tarixi". Bakı, 2002.
22. "Həyat" qəzeti, 28 avqust 1992.
23. "Xalq qəzeti", 21 fevral 2001.
24. "Azərbaycan" qəzeti, 24 tevral 2001.
25. "Azərbaycan" qəzeti, 27 fevral 2001.
26. "Xalq qəzeti", 26 aprel 2001.
27. "Azərbaycan" qəzeti, 28 aprel 2001.
28. "Azərbaycan" qəzeti, 28 iyun 2001.
29. "Respublika" qəzeti, 29 iyun 2001.
30. "Respublika" qəzeti, 25 sentyabr 2001.
31. "Azərbaycan" qəzeti, 26 sentyabr 2001.
32. "Xalq qəzeti", 26 iyun 2002.